ÀÍÀÐ ÈÑÝßÍÄßÐLİ

# ÀÇßÐÁÀÉÚÀÍ ÙßÃÈÃßÒËßÐÈ
## 1917-1920

«Åëì âÿ òÿùñèë»
Áàêû - 2012



*Rəyçi*
*və Ön sözün müəllifi:* **Castin Makkarti**
***ABŞ, Luisvil Universitetinin***
***tarix üzrə professoru***

**Anar İsgəndərli. Azərbaycan həqiqətləri**: 1917-1920 .
**Bakı**, **«Elm və təhsil»**, 2012, 228 **səh. (+16 səh. şəkil)**

Kitabda ermənilərin Cənubi Qafqazda məskunlaşması, onların Osmanlı imperiyasının tərkibində fəaliyyəti, Xüsusi Zaqafqaziya Komitəsi, Zaqafqaziya Komissarlığı, Zaqafqaziya Seymi, 1918-1920-ci illərdə erməni hərbi birləşmələri tərəfindən Bakı, Şamaxı, Quba, Lənkəran, Zəngəzur, İrəvan, Urmiya, Maku və Xoyda türk-müsəlman əhalisinə qarşı həyata keçirilən soyqırımlar, Azərbaycan Xalq Cümhuriyyətinin Tiflis dövrü, Gəncə dövrü, Qafqaz-İslam Ordusunun Azərbaycana xilaskarlıq yürüşü, Bakı Xalq Komissarları Sovetinin antiazərbaycan siyasəti, ingilis qüvvələrinin Bakıya daxil olması, Azərbaycan parlamentinin təşkili, AXC-nin daxili və xarici siyasəti, Azərbaycan nümayəndə heyətinin Paris Sülh Konfransında iştirakı, AXC-nin Sovet Rusiyası tərəfindən işğalı mövcud arxiv sənədləri və qərb müəlliflərinin əsərləri əsasında tədqiq edilmişdir.

**Tarix elmləri doktoru, professor Anar İsgəndərlinin bu əsəri (Realites of Azerbaijan: 1917-1920) 2011-ci ildə ABŞ-da ingilis dilində nəşr olunmuşdur.**

ÛÑÁÍ 978-9952-8176-0-7

© **«Elm və təhsil»**, 2012

## M Ü N D Ə R İ C A T


ÖN SÖZ...............................................................
GİRİŞ..........................................................................5

I FƏSİL. TÜRKLƏR VƏ ERMƏNİLƏR.......................................10
Ermənilər Cənubi Qafqazda necə məskunlaşdılar………10
Ermənilər Osmanlı imperiyasının tərkibində……………..24
II FƏSİL. FEVRAL İNQİLABINDAN ZAQAFQAZİYA SEYMİNİN SÜQUTUNA QƏDƏR............................36
Xüsusi Zaqafqaziya Komitəsi və Zaqafqaziya Komissarlığı.....................................................................36
Zaqafqaziya Seymi..........................................................44
III FƏSİL. TÜRK-MÜSƏLMAN ƏHALİSİNƏ QARŞI HƏYATA KEÇİRİLƏN SOYQIRIMLAR.........53
Bakı qırğınları.................................................................57
Şamaxı qırğınları............................................................96
Quba qırğınları.............................................................104
Lənkəran qırğınları.......................................................113
Zəngəzur qırğınları.......................................................114
İrəvan qırğınları............................................................120
Urmiya, Maku və Xoy qırğınları..................................124
V FƏSİL. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ELAN OLUNMASI VƏ FƏALİYYƏTİ...........127
Azərbaycan Xalq Cümhuriyyətinin Tiflis dövrü...........127
Azərbaycan Xalq Cümhuriyyətinin Gəncə dövrü..........132
Qafqaz İslam Ordusunun təşkili və Azərbaycana xilaskarlıq yürüşü……………………………………..135
Bakı Xalq Komissarları Sovetinin antiazərbaycan siyasəti................................……………………..158
İngilis qüvvələrinin Bakıya daxil olması........................161
Azərbaycan parlamentinin təşkili..................................164





Milli Hökumətin daxili və xarici siyasəti.......................171
Azərbaycan nümayəndə heyəti Paris sülh konfransında...............................................................175
Azərbaycan Xalq Cümhuriyyətinin sovet Rusiyası tərəfindən işğalı.............................................180
NƏTİCƏ.........................................................................191
TƏDQİQATLA BAĞLI MƏNBƏ VƏ ƏDƏBİYYAT...................197

αβγ

## Ön söz

Cənubi Qafqazda türk-müsəlman əhalisinə qarşı həyata keçirilən qırğınlar az tədqiq olunmuş problemlərdəndir. Tarixçilərin bir qismi Rusiya işğallarının hərbi aspektinə toxunmuş, lakin region əhalisinin başına gətirilən müsibətlərdən bəhs etməmişlər. Baddlinin monumental "Rusiyanın Qafqazın fəthi" əsəri döyüşlərə və siyasi hadisələrə həsr olunmuşdur. Allen və Muratovun "Qafqazın döyüş meydanları" əsərində isə ermənilərin qırğın və köçürülməsindən bəhs edilir. Erməni tarixçilərinin bir neçə istisnasını çıxmaq şərti ilə türklərin qaçqın və qırğınlara məruz qalmaları probleminə toxunmamışlar. Ümumiləşdirilmiş tarix dərsliklərində də Azərbaycan türklərinə qarşı həyata keçirilən qırğınlardan və qaçqınlıq məsələlərindən danışılmır, hətta azərbaycanlıların bu ərazidə yaşamasından belə bəhs edilmir.

"Azərbaycan həqiqətləri: 1918-1920" kitabı bu bölgənin tarixinin obyektiv öyrənilməsində mühüm əhəmiyyət kəsb edir. Kitabın başlıca məziyyəti onun qərb, rus, türk və Azərbaycan dilli mənbələrə istinad etməsidir ki, bu mənbələrin də böyük bir qismi elmi dövriyyəyə ilk dəfə cəlb edilmişdir. Bu mənbələr tarixdə ermənilərin soyqırıma məruz qaldıqlarının əksini sübut edir. Tarixi baxımdan kitabın 3-cü fəsli mühüm əhəmiyyət kəsb edir. Bu fəsildə Azərbaycan türklərinin Azərbaycanda və Ermənistanda məruz qaldıqları qırğınlar 1918-1920-ci illərdə tərtib olunmuş Fövqəladə Təhqiqat Komissiyasının sənədləri əsasında tədqiq olunmuşdur. Bu fəsli həyəcansız oxumaq mümkün deyil.

Qırğına qırğınla cavab vermək heç bir xalqa uğur gətirməmişdir. Əlbəttə, qeyri-insani hadisələrin tədqiq olunması tarixi obyektiv dərk etmək üçün vacibdir. Bu sənədlər göstərir



ki, Azərbaycan xalqına qarşı həyata keçirilən qırğınlar bəşəriyyətin həmişə rastlaşmadığı dəhşətli faciələrdən biridir.

Ümid edirəm ki, "Azərbaycan həqiqətləri: 1917-1920" əsəri Azərbaycan türklərinin qırğınına həsr olunmuş sonuncu tədqiqat işi olmayacaq. Birinci dünya müharibəsi və erməni-azərbaycanlı münaqişəsinə həsr olunmuş bu tədqiqat işi obyektiv tarixin bərpası ücün mühüm bir mənbədir. XX əsrdə Azərbaycan türklərinə qarşı həyata keçirilən işgəncələri və qırğınları bilmədən bu dövrü obyektiv qiymətləndirmək mümkün deyil.

**Castin Makkarti,**
***ABŞ, Luisvil Universitetinin***
***tarix üzrə professoru***
***aprel, 2011***

## Giriş

Tarixən Cənubi Qafqazda məskunlaşan azərbaycanlılar qonşu xalqlarla xeyirxah münasibətləri ilə diqqəti cəlb etmişdir. E.ə.III minilliyin ortalarında Azərbaycanın kuti, turukki və lullubi tayfaları Şərq ölkələri ilə, o cümlədən qonşuları Mesopotamiya ilə ticarət əlaqələri yaratmışdılar. Akkad, Şumer şəhər dövlətləri ilə qurulan münasibətlər bu ərazidə yaşayan xalqların tarixində böyük iz buraxmışdır.

E.ə. IX əsrdə Azərbaycan ərazisində qədim Manna dövləti yarandı. Bu dövlət dünya tarixinə Azərbaycanın ən qədim dövlətlərindən biri kimi daxil olmuşdur. Bu dövlət mövcud olduğu dövrdə Assuriya və Urartunun işğalçı yürüşlərinə məruz qalsa da, tarixi mənbələrdə öz sərhədlərini qorumağa malik olan qüdrətli bir qurum kimi xarakterizə olunur. Qədim dövrün güclü dövlətlərindən sayılan Manna qonşuları Midiya, Assuriya və Urartudan fərqli olaraq heç bir qonşu dövlətin torpağına göz dikməmişdi. E.ə.VII əsrdə kimmer, skif və sak tayfalarının bu ərazidə məskunlaşması türkdilli tayfaların mövqeyini daha da möhkəmləndirdi.

E.ə. IV əsrin 20-ci illərində Makedoniyalı İskəndərin imperiyası dağıldıqdan sonra Azərbaycan ərazisində müstəqil Atropatena və Albaniya dövlətləri yarandı. Tarixin müəyyən məqamlarında bu dövlətlər Roma və Sasani işğallarına məruz qaldı. Bir tərəfdən ellinizm mədəniyyətindən bəhrələnən bu dövlətlər, digər tərəfdən işğalçı dövlətlərin hücumlarından qorunmaq üçün yollar axtarırdılar. Atropatenada Zərdüştlik dövlət dininə çevrilsə də Albaniyanın düzən ərazisində atəşpərəstlik, dağlıq hissəsində isə xristianlıq yayılmışdı. Ərəb yürüşlərinə qədər Sasani-Roma dövlətləri arasında müharibə meydanına çevrilən Atropatena və Albaniya sərhəd baxımından indiki Azərbaycan Respublikasının ərazisini əhatə edirdi.



Tarixi mənbələr bu dövlətlərin işğalçı yürüşlərdən uzaq bir siyasət yürütdüklərini sübut edir.

VII əsrdə ərəb yürüşləri nəticəsində Albaniya və Atropatenada vahid islam mədəniyyəti formalaşmağa başladı. Albaniyanın dağlıq hissəsində xristianlıq əvvəlki statusunu saxlamaqda idi. 705-ci ildə ərəblər Albaniya dövlətinin müstəqilliyinə son qoysalar da, qədim albanlar bu torpağın sahibi kimi fəaliyyət göstərir, qonşu xalqlarla ticarət və mədəni əlaqələr saxlayırdılar. Albaniyanın qədim tarixinə həsr olunmuş ən mötəbər mənbələrdən biri Musa Kalankatlının "Alban tarixi" əsəridir. Əsərdən belə bir nəticəyə gəlmək olur ki, Albaniyada 26 dildə danışan tayfaların ermənilərlə heç bir əlaqəsi olmamışdır. Ümumiyyətlə, ermənilər Cənubi Qafqazda yaşamamış və bu ərazidə məskunlaşan xalqlarla qonşuluq münasibətlərində olmamışlar.

Xilafətin zəifləməsi və parçalanması nəticəsində IX-XI əsrlərdə Azərbaycan ərazisində müstəqil feodal dövlətləri yarandı. Bu dövlətlərin qonşu gürcülərlə münasibətlərinə dair kifayət qədər sənədlər mövcuddur. O zaman Şirvanşahlar və Şəddadi dövlətlərinin Gürcüstanla sərhədləri mövcud olduğu üçün, bu münasibətlərlə bağlı çoxlu tarixi mənbələr dövrümüzə gəlib çatmışdır. Ancaq bu qonşuluq münasibətlərini ermənilərə aid etmək olmaz.

XII-XIII əsrlərdə Azərbaycan ərazisində Eldənizlər dövləti mövcüd idi. Bu dövlətin sərhədləri Mərkəzi və Kiçik Asiyaya, Gürcüstana qədər uzanırdı.

XIV-XV əsrlərdə Azərbaycan torpaqlarında Qaraqoyunlu və Ağqoyunlu dövlətləri yarandı. Ağqoyunlu dövləti bölgədə qazandığı siyasi nüfuzuna görə Avropa dövlətləri tərəfindən beynəlxalq münasibətlər sisteminin subyektinə çevrilən ilk dövlət kimi tanındı. Sual olunur: Bu dövrdə erməni dövləti mövcud idimi? Bu suala cavab tapmaq o qədər də çətin deyil. Ona görə ki, bu dövrdə, ümumiyyətlə, erməni dövləti mövcud olmayıb.

Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi təcrübəsi üzərində XVI əsrin əvvəlində Azərbaycan xalqı Səfəvi dövlətini yaratdı. Bu dövlətin sərhədləri Amudərya, Sırdərya, Fərat, Dəclə və Gürcüstan ərazisi ilə əhatə olunurdu. Bu dövlət Səfəvi imperiyası idi. Qonşu ərazilər də bu dövlətin tərkibinə qatılmış və Səfəvi qanunları ilə idarə olunurdu. Amma bu gün heç bir azərbaycanlı Səfəvi imperiyasının bərpası uğrunda mübarizə aparmır və heç kimin torpağına göz dikmir.

1722-1723-cü illərdə Rusiya imperatoru I Pyotrun Xəzər yürüşü başladı. I Pyotr bu yürüş zamanı Xəzəryanı bölgələri, o cümlədən Bakı şəhərini işğal etdi. I Pyotr 1724-cü ildə ermənilərin bu ərazidə yerləşdirilməsi ilə bağlı fərman verdi. Fərmana görə rus ordusunun tutduğu Bakı, Dərbənd və digər əlverişli yerlərdə ermənilər və başqa xristian əhali mehribanlıqla qəbul edilməli, onlara ev-eşik salmaq üçün münasib sahələr ayrılmalı, torpaq verilməli, şəhər və kəndlərdəki sahibsiz müsəlman evləri də onların ixtiyarına keçməli idi. Əgər əvvəlcədən ermənilər bu ərazidə məskunlaşsaydı, yəqin ki, I Pyotrun bu fərmanına ehtiyac da olmazdı. Deməli, ermənilərin bu əraziyə gəlişi tarixin sonrakı dövrlərində baş vermişdir.

XVIII əsrin ortalarında Azərbaycan ərazisində müstəqil xanlıqlar yarandı. Görəsən, bu zaman hansı müstəqil erməni dövlətindən danışmaq mümkündür? Vaxtilə, hətta sovet tarix dərsliklərində Cənubi Qafqazda mövcud olan müstəqil Azərbaycan xanlıqları haqqında məlumat verilirdi. Amma bu dövrlə bağlı Cənubi Qafqazda ermənilərin heç bir hərəkəti diqqəti cəlb etmir. Çünki, ermənilər Cənubi Qafqazda Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğalından sonra kütləvi şəkildə məskunlaşmağa başladılar.

XIX əsrin əvvəllərində çar Rusiyası Cənubi Qafqazın işğalına başladı. Fikir verin, Rusiya Cənubi Qafqaza işğalçı yürüşü zamanı 1803-cü ildə "Andlı öhdəliy"i Car-Balakən hakimliyi ilə, 1805-ci il mayın 14-də Kürəkçay müqaviləsini Qarabağ xanı İbrahim xanla bağladı. Mayın 21-də Şəki xanı Səlim xan və dekabrın axırlarında Şirvan xanı Mustafa xan da Kürəkçay müqavilsinə qoşulmağa məcbur edildi. Onda sual olunur: Əgər ermənilər Qarabağ xanlığı ərazisində bir siyasi güc kimi mövcud idisə, nə üçün Rusiya ilə Azərbaycan xanlıqları arasında bağlanmış müqavilələrdə onlar xatırlanmır? Deməli, ermənilər rus işğalından sonra Azərbaycan torpaqlarında, o cümlədən, Qarabağda siyasi səhnəyə gəlmişlər. Buna ən tutarlı cavab 1828-ci ilin fevralında bağlanmış Türkmənçay müqaviləsinin 15-ci bəndidir. Məhz bu müqavilədən sonra İran ərazisindən on minlərlə erməni Azərbaycan torpaqlarına köçürülərək məskunlaşdı. Bu faktla bağlı rus tarixçilərindən və siyasi xadimlərindən V.Veliçko, İ.Şopen, S.Qlinka, A.Qriboyedov, V.Potto, N.Dubrovin, N.Şavrovun əsərlərini nəzərdən keçirmək kifayətdir. 1828-ci ilin martında çar I Nikolay işğal edilmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində erməni vilayətinin yaradılması haqqında fərman imzaladı. Bu fərmandan sonra ermənilər Cənubi Qafqazda mövcud olan nisbi sabitliyi pozmaqla kifayətlənmədilər, bu bölgədə əhalinin demoqrafik yerləşməsinə təsir edən hadisələrin gərginləşməsinə rəvac verdilər.

Osmanlı ərazisində məskunlaşan ermənilər XIX əsrin sonlarına yaxın çar Rusiyasının və Avropa dövlətlərinin köməyi ilə erməni muxtariyyətini əldə etmək üçün hər cür vasitələrə əl atırdılar: dinc əhalini qırır, terror təşkil edir, erməni qiyamçı dəstələri yaradır və s. Bu hadisələr Osmanlı dövlətinə müəyyən qədər təsir etsə də, ermənilər istədiklərinə nail ola bilmədilər. Amma bununla yanaşı, ermənilər Osmanlı dövlətinə olan inamsızlığını hər cür nümayiş etdirirdilər. I dünya müharibəsi ərəfəsində Daşnaksütyun partiyasının rəhbərliyi və erməni kilsəsinin xeyir-duası ilə yaradılan silahlı birləşmələr Osmanlı dövlətinə qarşı müharibədə iştirak etməyə qərar verdilər. 1914-cü ilin sonlarında rus ordusunun Şərqi Anadoluya daxil olması uzun illər bu ərazidə məskunlaşan ermənilərə dinc müsəlman əhalisinə qarşı soyqırımı həyata keçirməyə şərait yaratdı. Osmanlı ərazisində rus ordusunun köməyi ilə

müstəqil erməni dövlətinin yaradılmasına cəhdlər edildi və s. Amma bütün bu cəhdlərin sonu uğursuzluqla nəticələndi. Osmanlı ərazisində öz maraqlarını təmin edə bilməyən daşnak hərbi birləşmələri Azərbaycan torpaqlarında türk-müsəlman əhalisinə qarşı qırğınlara başladılar. Məqsəd aydın idi: Cənubi Qafqazda erməni dövləti yaratmaq və bu dövləti qonşu dövlətlərin torpaqları hesabına genişləndirmək.

1918-1920-ci illərdə Azərbaycanın qərbində, cənubunda və şimalında ermənilər tərəfindən türk-müsəlman əhalisinə qarşı həyata keçirilən qırğınlarla bağlı kifayət qədər sənədlər mövcuddur. Belə ki, 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən təşkil edilmiş Fövqəladə Təhqiqat Komissiyasının tərtib etdiyi sənədlər xüsusi maraq doğurur. Bu sənədlər 36 cilddən və 3500 vərəqdən ibarətdir. Bu sənədlər ermənilər tərəfindən soyqırıma məruz qalan əhalinin şahid ifadələridir. Bu sənədlər birmənalı olaraq sübut edir ki, 1918-ci ildə Bakı, Şamaxı, Quba və Azərbaycanın digər bölgələrində azərbaycanlı əhaliyə qarşı soyqırımı həyata keçirilmişdir. Hətta 1919 və 1920-ci illərin mart ayının 31-i Azərbaycan dövləti tərəfindən milli matəm günü kimi qeyd olunmuşdur. Amma Cənubi Qafqazda sülh və əmin-amanlığın tərəfdarı kimi çıxış edən müstəqil Azərbaycan dövlətinin qurucuları nə qədər çətin olsa da, 1918-ci ildə keçmiş İrəvan xanlığının paytaxtı İrəvan şəhərini ermənilərə güzəştə getdilər, təşkil olunmuş ilk Azərbaycan parlamentində ermənilərə 21 yer ayırdılar. Bu güzəştlərdən şirniklənən ermənilər sovet Rusiyasının yaxından köməkliyi ilə Azərbaycanın Zəngəzur qəzasına sahib oldular, Dağlıq Qarabağın və Naxçıvanın onlara verilməsi ilə bağlı ədalətsiz ərazi iddialarına başladılar.

XX əsrin 50-ci illərinin əvvəllərində erməni ideoloqları türksüz Ermənistan yaratmaq üçün sovet rəhbərliyinin köməkliyi ilə Qərbi Azərbaycanda yaşayan minlərlə azərbaycanlının öz dədə-baba torpaqlarından deportasiya olunmasına nail oldular. 80-ci illərin sonu–90-cı illərin əvvəllərində tarixən bu ərazidə yaşayan bütün azərbaycanlılar qovularaq qaçqınlıq həyatını yaşamağa məcbur edildi. Hələ bu azmış kimi, erməni silahlı birləşmələri tərəfindən Azərbaycan Respublikası ərazisinin 20 faizi işğal edilmiş və bir milyon insan məcburi qaçqına çevrilmişdir.



XIX əsrin ortalarından bu ərazidə məskunlaşmağa başlayan ermənilər Cənubi Qafqaza qırğın, milli və dini ayrı-seçkilik, düşmənçilik hissləri gətirdilər. Bu siyasət bu gün də davam edir.

Müəllif bu kitabda maraq doğuran məsul bir vəzifəni qarşısına məqsəd qoyub: ermənilərin torpaq iddiaları ilə bağlı rus və qərb müəlliflərinin, o cümlədən indiyə qədər problemlə bağlı dövriyyəyə cəlb edilməyən arxiv sənədlərini oxucuların nəzərinə çatdırmaq. Nəticəni, yəqin ki, siz oxucular çıxaracaqsınız. Tarixən Qafqazda əmin-amanlığın tərəfdarı və Qafqaz evinin yaradılmasının təşəbbüskarı olan azərbaycanlılardan fərqli olaraq ermənilər nəyə nail olmaq istəyirlər? Kitabın əsas qayəsi bundan ibarətdir.

# I FƏSİL
# TÜRKLƏR VƏ ERMƏNİLƏR

## Ermənilər Cənubi Qafqazda necə məskunlaşdılar

Erməni ideoloqları iddia edirlər ki, güya dünyanın yaranışı onların adı ilə bağlıdır. Bu iddianın iərəfdarları tarixi həqiqətlərdən daha çox rəvayətlərə üstünlük verirlər. Ermənilərlə bağlı yazılan həqiqətlər isə başqa şey deyir. "Tarixin atası" Herodot yazır: "Fərat çayının yuxarı axarlarındakı ərazilərdə köçəri erməni tayfaları yaşayırdı"[1], tarixçi Tatsit yazır: "Xəzərsahili xalqlar–hunlar, albanlar, kadusilər və başqalarının aralarında erməni adına rast gəlmədim"[2], rus tarixçisi Dyakonov yazır: "Erməni etnosu Qafqazın hüdudlarından kənarda formalaşıb"[3], erməni tarixçisi Pastermasyan isə yazır: "Ermənilər eramızdan əvvəl VII-VI əsrlərdə Qərbdən Şərqə gəlmişlər"[4] və sair. Erməni müəllifləri qədim erməni tayfalarının eradan əvvəl II minilliyin ortalarında Balkan yarımadasında Frakiyada Hind-Avropa dil ailəsinə mənsub digər etnoslarla birlikdə yaşadıqlarını qeyd edirlər. Eradan əvvəl I minilliyin ilk əsrlərində erməni tayfaları Kiçik Asiyanın şərqinə doğru köçməyi davam etdirmiş, Dəclə və Fərat çaylarının yuxarı axarları boyunda məskunlaşmağa, daha sonra isə Van gölü hövzəsinə yayılmışlar.

---

[1] Геродот. История. Ленинград, 1972, səh.113.
[2] Тацит Корнелий. Сочинения. т. 2, СПб., 1887, səh.395.
[3] Дьяконов М.М. Предистория армянского народа. Ереван, 1968, səh.93.
[4] Пастермасян С.С. Западная Армения в конце XÛX в. М., 1949, səh.322.



ABŞ-ın Miçiqan Universitetinin erməni mənşəli professoru Ronald Syuni "Erməni xalqı: qədim dövrdən bu günə kimi" əsərində qeyd edir ki, tarixi Ermənistan adlanan ərazilərə ermənilər 2600 il əvvəl gəlmişlər. "Yeni gələnlər" həmin vaxt bu ərazidə daha öncədən yaşayan Urartu əhalisini məhv etmişlər.

Ermənilərin qədim tarixi ilə bağlı dəqiq mənbələr yoxdur. Məlum olan odur ki, uzun əsrlər boyu ermənilər Roma, İran-Sasani və Bizans imperiyalarının vassallığında olmuşlar[5]. Bir sözlə, erməni tarixçilərinin ermənilərin yaranışı və formalaşması ilə bağlı yazdıqları uydurmalar o qədər çoxdur ki, onların təhlilinə heç bir lüzum yoxdur.

Ermənilərin tarixən Cənubi Qafqaz torpaqlarında yaşaması ilə bağlı iddiaların da elmi əsası yoxdur. Fakt və hüquqi sənəd kimi 1805-ci il mayın 14-də Rusiya dövləti ilə Qarabağ xanlığı arasındakı bağlanmış Kürəkçay müqaviləsinə nəzər yetirmək kifayətdir.

## Traktatın layihəsi
## Qadir Allah naminə

Biz, yəni Şuşalı və Qarabağlı İbrahim xan və bütün Rusiya qoşunlarının infanteriya generalı, Qafqaz müfəttişliyinin infanteriya müfəttişi general Pavel Sisianov, olduqca mərhəmətli böyük İ.Ə.Aleksandr Pavloviçin verdiyi tam səlahiyyət və ixtiyarla Allahın köməyi ilə Şuşalı və Qarabağlı İbrahim xanın bütün ailəsi, nəsli və ölkəsi ilə bütün Rusiya imperiyasının və indi bəxtiyarlıqla hökmranlıq edən böyük imperator əlahəzrət Aleksandr Pavloviç və onun yüksək varislərinin əbədi təbəəliyini qəbul etməsi məsələsinə başlayaraq aşağıdakı şərtləri bağladıq, qərara aldıq və imzaladıq:

---

[5] Джастин Маккарти, Каролин Маккарти. Тюрки и Армяне. Руководство по армянскому вопросу. В., 1996, səh.13.

## Birinci maddə

Mən, Şuşalı və Qarabağlı İbrahim xan öz adımdan, varislərim və vəliəhdlərim adından İran və ya hər hansı bir dövlətin hər cür vassallığından və ya hər hansı ad altında olsa da, hər cür asılılığından təntənəli surətdə həmişəlik imtina edirəm və bütün dünya qarşısında bununla bildirirəm ki, mən özüm və varislərim üzərində bütün Rusiyanın böyük imperator əlahəzrətinin və onun yüksək varislərinin və vəliəhdlərinin ali hakimiyyətindən başqa heç bir dövlətin hakimiyyətini tanımıram, həmin taxt-taca sədaqət vəd edirəm, çünki onun sadiq quluyam və bu haqda, adətə görə, müqəddəs Qurana and içməliyəm.

## İkinci maddə

İ.Ə.zati-aliləri (xan) həzrətlərinin belə səmimi söz verməsini qəbul edərək, özünün və vəliəhdlərinin adından İmperator sözü ilə vəd edir və söz verir ki, onlar zati-aliləri Şuşalı və Qarabağlı İbrahim xandan və onun varislərindən öz sadiq təbəələri kimi mərhəmət və nəcib havadarlığını heç vaxt əsirgəməyəcəklər, buna sübut olaraq İ.Ə. zati-alilərinin (xanın) və onun varislərinin ölkəsinin bütövlüyünün saxlanılmasına öz imperator zəmanətini verir.

## Üçüncü maddə

Zati-aliləri Şuşalı və Qarabağlı İbrahim xanın bütün Rusiya imperatorlarının və onların vəliəhdlərinin öz üzərində ali və yeganə hakimiyyətini belə səmimiyyətlə qəbul etməsi müqabilində qərara alınır ki, adı çəkilən xan, ondan sonra isə böyük oğlunun və bu qayda ilə nəslin yaşca sonrakı böyüyü irsən xanlığa keçərkən Gürcüstan baş hakimi tərəfindən xanlıqda bərqərar olmaq haqqında dövlət möhürü ilə təsdiq edilmiş imperator fərmanından ibarət investitura aldıqdan sonra bütün Rusiya imperiyasının təbəəliyinə sadiq olmasına, özü və varisləri üzərində bütün Rusiya imperatorlarının ali və yeganə hakimiyyətinin tanınmasına təntənəli surətdə and içməlidirlər. Andın forması traktata əlavə olunur ki, indi hakim olan Şuşalı və Qarabağlı İbrahim xan bu mərasimi Gürcüstan baş hakiminin və bu qətnaməni başa çatdıran infanteriya generalı, knyaz Sisianovun iştirakı ilə yerinə yetirsin.



## Dördüncü maddə

Mən, Şuşalı və Qarabağlı İbrahim xan, mənim və varislərimin bütün Rusiya imperiyasına sadiq təbəəliyimiz və həmin imperiyanın işıqlı ali və yeganə hakimiyyətini qəbul etməyimiz haqda mənim mövqeyimin təmizliyini göstərmək üçün Gürcüstan baş hakimi ilə qabaqcadan qarşılıqlı razılıq olmadan qonşu hakimlərlə əlaqə saxlamağa, onlardan məzmunca tutarlı olanları baş hakimə göndərməyə və ondan icazə istəməyə, dəyəri az olanlar haqda isə məlumat verməyə və Gürcüstan baş hakimi tərəfindən təyin edilmiş şəxsə məlumat verməyə və onunla məsləhətləşməyə söz verirəm.

## Beşinci maddə

İ.Ə-i Şuşalı və Qarabağlı İbrahim xanın ölkəsi üzərində ali və yeganə hakimiyyətinin tanınmasını razılıqla qəbul edərək, özünün və varislərinin adından söz verir: 1. Həmin ölkənin xalqlarını böyük Rusiya imperiyasının sakinlərindən az da olsa ayırmayaraq öz təbəələri sayacaqdır. 2. İbrahim xan zati-alilərinin və onun ocağından olan varislərin və arxasının Qarabağ xanlığı üzərində hakimiyyəti dəyişilməz saxlanılacaqdır. 3. Daxili idarə etmə ilə bağlı hakimiyyət işləri, məhkəmə və divanxana işləri, bununla yanaşı ölkədən yığılan gəlir zati-alilərin (xanın) səlahiyyətində qalacaqdır. 4. Zati-alilərinin və onun sülaləsinin, eləcə də onun ölkəsinin qorunması üçün Şuşa qalasına 500 nəfərlik Rusiya qoşunu qərərgah və baş zabitləri ilə, (habelə) toplarla birlikdə yeridiləcək, ciddi müdafiə üçün isə Gürcüstan baş hakimi şərait və ehtiyaca görə bu dəstəni gücləndirəcək və zati-alilərinin ölkəsini bütün Rusiya imperiyasına məxsus olan bir ölkə kimi hərbi qüvvə ilə müdafiə edəcəkdir.

## Altıncı maddə

Mən, Şuşalı və Qarabağlı İbrahim xan, mənim sadiq təbəəlik istəyimin əlaməti olaraq söz verirəm: 1. İstər indi, istərsə də sonralar yuxarıda adı çəkilən qoşuna lazım olan buğda və darı yarmasını (Gürcüstan) baş hakiminin müəyyən etdiyi qiymətlə tədarük edəcəyəm, çünki onların Yelizavetpoldan gətirilməsi ya çox çətindir, ya da tamamilə qeyri-mümkündür. 2. Qoşunların Şuşa qalasında yerləşməsi üçün qoşun rəisinin bəyəndiyi evləri ayıracaq və lazimi qədər odunla təmin edəcəyəm. 3.Şuşa qalasına Yelizavetpol tərəfdən yoxuşu sahmana salacaq və yolu arabaların gedişi üçün yararlı edəcəyəm. 4.Hökumət Şuşa qalasından Cavada gedən yolu qaydaya salmaq istəsə, onda bu iş üçün lazımi olan işçilər hökumətin müəyyən etdiyi məzənnə ilə mənə verilməlidir.

## Yeddinci maddə

İ.Ə-nin zati-aliləri Şuşalı və Qarabağlı İbrahim xana və onun varislərinə böyük ehtiram və mərhəmət əlaməti olaraq onu və varislərini üzərində bütün Rusiya imperiyasının gerbi olan bayraqla təltif edir, bayraq onun yanında saxlanmalı və bu ölkə üzərində əlahəzrət tərəfindən bəxş edilmiş xanlıq və hakimiyyət rəmzi kimi müharibəyə gedəndə özü ilə aparılmalıdır.

## Səkkizinci maddə

Mən, Şuşalı və Qarabağlı İbrahim xan, İ.Ə-nin yüksək razılığı ilə özümün gəlirimdən həmişəki kimi istifadə etməyə icazə olunduğundan İ.Ə-nin Tiflisdə yerləşən xəzinəsinə ildə 8000 çervon bac verməyi öhdəmə alıram, bac iki müddətə, yəni bir hissəsi fevralın 1-də, o biri hissəsi isə sentyabrın 1-də, özü də bu traktatın İ.Ə. tərəfindən təsdiqi zamanı birinci hissəsinin, yəni 4000 çervonun ödənişi ilə başlanır. Bundan başqa, Asiya qayda-qanunu ilə and içməklə yanaşı, mən böyük oğlum Məmmədhəsən Ağanın ikinci oğlu Şükürallahı həmişəlik Tiflisdə yaşamaq üçün girov verməliyəm.



## Doqquzuncu maddə

İ.Ə. özünün xüsusi mərhəməti ilə, Tiflisdə sədaqət bildirmək üçün saxlanılmalı olan zati-aliləri (xanın) nəvəsinin dolanışığı üçün Rusiya pul vahidi ilə gündə 10 gümüş manat iltifatla bəxş edir.

## Onuncu maddə

Bu müqavilə əbədi müddətə bağlanır və bundan belə həmişəlik heç bir dəyişikliyə uğramamalıdır.

## On birinci maddə

Bu traktatın İ.Ə. tərəfindən onun dövlət möhürü vurulmuş ali fərmanı ilə təsdiqi bu sənədin imzalanmasından 6 ay keçənədək və ya mümkün olsa, daha tez olmalıdır.

Yuxarıdakıların həqiqətə uyğun olduğunu (bildirmək) üçün aşağıda imza edənlər Yelizavetpol dairəsinin düşərgəsində, Kürək çayı yaxınlığında, miladın 1805-ci ilinin yayında, mayın 14-də (müsəlman təqvimi ilə 1220-ci il səfər ayında) bu maddələrə qol çəkərək öz möhürlərini vurdular[6].

On bir maddədən ibarət olan müqavilənin heç bir bəndində ermənilərlə bağlı bir cümlə belə yazılmayıb. Əgər bu torpaqlar ermənilərə məxsus idisə, ermənilərin himayəçisi olan Rusiya dövləti nə üçün onların adını bir dəfə də olsun bu müqavilədə xatırlamır. Əksinə, müqavilənin birinci bəndində birmənalı olaraq qeyd olunur: "Biz, yəni Şuşalı və Qarabağlı İbrahim xan və bütün Rusiya qoşunlarının infanteriya generalı, Qafqaz müfəttişliyinin infanteriya müfəttişi knyaz Pavel Sisianov, olduqca mərhəmətli böyük imperator Əlahəzrət Aleksandr Pavloviçin verdiyi tam səlahiyyət və ixtiyarla Allahın köməyi ilə Şuşalı və Qarabağlı İbrahim xanın bütün ailəsi, nəsli və ölkəsi ilə bütün Rusiya imperiyasının və indi bəxtiyarlıqla hökmranlıq edən böyük Aleksandr Pavloviç və onun yüksək varislərinin əbədi təbəəliyini qəbul etməsi

---

[6] АКАК (Акты, собранные Кавказской Археографической комиссией). т.ÛÛ., под. ред. А.Д. Берже. Тифлис, 1868, səh.705.

məsələsinə başlayaraq aşağıdakı şərtləri bağladıq, qərara aldıq və imzaladıq"[7]. Müqavilədən göründüyü kimi, bu sənəd Azərbaycanın Qarabağ xanı İbrahimxəlil xanla bağlanmış və müqavilənin bütün maddələrində bu torpaqların Azərbaycana məxsus olması təsdiq olunur.

Çar Rusiyası Kürəkçay müqaviləsinə görə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədi. 1806-cı ilin yayında İran qoşunlarının Şuşaya yaxınlaşdığını eşidən İbrahimxəlil xan bütün ailə üzvləri ilə birlikdə (oğlu Mehdiqulu xandan başqa–A.İ.) Xankəndinə köçdü. Ermənilər güya xanın İrana qaçmaq istədiyini mayor Lisaneviçə inandıra bildilər. Ermənilərin məlumatına inanan mayor Lisaneviç İbrahimxəlil xan başda olmaqla onun bütün ailə üzvlərini qətlə yetirdi. 1806-cı il sentyabrın 10-da imperator I Aleksandrın fərmanı ilə İbrahimxəlil xanın oğlu Mehdiqulu ağa Qarabağ xanı təyin olundu. Fərmanda deyilirdi: "İbrahimxəlil xana məxsus onun bütün hüquqları Mehdiqulu xana keçir. Bütün əhali ona tabe olmalı, onun göstərişlərini yerinə yetirməli, xanın hakimiyyətini uca tutmalıdır"[8]. Fərmanda ermənilərlə bağlı heç bir fikir yoxdur. İmperator I Aleksandrın 10 sentyabr 1806-cı il fərmanı Qarabağın kimə məxsus olmasını sübut etmək üçün çox vacib sənəddir.

İkinci rus-İran müharibəsi 1828-ci il fevralın 10-da Türkmənçay müqaviləsinin imzalanması ilə başa çatdı. İşğal olunmuş İrəvan və Naxçıvan xanlıqlarının Rusiyaya birləşdirilməsi rəsmiləşdirildi[9]. Martın 21-də Rusiyaya ilhaq edilmiş iki Azərbaycan xanlığı–İrəvan və Naxçıvan xanlıqlarının "erməni vilayəti" adlandırılması haqqında çar

[7] Трактат между Карабахским ханом и Российской империей о переходе ханства подь власть России от 14 мая 1805 года.

[8] АКАК (Акты, собранные Кавказской Археографической комиссией). т.ÛÛ., Издан под редакцией председателя комиссии А.Д. Берже. Тифлис, 1868, səh.705.

[9]Полное собрание законов Российской империи. Собр. второе. т.ÛÛÛ. СПб., 1830, səh. 272-273.



fərmanı verildi[10]. Gürcü knyazı, general-mayor Çavçavadze bu vilayətə rəis təyin olundu. Çavçavadzenin qızı Rusiyanın İrandakı səfiri və ermənilərin Cənubi Qafqaza köçürülməsi planının əsas müəlliflərindən biri olan A. Qriboyedovun həyat yoldaşı idi.

Qafqaz Arxeoqrafiya Komissiyasının sənədlərində birmənalı olaraq qeyd olunur ki, Türkmənçay sülh müqaviləsinə qədər Qarabağ xanlığında 12 min ailənin 2,5 min nəfəri erməni, Şamaxı xanlığında 24 min ailənin 1,5 min nəfəri erməni, Şəki xanlığında isə 15 min ailənin üçdə biri erməni idi[11]. Katolikos Nerses Aştaraketsi, polkovnik Lazarev və knyaz Arqutinski ermənilərin Cənubi Qafqaza, o cümlədən İrəvan, Naxçıvan və Qarabağa köçürülməsi üçün dəridən-qabıqdan çıxırdılar. Onu da qeyd etmək lazımdır ki, 1828-ci ildə erməni vilayəti adlandırılan bu qurum 1840-cı ildə ləğv olundu, 1849-cu ildə keçmiş İrəvan və Naxçıvan torpaqları əsasında İrəvan quberniyası təşkil edildi[12].

Türkmənçay müqaviləsinin XV maddəsi İranda yaşayan ermənilərin köçürülməsinə həsr olunmuşdu. Düzdür, müqavilədə ermənilərin adı çəkilmir, lakin rus və İran nümayəndə heyəti arasında aparılan danışıqlarda bu məsələ tam razılaşdırılmışdı.

Türkmənçay müqaviləsindən ən çox qazanan ermənilər oldu. Türkmənçay sülhünə qədər vətənsiz olan və müxtəlif ölkələrə səpələnmiş ermənilər bu müqavilədən sonra rus çarizminin köməyi ilə özlərinə vətən tapdılar. I Pyotrun 1724-cü il noyabrın 10-da verdiyi fərman ermənilərin Azərbaycan torpaqlarında yerləşdirilməsinin əsasını qoymuş, 1828-ci il Türkmənçay müqaviləsi isə bu tarixi faciəni rəsmiləşdirdi.

[10] Yenə orada.

[11]АКАК (Акты, собранные Кавказской Археографической комиссией). т.Х., Тифлис, 1885, səh.104.

[12]Потто В.А. Кавказская война. Персидская война 1826-1828 гг. т.3 С.-Петербург, 1911; Ставрополь, 2005, səh. 591.

XVII əsrin sonunda Avropadan dəstək ala bilməyən ermənilər Rusiyaya pənah gətirdilər. 1701-ci ildə İsrael Ori və arximandrit Minas Avropanın dövlət başçılarına təqdim edə bilmədikləri 36 maddəlik proqramı I Pyotra çatdıra bildilər. İsrael Orinin təqdim etdiyi bu xəritədə İrəvan və Zəngəzur torpaqlarının strateji əhəmiyyəti qabarıq şəkildə təsvir edilmişdi. İsrail Ori I Pyotra yazırdı: "20-30 minlik imperator qoşunu tezliklə Şamaxıya çatmasa, biz batıb-qırılarıq, türklər İrəvanı tutarlar. İrəvan müsəlman torpaqlarının açarıdır. Məqsədimiz İrəvana sahib olmaqdır. İrəvanı ələ keçirə bilsək, türklər və iranlılar bizə heç nə edə bilməzlər".[13]

1655-ci ildə İrəvana gəlmiş fransız Jan Batist Tavernyen qeyd edirdi ki, İrəvan şəhər qalasında yalnız müsəlmanlar yaşayırdı. On səkkiz il sonra burada olmuş fransız səyyahı Jan Şardenin oncildliyinin birinci cildində göstərilir ki, İrəvan qalasını kiçik bir şəhər hesab etmək olar. Qalada 800 ev var. Burada yaşayanlar yalnız türklərdir.[14]

Türkmənçay müqaviləsinə qədər erməni ideoloqları I Pyotrun fərmanını əsas götürərək Azərbaycan torpaqları hesabına öz dövlətlərini yaratmaq üçün müxtəlif planlar cızırdılar. Bir layihəyə görə gürcü çarı II İraklinin başçılığı ilə erməni-gürcü dövləti yaradılmalı və Rusiyanın tam himayəsinə verilməli idi[15]. Digər bir layihəyə görə, Azərbaycan torpaqlarında knyaz Potyomkinin başçılığı ilə erməni dövlətinin yaradılması nəzərdə tutulurdu. Rus çariçası II Yekaterina Azərbaycan torpaqları hesabına xristian Alban dövlətinin yaradılmasına böyük önəm verirdi. O, Azərbaycan torpaqlarının işğalını həyata keçirən general Zubova yazırdı: "Muğanı ələ keçir və orada bir qala tikdir. Adını Yekaterinasert (Yekaterinanın ürəyi–A.İ.) qoy. Orada 2 min rus əsgərini məskunlaşdır. Onları geniş torpaq sahəsi, silahla təmin et, erməni və

[13] Акопян Т. История Еревана. Ереван, 1975, səh.181.
[14] Məmmədov İ. Tariximiz, torpağımız, taleyimiz. B., 2003, səh.30.
[15] Дубровин Н. Закавказье в 1803-1806 годах. С.-Петербург, səh.204.



gürcü qızları ilə evləndir"[16]. Lakin 1796-cı ildə II Yekaterinanın qəfil ölümü bu planın gerçəkləşməsinə imkan vermədi.

Erməni tarixçisi V.Parsamyan yazır: "Bu bir inkaredilməz faktdır ki, Cənubi Qafqazın Rusiya imperiyasına birləşdirildiyi dövrə kimi ermənilər bu ərazidə cəm halında yaşamamışlar. Rusiyaya birləşəndən sonra Ermənistan adlandırılan ərazidə əhalinin 33,8 faizini ermənilər, 49,7 faizini isə müsəlmanlar (azərbaycanlılar) təşkil edirdi"[17].

Beləliklə, ermənilər köçürüldükləri Şimali Azərbaycan torpaqlarında bir millət kimi formalaşaraq, imkanları və havadarları artdıqca Azərbaycana və Osmanlı dövlətinə qarşı ərazi iddiaları ilə çıxış etməyə başladılar.

Türkmənçay müqaviləsinədək İrəvan xanlığında 22500 erməni, Naxçıvan xanlığında 2150, Ordubad mahalında isə 1880 nəfər erməni yaşadığı halda, 1916-cı ildə bu ərazidə ermənilərin sayı 669871 nəfərə çatdırıldı[18]. Azərbaycanlıların sayı isə 1897-ci ildə 313176 nəfər, 1916-cı ildə isə 373582 nəfər olmuşdur. Halbuki, 1828-ci il məlumatına görə İrəvan xanlığı ərazisində torpaqların 96,63%-i azərbaycanlılara, cəmi 3,37 faizi ermənilərə məxsus idi[19]. 1826-1828-ci illər Rusiya–İran müharibəsində təkcə İrəvan xanlığı ərazisində yaşayan azərbaycanlıların 420 kəndi yerlə yeksan edilmişdir. 1828-1871-ci illər arasında ermənilər azərbaycanlı əhali yaşayan 146 kəndi zəbt edərək özününküləşdirmişdilər. Rus tarixçisi Şavrov yazır: "1828-1830-cu illərdə İran ərazisindən 40 min, Osmanlı ərazisindən isə 84 min erməni ailəsini Yelizavetpol (indiki Gəncə şəhəri – A.İ.) və İrəvan quberniyasının ən mün-

[16] Дубровин Н. Göstərilən əsəri. səh. 195.
[17] Парсамян В.А История армянского народа 1801-1900 гг. кн., 1, Ереван, 1977, səh.88.
[18] Шавров Н.Н. Новая угроза русскому дели в Закавказье. Предстоящая распродажа Мугани инородсам. Б.,1990, səh. 42.
[19] Шавров Н.Н. Göstərilən əsəri. səh. 49.

bit torpaqlarına köçürtdük". N.Şavrova görə rəsmi köçən əhali ilə yanaşı, 10 minlərlə erməni ailəsi qeyri-rəsmi Yelizavetpol quberniyasının dağlıq hissəsinə və Göyçə gölünün sahillərinə köçürüldü. N.Şavrovun məlumatına görə XX əsrin əvvəllərində Cənubi Qafqazda 1 milyon 300 min erməni yaşayırdı, onun 1 milyonu bu əraziyə gəlmə idi[20].

Çarizmin və onunla əlbir olan ermənilərin Azərbaycan torpaqları olan İrəvan və Naxçıvan bölgələrini "Erməni vilayəti”" kimi qələmə verməsini təkzibedilməz faktlar sübut edir. Çünki çar Rusiyasının erməniləri İran və Türkiyədən Azərbaycan ərazilərinə kütləvi surətdə köçürməsindən əvvəl, sonradan "Erməni vilayəti"” adlandırılan ərazinin əhalisi 107224 nəfər idi. Əhalinin 76,24 %-ni azərbaycanlılar, 23,45%-ni ermənilər təşkil edirdi. Azərbaycanlıların əhalinin etnik tərkibində böyük üstünlüyə malik olması həmin torpaqların tarixi Azərbaycan ərazisi olduğunu təsdiq edən inkaredilməz faktdır. 1826-1828-ci illər Rusiya-İran müharibəsi dövründə və müharibədən sonra İran və Türkiyədən ermənilərin kütləvi surətdə bu yerlərə köçürülməsi nəticəsində əhalinin etnik tərkibi dəyişdi. Fransız mənşəli rus tədqiqatçısı İ. İ. Şopenin 1829-1832-ci illərdə rəsmən həyata keçirdiyi kameral təsvirin nəticələrinə görə, artıq burada 31201 ailə, 164450 nəfər əhali qeydə alınmışdı. Onlardan 16078 ailə (51,53 %), 81749 nəfər (49,71%) müsəlmanlar (azərbaycanlılar); 4428 ailə (14,19%) 25151 nəfər (15,29%) köçürməyə qədər burada yaşayan ermənilər; 6949 ailə (22,27%), 35560 nəfər (21,62%) İrandan köçürülmüş ermənilər; 3682 ailə (11,80%), 21666 nəfər (13,17%) Türkiyədən köçürülmüş ermənilər idi. Bu faktlardan aydın olduğu kimi vilayətə İran və Türkiyədən birgə 10631 ailə (bütün ailələrin 34,07%-i), 57226 nəfər (34,79%) erməni köçürülmüşdü. Belə bir vəziyyət

[20]Шопен И. Исторический памятник состояния Армянской области (Ереванской губернии) в эпоху присоединения к Российской империи. СПб. 1852. səh.93.



İrəvan şəhərində də müşahidə edilirdi. Rusiyanın İrəvanı işğal etdiyi dövrdə burada 1807 azərbaycanlı ailəsi, yaxud 7331 nəfər (3749 kişi, 3582 qadın), 567 erməni ailəsi, yaxud 2369 nəfər (1220 kişi, 1149 qadın) qeydə alınmışdı. O zaman İrəvanın 9700 nəfərlik əhalisinin 75,6%-i azərbaycanlı, 24,4%-i erməni idi.[21] Çarizmin erməniləri İran və Türkiyədən kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarına köçürməsi nəticəsində ermənilərin sayı İrəvan şəhərində də artdı. 1829-1832-ci illərdə həyata keçirilən kameral təsvirə görə İrəvan şəhərinə İrandan 366 erməni ailəsi, yaxud 1715 nəfər (903 qadın, 812 kişi), Türkiyədən 11 ailə, yaxud 48 nəfər (25 kişi, 23 qadın) köçürülmüşdü. Bu köçürmə nəticəsində İrəvan şəhərində əhalinin sayı ermənilərin hesabına artaraq 11463 nəfərə çatmışdı. Nəticədə, azərbaycanlıların sayı 64%-ə enmiş, ermənilərin sayı 36%-ə qalxmışdı.[22]

Əhalinin etnik tərkibində baş verən dəyişikliklər sonrakı dövrlərdə daha ardıcıl və məqsədyönlü xarakter almağa başladı. Çar I Nikolayın fərmanı ilə 1849-cu il iyunun 9-da keçmiş "Erməni vilayəti”" və Aleksandropol (Gümrü) qəzası əsasında İrəvan quberniyası yaradıldı. İrəvan quberniyasının ərazisi 23194, 79 kv. verst idi (1 verst1,0668 km) idi. 1917-ci il Qafqaz təqviminin məlumatına görə, quberniyada 1.120.242 nəfər əhali yaşayırdı. Hər kv.verstə 48,3 nəfər düşürdü. Quberniya əhalisinin 589125 nəfəri (52,6%) kişi, 531117 nəfəri (47,4%) qadın, 1.014868 nəfəri (90,6%) yerli sakinlər, 105374 nəfəri (9,4%) müvəqqəti yaşayanlar idi. Qafqaz təqviminin məlumatlarına əsasən 100 ildən çox davam edən soyqırım və deportasiyaya baxmayaraq, azərbaycanlıların sayı 373582 nəfər (33,35%) idi. Ermənilərin sayı isə qeyd olunan

[21]Шопен И. Исторический памятник состояния Армянской области (Ереванской губернии) в эпоху присоединения к Российской империи. СПб. 1852, сящ.120.

[22] Йеня орада, сящ.121.

köçürmələr nəticəsində 669871 nəfərə (59,8%) çatdırılmışdı.[23] Ermənilərin Cənubi Qafqaz ərazisində məskunlaşmasına toxunan erməni tarixçisi B.İşxanyan yazır: "Ermənilər Qafqazın müxtəlif ərazilərində yalnız son əsrlərdə yaşamışlar".[24]

1939-cu ildə fransız dilindən rus dilinə tərcümə olunmuş "XIX əsrin tarixi" əsərində professorlar Laviss və Rambo yazır: "XIX əsrin ortalarında ermənilər Qafqaza gəlmələr hesab olunurdu".[25]

1886-cı ildə Yelizavetpol quberniyasının Zəngəzur qəzasında 326 kəndin 149-da azərbaycanlılar, 91 kəndində kürdlər, cəmi 81 kəndində isə ermənilər yaşayırdılar[26]. 1891-ci ildə İrəvan quberniyasında 661,6 min nəfər əhali yaşayırdı. Bu əhalinin 270,4 mini (41%) azərbaycanlı idi. 1893-cü ildə bu ərazidə azərbaycanlı əhalinin sayı 276 min, 1897-ci ildə isə 313 min nəfər idi.

Rus tarixçisi S.Qlinka ermənilərin Cənubi Qafqaza, o cümlədən Azərbaycan torpaqlarına köçürülməsində Qafqazdakı rus qoşunlarının baş komandanı qraf Paskeviç İrəvanskinin sevimlisi erməni polkovniki Lazarevin xidmətlərini xüsusi qeyd edir[27]. Qlinka yazır: "1827-ci ilin avqustunda Paskeviç qalib ordunun komandanı kimi Təbrizə daxil oldu. Təbriz və onun ətrafındakı əyalətlərdə erməni əhalisinin Rusiya tərəfə cəlb olunmasında polkovnik Lazarevin yaxından köməyini nəzərə alaraq Paskeviç onu Təbriz şəhərinə komendant təyin etdi. Lazarevin yanına gələn ermənilər ondan xahiş edib bildirirdilər ki, əlahəzrət imperatora çatdırın ki, onun səltənətində

[23] АКАК (Акты, собранные Кавказской Археографической комиссией) т. III, Тифлис, 1869, səh.726.
[24] Ишханян Б. Народности Кавказа. (Статистико-экономическое исследование). Петроград, 1916, səh.16.
[25] История XÛX века. Под редакцией профессоров Лависса и Рамбо. Перевод с французского. Том 8. Москва, 1939, səh.298.
[26] Шавров Н.Н. Göstərilən əsəri. səh. 49.
[27] Qlinka S.N. Azərbaycan ermənilərinin Rusiya hüdudlarına köçürülməsinin təsviri. M., 1831; B., 1995.



yaşamağa və ölməyə şad olardıq. Xoy şəhərindən olan ermənilər daha qabağa gedərək bildirirdilər: "Biz İranın çörəyini yeməkdənsə, Rusiyanın ot-ələfini yeməyə hazırıq"[28].

Polkovnik Lazarev İranda yaşayan erməni əhalisinə müraciətində deyirdi: "Özünüzə seçəcəyiniz yerlərdə-İrəvanda, Naxçıvanda və Qarabağda dövlət hesabına əkilib becəriləcək bol məhsullu torpaq alacaqsınız. Siz 6 il müddətinə hər cür vergilərdən azad olunursunuz. Türkmənçay müqaviləsinə görə 5 il müddətində İrandakı əmlakınızın satılması üçün burada vəkil qoya bilərsiniz. Orada (Azərbaycan torpaqlarında–A.İ.) xristianlarla məskunlaşmış yeni vətən tapacaqsınız"[29]. Ermənilərin köçürülməsinə rəhbərlik edən Lazarev özü də etiraf edir ki, bu torpaqlar çar Rusiyası tərəfindən ermənilərə verilən yeni vətəndir. Polkovnik Lazarev qraf Paskeviçə göndərdiyi hesabatda yazırdı: "1828-ci il fevralın 26-da fəaliyyətə başladığım gündən əlahəzrətdən on dörd min manat qızıl pul və 400 min manat gümüş pul almışam. Təkcə Naxçıvan şöbəsinə verdiyim 2 min manatdan çox qızıl pula 8249 xristian ailəsi köçürmüşəm"[30]. 1806-cı ildən sonra İrəvan xanlığı ərazisində 500 azərbaycanlı ailəsi doğma yurdlarını tərk edərək Qarsa qaçmağa məcbur edilmişdi.[31]

Şopenin hesablamalarına görə İrəvan xanlığı ruslar tərəfindən işğal olunana qədər burada 2984 azərbaycanlı ailəsi yaşayırdı. İşğaldan sonra əyalətdəki azərbaycanlı ailələrin sayı 3,5 dəfə azalaraq cəmi 847 ailə qalmışdı. İki-üç il ərzində əyalətdən 2137 azərbaycanlı ailəsi qonşu İrana və Osmanlı ərazisinə köçməyə məcbur olmuşdu. 1832-ci ildə İrəvan

[28] Yenə orada, səh. 30.
[29] Yenə orada, səh.48.
[30] Yenə orada, səh. 57.
[31] АКАК (Акты, собранные Кавказской Археографической комиссией) т.VII., Tiflis, 1878, səh.86.

şəhərində müsəlmanların sayı 7331 nəfərə enmişdi. 1854-cü ildə isə burada 3163 nəfər azərbaycanlı qalmışdı.[32]

Erməniləri dilə tutaraq İrəvan və Naxçıvan vilayətlərinə köçürmək, bu yolla həmin vilayətlərdə demoqrafik vəziyyəti ermənilərin xeyrinə dəyişməklə Cənubi Qafqazı müstəmləkə halına salmaq çarizmin xristianlaşdırma siyasətinin konkret təzahürü idi.

1828-1829-cu illər rus-türk müharibəsindən dərhal sonra İrandan 23098, Osmanlıdan 20324 erməni köçürülərək əvvəllər azərbaycanlılar yaşayan kəndlərdə məskunladırıldı.[33]

XIX əsrin birinci yarısında Şimali Azərbaycanın müxtəlif bölgələrində başlanmış qaçqınlıq və köçkünlük çar Rusiyasının müstəmləkəçilik siyasətinin, milli ədavətin, aramsız müharibələrin bilavasitə nəticəsi idi. Azərbaycanlı əhalinin məcburiyyət üzündən Şimali Azərbaycanı tərk etməsi xristianlaşdırma siyasətinin gerçəkləşməsinə daha geniş imkanlar açırdı. İrəvan xanlığı Rusiyaya qatılandan sonra buradan 2137 ailə, Qazaxdan 1817-1831-ci illərdə 2306 ailə, Qubadan 1796-1810-cu illərdə 10334 ailə, Şəmşəddildən 1804-1817-ci illərdə 11478 ailə, Borçalıdan 1804-1807-ci illərdə 15354 ailə, Naxçıvandan 1400 ailə didərgin salınmışdı. 1805-1813-cü illərdə təkcə Qarabağı məcburi tərk etmiş azərbaycanlı ailələrin sayı 4845-dən çox idi.[34]

---

[32]Кавказский календарь на 1855 г. Тифлис, 1855, səh.341.

[33]Глинка С. Описание переселения армян азербайджанский в пределы России. М., 1831; В., 1990, səh.103.

[34]Григорьев В. Статистическое описание Нахичеванской провинции. С.-Петербург, 1833, səh.29.



## ERMƏNİLƏR OSMANLI İMPERİYASININ TƏRKİBİNDƏ

Uzun illər Bizansın hökmranlığı altında yaşayan ermənilərin vəziyyətini erməni tarixçisi Urfalı Matevos belə təsvir edir: "Ermənilər zülm-əsarət altında qalmışdı. Bütün məmləkət qan içində idi".[35] Dini inanclarına görə ermənilər ciddi təqibə məruz qalırdı. Erməni katolikosları, din xadimləri Bizansdan sürgün edilirdi. Bütün təqiblərə baxmayaraq erməniçiliyi yaşadan, erməni məsələsini gündəmdə saxlayan kilsə və din oldu. VI əsrdə Roma kilsəsindən ayrılan ermənilər Qüdsdə yeni bir patriarxlıq yaratdılar. 993-994-cü illərdə Roma ordusu erməniləri qılıncdan keçirdi, sağ qalanları əsarət altına aldı[36].

Erməni kilsəsi Roma təhlükəsindən xilas olmaq üçün Səlcuq sultanı Alp Arslana müraciət etdi. Sultan erməniləri öz himayəsinə alaraq, onları təhlükədən xilas etdi. Sultan Məlikşah erməni kilsəsi və monastrların, erməni din xadimlərinin vəziyyətini yaxşılaşdırmaq haqqında sərəncam verdi. Ermənilərin dəfələrlə bizanslarla birləşərək türklərə qarşı vuruşduqlarına baxmayaraq, Səlcuq və Osmanlı imperiyalarının hakim dairələr tərəfindən onların dini inanclarına, adət-ənənələrinə, həyat tərzi və milli ləyaqətlərinə heç bir müdaxiləyə yol verilmirdi. Erməni tarixçilərindən Levon Dabağyan yazırdı: "Ermənilər indiki dövrdə milli varlıqlarına görə səlcuq və osmanlı türklərinə borcludurlar. Bizansların və ya başqa avropalıların əlində qalsaydıq, erməni adı bu gün sadəcə tarix kitablarında saxlanılan bir ad ola bilərdi"[37]

Səlcuqlardan sonra hakimiyyətə gələn Osmanlı dövləti də ermənilərin sülh və rifah şəraitində yaşaması üçün hərtərəf-

---

[35]Süleyman Kocabaş. Erməni məsələsi nədir və nə deyildir. İstanbul, 1958, səh.17.

[36]Süleyman Kocabaş. Göstərilən əsəri. səh. 24.

[37]Дабагян Левон. Вопросы истории. М.,1929, səh. 22.

li şərait yaratmışdı. Bursa paytaxta çevriləndən sonra ermənilərin Bizansın təhlükəsindən xilas olması üçün Orxan bəy onların bir etnos kimi Anadoluda yaşamalarına icazə verdi. İstanbul fəth ediləndən sonra erməni katolikosluğu bura köçürüldü.

XVII əsrin 30-cu illərində Osmanlı imperiyası əvvəlki qüdrətini saxlamaq iqtidarında deyildi. Ermənilərin bir qismi Roma kilsəsinin təsiri altında katolikliyi qəbul etdi. İngilislər 1840-ci ildə Qüdsdə erməni protestant kilsəsini tikməyə icazə aldılar. 1846-cı ildə ingilislərin təkidi ilə İstanbulda erməni protestant icması təşkil edildi. XIX əsrdə Osmanlı imperiyası qriqoryan, protestant və katolik ermənilərin din və məzhəb mücadiləsinin girdabında ikən qərb dövlətləri və çar Rusiyası bu dövlətin parçalanması üçün planlar cızır, erməni şovinizminin dirçəlməsi üçün ciddi səy göstərirdilər.

Osmanlı imperiyasının üç qitədə geniş ərazilərə sahib olması Qərb dövlətlərini və Rusiyanı ciddi narahat edirdi. 1829-cu ildə Rusiya ilə Osmanlı dövləti arasında bağlanmış Ədirnə sülhü Rusiyanın iddialarını tam təmin edə bilmədi. Doğrudur, Ədirnə sülhünün 14-cü maddəsinə görə erməni əhalisinin Cənubi Qafqaza, o cümlədən Azərbaycan tor-paqlarına köçürülməsi rəsmiləşdirildi. 10 minlərlə erməni ailəsinin Osmanlı dövləti ərazisindən Azərbaycan torpaqlarına köçürülməsi Rusiyanın Osmanlı ərazisində "Qərbi Ermənistan" dövlətinin yaradılmasına olan marağını artırdı. Lakin 1853-1856-cı illər Krım müharibəsində Rusiyanın məğlub olması ona bu planını reallaşdırmağa imkan vermədi. Krım müharibəsində Osmanlı dövləti ilə müttəfiq olan İngiltərə və Fransa ermənilərin əli ilə bu ərazidə nüfuz sahibi olmağa çalışırdılar.

1878-ci ilin martında erməni patriarxı Nerses Varjapetyan İngiltərənin İstanbuldakı elçisi Loyarda müraciətində deyirdi.: "Bir il bundan əvvəl bizim Osmanlı üsul-idarəsindən heç bir şikayətimiz yox idi. Lakin Rusiyanın bu son zəfərləri vəziyyəti dəyişdirdi. İndi biz də Qərbdə müstəqil bir Ermənistana sahib olmaq istəyirik. Əgər siz yardım etməsəniz, biz bu istəyimizi gerçəkləşdirmək üçün Rusiyaya müraciət etməli olacağıq". Loyardın bəs harada, hansı torpaqları ələ keçirib Ermənistan yaradacaqsınız sualına patriarx Van, Sivas, Diyarbəkir, Kilikiya vilayətlərinin adını çəkdi. İngilis elçisi bu yerlərin heç birində ermənilərin çoxluq təşkil etmədiyini xatırlatsa da patriarx fikrindən döndərə bilmədi.[38]

1878-ci ilin aprelində Nerses Varjapetyan İngiltərənin xarici işlər naziri Solisberiyə göndərdiyi məktubunda öz məqsədini daha açıq şəkildə bildirirdi: "Ermənilərin türklərlə bir yerdə yaşaması artıq imkansızdır. Bərabərlik, ədalət, vicdan azadlığı ancaq xristian dövlətlərində bərqərar ola bilər. Burada müsəlman üsul-idarəsini xristian üsul-idarəsi əvəz etməlidir. Qərbi Anadolu və Kilikiya xristian dövlətinin ərazisi olmalıdır. Türkiyə erməniləri bunu istəyirlər"[39].

1877-1878-ci illərdə yeni rus-türk müharibəsi başladı. Rusiya tərəfi müharibədən qalib çıxaraq atəşkəs şərtlərinin müzakirəsinə başladı. Dünyanın müxtəlif ölkələrinə səpələnmiş ermənilər çar II Aleksandrdan özlərinin Qərbi Ermənistan adlandırdıqları ərazinin Osmanlıdan alıb Rusiyaya birləşdirilməsini xahiş edirdilər. Çox maraqlıdır ki, belə məzmunda olan məktubların əksəriyyəti Rusiya imperiyasının tərkibində olan Tiflisdən, Gəncədən və Bakıdan təşkil edilərək Rusiya hökumətinə göndərilirdi. Osmanlı ərazisindəki ermənilər yazırdılar: "Şərq xristianları olan biz ermənilər Qərb xristianları kimi Rusiyanın köməyi sayəsində müstəqillik əldə etmək istəyirik"[40].

Osmanlı dövlətinin məğlubiyyətindən fürsət kimi istifadə edən ermənilər Osmanlı ərazisində erməni dövlətinin yaradılması ilə bağlı hazırladıqları layihəni gizlincə imperator II Aleksandra, xarici işlər naziri Qorçakova və Osmanlı dövləti ilə danışıqlar aparan qraf İqnatevə çatdırdılar. Təkliflər aşağı-

[38]Süleyman Kocabaş. Göstərilən əsəri, səh. 59.
[39] Записи графа Н.П.Игнатьева о Сан-Стефано, СПб., 1896, səh.204.
[40] Yenə orada, səh.205.

dakılardan ibarət idi. 1."Qərbi Ermənistan" Şərqi Ermənistanla birləşdirilsin, 2.Müstəqil Ermənistan Rusiyanın himayəsində qalsın, 3."Qərbi Ermənistan" Osmanlı dövlətinin tərkibində qaldığı təqdirdə rus qoşunları islahatlar keçiriləndən sonra buradan getsinlər.[41]

San-Stefanoda sülh danışıqları aparan tərəflər arasında mübahisə doğuran maddələrdən bir neçəsi Osmanlı ərazisində yaşayan ermənilərlə bağlı idi. Müqavilənin 16-cı maddəsinə görə Osmanlı dövləti ermənilər yaşayan ərazilərdə vaxt itirmədən, dərhal islahatlar keçirməli, ermənilərin təhlükəsizliyini təmin etməli idilər. 25-ci maddəyə görə rus qoşunlarının 6 ay ərzində Osmanlı ərazisindən çıxmasına qədər erməni vilayətlərində islahatlar başa çatdırılmalı idi[42]. Müqavilənin 27-ci maddəsinə görə müharibə zamanı ruslara köməklik göstərmiş ermənilərin cinayət məsuliyyətinə cəlb olunmayacağına təminat verilirdi.[43] Beləliklə, XIX əsrin II yarısında erməni məsələsi çar Rusiyası ilə Qərb dövlətləri arasında Osmanlı dövlətinə təzyiq göstərmək üçün böyük bir siyasi karta çevrildi. San-Stefano sülhünə görə Osmanlı imperiyası onun üzərinə qoyulmuş təzminatı ödəyə bilmədiyi üçün təzminat əvəzi kimi Qars, Ərdəhan, Batum, Alaşkerd vadisi və Bəyazid qəzasını Rusiyaya verməyə məcbur oldu.[44] Çar Rusiyası ermənilərə quberniya müstəqilliyi vermək qərarına gəlmişdi. Rusiyanın köməyi ilə Osmanlı ərazisində ermənilərin müstəqil dövlət yaratmaq xülyaları reallaşmaq üzrə idi. Xoşbəxtlikdən Qərb dövlətlərinin San-Stefano müqaviləsinin şərtlərinə siyasi qısqanclığı ermənilərin bu planlarını alt-üst etdi. Əslində, Qərb dövlətləri Osmanlının uğursuzluğu ilə yox, Rusiyanın Balkanlarda qazandığı siyasi nüfuzu ilə barışmaq istəmirdilər. Buna görə də 1878-ci ilin yayında Avstriya-Macarıstan, Almaniya, İngiltərə, Fransa, İtaliya və Osmanlı

[41] Правительственный вестник. СПб. 1878, səh.25.
[42] Записи графа Н.П.Игнатьева о Сан-Стефано, СПб., 1896, səh.206.
[43] Yenə orada.
[44] Yenə orada .



nümayəndələrinin iştirak etdiyi Berlin konqresi çağırıldı. Uzun müzakirələrdən sonra San-Stefanoda ermənilərlə bağlı qəbul olunmuş 16-cı maddə 61-ci maddə ilə əvəz edildi. 61-ci maddəyə görə rus ordusu Qərbi Ermənistan adlandırılan Osmanlı ərazisini dərhal tərk etməli idi[45].

Ümumiyyətlə bu fakta xüsusi diqqət yetirmək lazımdır ki, ermənilərin yaşadıqları ərazidə çoxluq təşkil etməsi heç bir zaman mövcud olmamışdır. Nə Osmanlı, nə İran, nə də Rusiya ərazisində elə bir vilayət olmamışdır ki, ermənilər əhalinin üçdə birindən çox olsunlar. Faktiki olaraq ermənilər yaşayan vilayətlərdə böyük üstünlüyü türklər, kürdlər və başqa etnik qruplar təşkil etmişlər.[46]

Berlin konqresinə qədər erməni nümayəndə heyətinin Avropada döymədiyi qapı qalmadı. Erməni nümayəndə heyəti İtaliya, Fransa, İngiltərədə öz planlarını gerçəkləşdirə bilmədiklərini yəqin edib Almaniyaya pənah gətirdilər. Konqresin sədri Bismarka erməni nümayəndələrinin onunla görüşmək istədyini bildirdi. Bismarkın cavabı çox sərt oldu: "Bütün erməniləri Pomeranlı bir əsgərin sümüyünə dəyişmərəm". Ermənilərin alman imperatoru I Vilhelmlə görüşmək arzuları da boşa çıxdı. Avropa ölkələrinə danışıqlara gedən erməni nümayəndə heyətinin başçısına: siz konqres iştirakçıları ilə hansı dildə danışacaqsınız sualına cavabında – hamının çox asan başa düşdüyü bir dildə – ağlayıb, göz yaşı tökəcəyəm demişdi. Ermənilərin Avropa ölkələrində apardığı danışıqlar heç bir nəticə vermədi. Berlin konqresini çağıran Avropa dövlətləri öz maraqlarını təmin edən qərarlar qəbul etməklə kifayətləndilər.

Hadisələrin bu şəkildə cərəyan etməsi ilə barışmaq istəməyən ermənilər bu məsələnin həlli yolunu Osmanlı dövlətinə qarşı qiyam və terrora başlamaqda görürdülər. Erməni məsələsini silahlı vasitələrlə həll etməyə çağıran komitə, təşkilat və cəmiyyətlər şəbəkəsi Avropanı, Kiçik Asiyanı, Qafqazı və

[45] Правительственный вестник. СПб. 1878, səh.45.
[46] Джастин Маккарти, Каролин Маккарти. Göstərilən əsəri, səh. 18.

Rusiyanın iri şəhərlərini bürüdü. "Hnçaq" və "Daşnaksütyun" partiyaları terrorçu fəaliyyətə başladılar. 1878-1884-cü illərdə Zeytunda ermənilər tərəfindən iki dəfə silahlı üsyana cəhd göstərildi. 1884-cü ildə Sasunda, 1895-ci ildə Zeytunda və 1896-cı ildə Vanda Osmanlı dövləti əleyhinə silahlı qiyamlar təşkil edildi[47]. Osmanlı dövləti Qərb dövlətlərinin və Rusiyanın təzyiqlərinə baxmayaraq, çətinliklə də olsa bu qiyamları yatıra bildi.

Öz məkrli planlarını Anadoluda reallaşdıra bilməyən erməni dəstələri, Cənubi Qafqazı öz maraq dairələrinə daxil etdilər. Belə ki, yüz minlərlə erməni Osmanlı ərazisindən Azərbaycan torpaqlarına köçərək erməni məsələsini Rusiyanın himayəsi altında daha tez həll etməyə qərar verdilər. Belə ki, əgər 1812-1826-cı illərdə Cənubi Qafqazda 51530 nəfər, yəni bütün əhalinin 9,37 faizi qədər erməni yaşayırdısa, 1897-ci il siyahıyaalmaya görə ermənilərin sayı artaraq 784346 nəfərə çatmışdır[48]. Rəsmi mənbələrin birində qeyd olunur ki, Rusiyanın tərkibinə daxil edilən İrəvan və Naxçıvan əyalətlərində 1829-1832-ci illərdə əhalinin tərkibində kəskin dəyişikliklər hiss olunmağa başladı. Bu əyalətlərdə yaşayan müsəlman əhalisinin böyük bir hissəsi İran və Türkiyəyə köçməyə məcbur oldu. Köçən müsəlman əhalisinin evlərində İrandan 35 min, Türkiyədən isə 22 min erməni əhalisi yerləşdirildi. Halbuki, rus istilasına qədər İrəvan əyalətində müsəlmanların sayı 49875 nəfər, köhnədən yaşayan ermənilərin sayı 20073 nəfər, köçürülən ermənilərin sayı isə 45200 nəfər oldu. Naxçıvan əyalətində isə müsəlmanlar 17138 nəfər, köhnədən yaşayan ermənilər 2690 nəfər, köçürülən ermənilər 10670 nəfər, Ordubad dairəsində müsəlmanlar 7247 nəfər, yerli ermənilər 2398

[47]Лазарев Я.Д. Причины бедствий армян в Турции. Тифлис,1899, səh.93.

[48] Ерицов А.Д. Данные об армянском населении в России. Известия Кавказского Отдела Императорского Русского географического общества. Т. VII, Тифлис, 1881, səh.92-93.



nəfər, köçürülən ermənilər isə 1340 nəfər olmuşdur49. Ermənilər Cənubi Qafqazda, o cümlədən İrəvan quberniyasında azərbaycanlı əhalini öz torpaqlarından sıxışdırıb çıxarmaqla, boşaldılmış torpaqlara erməniləri yerləşdirərək öz mənfur planlarını həyata keçirməyə çalışırdılar. XX əsrin əvvəllərində bu proses daha da sürətləndirildi. M.S. Ordubadi yazırdı: "1905-1906-cı illərdə ermənilər təkcə İrəvan və Yelizavetpol quberniyalarında 200-dən çox müsəlman kəndini dağıdıb yerlə yeksan etmişdilər"50.

Daşnakların dənizdən-dənizə erməni dövləti yaratmaq arzusu I dünya müharibəsi ərəfəsində daha geniş miqyas aldı. Birinci dünya müharibəsi ərəfəsində Osmanlı dövlətinin 3-cü ordusuna rəhbərlik edən Ənvər paşa Ərzurumda erməni liderləri ilə görüşündə yəqin etdi ki, ermənilər müharibə başlanacaq təqdirdə Osmanlı dövlətinə xəyanət edəcəklər. Çünki, çar Rusiyası gələcəkdə müharibənin nəticəsindən asılı olaraq Osmanlı ərazisində erməni muxtar dövlətinin yaradılmasına təminat verməklə, bu ərazidə yaşayan erməniləri Türkiyəyə qarşı müharibəyə cəlb edə bilmişdi. Birinci dünya müharibəsi ərəfəsində çar II Nikolayın Qafqaza gəlişi və ermənilərə osmanlılara qarşı əməkdaşlıq təklif etməsi məsələni daha da ciddiləşdirdi. Çar Tiflisdəki nitqini: "Qoy, rus bayrağı altında üzən gəmilər Bosfor və Dardanel boğazlarında sərbəst hərəkət etsin. Qoy, erməni xalqı Rusiyanın köməyi ilə Osmanlı ərazisində öz müstəqil dövlətini qura bilsin. Çar hökumətinin himayəsi altında qan qardaşlarınızla birləşərək, nəhayət, hürriyyət və ədalət nemətlərinə qovuşacaqsınız. Ermənilərin sədaqətinə inanıram, erməni xalqını xoş gələcək gözləyir. Sizi əmin edirəm, arzunuz yerinə yetiriləcək"[51]! kəlmələri ilə

[49]Гражданское управление Закавказьемь оть присоединения Грузии до наместничества Великого Князя Михаила Николаевича. Тифлис, 1901, səh.229.

[50] Ordubadi M.S. Qanlı illər. B., 1991, səh.69.

[51]Эрих Файгл. Правда о терроре. Армянский терроризм – истоки и причины. B., 2000, səh.37.

bitirdi. Beləliklə, çar II Nikolayın bu qərəzli və təhrikedici çıxışı ermənilərin Rusiya tərəfindən Türkiyəyə qarşı müharibədə iştirak etməsini təmin etdi. Türk torpaqlarının işğalına və əhalisinin məhv edilməsinə hazırlaşan erməni silahlı birləşmələri erməni kilsəsindən xeyir-dua aldılar.

Çarın bu bəyanatından sonra, ermənilərin bir qismi Osmanlı torpaqlarına soxulan rus ordusuna qoşuldu, bir hissəsi isə mallarını və mülklərini sataraq könüllü erməni dəstələrinə yazıldılar. Dinc türk əhalisnə qarşı həyata keçirilən qırğınlarda fəal iştirak edən ermənilər bölgəni yaxşı tanıdıqları üçün həm ruslara bələdçilik edir, həm də təxribatlar törətməklə məşğul olurdular.[52]

1914-cü il noyabrın 1-də rus ordusu Qafqaz istiqamətində Osmanlı sərhədlərini keçdi. Qars, Ərdəhan və Batum uğrunda döyüşlərdə hər iki tərəf böyük itki verdi. Lakin Sarıqamış yaxınlığındakı döyüşdə bir tərəfdən sərt qış, o biri tərəfdən rus ordusunun daha güclü hazırlığı türklərdən 90 min əsgər və zabitin əsir alınması ilə nəticələndi. Rus ordusunun Şərqi Anadoluya daxil olması ermənilərin türklərə qarşı kütləvi qırğın törətməsi üçün şərait yaratdı. Rus ordusunun tərkibindəki ermənilər yerli ermənilərlə birləşərək heç bir günahı olmayan yüz minlərlə dinc əhalini qətlə yetirir və onları öz dədə-baba yurdlarından didərgin salırdılar. 1915-ci ilin yanvarında Sarıqamış, 1916-cı ilin fevralında Ərzurum, martda İsfahan, apreldə Trabzon, mayda Xoy və Dilman, iyunda Ərzincan, avqustda isə Muş rus ordusu və erməni silahlı birləşmələri tərəfindən işğal edildi. Ermənilər müsəlman kəndlərini qarət edir, yandırır, əhalini fərqinə varmadan qılıncdan keçirirdilər. Dinc əhalini zorla evlərə, məscidlərə dolduraraq diri-diri yandırırdılar. Qocaları və uşaqları torpağa basdırır, hamilə qadınların qarnını yırtıb körpələri çıxarıb boğurdular və anaları öz balalarının ətini yeməyə məcbur edirdilər. Kazım Qarabəkir paşa ABŞ generalı Harborda göndərdiyi məktubda yazırdı: "Azad etdiyimiz şəhərdə dəhşətli bir mənzərə ilə rastlaşdım. Şəhərdə sağ qalmış heç kimə rast gəlmədim. Bütün uşaqların bədənləri süngülərlə dəlik-deşik edilib. Qocaları və qadınları zirzəmilərə doldurub diri-diri yandırıblar, gəncləri balta ilə şaqqalayıb asıblar. Həmvətənlərimin bu faciəsi insanın qəlbinə dağ çəkir…"[53]

[52] Yenə orada, səh.59.



Müharibə dövründə Daşnaksütyun partiyası tərəfindən hazırlanmış təlimatlar hər bir erməni əsgərinə ünvanlanmışdı. Təlimatda deyilirdi: "Osmanlı sultanının səfərbərlik elanı ilə silah altına çağrılan ermənilər bu çağırışa uymamalı və ətrafdakı başqa xalqları da orduya qatılmasına mane olmalıdır.

- hansı vasitə ilə olursa-olsun silah altına alınmış ermənilər orduda fərarilik edib erməni könüllü birləşmələrinə qatılmalıdırlar;

- rus qoşunları sərhədi keçər-keçməz bütün erməni silahlı birləşmələri rus ordusuna qoşularaq Osmanlı ordusuna hücum etməlidir;

- cəbhə arxasında iki yaşından yuxarı bütün müsəlmanların hər vasitə ilə qətlə yetirilməsi həyata keçirilməlidir;

- müsəlmanların mal və mülkünü ələ keçirmək və ya yandırıb məhv etmək lazımdır;

- ermənilər tərk edəcəkləri evlərini, əkin sahələrini, kilsə və xeyriyyə evlərini yandırıb bunların müsəlmanlar tərəfindən törədildiyini bütün dünyaya yaymalıdırlar;

- rəsmi dövlət dairələrini məqsədyönlü şəkildə qızışdırmaq, osmanlı zabitlərini və jandarmalarını pusquya salaraq qətlə yetirmək;

- cəbhədən yaralı qayıdan osmanlı əsgərlərini qətlə yetirmək;

- dinc əhalini yaşadıqları ərazilərdən köçməyə məcbur etmək;

[53] Qarabekir Kazım. Ərzincan və Ərzurum qurtuluşu. Ankara, 1990, səh.89.

- bomba və silah emal, tədarük və ya idxal edərək bütün erməniləri silahlandırmaq;

- ermənilərin törətdikləri qiyam və qətliamları müsəlmanların üstünə yıxaraq bunların xaricdə nəşr olunmasına nail olmaq;

- osmanlı ərazisində müttəfiq dövlətlərin xeyrinə casusluq və yönəldici hərəkətlər etmək".[54]

Ermənilərin yerli əhaliyə qarşı həyata keçirdiyi bu qırğınlar Osmanlı dövlətini müəyyən müdafiə tədbirləri görməyə məcbur etdi. Belə ki, 1915-ci il mayın ortalarında Van, Bitlis və Ərzurumdan erməni əhalisi döyüş meydanından uzaqlaşdırıldı. Bununla da türklərin rus və ingilislərə qarşı döyüşlərində ermənilərin neytrallığı təmin edildi. Eyni zamanda, Osmanlı dövlətinin hərbi rəhbərliyi türklərə və digər müsəlmanlara ermənilərə qarşı hər hansı zorakılıq törətməyi qadağan edən göstəriş verdi. 1919-cu il yanvarın 30-da Londonda çıxan "Tayms" qəzeti yazırdı:"Köçürülən erməni əhalisinin gələcəkdə öz evlərinə qayıtması və əmlakına sahib durması üçün Osmanlı hökuməti tərəfindən xüsusi komissiya yaradıldı. Komissiyanın işi erməni əhalisinin siyahıya alınmasından ibarət idi. Komissiyanın sənədlərində dönə-dönə qeyd olunur ki, müharibə başa çatandan sonra erməni əhalisi öz evlərinə qaytarılacaqdır"[55].

Antantanın təbliğat maşını və erməni millətçiləri sübut etmək istəyirlər ki, birinci dünya müharibəsi illərində Osmanlı ərazisində bir milyondan artıq erməni öldürülmüşdür. Bunun üçün fakt kimi müharibəyə qədər Osmanlı ərazisində ermənilərin 2,5 milyon nəfər olduğu göstərilirdi. Halbuki, Osmanlı dövlətinin rəsmi məlumatına görə müharibəyə qədər bu ərazidə 1.300 min erməni yaşayırdı. Göstərilən əhalinin yalnız yarısı döyüş əməliyyatları gedən ərazidə yaşayırdı. Müharibə dövründə yarım milyon erməni Türkiyədən Qafqaza və başqa yerlərə köçmüş, 150-200 min erməni Qərbi Avropa və ABŞ-a mühacirət etmiş və ehtimal etmək olar ki, ölən əhalinin sayı 200 min nəfər olmuşdur. Təbii ki, bu rəqəmin içində təkcə köçürmə nəticəsində ölənlər yox, aclıqdan, soyuqddan ölənlər və itkin düşənlər də vardır. "Tayms" qəzeti yazır: "Bu bir danılmaz həqiqətdir ki, müharibə illərində osmanlı ərazisində iki milyon türkün həyatına son qoyulmuşdur"[56].

Erməni ideoloqları dünyanı inandırmaq istəyir ki, guya 1915-ci il aprelin 24-də daxili işlər naziri Tələt paşa erməni əhalisinin dövlət səviyyəsində qırılmasına dair yazılı göstəriş vermişdir. Bu günə qədər erməni ideoloqları həmin sənədin əslini fakt kimi heç kimə göstərə bilmirlər. Ona görə ki, belə bir sənəd, ümumiyyətlə, yoxdur.

Erməni təbliğatı ilə bağlı ingilis jurnalisti Skotland-Liddelin söylədiyi fikirlər necə də yerinə düşür. 1918-1920-ci illərdə Cənubi Qafqazda baş verən hadisələri yaxından izləyən jurnalist yazır: "Ermənilər həmişə özlərinə savaş axtarırlar, təbliğatlarında bunu sıxışdırmaq kimi qələmə verirlər. Əslində bu, onların özlərinin qazandıqları cəzadır. Daşnaklar üçün öldürülmüş erməni çox qiymətlidir. Bu ölüm hadisəsi təbliğat üçün çoxlu xeyir gətirə bilər". Skotland Liddel Nuru paşanın aşağıdakı söhlərini misal gətirir: "Ermənininin nə vaxt və necə ölməsindən asılı olmayaraq başını məzardan qaldırır və qışqırır: mən kütləvi qırğın zamanı öldürülmüşəm".[57]

1920-ci ildə Qərb dövlətlərinin Osmanlı dövlətini parçalamaq planı təbliğ olunan dövrdə Aram Andonyanın "Ermənilərin kütləvi şəkildə öldürülməsi haqqında rəsmi sənədlər" adlı saxta əsəri də bir neçə dildə işıq üzü gördü. Aram Andonyan hamını inandırmaq istəyirdi ki, ingilis qoşunlarının Aleppoya hücumu dövründə o, osmanlı çinovniki Naim bəylə görüşmüş və daxili işlər naziri Tələt paşanın

[54] Малевил Ж. Армянская трагедия 1915 года. Б., 1990, səh.40.

[55] "Tayms", 30 january 1919; bax: " Армянский геноцид" миф и реальность. Б., 1992, səh.71.

[56] Эрих Файгл. Göstərilən əsəri, səh.57.

[57] ARDA, f.894, siy.10, iş 81. vər. 10.

ermənilərin kütləvi şəkildə öldürülməsi haqqında şifrəli əmrini ondan almışdır. İngilis dilində nəşr olunmuş kitabda 48 "rəsmi osmanlı sənədi" verilmişdir. Halbuki, fransız nəşrində bu rəsmi sənədlərin məzmununda, həm də çapında fərq vardır. Andonyanın "rəsmi sənədləri" içərisində 14 şəkil verilmişdir. Müəllifdən şəkillərin əsli tələb olunduqda, o bunları itirdiyini bildirmişdi. Andonyanın sənədlərinin saxta olduğu heç kimə sirr deyil. Çünki müəllif bu saxta sənədləri tərtib edərkən müsəlman dövlətləri üçün məcburi etiket qaydasını belə yaddan çıxarmış, "allahın adı ilə başlanan ifadələri" unutmuşdur. İkincisi, Andonyan saxta sənədlərə tarix qoyarkən müsəlman təqvimi əvəzinə rum təqvimindən istifadə etmişdir. Bir sözlə, Andonyanın bu saxtakarlığı hamıya məlumdur. Lakin bu saxat "sənədlər" bir çox qərb dövlətlərinin maraqlarını təmin etdiyinə görə siyasi dairələrin diqqət mərkəzindədir.[58]

1919-cu il Paris sülh konfransı dövründə Osmanlı rəhbərlərinin gizli yazışmaları diqqətlə yoxlanıldıqdan sonra ermənilərin kütləvi surətdə öldürülməsi haqqında heç bir sənəd və əmr tapılmadı. Əksinə, Avropadan gələn məmurlar belə faktla rastlaşdılar ki, köçürülən erməni əhalisinin təhlükəsizliyini təmin etmək üçün Osmanlı dövləti tərəfindən onlarla əmr və göstəriş verilmişdir.

Amerika tarixçisi Stenford Corc Şou yazırdı: "Osmanlı ərazisində müsəlman əhalisinə qarşı ilk qırğınlar 1915-ci il mayın 14-də Van şəhərində rus ordusunun iştirakı ilə erməni dəstələri tərəfindən törədildi. İki gün ərzində şəhərin müsəlman əhalisi qılıncdan keçirilərək onlara olmazın işgəncələr verildi. Osmanlı ərazisində rus ordusunun himayəsi altında "Erməni Van dövləti" yaradıldı[59]. Van soyqırımından sonra erməni və rus birləşmələrinin Bitlis vilayətinə hücumları başladı. Mosula qədər böyük bir ərazi erməni daşnak qüvvələrinin işğalı altına düşdü. 1915-ci il

[58] Эрих Файгл. Göstərilən əsəri, səh.80-81.
[59] Yenə orada, səh.59.



iyulun ortalarına qədər Van ərazisinə 250 min erməni köçürüldü. Halbuki, bu ərazidə 50 mindən artıq erməni yaşamamışdı[60].

1915-ci il iyulun ortalarından etibarən ermənilərin bu ərazilərdə törətdikləri cinayətlərin sayı-hesabı yox idi. İyulun ortalarından sonra Osmanlı ordusunun əks hücumu nəticəsində geri çəkilən rus-erməni ordusu ilə birlikdə erməni əhalisi də bu əraziləri tərk etməyə başladı. 200 minlik erməni əhalisi rus ordusunun müşaiyəti ilə Cənubi Qafqaz istiqamətinə üz tutdu. Düzdür, bir çox yerlərdə bu əhali kürdlərin hücumlarına məruz qaldı. Çünki kürdlər də erməni soyqırımına məruz qalanlardan idilər.

Birinci dünya müharibəsi illərində erməni-osmanlı münasibətlərinə dair həm obyektivlik baxımdan, həm də sənədlərin əksəriyyəti qeyri-müsəlman müəlliflərinə məxsus olduğuna görə ABŞ konqresi kitabxanasında saxlanılan "Bristolun sənədləri" diqqəti cəlb edir[61]. Bu külliyyatda qeyd olunur ki, "dəqiq statistik mənbələrdən məlumdur ki, 1912-1922-ci illər ərzində 600 minə yaxın erməni həlak olmuşdur. 1,5-2 milyon ermənin ölümü ilə bağlı fikirlər fərziyyədən başqa bir şey deyildir. Müharibə gedən ərazidə insanların ölümü və itkin düşməsi adi bir haldır"[62]. Bristolun sənədlərində göstərilir ki, qeyd olunan dövrdə isə 2,5 milyon türkün həyatına son qoyulmuşdur. Türklərin ölümü və öldürülməsi ermənilərdən daha faciəli olmuşdur.

Yuxarıdakı faktlardan belə nəticəyə gəlmək olar ki, I dünya müharibəsi illərində Osmanlı ərazisində soyqırıma məruz qalan ermənilər yox, türk-müsəlman əhalisi olmuşdur. Osmanlı ərazisində öz mənfur planlarını həyata keçirə bilməyən erməni silahlı dəstələri geri çəkilərək Azərbaycanın cənubunda, qərbində və şimalında türk-müsəlman əhalisinə qarşı kütləvi qırğınlara başladılar.

[60] Yenə orada, səh.81.
[61] Джастин Маккарти. Армяне в Османской империи и современной Турции (1912-1926), Стамбул, 1984, səh.23.
[62] Yenə orada.

## II FƏSİL

# FEVRAL İNQİLABINDAN ZAQAFQAZİYA SEYMİNİN SÜQUTUNA QƏDƏR

### Xüsusi Zaqafqaziya Komitəsi və Zaqafqaziya Komissarlığı

Birinci dünya müharibəsinin axırlarına yaxın Rusiyada baş vermiş fevral burjua inqilabı 300 ildən artıq hökmranlıq edən Romanovlar sülaləsini devirdi, zülm və əsarət altında inləyən məzlum xalqların öz müqəddaratını təyin etməsi üçün imkan yarandı. Qafqaz cəbhəsində Rusiya və Osmanlı arasında gedən hərbi əməliyyatlar Azərbaycanda iqtisadi, sosial-siyasi həyata ağır təsir göstərməklə bərabər, əsrin əvvəllərindən burada dərinləşən milli-demokratik prosesi, muxtariyyət ideyasını və son nəticədə müstəqilliyə olan meyli xeyli gücləndirdi.

Fevral inqilabından az sonra martın 3-də Rusiya Dövlət Dumasının Cənubi Qafqazdan olan deputatlarının təşəbbüsü ilə Tiflisdə Zaqafqaziyanın İdarəsi Üzrə Xüsusi Komitə yaradıldı. Bu komitə regionun əsas millətlərini Dövlət Dumasında təmsil edən deputatlardan ibarət idi. Komitəyə V.Xarlamov sədr, M.Papacanov, M.Cəfərov, K.Abaşidze və P.Pereverzev üzv təyin edildilər[63]. Müvəqqəti hökumətin qərar və təlimatlarına uyğun olaraq, komitəyə geniş hüquq və səlahiyyətlər verildi. Yəni, Zaqafqaziyanın İdarəsi Üzrə Xüsusi Komitə Müvəqqəti hökumətin idarə orqanı funksiyasını yerinə yetirməyə başladı. Xüsusi Zaqafqaziya Komitəsində Cənubi Qafqaz xalqları bərabər təmsil olunmadığı və aqrar məsələdə ardıcıl mövqe tutmadığına görə o güclü dövlət orqanı funksiyasını yerinə yetirə bilmədi.

[63] Адрес-Календарь Азербайджанской Республики на 1920 г. səh.8.



1917-ci il martın əvvəllərində Bakıda Müvəqqəti hökumətin ali hakimiyyət orqanı kimi İctimai Təşkilatların İcraiyyə Komitəsi yaradıldı. Buraya həm fəhlə deputatları Sovetlərinin, həm də şəhər dumasının və ictimai təşkilatların nümayəndələri daxil oldu. İcraiyyə Komitəsinə azərbaycanlı əhalinin təmsilçiləri M.H.Hacınski və M.Ə.Rəsulzadə daxil oldular.[64]

Rusiyanın başqa sənaye mərkəzlərində olduğu kimi, Bakıda da fəhlə və əsgər deputatları sovetinin yaradılmasına başlandı. 1917-ci il martın 7-də 52 deputatdan ibarət Bakı Deputatları Soveti formalaşdı. Sovetin tərkibi qeyri-azərbaycanlılardan ibarət idi[65]. S.Şaumyan Bakı Sovetinə qiyabi olaraq sədr seçildi. Cənubi Qafqazın başqa şəhərlərindən fərqli olaraq Bakıda sovet nisbətən güclü idi.

Müvəqqəti hökumətin milli proqramını Rusiyanın bölünməzliyi prinsipi təşkil edirdi. Daha nüfuzlu partiyalar olan kadet, eser və menşeviklər milli məsələnin həllini gələcəkdə çağırılacaq Müəssislər Məclisinə həvalə edir, burada milli-mədəni muxtariyyət prinsiplərini müdafiə edəcəklərini bəyan edirdilər.

Fevral inqilabından sonra açıq fəaliyyətə keçmiş "Müsavat" partiyası Azərbaycanda siyasi qüvvələr arasında daha çox diqqəti cəlb edirdi. "Müsavat" partiyası federativ Rusiya tərkibində Azərbaycana milli-ərazi muxtariyyəti və 20 yaşına çatmış azərbaycanlı vətəndaşlara seçki hüququ verilməsi ideyasını irəli sürürdü. Gəncədə N.Yusifbəylinin başçılıq etdiyi "Türk ədəmi-mərkəziyyət" partiyası, Əlimərdan bəy Topçubaşovun və Fətəli xan Xoyskinin başçılıq etdikləri Müstəqil Demokratik qrup, RSDFP-nin yerli təşkilatı – "Hümmət", Gəncədəki "İttihadi-İslam" partiyası ilə Bakıdakı Rusiya müsəlman partiyasının üzvlərindən yaranmış "İttihad" partiyası fəaliyyətini genişləndirdilər. N.Yusifbəylinin rəhbərlik etdiyi partiya Rusiya dövlətinin muxtar ərazilərin federasiyasına çevrilməsi

[64] Yenə orada, səh.21.
[65] Yenə orada, səh.23.

ideyası ilə çıxış edirdi. İttihadi-İslam partiyasının əməli fəaliyyətinin və nəzəri baxışlarının bünövrəsi islama əsaslanan ittihad – birlik idi. İslamı yalnız din deyil, siyasi, iqtisadi, hüquqi, mənəvi norma kimi qiymətləndirən ittihadçılar, onu müsəlman həyatının özülü, əsas strukturu hesab edir, inkişaf yolunu isə məhz islam normalarını təkmilləşdirmək vasitəsilə həyata keçirməkdə görürdülər.

Milli qüvvələrin Azərbaycanın gələcəyinə münasibəti 1917-ci il aprelin 15-20-də Bakıda keçirilən Qafqaz müsəlmanlarının qurultayında açıqlandı. Qurultay Qafqaz müsəlmanlarının Müvəqqəti hökumətə, habelə müharibəyə və Rusiyanın digər xalqlarına münasibəti məsələlərini müzakirə etdi. Qafqaz müsəlmanlarının qurultayı Rusiya müsəlmanlarının siyasi həyatında mühüm rol oynadı, siyasi hadisələrin həmin mərhələsində onların mənafelərini ifadə edərək, Rusiya müsəlmanları üçün milli hərəkatın gücləndirilməsi yollarını, demokratik respublika prinsiplərinə söykənən dövlət quruluşu seçimini müəyyənləşdirdi. "Müsavat" və Türk ədəmi-mərkəziyyət partiyaları Rusiyanın demokratik federativ respublikaya çevrilməsi və Azərbaycana geniş ərazi–milli muxtariyyətinin verilməsi haqqında qərar layihəsi ilə çıxış etdilər. Lakin islamçılar (ittihadçılar), sosialistlər, bolşeviklər və menşeviklər Rusiyanın ərazi bütövlüyünün qorunmasına tərəfdar çıxdılar.[66]

Həmin il mayın 1-11-də Ümumrusiya müsəlmanlarının Moskva qurultayında "Rusiya daxilində millətlərə ərazi-milli muxtariyyət" şüarı demokratik qüvvələr tərəfindən müdafiə olundu. Qurultayın müzakirə etdiyi ən mühüm məsələlərdən biri Rusiyanın gələcək dövlət idarə üsulu haqqında idi[67].

1917-ci ilin oktyabrında Bakıda "Türk ədəmi-mərkəziyyət" partiyası ilə "Müsavat"ın birləşməsi prosesi başa çatdı. "Müsavat"ın proqramında demokratik, federativ Rusiya tərkibində Azərbaycana geniş ərazi-milli muxtariyyət tələbi təsbit edildi.[68]

[66] ARDA f. 524, siy. 1, iş 15, v. 13 .
[67] "Kaspi" qəzeti, 16 aprel 1917, № 84.



1917-ci ilin payızına doğru siyasi nüfuza malik milli-demokratik qüvvələr milli dövlət tələbi ilə çıxış edərək, başqa qeyri-rus xalqları ilə bir sırada öz ümidlərini Müəssislər Məclisinə bağlamışdılar.

Bolşeviklərin həyata keçirdiyi 1917-ci ilin oktyabr çevrilişi xalqların milli müstəqilliyə olan ümidlərini daha da artırdı. Bu ümidlər xeyli dərəcədə bolşeviklərin hakimiyyətə gəldikləri ilk günlərdən başlayaraq elan etdikləri mühüm sənədlərlə bağlı idi. Bolşeviklərin qəbul etdikləri "Sülh haqqında dekret", "Rusiya xalqlarının hüquq bəyannaməsi", "Rusiya və Şərqin bütün müsəlman zəhmətkeşlərinə" müraciətnamələri ilk addım kimi, keçmiş imperiyaya daxil olan xalqların azad surətdə ayrılıb öz müstəqil dövlətlərini yaratması üçün hüquqi təminat verirdi.[69] Lakin az sonra məlum oldu ki, bu sənədlər reallıqdan uzaq olub daha çox təbliğat xarakteri daşıyır.

Bakı Sovetinin İcraiyyə Komitəsi S.Şaumyanın planına uyğun olaraq, milli partiyaların cəmiyyətdə artan nüfuzunun qarşısını almaq, onların seçkilərdə iştirakını zəiflətmək məqsədilə seçkilərin keçirilməsi vaxtı haqqında axırıncı günə qədər heç bir məlumat vermədi. Bütün bu maneələrə baxmayaraq, oktyabrın 22-də Bakı Sovetinə keçirilən seçkilərdə "Müsavat" eserləri, menşevikləri, bolşevikləri və daşnakları geridə qoyaraq böyük üstünlüklə qələbə əldə etdi[70]. Bu seçkilərdə Müsavat partiyası 25 min seçicidən 9617 nəfərin, yəni bütün seçicilərin 40 faizinin səsini qazanmış oldu. Halbuki, əlverişli şəraitdə seçki keçirən bolşeviklər 3823, eserlər 6305, menşeviklər 687, daşnaklar isə 528 seçicinin səsini ala

[68] Yenə orada.
[69] Всероссийское учредительное собрание (1917 год в документах и материалах). Москва-Ленинград, 1930, səh.54
[70] Адрес-Календарь… səh.19

bildilər.[71] Oktyabrda Bakı Sovetinə keçirilən seçkilər qüvvələr nisbətinin hansı partiyanın xeyrinə olduğunu nümayiş etdirdi. Bu seçkilərdən sonra "Müsavat" partiyası Azərbaycanda hakimiyyət strukturlarının formalaşdırılması prosesinə ciddi təsir göstərməyə başladı.

1917-ci il noyabrın 11-də Tiflisdə Cənubi Qafqazın əsas siyasi qüvvələrini təmsil edən gürcü menşevikləri, "Müsavat", "Daşnaksütyun" və sağ eserlər yığıncaq çağıraraq Rusiyadakı bolşevik hökumətini tanımaqdan imtina etdilər. Yığıncaqda Ümumrusiya Müəssislər Məclisi tərəfindən hakimiyyət məsələsi həll edilənə qədər regionu idarə etmək üçün "Müstəqil Zaqafqaziya hökuməti"nin (Zaqafqaziya Komissarlığı) yaradılması qərara alındı. Noyabrın 15-də Tiflisdə yeni hökumətin tərkibi elan edildi. Ona gürcü menşeviki E. Gegeçkori sədrlik edirdi. Daxili işlər və hərbi nazirliklərə D.Donskoy, maarif nazirliyinə F.X.Xoyski, ədliyyə nazirliyinə S.Alekseyev-Mesxiyev, ticarət və sənaye nazirliyinə Məmməd Yusif Cəfərov, yollar nazirliyinə Xudadat bəy Məlikaslanov, qanunlara nəzarət nazirliyinə Xəlil bəy Xasməmmədov, əkinçilik, dövlət əmlakı və dini işlər nazirliyinə A.B.Neruçev, maliyyə nazirliyinə X.Korçikyan, himayəçilik nazirliyinə A.Ohancanyan, ərzaq malları nazirliyinə A.Ter-Qazarov başçılıq edirdilər.[72] Noyabrın 26-28-də Qafqaz regionundan Ümumrusiya Müəssislər Məclisinə seçkilər keçirildi. Seçkilərdə Cənubi Qafqazın əsas siyasi partiyaları gürcü menşevikləri–661,934 səs, "Müsavat" partiyası –645,816 səs, "Daşnaksütyun" partiyası–558,400, müsəlman sosialist bloku–159,770 səs, eserlər–117,522 səs, bolşeviklər–95,581 səs, "Hümmət"–84,748, "İttihad"–66,504 səs topladılar.[73] Seçkilərin nəticələrinə görə gürcü menşevikləri 11 yer, müsavatçılar 10 yer, daşnaklar 9 yer, müsəlman sosialist bloku 2 yer, bolşeviklər, ittihadçılar və eserlər hərəyə 1

[71] Yenə orada.
[72] Адрес-Календарь…. səh.3.
[73] Yenə orada, səh.4-5.



yer əldə etdilər. Rusiya Müəssislər Məclisinə Cənubi Qafqazdan 34 deputat seçildi, onlardan 12 nəfəri müsəlman idi[74].

Xüsusi Zaqafqaziy Komitəsi ilə müqayisədə Zaqafqaziya Komissarlığı müstəqilliyə doğru daha bir addım idi. Lakin onun icra orqanları Cənubi Qafqazda vəziyyəti sabitləşdirmək üçün gücsüz idi. Regionun hər üç milləti və partiyaları komissarlıqda təmsil olunduqları üçün onlar öz Milli fraksiyalarını yaratdılar. Noyabrın axırlarında M.Ə.Rəsulzadənin rəhbərliyi ilə Azərbaycan Milli Fraksiyası yaradıldı. Komissarlığın qəbul edəcəyi qərarlar əvvəlcə fraksiyaların iclaslarında müzakirə olunur, sonra qərar çıxarılırdı.

Özünü Cənubi Qafqazın müvvəqqəti hökumət orqanı elan etmiş Zaqafqaziya Komissarlığı regionun ərazi bütövlüyünü qoruyub saxlamağı özünün xarici siyasətinin başlıca vəzifəsi hesab edirdi. Lakin ilk gündən Komissarlığın xarici siyasətinə münasibətdə milli fraksiyalar arasında fikir ayrılığı mövcud idi və bu ziddiyyətlər sonralar daha da dərinləşdi. Seçkilərin gedişində aydın oldu ki, Azərbaycan əhalisinin böyük əksəriyyəti "Müsavat"ın irəli sürdüyü ərazi muxtariyyəti ideyasını müdafiə edir.

Zaqafqaziya Komissarlığının təşkilindən sonra Osmanlı və Rusiya qoşunları arasında anlaşılmaz bir vəziyyət yarandı. Çünki Komissarlığın özünü müdafiə edə bilən ordusu yox idi. Digər tərəfdən, Zaqafqaziya Komissarlığı fraksiyalarının Osmanlı dövlətinə münasibəti də birmənalı deyildi: müsəlman fraksiyası osmanlılara qarşı vuruşmağın əleyhinə idi, gürcülər türklərlə sazişə girməyi məqbul sayırdılar, ermənilər isə bu barədə qəti qərara gələ bilmirdilər. Qafqazda hərbi əməliyyatların dayandırılmasında maraqlı olan və bu məqsədlə vasitəçilər axtaran Rusiya üçün əlverişli fürsət yaranmışdı; nəhayət, 1917-ci il dekabrın 5-də Ərzincanda Zaqafqaziya Komissarlığı ilə Osmanlı dövləti arasında barışıq imzalandı. Barışığın şərt-

[74] Всероссийское учредительное собрание (1917 год в документах и материалах), səh.53.

lərinə görə onun maddələri sülh müqaviləsi bağlanana qədər tərəflərin hər biri üçün məcburi idi: Osmanlı Baş komandanlığı Ərzincan barışığını sovet Rusiyası ilə deyil, Zaqafqaziya Komissarlığı ilə imzalamaqla, dolayısı ilə onu rəsmi tərəf kimi tanımış olurdu. Ərzincan barışığından sonra Rusiyanın Qafqaz cəbhəsi dağıldı, rus qoşunları işğal altında saxladıqları Şərqi Anadolu torpaqlarını tərk edərək geri çəkilməyə başladılar. Başıpozuq rus ordusu geri çəkilərkən silahlarının xeyli hissəsini Azərbaycan və Anadolu türklərinə qarşı soyqırımı həyata keçirən erməni-daşnak hərbi dəstələrinə verdilər.[75]

Dekabrın 19-da Zaqafqaziya Komissarlığı Qafqazdakı rus ordusunun tərxis olunması və bu əsasda milli qoşun hissələrinin təşkil edilməsi haqqında sərəncam imzaladı. İlk addım kimi, üç piyada diviziyasından, atlı briqadadan və ərazi polklarından ibarət olan erməni ordusu yaradıldı. Erməni və gürcü milli ordu hissələrinin yaradılması bir qədər asan idi, çünki Qafqaz cəbhəsində rus ordusunun tərkibində kifayət qədər erməni və gürcü könüllü hərbi dəstələri fəaliyyət göstərirdi. Zaqafqaziya cəbhəsində tərxis olunmuş əsgərlərin əksəriyyəti erməni idi. Onlar təkcə silah satmır, həm də bu orduya yazılırdılar. Digər tərəfdən, çar ordusunda qulluq edən silahlı erməni partizanları müsəlmanlara qarşı təbliğat aparmaqla məşğul idilər. Erməni Milli Şurası kifayət qədər var-dövlətə malik olduğu üçün Qafqaz cəbhəsindən tərxis olunmuş rus əsgərlərindən çoxlu miqdarda silah ala bildi.[76]

Azərbaycanlılardan ibarət ordu hissələrinin yaradılması isə ciddi çətinliklərlə üzləşdi. Ordu yaradılması ilə bağlı Müsəlman Milli Şurasının vəziyyəti ermənilər və gürcülərlə müqayisədə o qədər də ürəkaçan deyildi. Əvvəla, Qafqaz ordusunda azərbaycanlı əhali xidmət etmirdi. Çünki Rusiyada 1874-cü

---

[75] Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. İstanbul, 1975; Bakı, 1992. səh.58.
[76] Сеф С.Е. Как большевики пришли к власти в 1917-1918гг. в Бакинском районе. Б., 1927, səh.16.



ildən tətbiq olunmuş ümumi hərbi mükəlləfiyyət 1886-cı ildə Cənubi Qafqaza şamil edilsə də azərbaycanlılar hərbi xidmətə çağırılmadı, çünki çar hakimiyyət orqanları müsəlmanlara etibar etmirdi. Hökumət 1887-ci ildə orduya səfərbərlik əvəzinə azərbaycanlılar üzərinə hərbi vergi qoydu. Beləliklə, azərbaycanlı əhali bilərəkdən hərbi xidmətdən kənarda qaldı. Köhnə rus ordusunda ayrıca müsəlman hissəsi yox idi. Rus ordusunun tərkibində müsəlman əsgərləri olmadığından milli ordunun yaradılması mümkünsüz idi. Azərbaycanın ordu ilə bağlı problemlərini qabaqcadan görə bilən siyasi xadimlər fevral inqilabından sonra Rusiyanın Müvəqqəti hökumətinə müraciət edərək milli ordunun yaradılmasına icazə istəmişdilər. Lakin bu müraciətə müsbət cavab verilməmişdi. Zaqafqaziya Komissarlığının qərarından sonra Müsəlman Milli Şurasının təşəbbüsü ilə Gəncədə, Bakıda, Lənkəranda və Tiflisdə müsəlman hərbçilərinin yığıncaqları keçirildi. Milli hissələrin yaradılması üçün radikal addımların atılması, məsələn, 1918-ci il yanvarın əvvəllərində Şamxor stansiyasında rus əsgərlərinin tərksilah edilməsi bir tərəfdən Bakı Soveti rəhbərliyi, digər tərəfdən isə Erməni Milli Şurası və gürcülərin müəyyən dairələri tərəfindən böyük narazılıqla qarşılandı. Halbuki, bunun üçün heç bir əsas yox idi: cəbhədən qayıdan rus əsgərlərinin tərksilah edilməsi haqqında qərarı Zaqafqaziya Komissarlığı çıxarmışdı. Məlum olduğu kimi, Zaqafqaziya Komissarlığının cəbhənin silahlarının Cənubi Qafqaz hüdudlarından kənara çıxarılmaması haqqında qərarı müsəlman, erməni və gürcü milli şuraları tərəfindən rəğbətlə qarşılanmışdı. Zaqafqaziya Komissarlığı Qafqaz cəbhəsinin Baş Qərərgahından tələb etdi ki, ordunun bütün əmlakı və silahı yenicə yaradılmaqda olan milli şuralara təhvil verilsin. Zaqafqaziya Komissarlığının gürcü rəhbərliyi ordu hissələrinin Tiflis şəhərinə daxil olmasına icazə vermədi və onların Gəncə istiqamətindən Bakıya, oradan isə Şimali Qafqaz yolu ilə Rusiyaya keçməsini təklif etdi. Zaqafqaziya Komissarlığı nəzərdə tuturdu ki, Azərbaycandan keçən rus ordusunun bir

qrupu silahlarını Şamxor və Dəllər stansiyasında könüllü surətdə Gəncədən gələn Müsəlman Milli Şurasının üzvlərinə təhvil verməlidir. İlk əvvəl tərksilah öz qaydası ilə gedirdi. Tərksilah olunmuş əsgərlərə Bakıya getmək üçün şərait yaradıldı. Bu işə doktor Rəfibəyov və Səfikürdski rəhbərlik edirdilər. Lakin yanvarın 9-dan sonra eşelonlar tərksilahdan imtina etdilər. Tiflisdən eşelonları müşayiət edən gürcü Abxazavla və müsəlman korpusunun komandiri Maqalovla əsgərlər arasında toqquşma başlandı. İdarə olunmayan əsgərlər eşelonlardan artilleriya atəşi ilə yüzlərlə Azərbaycan kəndini yandırıb, müsəlman əhalisini isə məhv etdilər.



## ZAQAFQAZİYA SEYMİ

1918-ci ilin əvvəllərində regionda heç bir nüfuzu olmayan Zaqafqaziya Komissarlığı özünü buraxmaq məcburiyyətində qaldı. 1918-ci il yanvarın 5-də Ümumrusiya Müəssislər Məclisi öz işinə başlamalı idi. Cənubi Qafqazdan seçilmiş deputatlar yol bağlı olduğu üçün Rusiyaya gedə bilmədilər. Bir azdan məlum oldu ki, bolşevik Rusiyası Müəssislər Məclisinin fəaliyyətinə qadağa qoymuşdur. Cənubi Qafqazdan seçilmiş deputatlar bir neçə mülahizəni əsas tutaraq 1918-ci il fevralın 14-də Tiflisdə Zaqafqaziya Seyminin yaradılması və hakimiyyətin bu orqana verilməsi haqqında qərar qəbul etdilər. Seym Rusiya Müəssislər Məclisinə seçkilər zamanı hər partiyanın aldığı səsin sayına müvafiq olaraq Zaqafqaziya Seymindəki deputatların sayını artırmağı qərara aldı.1918-ci il fevralın 23-də üç əsas partiya ("Müsavat", menşevik, "Daşnaksütyun") fraksiyalarının nümayəndələrindən ibarət olan Zaqafqaziya Seymi öz işinə başladı. Seymdə Azərbaycan tərəfini 30 nəfər müsavatçı və onlara qoşulmuş bitərəf demokratlar, 7 nəfər Müsəlman sosialist bloku, 3 nəfər İttihadçı və 4 nəfər menşevik-hümmətçi təmsil edirdi. Zaqafqaziya Seymində Azərbaycanın siyasi partiyalarının 44 nümayəndəsi var idi.[77] Onlardan hümmətçi-menşeviklər gürcü fraksiyasına daxil olmuş, qalanları isə müsəlman fraksiyasında birləşmişdilər. Müsəlman fraksiyası gürcü və erməni fraksiyalarından fərqli olaraq, çox dağınıq şəkildə fəaliyyət göstərirdi.

Daşnak-bolşevik birləşmələrinin türk-müsəlman əhalisinə qarşı törətdikləri qırğınlar Zaqafqaziya Seymindəki Azərbaycan nümayəndələrini qəti addım atmağa məcbur edirdi. Seymdəki azərbaycanlıların Şaumyan başda olmaqla Bakıdakı quruma və müharibəyə münasibətdə mövqeyi erməni və

[77] Адрес-Календарь… səh.31.

gürcülərdən fərqlənirdi: başlıcası isə bu idi ki, osmanlıların Qafqazdakı siyasəti azərbaycanlıları tamamilə təmin edirdi. Aprelin 7-də Seymin müsəlman fraksiyalarının ("Hümmət"dən başqa) fövqəladə iclasında Azərbaycanda yaranmış mürəkkəb vəziyyət ətraflı müzakirə olundu. Çıxış edənlər əsasən menşeviklərdən ibarət olan Tiflis hökumətinin Bakı bolşevikləri ilə əlbir olub, Bakı istiqamətinə göndərilən azsaylı qüvvəni lazımi silah və sursatla təmin etmədiyini, V.Leninlə gizli danışıqlar apardığını və müsəlman qırğınlarının artdığını narahatlıqla qeyd edərək qəti tədbirlər görmək vaxtının çatdığını göstərdilər. Qərara alındı ki, başqa fraksiyaların nümayəndələri ilə Zaqafqaziya seyminin birgə iclası çağırılsın və müsəlman nazirlərinin istefası məsələsi qoyulsun. Qafqazın müstəqilliyinin elan edilməsi məsələsində müsəlman fraksiyasının qəti fikri Seymdə təmsil olunmuş bütün partiyaların nəzərinə çatdırılsın. Seymdəki çıxışında müsəlman sosialist blokunun lideri Səfikürdski deyirdi: "Əgər Şamxor hadisələrindən sonra Zaqafqaziya hökuməti Bakı üzərinə hücuma keçsəydi, mart qırğını baş verməzdi. Biz Zaqafqaziya hökumətindən xahiş edirik: bizim müdafiə olunmağımıza və Şaumyan başda olmaqla bolşevizmin ləğv edilməsinə kömək etsin. Əgər Zaqafqaziya hökuməti mövcuddursa, biz ondan tələb edirik ki, haqq işimizi müdafiə etsin. Əgər hökumət bu faciə ilə bağlı qəti tədbir görməzsə, biz özümüz onları məhv edəcəyik. Bizim tariximizdə çoxlu qanlar tökülüb, onların çoxu qanla yazılıb, biz bunu da tarixə qanla yazacağıq".[78] Həmin iclasda M.Ə.Rəsulzadə nitqinə hökuməti ittiham edən çıxışla başladı: "Əgər Zaqafqaziya hökuməti və Zaqafqaziya Seymi bu andan etibarən müsəlman sosialist blokunun tələbini təmin etməsə, bizim burada sakit oturub bir yerdə işləməyimiz yolverilməzdir".[79] Azərbaycan nümayəndələrinin ultimativ tələbləri Seymdə çaxnaşma saldı.

[78] ARDA, f. 970, siy. 1, iş 1. vər. 19-22.
[79] ARDA, f. 970, siy. 1, iş 1. vər. 2-24.



1917-ci ilin axırlarında Almaniya və onun müttəfiqləri Rusiyanı döyüşən cəbhələrdən geri çəkilməyə və öz torpaqlarının bir hissəsindən imtina etməyə məcbur etdilər. 1918-ci il martın 3-də Brest-Litovskda Sovet Rusiyası ilə Almaniya arasında bağlanmış müqaviləyə görə Qərbi Ukrayna və Qərbi Belorusiya torpaqları Almaniyaya, rusların Qafqaz cəbhəsində işğal etdikləri Qars, Ərdahan, Batum isə Osmanlı dövlətinə keçirdi. Əslində Rusiya bu müqaviləni imzalamaqla vaxtilə Osmanlı ərazisində "Türkiyə Ermənistanı" yaratmaq haqqında Leninin S.Şaumyana vermiş olduğu 11 yanvar 1918-ci il 13 saylı dekretdən imtina etməyə məcbur oldu. Digər tərəfdən, həmin günlərdə Osmanlı nümayəndə heyətinin başçısı Seymdən Brest-Litovsk barışığının tanınmasını, həm də Türkiyə ilə müzakirələr aparmaq üçün Rusiyadan ayrılaraq özünü müstəqil dövlət elan etməsini tələb etdi. Aprelin 10-da Zaqafqaziya nümayəndə heyəti Brest müqaviləsinin şərtlərini qəbul etməyə və bu əsasda danışıqları davam etdirməyə hazır olduğunu bildirdi. Lakin Seymdə bu məsələ kəskin mübahisələrə səbəb oldu. Gürcü deputatları Osmanlı dövləti ilə müharibəni davam etdirmək üçün bütün qüvvələri səfərbərliyə almağı və kömək üçün Rusiyaya müraciət etməyi təkid edirdilər. Erməni fraksiyası müharibəni axıra qədər davam etdirmək və Osmanlı dövlətini məğlub etmək üçün hər cür vasitələrə əl atmaq təklifini irəli sürürdü. Erməni fraksiyası Seym qüvvələrinin geri çəkilməsinin bütün günahını Azərbaycan nümayəndələrində görürdü. Beləliklə, Osmanlı dövləti ilə Zaqafqaziya Seymi arasında martın 14-də başlanan Trabzon konfransı heç bir qərar qəbul etmədən erməni və gürcü nümayəndə heyətinin tələbi ilə yarımçıq dayandırıldı. Trabzon konfransına qoşulan Zaqafqaziya Seymi birinci dünya müharibəsindən əvvəlki Rusiya-Osmanlı sərhədlərinin bərpa edilməsi, Osmanlı ərazisində ermənilərə muxtariyyət verilməsi və sair şərtlərlə sülh müqaviləsi bağlamağa cəhd göstərsə də, bu şərtlər Osmanlı nümayəndə heyətinə rəhbərlik edən xarici işlər naziri Hüseyn Rauf bəy tərəfindən qəbul edilmədi.

Türkiyə tərəfi Brest sülhünün tanınmasını və bu müqaviləyə əsasən Qars, Ərdəhan və Batumun dərhal boşaldılmasını, danışıqlar aparmaq üçün hüquqi şəxs kimi tanınmaqdan ötrü Zaqafqaziyanın müstəqilliyinin elan olunmasını tələb etdi. Aprelin 14-də gürcü və erməni nümayəndələri Trabzon danışıqlarını yarımçıq kəsərək ölkəni müharibə vəziyyətində elan etdilər. Erməni-gürcü qüvvələri Osmanlı ordusunun qarşısını almağa qadir deyildi. Aprelin 15-də osmanlılar Batum şəhərini tutaraq Poti istiqamətində şimala doğru irəliləməyə başladılar. Belə bir şəraitdə Seymdəki erməni-gürcü çoxluğunun Qafqazın müstəqilliyini elan etmək və Brest-Litovsk sülhünü tam şəkildə qəbul etməkdən başqa çarəsi qalmadı. Hadisələrin bu şəkildə inkişafı Zaqafqaziya Seyminin vəziyyətini xeyli mürəkkəbləşdirdi. Batumda olan erməni, gürcü və Azərbaycan nümayəndə heyətləri Osmanlı rəhbərliyi ilə ayrıca görüşməyə cəhd göstərdilər. Azərbaycan nümayəndə heyəti türk nümayəndə heyəti ilə görüşərək onları Batum məsələsindən çəkindirməyə çalışsa da, buna nail ola bilmədilər. Daşnak lideri Xatisov Rauf bəyin yanına elçi göndərərək onunla gizli görüş keçirmək istədiyini bildirdi. Xatisov görüşün ilk şərti kimi, Osmanlı ərazisindən qaçmış ermənilərin öz yerlərinə qaytarılmasını və onlara muxtariyyət verilməsini irəli sürdü. Müsbət cavab alınacağı təqdirdə, Xatisov Batum məsələsində gürcülərə təzyiq göstərəcəyini vəd edirdi. Hüseyn Rauf bəy bu şərt çərçivəsində görüşün keçirilməsinə razılıq vermədi.[80] Aprelin 22-də müstəqil Zaqafqaziya Federativ Demokratik Respublikasının yaradıldığı elan edildi.

Trabzon sülh konfransı başa çatdıqdan dərhal sonra Ənvər paşanın Trabzon və Batuma gəlməsi böyük hadisəyə çevrildi. Cənubi Qafqazın gələcəyi ilə bağlı Ənvər paşanın düşüncələri belə idi: Müsəlman qəzaları olan Axalkələk və Axalsıx Türkiyəyə keçməli, Cənubi Qafqazın üç başlıca hissəsi olan

[80]Документы и материалы по внешней политике Закавказья и Грузии, Тифлис, 1969, səh.86.



Azərbaycan, Gürcüstan və Ermənistan isə başda Zaqafqaziya Seymi olmaqla Türkiyə ilə sıx ittifaqda federasiya və ya konfederasiya yaratmalıdırlar. Ənvər paşanın fikrincə vahid Zaqafqaziya federasiyası yaradılmazsa, onda Azərbaycan Osmanlı imperiyası ilə Avstriya-Macarıstan nümunəsində ittifaq bağlaya bilərdi.[81]

Seymin üzvü M.H.Hacınskinin "Sizin müstəqil Ermənistan yaradılmasına münasibətiniz" sualına Ənvər paşa cavabında: "Türkiyə müstəqil Ermənistan hökuməti yaradılmasının əleyhinə deyil, bu şərtlə ki, erməni xalqı ingilis-rus siyasəti xatirinə türklərə qarşı öz intriqalarından əl çəksinlər".[82]

Cənubi Qafqazın müstəqil Federativ Respublika elan olunması Azərbaycanın vəziyyətində müsbət dəyişiklik yaratmadı. Azərbaycanın şərqində bolşevik qurumu, qərbində isə erməni hərbi birləşmələri yerli əhalini qırmaqla məşğul idilər. Buna görə də Azərbaycan nümayəndə heyəti Batum sülh konfransına böyük ümidlə baxırdı. Çünki Azərbaycan nümayəndə heyəti başa düşürdü ki, yalnız Osmanlı qüvvələrinin köməyi ilə Bakını bolşevik qüvvələrindən azad etmək, erməni daşnak qüvvələrinin Azərbaycan əhalisinə qarşı həyata keçirdikləri qırğınları dayandırmaq mümkündür. Konfransa yola düşməzdən əvvəl müsəlman fraksiyasının üzvü Nəsib bəy Yusifbəylinin söylədiyi nitq Azərbaycanın düşdüyü çətin şəraitə verdiyi obyektiv qiymət idi. Nəsib bəy deyirdi: "Bizim bu gücsüz halımızda xarici köməyə müraciət etməkdən başqa çarəmiz yoxdur. Müstəqilliyimizin ən qəti müdafiəçisi olmağıma baxmayaraq, indiki halda biz sevinməliyik ki, buraya gələcək qüvvə bizə dost və qardaş Türkiyədir. Ola bilsin, bu, qonşularımızın xoşuna gəlməsin, amma başqa çıxış yolumuz yoxdur… Xətir üçün xəstə düşə bilmərik. Bununla belə, heç vaxt azad Azər-

[81] ARDA, f. 970, siy. 1, iş 1. vər. 30.
[82] ARDA, f. 970, siy. 1, iş 1. vər. 31.

baycanın müstəqil yaşaması fikrini yaddan çıxarmağa haqqımız yoxdur".[83]

Cənubi Qafqazın üç xalqı arasındakı daxili ziddiyyətlər onların müstəqil dövlətdə birləşmək imkanını qeyri-mümkün edirdi. Doğrudur, bu arada "Daşnaksütyun" partiyasının Seymdəki deputatları müsəlman fraksiyasına rəsmən siyasi al-ver təklif etdilər: onlar "Bakıda gələcəkdə qurulacaq hökumətin sırf müsəlman deyil, beynəlmiləl xarakterdə olması və erməni hissələrinin Bakıda qalması" müqabilində Bakı Sovetini buraxmağı öz öhdələrinə götürürdülər. Lakin Seymin müsəlman nümayəndələri bu həyasız şərtləri qətiyyətlə rədd edib, Bakı şəhərində hakimiyyətin bölünməzliyini bəyan etdilər.[84] Bununla yanaşı, F.X.Xoyski daşnaklar qarşısında belə bir şərt qoymağı təklif etdi: Bakıda hakimiyyət müsəlmanlara təhvil verilir, həmin hakimiyyəti qorumaq üçün oraya müsəlman hərbi hissələri yeridilir və tərksilah olunmuş erməni hərbi hissələri oradan çıxarılır. Taktiki və siyasi nöqteyi nəzərdən qərara alındı ki, danışıqların vaxtı uzadılsın və bu barədə Bakıya və mətbuata heç bir məlumat verilməsin.[85]

1918-ci il mayın 11-də Batumda Zaqafqaziya Seymi və Osmanlı nümayəndə heyəti arasında danışıqlar başlandı. 45 nəfərlik Cənubi Qafqaz nümayəndə heyətinə hökumətin sədri və xarici işlər naziri A.Çxenkeli başçılıq edirdi. Nümayəndə heyətinin həlledici səsə malik 6 üzvü arasında M.Ə. Rəsulzadə və M.H.Hacınski də var idi. Osmanlı nümayəndə heyətinə ədliyyə naziri Xəlil bəy Menteşe rəhbərlik edirdi. Nümayəndə heyətinə Qafqaz cəbhəsi Osmanlı ordularının baş komandanı Mehmet Vəhib paşa və başqaları da daxil idilər. Almaniya təmsilçisi fon Lossov müşahidəçi statusunda konfransa qatılmışdı. Konfransda Türkiyə nümayəndə heyətinin başçısı Xəlil bəy Menteşe "Osmanlı imperiyası ilə Transqafqaz Konfederasiya Respublikası arasında sülh və dostluq haqqında" müqavilənin layihəsini müzakirəyə çıxardı. Osmanlı tərəfinin bir sıra yeni tələb və təkliflərini özündə əks etdirən bu sənəd Cənubi Qafqaz nümayəndə heyəti arasındat fikir ayrılıqları yaratdı. Azərbaycan nümayəndə heyəti Osmanlı tərəfinin layihəsini müdafiə etdi. Çünki onlar ermənilərin də yaşadıqları Axalkələk və Ahıska qəzalarının bütünlüklə, Sürməli, Aleksandropol, Eçmiədzin qəzalarının isə bir hissəsinin Osmanlı dövlətinə güzəştə gedilməsinin Azərbaycanın mövqeyini gücləndirəcəyi qənaətində idilər. Qafqaz türklərinin yaşadıqları müxtəlif ərazilərdən Osmanlı dövləti ilə birləşməyə dair çağırışlar, azərbaycanlılara qarşı ermənilərin törətdiyi soyqırımlar, S.Şaumyanın rəhbərlik etdiyi Bakı Xalq Komissarları Soveti qoşunlarının Gəncəyə yürüşünün qarşısının alınması zərurəti, nəhayət, Türkiyə meylli siyasət Xəlil bəyin mövqeyinin dəstəklənməsində az rol oynamadı.[86]

Bir sıra ciddi səbəb və amillər Batum konfransında, daha sonra Zaqafqaziya seymində siyasi qarşudurmanı sürətləndirdi. Cənubi Qafqaz nümayəndələrinin təklifləri Osmanlı sülh heyəti tərəfindən rədd edildi. Osmanlı hərbi hissələri Ermənistanın içərilərinə doğru irəlilədi. Xəlil bəy alman vasitəçiliyindən imtina etdi və Almaniya nümayəndəliyi Batumdan geri çağırıldı, seymin müsəlman fraksiyası Zaqafqaziya hökumətinin Şaumyan rejiminin Bakıdan çıxarılması üçün tədbirlər görməyəcəyi halda, Seymi tərk edəcəyi barədə bəyanat verdi.

Baş verən hadisələr Cənubi Qafqazın ictimai-siyasi həyatında keyfiyyətcə yeni mərhələyə keçidin yaxınlaşdığını göstərirdi. Vəziyyətdən çıxış yolu arayan Cənubi Qafqaz nümayəndəliyi vahid dövlət halında birləşmək imkanlarının tükənməsində həmrəy idilər. Bu sahədə Azərbaycan nümayəndələrinin gürcülərə vahid dövlət yaratmaq haqqında təklifi də baş tutmadı. Gürcülər almanların himayəsi altında müstəqil gürcü

[83] ARDA, f. 970, siy. 1, iş 1. vər. 32.
[84] ARDA, f. 970, siy. 1, iş 1. vər. 36.
[85] ARDA, f. 970, siy. 1, iş 1. vər. 38.
[86] Şahin Ergün. Trabzon və Batum konfransları və anlaşmaları (1917-1918). Ankara, 2002, səh.96.

dövləti yaratmaq qənaətinə gəlmişdilər. Konfransın gedişində Almaniya nümayəndələri gürcülərlə gizli görüşlər keçirərək, onlara hərbi və iqtisadi yardım göstərəcəyini vəd etdi. Belə ki, Batum konfransının gedişi dövründə 3 min nəfərlik alman qoşunu Gürcüstanın Poti limanına çıxarıldı. Eyni vaxtda hücumu müvəffəqiyytlə davam etdirən Osmanlı qoşunları da mayın 17-də Gümrünü ələ keçirdilər.

Almaniyadan böyük dəstək alan Seymin gürcü fraksiyası Gürcüstanın Zaqafqaziya Federativ Respublikası tərkibindən çıxmasını və öz müstəqilliyini elan etməsini qərara aldı. Bununla əlaqədar olaraq, 1918-ci il mayın 25-də Tiflisin Canişin sarayında Zaqafqaziya Seyminin müsəlman fraksiyasının növbədənkənar iclası keçirildi. İclasda Cənubi Qafqazda siyasi vəziyyətin dəyişməsi ilə əlaqədar rəsmi bəyanatda deyilirdi ki, Seymin gürcü fraksiyası Batumda gizli danışıqlar aparır və Gürcüstanın müstəqilliyini elan etməyə hazırlaşır. Mayın 25-də F.X.Xoyskinin sədrliyi ilə Seymin müsəlman fraksiyasının axşam iclası keçirildi. İclasda Zaqafqaziya Seyminin sədri A.Çxeidze, seymin üzvləri B.Sereteli və K.Gegeçkori iştirak edirdilər. İlk söz alan Sereteli aşağıdakı bəyanatda çıxış etdi: "Sosial-demokrat fraksiyası və ümumiyyətlə, seymin gürcü deputatları bu nəticəyə gəlib ki, müstəqillik şüarı altında Zaqafqaziya xalqlarını birləşdirmək mümkün olmadı. Zaqafqaziya hökumətinin süqutu faktı göz qarşısındadır. Xüsusilə Türkiyə ilə danışıqlar zamanı bu birliyin olmadığı aydın oldu. Hazırki dövrdə bizim Gürcüstanın müstəqillyini elan etməkdən başqa çıxış yolumuz yoxdur"[87]. Seymin sədri A.Çxeidze Zaqafqaziya xalqlarının birliyini təmin edən seymin süqutu ilə əlaqədar özünün dərin təəssüfünü bildirdi. Cavab nitqi söyləyən F.Xoyski qeyd etdi ki, əgər bu gürcü xalqının iradəsidirsə, bizim ona mane olmağa haqqımız yoxdur. Əlbəttə, bu hadisə ilə əlaqədar Azərbaycan türklərinə

[87] ARDA, f. 970, siy. 1, iş 1. vər. 43[A].



də müvafiq qərar qəbul etməkdən başqa yol qalmır.[88] Gürcü nümayəndə heyəti iclası tərk edəndən sonra Xoyski məlumat verdi ki, Seymin və hökumətin üzvü X.Karçikyanla söhbətdən məlum oldu ki, Gürcüstan öz müstəqillyini elan edəcəyi təqdirdə, ermənilər də bu yolla gedəcəklər. Hərtərəfli müzakirələrdən sonra Zaqafqaziya Seyminin müsəlman fraksiyası aşağıdakı qərarı qəbul etdi: "Gürcüstan öz müstəqilliyini elan edəcəyi təqdirdə, Azərbaycanın da müstəqilliyi elan olunacaqdır".[89]

Azərbaycanda yaranmış çətin vəziyyət milli-demokratik qüvvələri Seymdə azlıqda qalıb hadisələrin gedişini seyr etməkdənsə, qəti addımlar atmağa vadar etdi. Bu işdə Azərbaycan özünün din və dil qardaşı Türkiyənin yardımına ümid bəsləyirdi.

Mayın 26-da Zaqafqaziya Seyminin sonuncu iclası keçirildi. Gürcü nümayəndələri Seymdən çıxıb, Gürcüstanın müstəqilliyini elan etdilər. Gürcü fraksiyası Zaqafqaziya Respublikasının dağılmasının bütün günahını müsəlman fraksiyasının üzərinə yıxdı. Guya müsəlman fraksiyası türkpərəst mövqe tutduğu üçün gürcülər onlarla bir Seymdə fəaliyyət göstərə bilməzlər. Zaqafqaziya Seyminin üzvü Şəfi bəy Rüstəmbəyov gürcü fraksiyasının gətirdiyi bu arqumentləri qətiyyətlə rədd edərək: "Hesab edirik ki, Zaqafqaziyanın birgə siyasi mövcudluğunun indiki mürəkkəb və məsuliyyətli anında ayrılmaq üçün tutarlı və obyektiv əsaslar yoxdur və burada gürcü nümayəndələri tərəfindən irəli sürülən fikirlər az inandırıcıdır"[90].

Zaqafqaziya Seyminin süqutunun səhərisi, mayın 27-də bölgədə yaranmış mürəkkəb vəziyyəti müzakirə etmək məqsədilə Tiflisdə keçmiş Seymin müsəlmanlardan ibarət üzvləri fövqəladə iclas keçirdilər. İclasa M.Y.Cəfərov sədrlik

[88] ARDA, f. 970, siy. 1, iş 1. vər. 45.
[89] ARDA, f. 970, siy. 1, iş 1. vər. 44.
[90] ARDA, f. 970, siy. 1, iş 1. vər. 45.

edirdi. İclasda Zaqafqaziya Seyminə daxil olan "Müsavat" partiyası və bitərəflərin demokratik qrupunun, Müsəlman sosialist blokunun, "İttihad" və müsəlman sosial-demokratların, menşevik "Hümmət" partiyalarının nümayəndələri iştirak edirdilər. İclas Batumda Osmanlı dövləti ilə sülh danışıqlarında iştirak edən N.Yusifbəylinin məruzəsi ilə açıldı. N.Yusifbəyli bildirdi ki, Türkiyə Zaqafqaziyanın müstəqil bir dövlət kimi saxlanılmasında qərarlıdır və bu gənc dövlətin möhkəmlənməsi, genişlənməsi və çiçəklənməsi üçün əlindən gələni etməyə hazırdır. Türkiyə nümayəndə heyətinin qənaətinə görə Zaqafqaziyanın çiçəklənməsinin başlıca rəhni Zaqafqaziya xalqlarının birliyi və həmrəyliyidir. Bu məqsədə çatmaq üçün bizim tərəfimizdən ermənilərə bir qədər torpaq güzəşt olunmalıdır.[91] Nəsib bəy Yusifbəylinin məruzəsini dinləyən keçmiş seymin müsəlman fraksiyası Şərqi Zaqafqaziyanın idarəçiliyini öz üzərinə götürmək məqsədilə özünü Zaqafqaziya Müsəlmanlarının Müvəqqəti Milli Şurası elan etmək barədə yekdil səslə qərar qəbul etdi. [92]

Fövqəladə iclasda gizli səsvermə yolu ilə həmin vaxt Batumda Türkiyə nümayəndə heyəti ilə sülh danışıqları aparan M.Ə.Rəsulzadə Müvəqqəti Milli Şuranın sədri, H.Ağayev və M.Seyidov sədrin müavinləri, M.Mahmudov və R.Vəkilov isə katib seçildilər.[93]

Müvəqqəti Milli Şuranın yaradılması və onun vəzifələri haqqında məlumat vermək üçün N.Yusifbəyli, Səfi bəy Rüstəmbəyov və Xosrov paşa Sultanovdan ibarət nümayəndə heyətinin Tiflisdən Gəncəyə göndərilməsi haqqında qərar qəbul olundu.

[91] ARDA, f. 970, siy. 1, iş 1. vər.46-47.
[92] ARDA, f. 970, siy. 1, iş 1. vər.26.
[93] ARDA, f. 970, siy. 1, iş 1. vər.27.



# III FƏSİL

## TÜRK-MÜSƏLMAN ƏHALİSİNƏ QARŞI HƏYATA KEÇİRİLƏN SOYQIRIMLAR

1918-ci ildə türk-müsəlman əhalisinə qarşı törədilən cinayətləri üzə çıxarmaq Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti dövründə mümkün olmuşdur. Belə ki, Milli hökumətin ən mühüm qərarlarından biri daşnak canilərinin törətdikləri cinayətlərin təhqiqi üçün 1918-ci il iyulun 15-də Fövqəladə Təhqiqat Komissiyasının yaradılması oldu. Gəncədə hökumətin iclasında Xarici işlər naziri M.H.Hacinski bu məsələ barəsində çıxışında qeyd etdi ki, dörd aydır erməni cəlladları dinc müsəlman əhalisinin həyatı və əmlakı üzərində görünməmiş vəhşiliklər törədirlər. Bununla yanaşı, zorakılıq törədənlərin yalan xəbərləri nəticəsində Avropa ictimaiyyətində tamam əks əhval-ruhiyyə yaradılır. Buna görə də belə bir təşkilatın yaradılmasına böyük ehtiyac vardır. Həmin təşkilat Fövqəladə Komissiya xarakteri daşımalıdır, həm də bu komissiyanın topladığı sənədlər Azərbaycan, rus, ingilis, fransız, alman dillərində nəşr edilib yayılmalıdır.[94] Vəkil Ələkbərbəy Xasməmmədov (sonralar Azərbaycan Məhkəmə Palatasının sədri olmuşdur) Təhqiqat Komissiyasının sədri, Gəncə dairə məhkəməsinin üzvləri–İsmayıl bəy Şahmalıyev, Andrey Novatski, Gəncə dairə məhkəməsi prokurorunun müavini Nəsrəddin bəy Səfikürdski, Gəncə köçürmə idarəsindən Nikolay Mixaylov, həqiqi mülki müşavir V.Qubvillo və müəllim Mirzə Cavad Axundzadə isə üzvləri təyin olundular.[95]

[94] ARDA, f.1061, siy.1, iş 95, vər.2.
[95] ARDA, f.1061, siy.1, iş 5, vər.1.

Fövqəladə Təhqiqat Komissiyasının Xarici İşlər Nazirliyinin yanında təşkil edilməsinə baxmayaraq, hökumətin başçısı F. Xoyskinin 22 sentyabr 1918-ci il qərarı ilə Ədliyyə Nazirliyinin tərkibində fəaliyyət göstərməyə başladı. Müxtəlif vaxtlarda Bakı dairə məhkəməsi prokurorunun müavini Aleksandr Kluge, andlı iclasçı Məmmədxan Təkinski, Gəncə dairə məhkəməsinin xüsusi əməliyyat işləri üzrə müstəntiqi Məhiyəddin bəy Şahmalıyev, Bakı quberniya dairə məhkəməsinin üzvü Hidayət bəy Sultanov, andlı iclasçılar Aley Litovski, Çeslav Klassovski, hüquqşünas Abbasəli bəy Hacı İrzayev, Bakı dairə məhkəməsinin üzvü B.Yusifbəyov komissiyaya üzv təyin olundular.[96]

1920-ci ilin aprelinə kimi Fövqəladə Təhqiqat Komissiyası daşnak quldur dəstələrinin qanlı əməllərinin təhqiqi sahəsində böyük iş gördü. Zərər çəkmiş yüzlərlə vətəndaş və şahid dindirilmiş, çoxlu material, maddi dəlil-sübut, fotosənəd toplandı.

Bu sənədlər öz aktuallığı baxımından daha çox siyasi əhəmiyyət kəsb edir. 1919-cu il aprelin 28-də Fövqəladə Təhqiqat Komissiyasının sədri Ə.Xasməmmədov Ədliyyə nazirinin 23 aprel 1919-cu il tarixli sorğusuna cavab olaraq bildirirdi ki, komissiya türk-müsəlman əhalisinə qarşı həyata keçirilən qırğınlarla bağlı sənədlərin toplanması işini, demək olar ki, başa çatdırmış və qərar layihəsinin hazırlanması ilə məşğuldur. Komissiya Lənkəran qəzasında "molokan qiyamı", Zəgəzur qəzasının əsas hisəssində və Gəncə quberniyasının dağlıq hissəsində erməni təcavüzü ilə bağlı təhqiqat işinə başlaya bilməmişdir.[97] Ə.Xasməmmədov Ədliyyə nazirinə yazırdı: "Bakı quberniyasının Cavad qəzasının bir hissəsində, Lənkəran və Bakı qəzalarında azərbaycanlı əhaliyə qarşı törədilən cinayətlər təhqiq edilməmiş qalır. Çünki Lənkəran və Cavad qəzalarının ermənilər yaşayan hissəsi faktiki olaraq Azərbaycan Res-

[96] ARDA, f.1061, siy.1, iş 5, v.2.
[97] ARDA, f.100, siy.2, iş 791, v.69-70.



publikasının qanunlarına tabe olmurlar. Ə.Xasməmmədov bildirirdi ki, Lənkəran qəzasının müsəlman əhalisi dəfələrlə mənim qarşımda məsələ qaldırıblar ki, polkovnik Avetisov başda olmaqla erməni silahlı quldur dəstələrinin törətdikləri cinayətləri təhqiq etmək üçün ora komissiya göndərilsin. Hələlik bu mümkün olmamışdır".[98]

1919-cu il avqustun 27-də komissiyasının üzvü Ç.Klassovski tərəfindən tərtib olunmuş arayışda göstərilirdi ki, ermənilərin türk-müsəlman əhalisinə qarşı törətdiyi cinayətlərlə bağlı 36 cild və 3500 vərəqdən ibarət sənədlər toplanmışdır. Bakı şəhəri və onun yaxın ətrafında müsəlman əhalisinə qarşı törədilmiş zorakılıq hadisələrini sübut edən sənədlər 6 cild 740 vərəqdən ibarətdir. Göyçay qəzasının Kürdəmir və başqa kəndləri üzrə 4 cild 340 vərəq, Şamaxı şəhəri və Şamaxı qəzası üzrə 7 cild 925 vərəq, Zəngəzur qəzasının dağıdılmış kəndləri üzrə 2 cild 80 vərəq, Quba şəhəri və Quba qəzası üzrə 3 cild 45 vərəq sənəd toplanmışdır.[99]

1917-ci ilin fevralında Rusiyada burjua-demokratik inqilabı nəticəsində Romanovlar sülaləsi devrildi və iri rus burjuaziyası Müvəqqəti hökumət təşkil etməyə nail oldu. Müvəqqəti hökumət Rusiya xalqlarına müraciətində elan etdi ki, birinci dünya müharibəsi başa çatandan sonra xalqların öz müqəddəratını təyin etməsi məsələsinə baxılacaqdır. Lakin 1917-ci ilin oktyabrında Rusiyada bolşeviklərin hakimiyyəti zorakı yolla ələ keçirməsi Rusiya xalqlarının bu arzularını boşa çıxartdı. Bolşeviklər fəhlə-kəndli hökuməti qurmaq adı altında əvvəlki imperiyanı bərpa etməyə başladılar.

1917-ci ilin sonu - 1918-ci ilin əvvəllərində Bakıda daşnak-bolşevik birləşmələrinin milli qüvvələrə qarşı açıq mübarizəsi yetişməkdə idi. 1917-ci ilin dekabrında Rusiya Xalq Komissarları Sovetinin sədri V.Lenin tərəfindən Qafqazın Fövqəladə Komissarı təyin olunmuş S.Şaumyanın və Korqa-

[98] ARDA, f.100, siy. 2, iş 791, v.102-103.
[99] ARDA, f.100, siy. 2, iş 791, v.132.

novun başçılıq etdiyi Hərbi İnqilab Komitəsinin Tiflisdən Bakıya gəlişi buradakı siyasi vəziyyəti daha da gərginləşdirdi. Qafqaz cəbhəsindən geri qayıdan əsgərlər vətənlərinə qayıtmaq əvəzinə Bakıda toplaşdı. Bu əsgərlərin Bakıda saxlanmasında Şaumyan böyük fəallıq göstərirdi.

Azərbaycanda milli qüvvələrə başçılıq edən "Müsavat"ın getdikcə artan nüfuzundan qorxuya düşən bolşevik-daşnak qüvvələri Bakını inqilabla əksinqilab arasında mübarizə meydanı elan etmişdilər. Bolşevik-daşnak qüvvələrinin birləşdiyi Bakı Sovetinin ixtiyarında Qırmızı ordu adı altında əksəriyyəti ermənilərdən ibarət olan 20 minlik silahlı qüvvə cəmlənmişdi.



## BAKI QIRĞINLARI

1918-ci ilin martında Bakıda siyasi vəziyyət son dərəcə gərgin idi. Bakı Sovetinə keçirilən seçkilərdə "Müsavat"ın böyük səs çoxluğu ilə qələbə qazanması bolşevikləri və daşnakları ciddi narahat edirdi. Cənubi Qafqazın ən güclü siyasi partiyasına çevrilən "Müsavat" Azərbaycanın ərazi muxtariyyəti və siyasi hakimiyyət uğrunda inamla mübarizə aparırdı. Şaumyan başda olmaqla bolşevik qüvvələri Erməni Milli Şurası və "Daşnaksütyun" partiyasının rəhbərləri ilə birlikdə "Müsavat"a qarşı əsl müharibəyə başladılar. Bakıda Azərbaycan milli qüvvələrinin sayca az  və pis silahlanmış olduğunu yaxşı bilən Şaumyan müsəlmanlara "dərs vermək" üçün milli qırğına hazırlaşırdı.

Martın 29-da şəxsi heyəti müsəlmanlardan ibarət olan "Evelina" gəmisinin Bakıda bolşevik qüvvələri tərəfindən tərksilah edilməsi milli qırğına başlamaq üçün bəhanə oldu. Belə ki, 1918-ci il martın 17-də silahla ehtiyatsız davranışdan həlak olmuş H.Z.Tağıyevin oğlu Məhəmməd Tağıyevin cənazəsini Bakıya gətirən müsəlman diviziyasının 48 nəfərdən ibarət kiçik bir dəstəsi bolşevikləri təşvişə saldı. Mərhumu dəfn edən müsəlman dəstəsi "Evelina" gəmisi ilə Lənkərana geri qayıtmalı idi. Paraxodun körpüdən aralanmasına az qalmış silahlı bolşeviklər müsəlman dəstəsinin tərksilah olunmasını tələb etdi. Müsəlman dəstəsinin rədd cavabına tüfənglərdən və pulemyotlardan atılan atəşlə cavab verildi. Gəmidəki silahlar bolşeviklər tərəfindən müsadirə olundu.

Martın 30-u gündüz saat dörddə müsəlmanlardan təşkil olunmuş nümayəndə heyəti Sovetin İcraiyyə Komitəsinin qarşısına gələrək silahların geri qaytarılmasını tələb etdi. Caparidze bu xahişin bir ultimatum olub-olmadığını soruşduqda, nümayəndəlik bildirdi ki, onların müsəlmanların həyəcanlarını söndürməkdən başqa niyyətləri yoxdur. Caparidze müsəlman

liderlərinə söz verdi ki, silahların qaytarılması məsələsini Qafqaz Ordusunun İnqilabi Müdafiə Komitəsinin iclasına çıxaracaq və orada silahların müsəlmanlara qaytarılmasını müdafiə edəcəkdir.

Ertəsi gün şəhərin cənub hissəsində erməni əsgərləri göründülər. Onlar bütün küçə boyu səngərlər qazmağa, torpaq və daşlardan bəndlər ucaltmağa başladılar. Həmin gün müsəlman xeyriyyə cəmiyyətinin binasında keçirilən yığıncağa gələn Bakı şəhərinin keçmiş rəisi Ter-Mikaelyants Erməni Milli Şurası və "Daşnaksütyun" partiyası adından bəyan etdi ki, əgər müsəlmanlar bolşeviklərə qarşı çıxış etsələr, ermənilər də onlara qoşulacaq və bolşeviklərin Bakıdan qovulmasına kömək edəcəklər. Martın 18-də (təzə stillə 31 mart - A.İ.) səhər tezdən şəhərin müsəlmanlar yaşayan hissəsinə hücumlar başladı. Ermənilərin yalançı vədlərinə inanmış müsəlmanlar əvvəlcə şəhərdə nə baş verdiyini müəyyən edə bilmirdilər. Hücum ərəfəsində bütün ermənilər şəhərin müsəlmanlar yaşayan hissəsindən ermənilər yaşayan hissəsinə keçdilər. Müsəlmanlar yaşayan hissədə xristian əhalidən ruslar və gürcülər qalmışdı.

Bakıda mart soyqırımı planı hələ 1917-ci ilin sonlarında "Daşnaksütyun" partiyası və Erməni Milli Şurası tərəfindən hazırlanmışdı. Onlar dəfələrlə müsəlmanları bolşeviklərə qarşı silahlı çıxışa təhrik etməyə cəhd göstərmişdilər. Ermənilərin məqsədi bolşeviklərin əli ilə müsəlman əhalisini məhv etmək idi. Adamların qətlə yetirilməsi və müsəlman məhəllələrinin darmadağın edilməsi planlı surətdə mütəşəkkil erməni hərbi hissələri tərəfindən şəhərin hər yerində qabaqcadan müəyyənləşdirilmiş sistem üzrə həyata keçirilirdi.

Martın 30-u axşamın ilk saatlarında müsəlmanlara qarşı əməliyyatları müvəffəqiyyətlə aparmaq üçün İnqilabi Müdafiə Komitəsi yaradıldı. Komitəyə Şaumyan, Caparidze, Korqanov, Suxartsev, Saakyan, Melik-Yolçuyan və doktor Nərimanov daxil idilər. Komitə ilk bəyanatında özünü Bakıda, ancaq



Sovet qarşısında məsul olan ən ali hərbi-siyasi orqan elan etdi. Sovet qüvvələri ilə müsəlman qüvvələri arasında münasibətlər özünün kulminasiya nöqtəsinə çatarkən erməni icması bu qarşıdurmada bitərəf qalacağını bəyan etdi. Hamıya aydın idi ki, nizami erməni dəstələrinin köməyini özü üçün təmin edən tərəf güc üstünlüyünə və qələbəyə nail olacaqdır. Daşnak partiyası və Erməni Milli Şurası faktiki olaraq müsavatçılarla müttəfiqlikdən imtina etdi. Erməni Mill Şurası Sovet rəhbərliyi ilə danışıqlar apararaq öz qüvvələrini şəhərin ermənilərə aid hissələrinə çəkdi.

Bakı Soveti qüvvələrinə rəhbərlik edən S.Şaumyanın erməni hərbi hissələrindən istifadə etməsi bu qırğını daha da dərinləşdirdi. Bolşevikləri müdafiə etmək bəhanəsi ilə erməni hərbi hissələri türk-müsəlman əhalisinə qəddarcasına divan tuturdular. Qeyd etmək lazımdır ki, Bakı Soveti də, onun yaratdığı ordu da əsas etibarı ilə ermənilərdən ibarət idi. Sovetdə olan daşnaklar Sako Saakyan, Arakelyan və başqaları bolşevik dəstələrinə müsəlman fəhlələrinin qəbul edilməsinə hər vasitə ilə əngəl törədirdilər. Daşnaklar azərbaycanlılara milli ordu yaratmaqda mane olur, Sovetin adından istifadə edərək millətçi-şovinist siyasətini canfəşanlıqla həyata keçirir, Bakı, Şamaxı və Azərbaycanın digər bölgələrində türk-müsəlman əhalisinə qarşı qırğınlar hazırlayırdılar. Bu baxımdan Erməni Milli Şurası xüsusi fəallıq göstərirdi. Müsəlmanlara qarşı qırğınlar və talanlar Şamaxı, Göyçay, Gəncə, Nuxa, Qazax, Lənkəran, Salyan, bir sözlə Azərbaycanın bütün bölgələrini bürümüşdü.

Təhqiqat Komissiyası tərəfindən şahid kimi dindirilmiş Bakı şəhərinin sakini A.Kvasnikin ifadəsində deyilirdi: "Bu il martın 17-21-də (köhnə stillə) Bakıda baş vermiş hadisələri əsla vicdan əzabı çəkmədən belə şərh etmək olar: "Müsəlman əhalisinin əvvəlcə Bakı şəhərində, sonra isə ətraflarda məhv edilməsi, onların əmlakının hamısının qarət olunması və bütün

var-dövlətlərinin ermənilərin əlinə keçməsi ermənilərin müsəlmanlara qarşı təşkil etdikləri qanlı qəsd idi."[100]

Azğınlaşmış və vəhşiləşmiş erməni dəstələri dinc azərbaycanlı əhalini qırıb-çatmaq üçün ən amansız üsullara əl atırdılar. Fövqəladə Təhqiqat Komissiyasının üzvü A.Kluge bu komissiyanın sədrinə "Bakı şəhərinin müsəlman əhalisinə qarşı törədilmiş zorakılıqlara dair iş haqqında" məruzəsində yazırdı: "Yaxşı silahlanmış, təlim keçmiş erməni əsgərlər çoxlu miqdarda pulemyotların müşayiəti ilə hücum edirdilər… ermənilər müsəlmanların evlərinə soxulur, bu evlərin sakinlərini qırır, onları qılınc və xəncərlərlə doğram-doğram və süngülərlə deşik-deşik edir, uşaqları yanan evin alovları içərisinə atır, üç-dörd günlük çağaları süngünün ucunda oynadır, öldürülən valideynlərin südəmər körpələrinə rəhm etmir, hamısını öldürürdülər".[101] Müsəlmanları qırıb-çatmaqla yanaşı, ermənilər onların əmlaklarını da məhv edir, az-çox qiymətli olan şeyləri isə özləri ilə aparırdılar. Sonralar təkcə bir yerdə torpağın altından 57 müsəlman qadın və qızın meyiti tapılmışdı. Onların qulaqlarını, burunlarını kəsmiş, qarınlarını yırtmışdılar. Ermənilər öldürməyə macal tapmadıqları qadınları isə öz hörükləri ilə bir-birinə bağlayaraq başıaçıq, ayaqyalın arabalara mindirib aparır, yolda isə tüfənglərin qundaqları ilə onları döyür, şikəst edirdilər.[102]

Təhqiqat Komissiyasının sənədlərinə əsasən məlum olur ki, 1918-ci ilin mart soyqırımı zamanı Bakı şəhərində 11 min nəfərədək türk-müsəlman öldürülmüşdür. Onların çoxunun meyitləri tapılmamışdır. Çünki şahidlərin dediklərinə görə, ermənilər meyitləri od-alova bürünmüş evlərə, dənizə və quyulara atırdılar ki, cinayətin izini itirsinlər.[103] Bakının şəhər camaatından 400 milyon manatlıq daş-qaş və əmlak müsadirə

[100] ARDA, f.1061, siy. 1, iş 95, vər.2.
[101] ARDSPİHA, f.277, siy. 2, iş 16, vər.20.
[102] ARDSPİHA, f.277, siy. 2, iş 16, vər.18.
[103] ARDSPİHA, f.277, siy. 2, iş 16, vər.18.



olunmuşdur. Xalqın bir çox ziyarətgahları və tarixi abidələri dağıdılıb yerlə-yeksan edilmişdir. Uzaqvuran toplarla Təzəpir məscidi zədələnmişdir. Daşnaklar Bakıda dünya memarlığının incilərindən sayılan "İsmailiyyə" binasına od vurub yandırmışdılar.[104]

Təhqiqat Komissiyasının materiallarında bu vəhşiliklər barəsində deyilir: "1918-ci il martın 18-də (köhnə stillə-A.İ.) bir erməni zabiti, yanındakı üç erməni əsgəri ilə "Kaspi" qəzeti redaksiyasının və "İsmailiyyə" müsəlman xeyriyyə cəmiyyətinin binaları arasındakı dalana gəldi və "İsmailiyyə" binasına daxil oldu. Bir azdan binanın pəncərəsində tüstü və alov göründü. Nəinki Bakı müsəlmanlarının iftixarı sayılan, həm də bütün şəhərin yaraşığı olan bu əzəmətli bina yanğından məhv oldu. Yanğını söndürməyə adam yox idi, çünki müsəlmanlar küçəyə çıxa bilmirdilər, onları pulemyotlarla və top-tüfənglə atəşə tuturdular". Həmin zabit "Daşnaksütyun" partiyasının görkəmli xadimi Tatevos Əmirov idi. Bu, həmin Tatevosdur ki, uzun illər ərzində tariximiz, mətbuatımız onu "yenilməz inqilabçı", "xalqlar dostluğu uğrunda mətin mübariz" kimi təbliğ etmişdi.

Talançılar "Kaspi" qəzeti redaksiyasının və "Dağıstan" mehmanxanasının binalarını, "İsgəndəriyyə"ni, "İsmailiyyə"ni də yandırdılar[105].Bu qırğınlarda təkcə Azərbaycan müsəlmanları deyil, bütün Qafqaz müsəlmanları ziyan çəkmiş oldu. "İsmailiyyə"də Bakı müsəlman xeyriyyə cəmiyyəti, Qafqaz müsəlman komitələri yerləşirdi, burada həmin təşkilatlara məxsus pul və sənədlər saxlanılır, müsəlmanların yığıncaq və qurultayları keçirilirdi. "Kaspi" qəzeti redaksiyasında Azərbaycan dilində kitablar nəşr edilirdi. Bina yandırılan vaxtadək burada Quranın yenicə çap edilmiş 5 min nüsxəsi saxlanılırdı. Onların hamısı yanıb külə dönmüşdü.[106]

[104] ARDSPİHA, f.277, siy. 2, iş 13-16, vər.25-26.
[105] ARDSPİHA, f.277, siy. 2, iş 16, vər.18.
[106] ARDA, f.100, siy. 3, iş 791, vər.7.

Mart qırğınlarında yaxşı təşkil olunmuş erməni hərbi hissələrli ilə yanaşı, erməni ziyalıları, gəncləri də iştirak edirdilər. Təhqiqat Komissiyasının materiallarında göstərilirdi ki, "erməni əhalisinin bütün siniflərini təmsil edən nümayəndələr bu "müharibə"də iştirak etməyi özlərinə borc bilirdilər. Burada neftxudalar, mühəndislər, həkimlər, kontor işçiləri var idi, bir sözlə, erməni əhalisinin bütün təbəqələri öz "vətəndaş borcu"nu yerinə yetirirdi"[107].

Martın 24-də "Nikolay Buniatov" paroxodunun komandir köməkçisi Kazım Axundova Bakının Çənbərəkənd adlandırılan dağüstü hissəsinin mühafizəsi üçün təyyarəçi Rozenblyumun başçılığı ilə 10 silahlı matros göndərilmişdir. K.Axundov martın 25-dən Nikolayev küçəsindəki meyitlərin yığışdırılmasına başladı. Onların arasında süngülərlə didik-didik edilmiş və qılıncla tikə-tikə doğranmış 3 müsəlman gimnaziyaçısının, 11 gimnaziyaçı qızın, 1 rus qadının, 3-5 yaşlarında 3 müsəlman oğlan uşağının, 8 rus kişinin, 19 İran təbəəli müsəlman qadınının və müxtəlif peşə sahibləri olan 67 azərbaycanlının meyitləri var idi. Bundan başqa, "Vulkan" cəmiyyətinin köhnə yanalma körpüsünə müsəlman kişilərin, qadın və uşaqların 6748 meyiti gətirilmişdi.[108] Axundov öz tanışı texnik Vladimir Sokolovu "Kərpicxana" deyilən yerə aparmışdı. V.Sokolov burada, 3 fotoşəkil çəkmişdi. Birinci şəkildə başında güllə yarası, bədənində beş süngü yarası olan və sağ körpücük sümüyünə qılınc zərbəsi endirilmiş qadın meyiti təsvir olunmuşdur. Onun sağ döşü üstündə hələ sağ olan körpə uzanmışdır. Anasının döşünü əmən bu körpənin ayağında süngü yarası vardır. İkinci şəkildə iri mismarla divara vurulmuş 2 yaşlı uşaq təsvir edilmişdir. Mismarın başından aydın görünür ki, onu divara daşla vurmuşlar. Daş elə oradaca idi. Üçüncü şəkildə 13-14 yaşlı qızın meyitidir. Biçarənin bədənindən görünür ki, onu bir dəstə kişi

[107] ARDA, f.100, siy. 2, iş 650, vər.9-10.
[108] ARDSPİHA, f.277, siy. 3, iş 15, vər.20.



zorlamışdır.[109] Axundovla Sokolov 4-cü evə daxil olduqda onlar dəhşətli bir mənzərə görmüşdülər: geniş bir otağın döşəməsi üstündə 22-23 yaşlı bir qadının, iki qarının, 9 yaşlı qızın, 8 yaşlı oğlanın və südəmər körpənin meyitləri var idi. Körpənin əl-ayağını itlər gəmirib yemişdi. Təsvir olunan mənzərə Sokolova elə ağır təsir göstərmişdi ki, o daha fotoşəkil çəkə bilməmişdi.[110]

Talançılar hətta öz tanışlarına da rəhm etmirdilər. Martın 31-də Stepan Lalayev erməni əsgərlərindən ibarət dəstə ilə Vorontsov küçəsində yaşayan həkim Bəybala bəy Sultanovun mənzilinə soxulmuş və revolverini çıxarıb onu öldürmüşdür. Həyətə düşən Lalayev müsəlman dalandarı, onun arvadını və iki yaşlı oğlunu da güllələmişdir. Otuzadək silahlı erməni Məşədi Əhməd Rəhim oğlunun evinə soxulmuş, 34 min 840 manat dəyərində qiymətli əşya oğurlamışdır. Məşədi Əhməd cinayətkarlar arasında qonşuları - dərzi Haykı və dükançı Yexuşu tanımışdır.[111]

Bakıda baş vermiş faciəli hadisələr şəhərə olduqca böyük ziyan vurmuşdu. Qırğından sonra tüğyan edən epidemiya minlərlə insanı qırmış, əhalinin su, ərzaqla təchizatı dayanmış, bazar və mağazalardan, demək olar, bütün ərzaq məhsulları yoxa çıxmışdır. Talançılar olub-qalan ərzaq ehtiyatlarını toplayıb aparmışdılar. Mətbuat yazırdı ki, "əhali aclıqdan əməlli-başlı zillət çəkirdi"[112].

1918-ci ilin türk-müsəlman soyqırımı ilə bağlı ilk əsər Məhəmməd Muradzadə tərəfindən yazılmış və 1919-cu ildə Bakıda nəşr olunmuşdur.[113] Hadisələrin canlı şahidi və iştirakçısı olmuş müəllif ermənilərin törətdikləri bütün vəhşilikləri gözləri ilə görmüş, yalnız təsadüf üzündən sağ qalmışdır. Bu

[109] ARDA, f.100, siy. 3, iş 16, vər.14.
[110] ARDA, f.100, siy. 3, iş 16, vər.15.
[111] ARDA, f.100, siy. 4, iş 10, vər.4.
[112] ARDA, f.100, siy. 4, iş 10, vər.3.
[113] Muradzadə M. Mart hadiseyi-əliməsi. B., 1919; 1996.

qırğınları öz ailəsinin timsalında qələmə alan müəllif ermənilərin ağılasığmaz cinayətləri haqqında məlumat verir, onların Bakıda və Azərbaycanın qəzalarında törətdikləri vəhşiliklərə öz münasibətini bildirir. Müəllif yazır: "Hələ qarşımda bu gün müşahidə etdiyim ürək dağlayan bir mənzərə təcəssüm edib durur. O gün küçə ilə bir neçə kişinin çiynində qısa bir nərdivan üzərində əlvan boyalı xalça sarınmış bir meyitin aparıldığını gördüm. O cənazə mart günlərinin məcazi qurbanı, mənim zavallı atam idi. O dövrün vəziyyətinə nəzərən bu hala da qibtə edirdilərdi. Ona görə ki, çox şəhidlərin meyiti o gün tapılmaz oldu. Ana və bacıların qəlbinə acı və daim sağalmaz dağlar basıldı. O gün bu müəzzəm Bakı şəhərinin yarıdan çoxu bir matəmsəraya çevrildi. Çox evlərin üzvləri südəmər yavrularınadək zəhərli xəncərlərlə doğrandı. Fəryad, ah-fəğan sədası eşidilməz bir ev qalmadı".[114]

Müəllif bolşevik-daşnak birləşmələrinin Bakıda qırğına hazırlaşdıqlarını belə təsvir edir: "Artıq zaman miqyasında fəlakət günlərinin başlayacağını özümdə yəqiniyyət hasil etmişdim. Bilməm, nə düşündümsə, səndəlimdən durub həmən o biri otağa qaçdım. Müəyyən münaziə vaxta bir neçə saat qalmışdı. Başlayacaq bu davada hansı igidlər iştirak edəcəyini və hansı təşkilat tərəfindən və neyçün elani-hərb ediləcəyini bir növ düşünməyirdim. Əcəba, əlində bir mauzeri ilə altı fişəngi olub, yalnız orada-burada gəliş edərək öz qardaşının qanını tökməyə adət etmiş, yaxud iştirak edib də kəndi arkadaşına vaxt zərurətində səngərdə fişəngin birini yeddi-səkkiz rubləyə satan milli igidlərmi?".[115]

Müəllif qırğın başlanan ərəfədə öz ailə üzvlərinin timsalında Bakının müsəlman məhəllələrində əhalinin hazırlıq tədbirlərini belə təsvir edir: "Şəhərin hər tərəfində şər qovuşanda atəş səsləri gəlməyə başladı. Daha sonra pulemyotlar şaqqıldayıb, toplar guruldamağa başladı. O axşam atam çox həyəcanlı

[114] Muradzadə M. Göstərilən əsəri, səh. 27-29.
[115] Yenə orada, səh. 9.



idi. Axşam namazını qıldıqdan sonra tüfəngini alıb tələsik küçəyə getdi".[116] Müəllif ilk qırğınla bağlı hadisələri təsvir edərkən müsəlman əhalisinin köməksiz və eyni zamanda, hərbi hazırlıq cəhətdən zəif olduğunu da göstərir: "Bütün ailə üzvləri pərakəndə idi. Atam, dayım və qardaşlarım küçədə durmuşlardı. Bu mənhus gecəni böyük bir təlaşla keçirib yeni hadisələrlə bazar ertəsini istiqbal etdik".[117] Müəllif səhərisi baş verən hadisələri təsvir edərkən müsəlman birləşmələrinin fəaliyyətini diqqət önünə gətirə bilmir. Tarixi sənədlərdən məlumdur ki, bolşevik birləşmələri Sovetin əli ilə "Müsavat"ın artan nüfuzunu silahlı yolla aradan qaldırmaqda kömək üçün daşnaklara müraciət edəndə müsəlmanlara elə gəlirdi ki, daşnaklar söz verdikləri kimi bitərəf qalacaqlar. Ona görə də daşnakların qəflətən və planlı şəkildə müsəlman əhalisi üzərinə hücuma keçməsi şəhərdəki vəziyyəti gərginləşdirdi. Müəllif yazır: "Ertəsi gün şəhər tamam müharibə halını aldı. Hər tərəfdə atəşlərin əqəbincə toplar guruldayırdı. Zira məhəllə gözətçiləri bir qədər atışmadan sonra ağ imam bayrağını nəsb edib öz ailələri ilə müaşəhran yuxarı məhəlləsinə qalxışdılar. Buna təbiətən başqaları da həmin bayrağı çəkib öz evlərini sığınacaq yeri etmələri oldu".[118]

Fövqəladə Təhqiqat Komissiyasının sənədlərindən və şahid dindirmələrindən xəbəri olmayan müəllif Bakıda baş verən hadisələrin əsas səbəbkarı kimi, erməni daşnak qüvvələrini və bolşevik birləşmələrini günahlandırır. Ermənilərə nifrət o qədər güclüdür ki, bütün hadisə boyu onların adını dilinə gətirməyi özünə rəva bilmir. Martın 19-da (yeni stillə 31-də–A.İ.) Bakıda əsl qırğının başlanmasını təsvir edən müəllif yazır: "Həmin gecəni, yəni bazar ertəsi gününün axşamını unutmaram. Atam mənim güllə səsindən qorxub solğun bəniz almağımdan çox narahat oldu. Heç nədən qorxmamalı, yalnız

[116] Yenə orada, səh.10.
[117] Yenə orada, səh.11.
[118] Yenə orada.

mətanətli olun, nə olursa-olsun, nəhayəti ölümdür. Ölümdən başqa bir tərəfə keçiləcək yer yoxdur, –deyə mənə təsəlli verdi".[119] Müsəlman məhəllələrinin tipik nümunəsi olan və müəllifin yaşadığı dalanın bütün müsəlman əhalisi kömək üçün yəhudilərə müraciət etmiş olur. Ümumiyyətlə, Bakıda baş verən qırğın zamanı yəhudi əhalisi minlərlə müsəlman əhalisini ölümün pəncəsindən qurtarmağa müvəffəq olmuşdur. Hətta qırğınla bağlı Təhqiqat Komissiyasına ifadə verənlərin əksəriyyəti yəhudilər olmuşdur. Atasının xahişi ilə yəhudi evində gizlənən müəllif hadisələri belə təsvir edir: "Saat bir radələri olardı. Damda bir tappıltı, ardınca bir neçə atəş eşidildi. Bu anda kiçik qardaşımın bağırtı ilə bizə tərəf qaçdığını gördüm. Birdən bizim qapı və pəncərələrin şiddətlə vurulduğunu, dalınca bir neçə tüfəng atəşinin açıldığını eşitdim. Atamın səsi daha eşidilmirdi".[120] Erməni daşnak qüvvələri şəhərin bütün məhəllələrini mühasirə etdikdən sonra heç kimə rəhm etmədən ucdantutma qırğına başlamışdılar. "Canilər getdikdən sonra anam yenə fəryad edərək bayıra çıxdı. İki günlük müharibədə kimlərin iştirak etdiyini və nə üçün bunun belə davamını bir saat əvvəl gördüyüm səhnələr gözəlcə göstərirdi. İslam adı daşıyana aman yox, zira o mənhus qonşu millətin qaniçən canavarları indi vaxtdan istifadə edərək başqa siyasi bir maska ilə qurşaqdan dişlərinədək silahlanıb özlərindən milyonlarca çox və qapı bir qonşu olan nəcib bir milləti öz yurdlarında məhv etməyə böyük bir cürətlə əl açmışlardı. Naməlum səbəblərdən naşı başlanan və heç də gözlənilməyən bu müharibənin zatən milli olmayıb, siyasi olması gün kimin aşkar idi".[121] Hadisələrin bolşevik-daşnak qüvvələrinin hakimiyyətə gəlişini təmin etmək üçün baş verdiyini anlayan müəllif yazır: "Beynəlmiləl füqəra-kasıb hökuməti bərpa etməyə yardım göstərənlər, nədənsə, islam adını daşıyan burcua deyil, öz evində oturan ürəyi təmiz islam əhalisinin heç bir irticalarına nahaq olaraq

[119] Yenə orada, səh.12.
[120] Yenə orada, 16.
[121] Yenə orada, səh. 18.



facianə bir surətdə zəhərli güllələrə və yalın qılınclara qurban edirlərdi".[122] Müəllifə görə, müsəlman evlərini tar-mar edən canilər, təkcə insanları öldürməklə kifayətlənmirdilər. Evə soxulan canilər onu müsadirə edir, istədiklərini sındırır və s. vəhşi hərəkətlər edirdilər. Müəllif yazır: "Evimizdə baş verən faciədən sonra bu dəhşətlərin bitdiyini və bir daha təkrar olunmayacağını zənn edirdim. Birdən məhəllədə böyük bir mərəkə qopdu və bizim məhəllənin qapısı şiddətlə döyülməyə başladı. Yəhudinin arvad-uşağı yenə fəryad qoparmağa başladı. Məni evdən çıxarmağa cəhd etdilər. Yeddi-səkkiz nəfərdən ibarət bir dəstə cani həyətə girdilər. Birinci evə girib müsəlman qadın və qızları bayıra çıxartdılar. Biçarə qadınlar dad və fəryada başlayıb həyətdə yenidən məhşər qopartdılar. İslam qanına susamış canilər yəhudidən harada müsəlman olduğunu israrla soruşub, qadınlara isə kişilərini tez verməlarini əmr edirdilər".[123]

Təkcə kişiləri deyil, qadınları da əsir aparan canilər daşnakların müsəlman əhalisinə bəslədikləri nifrəti açıq surətdə büruzə verirdilər: "Canilərdən iki nəfəri qadınları heyvan sürüsü kimi önünə qatıb əsir adıyla hara isə apardılar. İndi canilər növbə ilə həyətdəki evləri axtarıb qarət və talan edirdilər. Onlar yəhudilərdən harada müsəlman yaşadığını təkidlə sorub, evə daxil olmaq istəyirdilər. Yəhudilər isə bu evin özünə məxsus olub, burada müsəlmanların olmamasını, qonşu evdə olub bir saat əvvəl hamısının qətl edildiyini söyləyib, bizim evi onlara göstərdi. Bir dəfə qarət edilmiş və indi sahibsiz buraxılmış evi bu cinayətkarlar yenidən talan edib getdilər".[124] Az bir vaxt ərzində müsəlman əhalisinə qarşı olmazın qırğınlar keçirən daşnak-bolşevik birləşmələri öldürə bilmədikləri əhalinin bir hissəsini böyük ictimai binalara doldurub onlarla heyvani rəftar edirdilər. "Saat üç radələri idi.

[122] Yenə orada.
[123] Yenə orada, səh. 20.
[124] Yenə orada, səh. 20-21.

Artıq bizim məhəllədə atəş sədaları kəsilmişdi. İndi məni hər şeydən ziyadə anamın görünməməsi narahat edirdi. Yəhudilər, onun, şəksiz başqa əsirlərlə məhəllə teatrlarının birində mühafizə edildiyini və kimsənin onunla fəna bir müamilədə bulunmayacağını söyləyirdilərsə də, yenə də özümdə zavallı qadının bu gün gördüyü müsibətləri, gözləri önündə sevgili ərinin nahaq düşmən gülləsinə hədəf olduğunu və özünün, nəhayət, əsir olaraq ayaqyalın, başıaçıq məhəllələr ilə aparıldığını düşündükcə, sanki bədənimdə buz donurdu".[125]

Müharibənin–yəni qırğının üçüncü gününü təsvir edən müəllifə görə, Bakıdakı hadisələri daha ətraflı bilmək üçün yəhudi uşaqları məhəlləni gəzməyə başladılar. Bir azdan baş verənləri nəql edirdilər. Vermiş olduqları xəbərlərdən agah olurdu ki, islam qurbanları bütün küçələr boyu qırlar üzərində dəniz sahilinə tordan atılmış balıqlar kimi yan-yana qanlı ölüm yatağında uyuyurdular. Qonşu millətin qaniçən canavarları künc-bucaqda gizlənmiş türk-islam yavrularını qırmağa çox qırmalamışdılar. Hər bir rus və yəhudi evlərini axtarıb ölüm hədəsiylə müsəlmanları vermələrini əmr edirdilər. Qırğın zamanı yəhudilərin müsəlman əhalisinə göstərdiyi yardımı və qayğını dönə-dönə qeyd edən müəllif həyatlarını təhlükə altına qoyan bu insanlara öz minnətdarlığını bildirməyi də unutmur: "Bir cani qarətkarlar dəstəsi bizim küçəyə dəli gəlmişlərdi. Bizi bu anadək insanlıq namına saxlayan yəhudilər bu əhvalatdan böyük bir təşvişə düşmüşlərdi. Küçədə yeni islam qurbanlarının dad, fəryadları və ətraf evlərdən küçəyə çıxarılan məsum çocuqların ürək parçalayan bağırtıları eşidilirdi. Bunları canilər zorla gizləndikləri yerlərdən alıb küçədə gülləyə və yalın qılınca qurban edirdilər".[126] Yerli əhalinin qorunmasında yəhudi gənclərinin rolunu yüksək qiymətləndirən müəllif yazır: "Bir neçə yəhudi gənc köhnə rus ordusundan olduqlarına görə,

[125] Muradzadə M. Göstərilən əsəri, səh. 21.
[126] Yenə orada, səh. 23.



əllərinə silah alıb, küçədə öz ailələrinin arasında canilərin evlərinə girməmələri üçün komandan tərəfindən bir neçə evi mühafizə etməyə təyin edildiklərini və burada daha müsəlmanın olmadığını söyləyərək hər bir gözlənilməz hadisəyə qarşı hazır durmuşdular. Bu gənclər özlərini hər bir təcavüzdən, bizləri isə ölümün pəncəsindən xilas etdilər".[127]

Şaumyan başda olmaqla bolşevik-daşnak qüvvələri iddia edirdilər ki, mart hadisələri zamanı ölən əhalinin sayı cəmi üç min nəfər olmuşdur. Erməni keşişi Baqrat isə daha irəli gedərək ölənlərin cəmi min nəfər olduğunu bildirirdi. Müəllifin şahid kimi yazdıqlarından isə məlum olur ki, Bakının bütün küçələri insan cəsədləri ilə dolu olmuşdu: "Fəqət şəhərin içində iki günlük müharibədə küçələrdə qalan hesabsız meyitləri daşımağa tələsən arabaların qopardığı gurultular şəhərə bir vəlvələ salmışdı".[128] Müəllif sülh məsələsinə ötəri də olsa, toxunur. Çünki martın 31-də Şaumyan başda olmaqla İnqilabi Müdafiə Komitəsi Müsəlman Milli Şurasına danışıqsız təslim olmaq haqqında ultimatum göndərdi. Müsəlmanların nahaqdan qırılmasının qarşısını almaq üçün ultimatumun şərtləri qəbul olundu. Doğrudur, ultimatumda qırğının baş verməsinin əsas səbəbkarı "Müsavat" partiyası və onun rəhbərliyi hesab olunurdu. Müəllif yazır: "Sülh müzakirələrinin nəticələri saat birdə məlum olmalı idi. Müsəlman qanına susamış xainlər sülh zamanında yenə əllərinə keçən müsəlmanları öldürürdülər".[129] Müəllif Mayılov teatrından azərbaycanlı qadınların əsirlikdən azad olunmasını belə təsvir edir: "Küçə boyu əvvəl başımızı yarıb, indi cibimizi cevizlə dolduran o vəhşi qüvvələr əsirləri müşayiət edirdilər. Bütün ev darvazalarının önündə xristian qadın və çocuqlar böyük bir şadyanalıq içində bizlərə tamaşa edirlərdi. Bu gün onlar üçün böyük bayram idi. Onlardan bəziləri bizə: "Asma, bir, iki,

[127] Yenə orada.
[128] Muradzadə M. Göstərilən əsəri, səh. 24.
[129] Yenə orada.

Qafqaziyyə bizimki söyləyirdiniz, iştə Qafqaziyaya belə malik oldunuz…",–deyə tənə edirdilər. Düşmənin bu cür tənələri acı, fəqət doğru idi".[130] Müəllif qırğının sonluğunu belə təsvir edir: "Bizim məhəlləmizdə yaşayan, əsir düşmüş qadın və qızlardan bəziləri qayıtdılar. Məhəlləmizə yaxın küçələrdən ötdükdə həmin qadınlar, əsir adı ilə bayıra çıxarılıb sonradan rəhmsizcəsinə gözlərinin önündə qətl edilmiş oğul, qardaş və ərlərinin düşdükləri məkanları və axıtdıqları qanlarının əsərini göstərib ürəkdağlayan ah və fəryadlar qoparırdılar".[131] Türk-müsəlman əhalisinə qarşı törədilən bu soyqırımın canlı şahidi olan M.Muradzadə özünə və xalqına xitabən yazırdı: "Bu günlərdə ana və bacıların qəlbinə acı və daim sağalmaz dağlar basıldı. Bu günlər Bakı şəhərinin yarıdan çoxu bir matəmsəraya çevrildi. Bir çox evlərin üzvləri südəmər yavrularınadək zəhərli xəncərlər ilə doğrandı. Fəryad, ah-fəğan sədası eşidilməz bir ev qalmadı. Söyləyiniz, belə dilsuz tarixi bir vaqeəni unutmaq olurmu?".[132]

Təəssüflər olsun ki, 1920-ci ilin bolşevik işğalından sonra sovet dönəmində bu faciə, nəinki unuduldu, hətta ona vətəndaş müharibəsi damğası vurularaq hadisələrin əsl günahkarı kimi milli qüvvələr təqsirləndirildi. Qırğını törədən və müsəlman qanına susayan Şaumyan və başqaları milli qəhrəman səviyyəsinə qaldırıldı və bu canilərin xatirəsini əbədiləşdirmək üçün Bakının ən çox qan tökülən küçələrinə onların adları verildi. 1918-ci ilin türk-müsəlman soyqırımı bolşevik dönəmində bizim yaddaşımıza belə həkk edildi.

Müəllif mart soyqırımı zamanı Bakının mədəniyyət abidələrinə dəyən ziyanı da xatırlayaraq yazır: "Üç günlük müharibədə şəhər panoramasının təbdilatından bir şey bilmək istəyirdim. İsmailiyyə barəsində bir saat əvvəl Çəmbərəkənddə aldığım qəmli bir xəbəri təhqiq etməyə maraq göstərdim. İsmailiyyənin bir an əvvəl düşmən qüvvələri tərəfindən qəddar-casına yandırıldığını gördüm. Onun önündəki iki mərtəbəli binanın asfaltında bir yığın camaat tamaşaya durmuşdu. İsmailiyyə düşmənin acı və kinli intiqamı ilə kül olacaq dərəcədə yandırılmışdı".[133]

[130] Yenə orada, səh. 27-28.
[131] Yenə orada, səh. 28.
[132] Yenə orada.



Dövrün siyasi hadisələrini obyektiv qiymətləndirən müəllif Bakıda gedən mübarizəni iki istiqamətdə yozur. Birincisi, gənc bir müsəlman kimi onu lənətləyir, bu qırğında öz gücsüzlüyünə acıyır, ətrafında baş verən hadisələrə təsir edə bilmədiyinə görə özünü ittiham edir. Digər tərəfdən Bakıda məğlubiyyətimizin səbəblərini mübarizəyə hazır olmamağımızla əlaqələndirir. Bununla bağlı yazır: "Dostum, yanılırsan, söyləmək başqa, fel başqa; bu işdə, ancaq diplomat olmalı, işi elə bir tərz ilə aparmalı ki, bəslədiyimiz o böyük amal bir gün olsun ki, öz mövqeyini işğal etsin".[134]

M.Muradzadənin bu əsəri 1918-ci ilin türk-müsəlman soyqırımı ilə bağlı nəşr olunan və tarixi xətaya yol verməyən ilk xatirə və şahid ifadəsidir. Müəllif Bakının bir məhəlləsinin timsalında müsəlman əhalisinə qarşı törədilən qırğının tam mənzərəsini açmağa səy etmişdir.

Vaxtilə (1895-ci ildən 1919-cu ilin iyulunadək - A.İ.) Bakıda yaşamış, sonralar isə Berlinə mühacirət etmiş B.Baykovun 1918-ci ilin mart qırğını ilə bağlı çap olunan xatirələri[135] problemə aydınlıq gətirmək üçün mühüm əhəmiyyət kəsb edir. Birincisi, Baykov Bakıda adi bir vətəndaş kimi yox, siyasi partiyanın üzvü kimi fəaliyyət göstərirdi. İkincisi, müəllif mühacir tarixçilərdən fərqli olaraq mənşə etibari ilə qeyri-azərbaycanlı idi. Üçüncüsü, Baykov kadet (konstitusiyalı demokrat–A.İ.) partiyasının üzvü olduğundan onun bolşevik,

[133] Yenə orada, səh. 28.
[134] Muradzadə M. Göstərilən əsəri, səh.28-29.
[135] Байков Б. Воспоминания о революции в Закавказье (1917-1920гг.). Архив русской революции. т.IX, Берлин, 1922.

daşnak və Müsavat partiyalarının qırğınla bağlı fəaliyyətinə münasibətini müəyyən qədər obyektiv qəbul etmək olar.

B.Baykov qırğına qədər Zaqafqaziyada cərəyan edən hadisələrə münasibət bildirərək yazır ki, 1917-ci ilin fevralında çarizmin süqutu Zaqafqaziya xalqlarının müstəqilliyi üçün yol açdı. Lakin məsələ onda idi ki, erməni, gürcü və azərbaycanlılar bu müstəqilliyi hələlik Rusiyanın sərhədləri daxilində axtarırdılar. Digər tərəfdən Rusiyanın əksər siyasi partiyaları Qafqaz xalqlarının müstəqilliyi məsələsində yekdil deyildilər. Bolşeviklərin millətlərin öz müqəddəratını təyin etmək hüququ haqqında fikri, yalnız şüar xarakteri daşıyırdı. Əslində, bolşeviklər keçmiş Rusiyanı yeni formada bərpa etmək istəyirdilər. Oktyabr çevrilişi buna əyani sübut idi. Bununla bağlı müəllif yazır: "Çar Rusiyasının bütün neftini Bakı verirdi. Neftin əksəriyyəti Volqa çayı vasitəsilə Rusiya şəhərlərinə daşınırdı. Volqada buzların əriməsilə bağlı ticarət gəmilərinin fəaliyyəti martın ortalarında başlanırdı. Bolşeviklərin təxirəsalınmaz vəzifəsi Bakını tezliklə işğal etmək idi".[136]

Müəllif daha sonra yazır: "Bolşeviklər öz məramlarını gizlətmirdilər. Zaqafqaziyadakı hərbi hissələri və silahları bir yerə cəmləşdirmək üçün işə başlamışdılar. Xəzər donanması bolşeviklər tərəfindən idarə olunurdu"[137]. Müəllifə görə, bolşeviklərin hakimiyyəti ələ alması üçün qüvvələri kifayət edərdi. Lakin bu iş o zaman çətinləşə bilərdi ki, Bakıdakı daşnak qüvvələri müsavatçıları müdafiə etmiş olsun. Bolşeviklər tam əmin idilər ki, hakimiyyət məsələsində daşnaklar müsavatçıları müdafiə etməyəcəklər. Baykov yazır: "Martın 24-də axşam şəhər Dumasının iclası keçirilirdi. Saat 7-də iclas yarımçıq kəsildi. Məlum oldu ki, Lənkərana yola düşməyə hazırlaşan "Evelina" gəmisi bolşeviklər tərəfindən tərksilah

[136] Baykov B. Göstərilən əsəri, səh. 119.
[137] Yenə orada, səh.120.



olunarkən atışma baş vermişdir. Axşam saat 11-də gəmidəki müsəlman qüvvələri silahlarını bolşeviklərə təslim etdilər".[138]

Məlum olduğu kimi, qırğından bir neçə gün əvvəl Erməni Milli Şurası rəsmən elan etmişdi ki, əgər şəhərdə müsəlmanlarla bolşeviklər arasında toqquşma baş versə, ermənilər bitərəf qalacaqlar. Lakin martın 25-də silahların müsəlmanlara qaytarılması çətinliyə düşəndə ermənilərin şübhəli hərəkətləri narahatçılıq yaratmağa başladı. Müəllif yazır: "Mən şəhərin mərkəzində yaşadığım üçün heç bir hərəkət gözümdən yayınmırdı. Martın 25-i gündüz saat 4-də bolşeikərlə müsavatçılar arasında silahların qaytarılması ilə bağlı danışıqlar başlandı. Bizə elə gəlirdi ki, danışıqlar normal şəkildə davam edir. Lakin bir saat sonra, yəni saat 5-də şəhərin müsəlmanlar yaşayan dağlıq hissəsi dənizdən top atəşinə tutuldu. Şəhərdə dəhşətli atışma başlandı".[139] Müəllif daha sonra yazır ki, şəhər 4 gün cəhənnəm əzabı çəkdi; döyüşlərin birinci günü müsəlmanlar güc gəlirdilər, lakin ikinci gün bolşeviklər onları üstələdilər və şəhərdə qeyri-bərabər döyüşlər başladı. Baykovun qırğınla bağlı bir fikri xüsusi maraq doğurur: "Erməni Milli Şurası çalışırdı ki, erməni əhalisini bu döyüşlərdən qorusun. Lakin Daşnaksütyun partiyası erməni dəstələrinin bolşeviklər tərəfdən döyüşlərdə iştirak etməsi haqqında qərar çıxartdı. Beləliklə, hadisələrin ikinci günü döyüşlərin xarakteri dəyişdi və ermənilərin əksəriyyəti müsəlmanlara qarşı qırğına başladı".[140]

Müəllifə görə, Erməni Milli Şurası ilə Daşnaksütyun partiyası arasında qırğında iştirak etməklə bağlı fikir ayrılığı var idi. Yeri gəlmişkən, Baykov istisna olmaqla, problemlə məşğul olan müəlliflərdən heç biri bu məqama diqqət yetirməmişdir. Müəllif qırğınla bağlı yazır: "Hər yeri yanğın bürümüşdü. Bolşeviklərin artilleriyası şəhəri xarabazara döndərmişdi. Müsəlmanların "Cümə" məscidi zədələnmiş, "İsmailiy-

[138] Yenə orada.
[139] Yenə orada, səh. 122.
[140] Yenə orada.

yə" yandırılmış, "Kaspi" qəzetinin mətbəəsi uçurulmuşdu. Müsəlmanlar kütləvi şəkildə şəhəri tərk edirdilər".[141] Köməksiz müsəlman əhalisi ev-eşiyini ataraq canını qurtarmaq üçün döngə və dalanlarda gizlənməyə cəhd edirdi. Lakin onlardan heç biri canını top atəşindən qurtara bilmirdi.

Baykovun qırğınla bağlı aşağıdakı fikri başqa ədəbiyyatda öz əksini tapmayıb: "Bolşeviklərin müsəlman əhalisinə qarşı törətdikləri cinayətlər iki rus piyada polkuna ağır təsir etdi. Onların sayı 8 min nəfərə çatırdı. Bolşeviklər bu polkları Bakıda zorla saxlamışdılar. Polkun rəhbərliyi Şaumyan başda olmaqla bolşeviklərdən tələb etdi ki, bu gün (aprelin 1-də– A.İ.) döyüşlər dayandırılmasa, onlar müsəlmanlar tərəfdən döyüşə girəcəklər. Bolşeviklər bu tələbdən sonra döyüşləri dayandırmağa məcbur oldular".[142]

Müəllif qırğından sonra Bakıda Şaumyan başda olmaqla yaradılmış bolşevik hökumətinə münasibətini bildirmir, ancaq onu qeyd edir ki, Bakı şəhərinə komendant təyin olunmuş praporşik Avakyan narkoman və ruhi xəstə idi.[62] 1918-ci ilin mart qırğınını bolşevik-müsəlman vuruşması kimi xarakterizə edən B.Baykov erməniləri günahkar saymır: "Mart günlərindən xeyli sonra tez-tez eşidirdim ki, guya ermənilər müsəlmanları amansızcasına qırmışlar. Lakin bu fikir həqiqətdən uzaqdır. Çünki küçə döyüşlərində hər iki tərəfdən xeyli adam öldürülmüşdü"[143]. Müəllif hadisənin canlı şahidi olmasına baxmayaraq, "vuruşmanı birinci kim başladı" sualına cavab verməkdə çətinlik çəkir: "Lakin onu qətiyyətlə deyə bilərəm ki, Bakıda döyüşlərdən qaçmaq mümkün deyildi. Çünki fevral inqilabından sonra "Müsavat", Bakı daxil olmaqla, Azərbaycanı öz milli "votçinası" sayır və onun uğrunda mübarizə aparırdı. Bolşeviklər isə oktyabr çevrilişindən sonra Bakıya Sovet Rusiyasının sənaye mərkəzi kimi ba-

[141] Yenə orada, səh.121.
[142] Yenə orada.
[143]Baykov B. Göstərilən əsəri, səh. 123.



xırdılar və burada bolşevik rejimi qurmaq fikrində idilər. Bu dövrdə daşnakların öz iddiaları olsa da, onlar daha çox ruslarla əlaqə yaratmağa meyl edirdilər".[144]

Baykov Bakıda erməni-bolşevik münasibətlərini belə xarakterizə edir: "Rus inqilabı dövründə ermənilər Rusiyaya bağlılıqlarını nümayiş etdirir, mövcudluqlarının yeganə çarəsini Rusiya ilə ittifaqda görürdülər. Özünüqoruma hissi ermənilərə bolşeviklərlə münaqişəyə girməməyi və onlarla sövdələşməyi təlqin edirdi. Ermənilər həmişə deyirdilər: "Biz Rusiya əleyhinə çıxanlarla birləşməkdənsə, Rusiya ilə bir getmək xatirinə, hətta bolşeviklərlə də olsa, müttəfiqliyə razıyıq"[145]. Bu fikrin başqa cür ifadəsi də vardır: "Bolşeviklər necə də olsa, rusdurlar, elə buna görə də türklərdən yaxşıdırlar".[146] Müəllif qırğında itkilərin sayını belə göstərir: "Mart qırğınında müsəlmanların itkisi haqqında rəsmi məlumat yoxdur, ancaq müsəlmanlar özləri ölən və yaralananların sayını 6 min nəfər göstərirlər".[147]

Xarici tarixşünaslıqda 1918-ci ilin mart soyqırımı ilə bağlı xüsusi maraq doğuran əsərlərdən biri Henri Barbiyə məxsusdur[148]. Əsərin 1920-ci ildə Parisdə nəşr olunmasına baxmayaraq, Versal sülh konfransına hazırlaşan Azərbaycan nümayəndə heyətinin nəşr etdiyi əsərlərdən müəllifin lazımi qədər istifadə etməsi hadisələrə obyektiv yanaşmanı təmin etmişdir. Müəllif qırğınla bağlı yazır: "1918-ci ilin mart qırğınında 7 min müsəlman və 3 min bolşevik və erməni qırılmışdır"[149]. Müsəlmanların sayı ilə bağlı bu rəqəm dəqiq olmasa da, hər halda reallıqdan uzaq deyildir. Müəllif mart qırğını ilə bağlı Azərbaycan nümayəndə heyətinin hazırladığı sənədlərlə

[144]Yenə orada.
[145]Yenə orada, səh.120.
[146]Yenə orada, səh.119.
[147]Yenə orada, səh.124.
[148]Henry Barby. Les extravagances bolcheviques et L'epuopec armenienne.Paris, 1921.
[149]Henry Barby. Göstərilən əsəri. səh.65.

yanaşı, o zaman Parisdə iki nümayəndə heyəti ilə təmsil olunan ermənilərin "dəlil-sübutlarından" da istifadə etmişdir. Tarixçinin bir az irəli gedərək, Bakı Xalq Komissarları Soveti və onun rəhbərliyi haqqında yazdıqları problemi dərindən bildiyinə əyani sübutdur: "Bolşeviklərin rəhbəri Şaumyan, Fioletov, Caparidze həbs olundular (söhbət 1918-ci il iyulun axırı-avqustun əvvəllərindən gedir - A.İ.). Gəmidə Şaumyana məxsus yüklərin içində 80 milyon manat qızıl pul tapıldı".[150]

1918-ci ilin türk-müsəlman soyqırımına xüsusi diqqət yetirən xarici tarixçilərdən biri Firuz Kazımzadədir. Müəllifin 1951-ci ildə nəşr olunmuş 345 səhifəlik tədqiqat xarakteri daşıyan əsəri[151] mənbələrin zənginliyi baxımından diqqəti cəlb edir.

Mart faciəsinin mahiyyətinə daha çox diqqət verən F.Kazımzadə yazır ki, güllənin kimin tərəfindən birinci atılmasından asılı olmayaraq dövrün ən böyük fəlakətlərindən biri baş verdi. Müəllif bunu o zaman yazırdı ki, (əsər 1951-ci ildə nəşr olunub-A.İ.) bütün sovet tarixçiləri 1918-ci ilin martında Bakıda vətəndaş müharibəsinin baş verdiyini yazır, ölən və yaralananlar haqqında heç bir açıqlama vermirdilər. Etiraf etmək istəmirdilər ki, Bakıda bolşevik-daşnak birləşmələri tərəfindən minlərlə qoca, cavan, uşaq öldürülmüş və ya ən eybəcər işgəncələr verməklə məhv edilmişdir.

Türk-müsəlman qırğınına ayrıca bir fəsil həsr edən müəllif yazır: "1918-ci ilin martın 9-da "Vəhşi diviziyası"nın kiçik bir heyəti Bakıya gəldi. Lakin diviziyanın komandiri general Talışınski Sovetin sədri Şaumyanın əmri ilə həbs olundu. Sovetin bu hərəkəti müsəlman əhalisini həyəcana gətirdi. Məscidlərdə keçirilən mitinqlərdə natiqlər xalqı Sovetə silahlı müqavimət göstərməyə çağırırdılar. Şaumyan hadisələri sakit məcraya yönəldə bilərdi. Ancaq general Talışinskinin və onun

[150]Yenə orada. səh.94.
[151]Kazım-Zadeh F. The Struggle for Transcaucsia (1917-1921). New-York, 1951.



heyətinin gəlişindən bir neçə gün əvvəl o, Rusiya Xalq Komissarları Sovetinin sədri V.Lenindən teleqram almışdı. Məktub–teleqramdan görünür ki, insanları qiymətləndirməkdə yüksək təcrübəyə malik olan Lenin Şaumyanın tələskənliyini hiss etmiş, ona daha ehtiyatlı və az qıcıqlandırıcı olmaq haqqında xəbərdarlıq etmişdi".[152]

F.Kazımzadəyə görə, general Talışinskinin həbsdən azad olunması məsələsi mübahisəsiz həll oluna bilərdi. Martın 30-da Sovet məlumat aldı ki, "Evelina" gəmisinin müsəlman heyəti silahlanmış və Sovetə qarşı üsyan qaldırmaq üçün siqnal gözləyir. Bu məlumat əslində əsassız idi. Yəni Sovet özü münasib məqam gözləyirdi ki, Bakıda ona mane olan "Müsavat" qüvvələrini darmadağın edə bilsin. Sonuncunun müqavimət göstərməsi Sovetin bütün ümidlərini doğrultdu. 1918-ci ilin mart qırğınının tədqiqi ilə məşğul olan tarixçilərin çox böyük əksəriyyəti hadisələrin başlanması üçün bəhanəni "Evelina" gəmisi ilə əlaqələndirirlər. Çünki Sovet və onun rəhbərliyi dəqiq bilirdilər ki, "Evelina" gəmisinin tərksilah olunması xəbəri yerli əhalinin qəzəbinə səbəb olacaqdır. Bu qəzəbi yatırmaq və birdəfəlik "Müsavat"la hesab çəkmək mümkündür. Bu tarixçilərin fikirlərinə şərik olaraq F.Kazımzadə yazır: "Bakı məscidlərinin birinin həyətinə toplanan müsəlmanlardan ibarət böyük izdiham (söhbət Təzəpir məscidindən gedir–A.İ.)"Evelina" gəmisinin heyətindən müsadirə olunmuş silahların geri qaytarılması haqqında qətnamə qəbul etdilər. Səhərisi gün müsəlmanlardan ibarət bir heyət Sovetdən silahların qaytarılmasını xahiş etdi. Bolşevik liderlərindən olan Caparidze bu tələbin yerinə yetiriləcəyinə söz verdi, ancaq elə bu zaman küçələrdə atışma başlandı. İlk atəşin kimin tərəfindən açılması xüsusi əhəmiyyət kəsb etmirdi. Fakt budur ki, 1918-ci il martın 30-da axşam saat 6-da Bakı şəhəri əsl döyüş meydanına çevrildi".[153]

[152] Kazım-Zadeh F. Göstərilən əsəri, səh. 67.
[153] Yenə orada, səh.68.

F.Kazımzadə qırğınaqədərki vəziyyəti belə təsvir edir: "Səngərlər qazılır, barrikadalar düzəldilir və müharibə üçün əsl hazırlıq görülürdü. Şəhər bir neçə saatlığa sükuta qərq olmuşdu. Əsl vətəndaş müharibəsinin yaxınlaşdığını və "Müsavat"ın rəhbərlik etdiyi müsəlmanlara qarşı duruş gətirə bilməyəcəyini yaxşı anlayan Sovetin rəhbərliyi müttəfiq axtarışına başladı".[154] Xarici tarixçilərdən Syuni, Svyatoxovski, Baykov və başqaları da bu fikri təsdiqləyirlər ki, əgər Sovet bu mübarizəni müttəfiqsiz başlasaydı, "Müsavat"ın qalib gələcəyi şəksiz idi. Çünki yerli xalqın Müsavat partiyasına inamı çox güclü idi. Digər tərəfdən Zaqafqaziya Komissarlığının milli ordunun yaradılması ilə bağlı qəbul etdiyi qərarları həm erməni, həm də gürcü nümayəndələri layiqincə yerinə yetirmişdilər. Ancaq Azərbaycan nümayəndə heyəti bunu edə bilmirdi. Çünki Bakı Zaqafqaziya Komissarlığının səlahiyyətlərindən kənarda qalırdı. Bununla yanaşı, Şaumyanın rəhbərlik etdiyi Sovet Cənubi Qafqazda bolşevik rejimini yaratmaq üçün Bakını qərargah seçsə də, "Müsavat" tərəfindən ciddi müqavimətə rast gəlirdi. Hər iki tərəfin bir-birinə düşmən münasibəti göz qabağında idi. Ən nəhayət, Bakıda fəaliyyət göstərən digər partiyaların "Müsavat"a münasibəti müsbət deyildi və Sovetlə "Müsavat" arasında ziddiyyətlərin kəskinləşməsi onların da iç üzünü açdı. Müəllif bu məsələ ilə bağlı yazır: "Bakı menşeviklərinin lideri Ayolla elan etdi ki, onlar Soveti müdafiə edəcəklər. Sosialistlər panislamizmə və "şərq sosialistlərinə" qarşı vuruşacaqlarını bildirdilər. Hətta kadetlər də "Rus işi"nin müdafiəçiləri kimi bolşevikləri müdafiə edəcəklərinə söz verdilər".[155]

F.Kazımzadə də digər tarixçilərin belə bir fikrini təkrar edir ki, guya Daşnaksütyun partiyası və onun nizami hərbi qüvvələri "Müsavat" tərəfinə də keçə bilərdi. Bu fikirlə razılaşmaq olmaz. Əvvəla, Şaumyan və Daşnaksütyun

[154] Kazım-Zadeh F. Göstərilən əsəri, səh.71.
[155] Yenə orada, səh.72.



partiyasına görə, Cənubi Qafqazda iki dövlətin yaradılması məqbul idi. Bu dövlətlər Ermənistan və Gürcüstan olmalı idi. Bu dövlətlər, ya Sovet Rusiyasının tərkibində yaranmalı, ya da müstəqil yaransalar belə, Sovet Rusiyası ilə müttəfiq olmalı idi. İkincisi, Daşnaksütyun partiyası daha irəli gedərək "Böyük Ermənistan" dövləti yaratmaq istəyirdi. Bu yaranacaq dövlətin ərazisinə Osmanlının bir hissəsi, bütün Azərbaycan torpaqları daxil olmalı idi. Onda sual olunur: "Daşnaksütyun" "Müsavat"a necə müttəfiq ola bilərdi ki, müsavatçıların yaşadığı dədə-baba torpaqlarında erməni dövləti yaratmaq istəyirdi? Üçüncüsü, Rusiya Xalq Komissarları Sovetinin sədri V.İ.Lenin hələ 1917-ci ilin dekabrında Osmanlı ərazisində Erməni muxtariyyətinin yaradılması haqqında dekreti şəxsən Şaumyana təqdim etmişdi. Beləliklə, bu məsələdə Daşnaksütyun partiyasının və bolşevik Şaumyanın planları üst-üstə düşürdü. Ona görə də "Daşnaksütyun"un "Müsavat"la əməkdaşlıq edə bilməsi barədə müəllifin fikri ilə heç cür razılaşmaq olmur. Müəllif yazır: "Martın 31-də Sovetin ultimatum verərək Müsavatdan tələb etdiyi üç şərt, nəinki ağır idi, eyni zamanda, Bakıda bütün hakimiyyətin onun əlində olduğuna işarə idi. Müsavatın həmin tələbləri yerinə yetirməsi, nəinki mümkün idi, eyni zamanda, verilən vaxt məhdudiyyəti də bunun sadəcə özünə bəraət xatirinə verildiyini aydın göstərirdi. Habelə bildirilirdi ki, göstərilən şərtlər qəbul edilmədiyi təqdirdə müharibə vəziyyəti elan ediləcək və nəticələrlə bağlı bütün məsuliyyət "Müsavat"ın üzərində qalacaqdır".[156]

Müəllif yazır: "Müsəlmanlar üçün çox ağır nəticələnən bu qırğında "Daşnaksütyun" ətrafında toplanan Bakı erməniləri prinsipial rol oynadılar. Həqiqət budur ki, bolşevizm pərdəsi altında gizlənən ermənilər müsəlmanların üzərinə atıldılar və bir neçə gün ərzində çoxlu qoca, qadın, kişi, kiçik yaşlı

[156] Kazım-Zadeh F. Göstərilən əsəri, səh.84.

uşaqlardan ibarət olan on iki mindən çox insanı qətlə yetirdilər".[157]

Fövqəladə Təhqiqat Komissiyasının sənədlərindən məlum olduğu kimi, Bakıda başlanan soyqırım Azərbaycanın bir çox bölgələrində təkrar olundu. Heç kimə rəhm göstərilmirdi: nə yaşa, nə də cinsə baxılırdı. Küçələrdə dolaşan silahlı adamlar evləri yandırır, yoldan keçən müsəlmanları düşmən kimi öldürürdülər. "Müsavat"la Sovet arasında siyasi mübarizə kimi başlanan bu döyüş dəhşətli milli iğtişaş xarakteri daşımağa başladı.[158]

Qırğından az sonra hər bir partiya özünü təmizə çıxarmaq üçün vasitələr axtarırdı. Erməni yepiskopu Baqrat 1919-cu ilin payızında Bakıya gəlmiş ABŞ missiyasının başçısı general Harborda təqdim etdiyi sənəddə ermənilərin mart hadisələrində iştirakını inkar edirdi. Baqrat Şaumyandan irəli gedərək Bakıda baş verən qırğınlar zamanı 300 erməni və 700 müsəlmanın öldürüldüyünü iddia edirdi. Baqrata görə, döyüş Müsavatla Bakı Soveti qüvvələri arasında baş vermiş, ermənilər isə bitərəf qalmışdır. O davam edərək yazırdı ki, doğrudur, bəzi erməni əsgərləri küçə döyüşlərində iştirak etmişlər. Buna görə Erməni Milli Şurası cavabdeh sayıla bilməz. Yepiskop bütün günahı türklərdən yardım gözləyən Müsavatın üzərinə qoyurdu.[159] Müəllifin erməni xislətinə nə qədər bələd olması fikrindən xeyli uzaq olsaq da, ancaq aşağıdakı fikri onun ayıq bir tarixçi olmasını sübut edir: "Əgər yepiskop bu sənədi iyirmi il sonra yazmış olsaydı, çox güman ki, Müsavatı günahkar çıxarmaq üçün onu "beşinci kolonna" adlandırardı".[160] Müsəlman əhalisinin qətliamına gəldikdə Baqrat iddia edirdi ki, ermənilər qırğın vaxtı 20 mindən çox

[157] Yenə orada, səh.73.
[158] ARDA, f.100, siy 3. iş.791, vər.8.
[159] Kazım-Zadeh F. Göstərilən əsəri. səh.82.
[160] Yenə orada, səh. 96.



müsəlmana sığınacaq vermişdi.[161] Mart qırğınının bilavasitə canlı şahidi, 1945-1946-cı illərdə Cənubi Azərbaycan Milli hökumətinin başçısı S.C.Pişəvəri xatirələrində yazırdı: "1918-ci il martın 18-də (köhnə stillə–A.İ.) daşnakların vəhşiliklərini, saysız-hesabsız günahsız adamların, xüsusilə bitərəf Cənubi azərbaycanlıların öldürülüb karvansaralarda meyitlərinin yandırılmasını öz gözlərimlə görmüşəm. Heç bir əsas və dəlil olmadan, yalnız kin və ədavət üzündən daşnakların törətdikləri cinayət hər bir insanın ruhunu sıxıb kədərləndirirdi. Bakıda bütün küçələr, mağazalar, evlər, bir sözlə, bütün şəhər qarət edilib qana bulaşmışdı. Ermənilər Azərbaycan türklərini öldürüb, qadınları əsir götürürdülər".[162]

F.Kazımzadə də S.Şaumyanın Rusiya Xalq Komissarları Sovetinin sədri V.Leninə göndərdiyi teleqrama öz münasibətini bildirir. Müəllifə görə, Sovet öz qələbəsini qeyd etməyə tələsməmişdi. Çünki aprelin 2-dən sonra Bakıda hər şeyə nəzarət Sovetin əlinə keçmişdi. Leninə göndərdiyi teleqramda Şaumyan yazırdı: "Qafqazda Sovet hakimiyyəti fəal silahlı mübarizə mərhələsinə qədəm qoymuşdur. Üç gün– martın 30, 31-i və aprelin 1-də Bakı şəhərində şiddətli döyüşlər getmişdir… Döyüşlərdə hər iki tərəfdən iyirmi min nəfər iştirak etmişdir. Nəticələr bizim üçün parlaq olmuşdur. Düşmən tamamilə darmadağın edilmişdir. Bizim diqtə etdiyimiz şərtlər qeyd-şərtsiz imzalanmışdır. Hər iki tərəfdən də üç mindən artıq insan öldürülmüşdür".[163]

Mart qırğınından sonra Bakıda və bir sıra qəzalarda hakimiyyəti ələ keçirən bolşeviklər öz uğurlarını möhkəmləndirmək üçün kütləvi milliləşdirməyə başladılar. Əslində, bolşeviklər Erməni Milli Şurası və "Daşnaksütyun" partiyası ilə üz-üzə gəlməmək üçün onun qüvvələrini öz tərkibinə daxil etməyə nail oldu. Eyni zamanda, "Müsavat"la döyüşdə zəifləyən

[161] Yenə orada, səh. 94.
[162] Pişəvəri S.C. Seçilmiş əsərləri. B., 1965, səh. 297-298.
[163] Шаумян С.Г. Статьи и речи. 1917-1918 гг. Б., 1929, səh.66-67.

və osmanlı qüvvələrinin bu əraziyə gəlişindən ehtiyat edən erməni rəhbərliyi özünün hərbi qüvvələrinin qırmızı orduya cəlb olunmasına razılıq verdi. Ermənilər, bununla, həm Sovetlə bir cəbhədə birləşməklə hakimiyyət iddialarını təmin edir, həm də yaxın gələcəkdə Osmanlı ərazisindən qovulan Andronikin dəstələri ilə birləşmək üçün zəmin hazırlayırdılar. Bolşeviklər hakimiyyət monopoliyasını başa çatdırmaq üçün 1918-ci il aprelin 25-də Bakı Xalq Komissarları Sovetini təşkil etdilər. Onun üzvləri, əsasən, bolşeviklərdən və onları müdafiə edən qüvvələrdən ibarət idi. Yeni təşkil olunmuş Xalq Komissarları Soveti elan etdi ki, bundan sonra Sovet bütün Bakı rayonu və onun təxminən bir milyonluq kəndli əhalisi üzərində yeganə hakimiyyət orqanıdır. Bakı Soveti şəhər kapitalistlərindən zor gücünə qopardığı 50 milyon manatın bir hissəsini neft sənayesinin inkişafına sərf etdi. Aprelin 25-dən iyulun 31-nə kimi Bakıda hakimiyyətdə olan bolşeviklər Bakı neftini Sovet Rusiyasına göndərmək üçün bütün vasitələrdən istifadə etdilər.

Vətən tarixinin 1917-1920-ci illər dövrünə xüsusi diqqət yetirən xarici tarixçilərdən biri də erməni əsilli Ronald Qriqori Syunidir. Müəllifin 70-ci illərdə nəşr etdiyi 362 səhifəlik əsəri[164] mart soyqırımını öyrənmək üçün diqqəti cəlb edən tədqiqatlardandır.

Mart soyqırımına qədər "Daşnaksütyun"un özünə siyasi xal toplaması ilə bağlı müəllif yazır: "Mart günlərindən bircə həftə əvvəl, martın 23-də "Daşnaksütyun"un mərkəzi komitəsi rəsmi bəyanatla çıxış edərək bildirdi ki, onun fəaliyyəti haqqında şayiə yayanlara qarşı ölçü götürəcəkdir. Daşnaksütyun partiyası heç bir siyasi qüvvə ilə birləşmək və müttəfiq olmaq fikrində deyildi".[165] Bu həmin günlər idi ki, müsəlmanların Tiflisdəki Zaqafqaziya Komissarlığı və Şimali Qafqazla əla-

[164] Syuni R. The Baku Commune 1917-1918; Class and Nationality in the Russian Revolution. Princeton. 1972.
[165] Yenə orada, səh. 214.



qələri kəsilmiş və Bakı şəhərinin əhalisi özünün ağır günlərini yaşayırdı. Gün ərzində ara-sıra atəş səsləri eşidilirdi. Zəif və primitiv müsəlman qüvvələri ilə daha yaxşı silahlanmış Sovet və daşnak qüvvələri arasında qırğının hər an başlanacağı gözlənilirdi. Müəllif yazır: "Bakıda baş verən hadisələr xarakterinə görə diqqəti cəlb edir. Ermənilər və şəhərin digər qeyri-müsəlman əhalisi şəhərdən kənardakı müsəlmanların təcavüzündən qorxur və onun Bakıya yayılacağını düşünürdülər. Ermənilər bilirdilər ki, onların milli qəhrəmanı Andronik martın 11-də (1918-ci il–A.İ.) Ərzurumu tərk etmiş və Qarabağ istiqamətində hücuma hazırlaşır".[166]

R.Syuninin mart qırğını zamanı "Hümmət" təşkilatının tutduğu mövqeyə münasibəti də maraq doğurur. Müəllif yazır: "Martın 30-da səhər "Vəhşi diviziya"nın bir qrup əsgərinin tərksilah edilməsinə etiraz edən müsəlmanlar bütün şəhər boyu mitinqlər keçirərək, müdafiəsiz müsəlman əhalisinin silahlandırılmasını tələb edirdilər. Müsəlman bolşeviklərdən ibarət olan "Hümmət" təşkilatı bir ay əvvəl general Talışinskinin həbsi zamanı olduğu kimi, bu dəfə də Sovet rəhbərliyi ilə müsəlman millətçiləri arasında vasitəçilik etmək üçün uğursuz cəhdlər göstərdi".[167] Məlum olduğu kimi, "Hümmət"in fəalları, daşnakın bir neçə üzvü və Şaumyan Nərimanovun mənzilində görüşdülər. Nərimanovun Şaumyandan acizanə xahişi ondan ibarət oldu ki, vətəndaş müharibəsi bir az da təxirə salınsın. Çünki onun milli düşmənçiliyə çevrilmək təhlükəsi var idi. "Hümmət" təklif etdi ki, müsadirə olunmuş silahlar onun ixtiyarına verilsin. Bu razılaşma Bakı müsəlmanlarına sakitləşdirici təsir göstərəcəkdi.[168]

Martın 30-u axşamın ilk saatlarında müsəlmanlara qarşı əməliyyatları müvəffəqiyyətlə aparmaq üçün İnqilabi Müdafiə Komitəsi yaradıldı. Komitəyə Şaumyan, Caparidze, Korqa-

[166] Yenə orada.
[167] Yenə orada.
[168] Syuni R. Göstərilən əsəri, səh. 215.

nov, Suxartsev, Saakyan, Melik-Yolçuyan və doktor Nərimanov daxil idilər. Komitə ilk bəyanatında özünü Bakıda, ancaq Sovet qarşısında məsul olan ən ali hərbi-siyasi orqan elan etdi. Sovet qüvvələri ilə müsəlman qüvvələri arasında münasibətlər özünün kulminasiya nöqtəsinə çatarkən erməni icması bu qarşıdurmada bitərəf qalacağını bəyan etdi. Hamıya aydın idi ki, nizami erməni dəstələrinin köməyini özü üçün təmin edən tərəf güc üstünlüyünə və qələbəyə nail olacaqdır. Daşnak partiyası və Erməni Milli Şurası taktiki olaraq müsavatçılarla müttəfiqlikdən imtina etdi. Erməni Mill Şurası Sovet rəhbərliyi ilə danışıqlar apararaq öz qüvvələrini şəhərin ermənilərə aid hissələrinə çəkdi.

R.Syuni yazır: "İlk nəzərdən belə görünürdü ki, erməni hərbi birləşmələri özünümüdafiə ilə məşğuldurlar və bu, əvvəllər (1905-ci ildə – A.İ.) baş vermiş erməni-müsəlman düşmənçiliyinin təkrarı yox, sovetlə müsəlmanlar arasında vətəndaş müharibəsidir. Ancaq bu ümidlər özünü doğrultmadı".[169] F.Kazımzadədən fərqli olaraq, Syuni erməni hərbi birləşmələrinin Sovet qüvvələri ilə birləşməsini təsadüf adlandırır. Az qala oxucularını inandırmaq üçün bunun köklü bir hadisə ilə bağlı olmadığını bildirir: "Məlum olmayan səbəblərdən martın 30-da erməni rəhbərliyi özünün bitərəf mövqeyini dəyişdi və əsgərlərini Sovetin xidmətinə göndərdi. Döyüş xətləri çəkildi. Sovet və erməni qüvvələri Parapetdən Bulvaradək olan sahilboyu ərazilərdə yerləşdilər. Axşam saat 10-da pulemyot və tüfəng atəşləri əsl döyüşün başlandığını xəbər verirdi".[170] Qırğının şahidi olan Baykov da yazırdı ki, Erməni Milli Şurası neytrallığa qərar vermişdi, ancaq sonralar "Daşnaksütyun"un Bakı Komitəsi bu mübarizədə müsəlmanlara qarşı vuruşmaq qərarına gəldi. Şəhərdəki erməni əsgərləri daşnakların arxasınca getdilər.[171]

[169] Yenə orada, səh. 214.
[170] Syuni R. Göstərilən əsəri, səh. 215.
[171] Baykov B. Göstərilən əsəri, səh.121.



Aprelin 1-də müsəlmanlara qarşı sovet və erməni qüvvələri hərtərəfli hücuma keçərkən Bakıda döyüşlərin milli xarakter daşıdığı üzə çıxdı. Syuni yazır: "Döyüşlər sürətlə neft mədənlərinə yayılırdı. Balaxanı-Suraxanı rayonlarında Soveti müdafiə etmək üçün icraiyyə komitəsi yaradıldı və ərazidəki bütün silahlı qüvvələr onun nəzarətinə verildi. Suraxanıda müsəlmanlar kiçik bir qırmızı qvardiya dəstəsini tərksilah etdilər, rayonda öz hakimiyyətini yaratdılar. Müsəlmanlar Sabunçuya hücuma keçərkən bir zirehli maşından, cəbhə xəttində olan əsgərlərdən və qırmızı qvardiyadan ibarət birləşmiş qüvvələr onları geri qaytardı və məhv etdi".[172]

Mart qırğını zamanı Bakıda yaşayan İranlı fəhlələrin aqibəti məsələsinə Syuninin münasibəti maraq doğurur: "İranlı fəhlələr döyüşlərin gedişində passiv qalaraq qan axıdılmasının bitməsini gözləyir, döyüşə qatılmaqdan imtina edirdilər".[173] R.Syuninin Bakının müsəlman məhəllələrinin bombardman olunmasına münasibəti digər tarixçilərdən fərqlidir: "Aprelin 1-i, səhər saat 10-da İnqilabi Müdafiə Komitəsi (Morskaya küçəsindəki "Astoriya" otelində yerləşirdi – A.İ.) qərara aldı ki, müsəlman məhəllələrinə qarşı artilleriyadan istifadə etsin. İnqilabi Komitə bəyanatında elan edirdi ki, guya müsavatçı qüvvələr Bakının ayrı-ayrı məhəllələrində rus əhalisinə qarşı qırğınlar törətmiş və kifayət qədər xristian əhalisi öldürülmüşdür".[174] Dərhal azərbaycanlılar yaşayan məhəllələrin bombardman olunmasına başlandı. Müsəlmanlar iri çaplı silahların işlədiləcəyini gözləmirdilər və milli qüvvələr bu hücuma duruş gətirə bilmədilər. Bununla bağlı N.Nərimanov yazırdı: "Səhər saat 11-də müsəlmanlardan nüfuzlu İsmayıl bəy Safataliyev mənə zəng edərək xahiş etdi ki, müsəlman məhəllələrini dağılmaq təhlükəsi altında qoyan və günahı olmayan insanların da öldürüldüyü döyüşü dayandırmaq üçün

[172] Syuni R. Göstərilən əsəri, səh. 216.
[173] Yenə orada, səh. 217.
[174] Yenə orada, səh. 219.

yollar arayım. Bir saat sonra İçərişəhərdə müdafiə mövqeyi tutan müsəlmanların rəhbərlərindən biri Ağacavad da bu xahişlə mənə müraciət etdi. Mən ondan soruşanda: "Siz bu müharibəni başlayanda nəyə ümid bəsləyirdiniz"? O: "Bu bir səhv idi" cavabını verdi".[175] N.Nərimanov top atəşini dayandırmaq üçün Caparidzeyə zəng edərək müsəlmanların xahişini ona çatdırdı. Bu xahişə məhəl qoyulmadı. Yalnız müsəlman nümayəndə heyəti İnqilabi Müdafiə Komitəsinin qarşısına gələndən sonra Caparidze bu məsələni yoluna qoyacağına söz verdi.

R.Syuni İnqilabi Müdafiə Komitəsinin müsəlman nümayəndə heyətinə verdiyi ultimatuma münasibət bildirərək yazırdı ki, Bakı Soveti rəhbərliyi qırğını yarımçıq dayandırmaq istəmirdi. Aprelin 1-i günorta vaxtı Ə.Topçubaşov, Aşurov, Kazımzadənin rəhbərlik etdiyi müsəlman nümayəndə heyəti "Astoriya"ya gəldi. Komitə ultimatumu onlara təqdim etdi və tələb etdi ki, top atəşinin dayandırılmasından əvvəl bütün müsəlman təşkilatlarının nümayəndələri həmin sənədi imzalasınlar. Müzakirələrdən sonra müsəlmanlar Komitənin tələblərini qəbul etməyi qərara aldılar. Təxminən saat 4-də protokol imzalandı və artilleriya bombardmanı dayandırıldı. Ancaq danışıqlar gedən dövrdə belə, atəş səsləri kəsilməmişdi.[176]

Müəllif yazır: "Aprelin 1-i saat 5-də ultimatumun qəbul olunması ilə bağlı konfrans açıldı. Konfransda Saakyan, Zevin, Fioletov, Dudin, müsəlmanları təmsil edən Tağıyev, şəhərin meri İlyuşkin, Ə.M.Topçubaşov, molla Hacı Mir Mövsün, Hacı Hüseyn Tağıyev və Kazımzadə, İranın Bakıdakı konsulu, L.Atabekyan və Erməni Milli Şurasından Ter-Mikaelyan iştirak edirdi. Caparidze gur səslə Komitənin ultimatumunu oxudu. "Müsavat"ı təmsil edən Kazımzadə partiyasına qarşı yönəldilən ittihamları rədd etdi və bildirdi ki, Sovet dəs-

[175] Нариманов Н. Статьи и письма с кратким биографическим очерком. М., 1925, səh.5.
[176] Syuni R. Göstərilən əsəri, səh. 221.



tələrinə səngərlərdən atəş açan müsavatçılar olmamışlar. Bəs Bakının küçələrində qanına qəltan edilən minlərlə müsəlmanın günahını kimin adına yazmaq lazımdır? Müsavatçıların özünü müdafiə taktikası bir nəticə vermədi. Şəhərdəki qanlı toqquşmanı tezliklə dayandırmaq və günahsız insanların qırılmasının qarşısını almaq üçün ultimatum qəbul olundu. Konfrans axşam saat 9-da başa çatdı".[177]

T.Svyatoxovski də ultimatumun imzalanması dövründə baş verən hadisələrlə bağlı hadisələri belə şərh edir: "Ultimatumun imzalanmasından əvvəl artilleriya atəşlərinin köməyi ilə Sovetin qüvvələri Erməni küçəsi boyunca yavaş-yavaş irəliləyərək Voronsov küçəsini və "Metropol" mehmanxanasını tutdu. Günortayadək müsəlmanların Nikolayevskaya küçəsində yerləşən qərargahı – İsmailiyyə binası ələ keçirildi və Sovet səngərləri Bazar küçəsinədək genişləndirdi. Yalnız güclü külək və binaların damlarından açılan snayper atəşləri sovet və daşnak qüvvələrinin irəliləməsinə mane olurdu. Komitənin irəli sürdüyü şərtlərin müsəlman nümayəndə heyəti tərəfindən qəbul edilməsi xəbəri alınandan sonra da atışmalar davam edirdi. Müsəlmanların müqaviməti zəiflədikcə erməni əsgərləri daha qəddar olurdular. Bir gün yarım ərzində daşnaklar müsəlman məhəllələrində evləri qarət edir, insanları öldürür və yaşayış yerlərini büsbütün yandırırdılar. Bolşevik və daşnak qüvvələri heç nəyə rəhm etmir, hətta bolşevikyönlü müsəlmanları da öldürürdülər".[178]

Bakıda baş verən qırğın və dağıntılarla bağlı R.Syuni yazır: "Şəhərdə müsəlman memarlığının ən gözəl nümunələrindən olan İsmailiyyə binası tamamilə yandırıldı. Tağıyevin "Kaspi" mətbəəsi odlara qalandı. Aprelin 2-si günorta vaxtı şəhərin demək olar ki, bütün yuxarı məhəlləsi – Bazardan

[177] Syuni R. Göstərilən əsəri, səh. 228.
[178] Swietochowski T. Russian Azerbaijan, 1905-1920. The Shaping of National identity in a Moslim Community. Cambr, 1985; Ankara, 1988, səh. 99-100.

Çəmbərəkəndə qədər olan ərazi yanırdı və döyüşlər şəhərin mərkəzindəki hündür təpəlikdə davam edirdi. Yalnız aprelin 2-si axşama yaxın üç gün davam edən qırğın başa çatdı və küçələrdə nəzarət qarətçilərin əlinə keçdi".[179] Müəllif yazır: "Döyüşlərə kimi şəhər əhalisinin əsas hissəsini təşkil etmiş müsəlmanlar ölülərini dəfn edir və kütləvi şəkildə Bakını tərk edib gedirdilər. Müsəlmanların partiyası olan "Müsavat" siyasi rəqib kimi geri çəkilməyə məcbur edildi. Müsəlman Milli Şurası və müsəlman hərbi birləşmələri Sovetin əsirinə çevrilmişdi.

Türk-müsəlman qırğınının tədqiqi ilə bağlı diqqəti cəlb edən xarici müəlliflərdən biri də T.Svyatoxovskidir. Müəllif ABŞ-da Zaqafqaziya tarixinin ən yaxşı bilicisi kimi tanınır. Təsadüfi deyil ki, tanınmış fransız yazıçısı, həmyerlimiz Banin onu "Zaqafqaziyanın bu günkü tarixi üzrə ən yaxşı amerikalı alim" adlandırmışdır. T.Svyatoxovski Azərbaycanın XX əsr tarixinə dair bir neçə araşdırmanın müəllifidir. "Rusiya Azərbaycanı 1905-1920-ci illər. Müsəlman cəmiyyəti içərisində millət yaranışı" adlı[180] əsəri maraqlı tədqiqat işidir.

Müəllif sovet tarixşünaslığında kök salmış belə bir fikri təkzib edir ki, guya daşnaklar yalnız son anda bolşeviklərlə bir cəbhədə müsəlmanlara qarşı çıxış etməyə razılıq verdilər. Müəllif yazır: "Şaumyan əmin idi ki, azərbaycanlılarla açıq ixtilafda Bakı daşnakları bolşeviklər üçün heç bir qorxu törətməyəcək, əksinə, xeyli dərəcədə ikincilərin mövqeyini müdafiə edəcəklər".[181] Qırğının başlanması ilə bağlı Şaumyan - Nərimanov - Caparidze dialoquna müəllifin xüsusi əhəmiyyət verməsi böyük maraq doğurur. Qırğın başlanan ərəfədə Nərimanovun yalvarışlarına cavab olaraq Şaumyan hadisələrin

[179] Syuni R. Göstərilən əsəri. səh. 281.
[180] Swietochowski T. Russian Azerbaijan, 1905-1920. The Shaping of National identity in a Moslim Community. Cambr, 1985; Ankara. 1988.
[181] Yenə orada, səh. 121.



dinc yolla həll olunmasına razılıq verdi. Guya müsəlmanlar sovet əsgərlərinə atəş açdıqdan sonra Caparidze Nərimanova: "Biz sizin təkliflərinizi qəbul etdik, əgər müsəlmanlar özləri siyasi müharibəyə başlayırlarsa, onda biz nə edə bilərik?" – deyir. Halbuki, Şaumyan sonradan etiraf edərək yazacaq: "Biz silahlı birləşmələrimizə basqın edən qüvvələrə qarşı hər cür hazırlıq görmüşdük və dərhal bütün cəbhə boyu (!!! –A.İ.) hücuma keçdik".[182] Bax, budur əsl həqiqət! Məhz bu həqiqəti Şaumyan kimi caninin öz dilindən eşitdikdən sonra Nərimanov - Caparidze danışıqları necə də cılız görünür! Qırğının Nərimanov və ya Caparidzeyə əvvəlcədən bəlli olub-olmadığından asılı olmayaraq, Şaumyanın Azərbaycan xalqına qarşı, onun torpaqlarına qarşı necə dəhşətli mövqe tutması bir daha sübuta yetir. Şaumyanın öz etirafından sonra mart qırğınını vətəndaş müharibəsi adlandıran vətən tarixçiləri, görəsən, hansı fakta istinad etmişlər?

Qeyd olunan əsərdə T.Svyatoxovski mart qırğını günlərində daşnakların oynadığı rolu belə xarakterizə edir: "On min azərbaycanlının Bakı Sovetinin altı min nəfərlik qoşun hissələri ilə üz-üzə gəldiyi məqamda həlledici söz daşnakların dörd min nəfər, yaxud bundan bir az çox, lakin son dərəcə yaxşı silahlanmış hərbi hissələrinin kimin tərəfində dayanacağından asılı idi. Ermənilər, əvvəlcə tam neytral qalacaqlarını bildirmişdilər. Azərbaycanlılar belə bir inamla döyüşə girdilər ki, daşnaklarla vuruşmayacaqlar. Lakin martın 31-də daşnaklar sovet qüvvələrinə qoşuldular. Belə bir böyük qüvvə ilə bacarmayan azərbaycanlılar ertəsi gün atəşi dayandırdılar. Bakı Sovetinin İnqilabi Müdafiə Komitəsi "əksinqilabçı bəylərin Müsavat partiyası ətrafında birləşənlərin cinayətkar planlarını tənqid edərək" azərbaycanlılara təəccüb doğuracaq şəkildə mülayim bir ultimatum verdi:

[182] Шаумян С.Г. Избранные произведения в 2-х томах Т.2. 1917-1918 гг. М., 1958, səh.209.

1. Bakı Soveti hakimiyyətinin qeyd-şərtsiz tanınması və onun sərəncamlarına tam tabelik;

2. "Dikaya diviziya"nın və digər müsəlman birləşmələrinin, bunun ardınca isə erməni qüvvələrinin şəhərdən çıxarılması;

3. Bakı-Tiflis və Bakı-Petrovsk dəmiryolu xəttinin yenidən açılması.

Müsəlmanlar bu ultimatumu qəbul etsələr də, bolşeviklər "siyasi mübarizə"ni dayandırmadılar".[183] Ona görə ki, erməni millətçiliyinə bolşevik köynəyində sadiq qalan Şaumyan hadisəni bilə-bilə milli qırğın səviyyəsinə qaldırmaqla istəyinə nail ola bilərdi. Şaumyan nə etdiyini çox gözəl bilirdi. Onu da yaxşı bilirdi ki, bu istəyini, ancaq daşnaklar həyata keçirə bilər. Sonradan isə XKS-yə məktub göndərib "bu hərəkətinin zərurətdən doğmasını"–"Azərbaycanın, hətta bütün Zaqafqaziyanın Rusiyadan ayrılmasının qarşısını almaq üçün etdiyini"[184] bildirəcəkdi. Həm də ki, Şaumyan bu xidmətləri müqabilində erməni dövlətinin yaradılması haqqında bolşeviklərin rəhbəri Lenindən dekret almışdı.

T.Svyatoxovski doğru olaraq: "Hadisələrin əsl faciəli davamı ultimatumun qəbulundan sonra daşnak-bolşevik ittifaqının şəhərin müsəlman hissələrində qətllər, qarətlər, yanğınlar törətməsi ilə baş verdi"[185] – yazanda da Mərkəzin hər "növ ermənilərlə" sövdələşməsinə əsaslanır. Svyatoxovski bu fikrini N.Nərimanovun: "Müsəlman, hətta bolşevik olsaydı belə, ona aman vermirdilər. Daşnaklar deyirdilər: "Biz bolşevik tanımarıq, təkcə elə müsəlman olmağın kifayətdir"[186] sözləri ilə daşnak-bolşevik alyansına həm N.Nərimanovun, həm də özünün münasibətini bildirirdi: "Onlar kefi istədikləri adamı öldürür, evləri dağıdır, xaraba qoyurdular. Bolşevizm bayrağı altında

---

[183] Swietochowski T. Göstərilən əsəri, səh. 137.
[184] Şaumyan S.Q. Göstərilən əsəri, səh. 205.
[185] Swietochowski T. Göstərilən əsəri, səh. 140.
[186] Nərimanov N. Göstərilən əsəri, səh. 9.



daşnaklar müsəlmanlara qarşı hər cür vəhşiliyə yol verirdilər. Nəinki kişilərə, hətta hamilə qadınlara da rəhm etmirdilər".[187] Qırğının aprelin 1-dək davam etdiyini iddia edən müəlliflərdən fərqli olaraq T.Svyatoxovski bildirir ki, vuruşma aprelin 2-si gecəyədək sakitləşmədi.[188] Mart qırğınının Azərbaycan rəhbərləri üçün nəticəsini T.Svyatoxovski belə xarakterizə edir: "Mart günləri"ndən sonra Azərbaycan rəhbərləri muxtariyyət hüququndan daha çox ayrılmaqdan danışır və ümidlərini Rusiya inqilabına deyil, Türkiyənin yardımına bağlayırdılar".[189]

T.Svyatoxovskinin Azərbaycan tarixinin 1917-1920-ci illər dövrünə həsr etmiş olduğu tədqiqat işləri bir sıra mübahisəli məqamlarına və nöqsanlarına baxmayaraq, mənbələrin zənginliyinə və dövrün hadisələrinə əsasən obyektiv mövqedən yanaşıldığına görə mühüm əhəmiyyət kəsb edir. Müəllifin Azərbaycanla bağlı yazmış olduğu acı həqiqətlərin heç birinə dövrün vətən tarixşünaslığında rast gəlinmir. Məhz bu baxımdan T.Svyatoxovskinin tədqiqatları böyük zəhmətin nəticəsi kimi qiymətləndirilməlidir.

Azərbaycanın 1917-1920-ci illər tarixini tədqiq edən görkəmli qərb alimlərindən biri də Odri Alştadtdır. Müəllifin 1992-ci ildə nəşr olunmuş əsəri[190] bir çox cəhətlərinə görə diqqəti cəlb edir. O.Alştadtın başqa Qərb tarixçilərindən fərqi ondadır ki, o, Azərbaycanda həm sovet, həm də müstəqillik dönəmində olmuş, bir çox hadisələrin və proseslərin canlı şahidi olmuşdur. Müəllifin gənc yaşlarından türk xalqları, o cümlədən Türkiyə Cümhuriyyəti və Azərbaycan Sovet Respublikası ilə maraqlanması, bu dövlətlərlə bağlı xaricdə nəşr olunmuş əsərlərlə yaxından tanışlığı mühüm bir tədqiqat işinin ərsəyə çatması ilə nəticələnmişdi. 543 səhifəlik əsər Azərbaycanın

---

[187] Yenə orada, səh.14.
[188] Swietochowski T. Göstərilən əsəri, səh. 206.
[189] Yenə orada.
[190] Altstadt Audrey L. The Azeribaijan Türks: Pover and İdentity under Russian rule. Stanford, Kalifornia, 1992.

Rusiya tərəfindən işğalından tutmuş XX əsrin sonlarında başlanan milli-azadlıq hərəkatına qədərki dövrü əhatə edir.

O.Alştadt 1918-ci ilin yanvarında Gəncə yaxınlığında milli qüvvələr tərəfindən həyata keçirilən tərksilahı belə təsvir edir: "Gəncədən qərbə 40 km-dən az məsafədə yerləşən Şəmkir stansiyasında daha ciddi bir hadisə baş verdi. Gümrü istiqamətindən hərəkət edən Qafqaz cəbhəsinin ordu komandanlığı silahların bir hissəsinin Şəmkir yaxınlığında milli orduya təhvil verilməsinə razılıq vermişdi. Yəni bu tərksilah könüllü baş verməli idi. Özünü silahları təhvil verməyə hazır kimi göstərən bir rus kontingenti irəli gələrək atəş açmağa başladı".[191] Tarixçi N.Keykurunun bu barədə yazır: "Rusların hiyləsini görən milli qüvvələr əks-hücuma keçdilər. Atışma qaranlıq düşənəcən davam etdi. Ruslar silahları atmağa və təslim olmağa başladılar. Səhərisi gün tərksilah olunan ruslar qatarlara mindirilərək Rusiyaya göndərilmək üçün Bakı istiqamətində yola salındı. Əldə olunan silah milli qüvvələrə paylandı. Hər iki tərəfdən itkilər olduğu üçün milli qüvvələr buna sevinə bilmədilər".[192] Odri yazır: "Rusların çoxlu sayda tələfat verməsi və iki icma arasındakı qarşılıqlı inamsızlıq, müsavatçılarla bolşeviklər arasında kəskinləşmiş münasibətləri son həddə çatdırmış oldu. Bu hadisənin qisası "mart günlərində" Bakıda azərbaycanlılardan alındı".[193] Məlum olduğu kimi, 1918-ci ilin yanvarında "Müsavat" istisna olmaqla, bütün siyasi qüvvələr Sovet ətrafında toplaşmağa meyl edirdilər. Xüsusilə müsavatçıların iddialarına bələd olan daşnaklar, kadetlər, eserlər və menşeviklər "Müsavatdansa, xristian bolşevik idarəçiliyi yaxşıdır" şüarını dəstəkləyirdilər. Ona görə də Bakı şəhər Şurası hakimiyyəti itirməkdə, Sovet isə qazanmaqda idi. Müəllif, daha sonra R.Syuni və T.Svyatoxovskinin silahlı toqquşma ilə bağlı fikirlərini təsdiq edərək yazır: "Bakı Sovetinin 6 minlik qüvvəsi

[191] Yenə orada, səh. 89.
[192] Keykurun N.Azerbaycan istiklalı mücadelesi hatiraları. İstanbul. 1964, səh.21-22.
[193] Altstadt Audrey L. Göstərilən əsəri, səh. 86.



Müsavatın 10 minlik silahlı dəstəsi ilə üz-üzə dayandı. Dörd minlik yaxşı silahlanmış və təcrübə görmüş daşnak əsgər və zabiti Sovetin qüvvələrinə qoşuldular. Aprelin 1-də bolşeviklər müsəlman məhəllələrini artilleriya atəşinə tutdular. Mərmi atəşləri müsəlman icmasının rəhbərlərini birmənalı məcbur etdi ki, Sovetin ultimatumunu qəbul etsinlər".[194] Azərbaycan nümayəndələri ultimatumun şərtlərini qəbul etdikdən sonra daşnaklar şəhərin müsəlmanlar yaşayan hissələrində qarətlərə, yanğınlara və qətllərə başladılar. Qırğından sonra minlərlə Azərbaycan türkü şəhəri tərk etdi.[195] Tərk edə bilməyənlərin taleyinə qan və qara torpaq qismət oldu. Britaniyanın Bakıdakı vitse-konsulu mayor R.Makdonell yazırdı ki, Bakıda nüfuzlu müsəlmanların biri də qalmamışdı. Müsəlmanların şəhərdən axını demoqrafik mənzərəni xristianların xeyrinə dəyişdi. Milli Şuranın Bakı bölməsi buraxıldı. Mart günlərindən avqustadək azərbaycanlılar Bakıda heç bir siyasi rol oynamadılar. Qırğından sonra Bakıya nəzarət etməkdə Sovetə heç kəs mane olmurdu. Aprelin 9-da bütün burjua qəzetləri bağlandı. Ermənilərə ticarət, maliyyə və ərzaq təminatı sahələri həvalə edilmiş oldu.[196]

O.Alştadt da Cənubi Qafqazda baş verən hadisələri mart soyqırımı ilə yekunlaşdırmır. 1918-ci ilin aprelində Bakıda Şaumyanın başçılıq etdiyi Xalq Komissarları Sovetinə münasibət bildirərkən belə nəticəyə gəlir ki, bu qurumun azərbaycanlı əhali ilə heç bir bağlılığı olmamışdır. Müəllif 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını böyük siyasi hadisə kimi qiymətləndirmişdir.

Riçard Paypsın bolşeviklərin Türkiyə və İran cəbhəsindən qayıdan əsgərləri bilə-bilə, məqsədyönlü şəkildə, özlərinin görünməmiş cinayətlərini törətmək üçün Bakıda saxladıqları fikrinə Hüseyn Baykaranın "Azərbaycan istiqlal mübarizəsi

[194] Yenə orada, səh.87.
[195] Yenə orada, səh. 89.
[196] Cənab R. Makdonelin məlumatı. 5 dekabr 1918. Azərbaycan Xalq Cümhuriyyəti. Böyük Britaniyanın arxiv sənədləri. B., 2008, səh. 67-75.

tarixi" əsərində də rast gəlirik: "Türkiyə və İran cəbhəsindən dönən rus və erməni silahlı əsgərlərinin çoxlu dəstələri Bakıda yerləşirdi. Şaumyan öncə bolşevik fikirli rus əsgərlərindən, sonra da ermənilərin türk-müsəlmanlara olan nifrətinə görə erməni əsgərlərindən istifadə etdi".[197]

Riçard Payps 1918-ci il mart qırğını ilə bağlı yazır: "Daşnak-bolşevik rəhbərliyi Türkiyə və İran cəbhəsindən qayıdan əsgərləri billə-bilə, məqsədyönlü şəkildə, özlərinin görünməmiş cinayətlərini törətmək üçün Bakıda saxladılar"[198].

Hazırda Böyük Britaniyanın arxivində 1918-ci ildə erməni-bolşevik birləşmələri tərəfindən türk-müsəlman əhalisinə qarşı həyata keçirilən soyqrımla bağlı kifayət qədər sənədlər vardır. Bu sənədlərin bir neçəsini oxucuların nəzərinə çatdırmaq yerinə düşərdi.

Türk-müsəlman əhalisinə qarşı həyata keçirilən qırğında Cənubi Qafqazdan kənarda yaşayan varlı və nüfuzlu ermənilər də iştirak edirdilər. Belə ki, 1917-ci ilin oktyabrında bir qrup varlı və nüfuzlu erməni Azərbaycanın Naxçıvan, İrəvan, Zəngəzur, Qarabağ və başqa bölgələrində türk-müsəlman əhalisinə qarşı dəhşətli soyqırımları həyata keçirən Andronikə maliyyə köməkliyi göstərilməsi üçün Tehrandakı Böyük Britaniya elçisi Çarlz Merlinqə müraciət etmişdilər. Lakin ermənilərin çoxsaylı xahiş və teleqramlarına baxmayaraq, ingilis komandanlığı 1 milyon rubl məbləğində maliyyə yardımını birbaşa deyil, ruslar vasitəsilə vermişdilər.[199]

[197] Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. İstanbul, 1975; Bakı, 1992. səh. 256.
[198] Pipes R. The Formation of the Soviet Union Communism and Nationalism. 1917-1923. Cambr, 1964, səh. 201.
[199] Böyük Britaniyanın Tehrandakı keçmiş vitse-konsulu, sonralar isə Tiflisdə və Bakıda Britaniya missiyasının əməkdaşı R.Makdonelin general Denstervilin başçılığı ilə Britaniya qoşunlarının gəlişi ərəfəsində Azərbaycanın daxilində və xaricində baş verən hadisələr barədə Mərkəzə məlumatı. Sentyabr 1917-avqust 1918; Bax: Azərbaycan Xalq Cümhuriyyəti. Böyük Britaniyanın arxiv sənədləri. B., 2008, səh.19.



İngilislərin ermənilərə maliyyə köməkliyi göstərməsi xəbəri Gəncədə və Bakıda müsəlman əhalisinin böyük narazılığına səbəb oldu. Ermənilərin ingilislərdən növbəti dəfə daha 2 milyon rubl yardım almasından xəbər tutan Gəncə Milli Komitəsinin üzvləri ermənilərə göndərilən vəsaitin aparılmasının qarşısını almaq üçün Bakıdan Tiflisə tərəf keçən qatarları diqqətlə yoxlayırdılar. Bu yoxlamalara çox zaman Fətəli xan Xoyski rəhbərlik edirdi. İngilislərdən bu yardımı alan erməni alayı çox keçmədən hücuma keçərək bir neçə kürd kəndinin əhalisini quduzcasına qırıb məhv etdilər. Bu hadisədən sonra Tiflisdəki Britaniya missiyasının başçısı leytenant-polkovnik Payk erməni birləşmələrinə maliyyə yardımı göstərilməsini qadağan etdi.[200] Türk-müsəlman əhalisinə qarşı həyata keçirilən 1918-ci ilin mart soyqırımı zamanı Bakıda olan Britaniyanın Tehrandakı keçmiş vitse-konsulu R.Makdonel ermənilərin öz çirkin məqsədlərinə çatmaq üçün bolşeviklərlə birləşməsinin şahidi olmuşdu. Makdonelə görə bu qırğın Qafqaz müsəlmanlarının ingilislərə qarşı nifrət alovunun üstünə "yağ tökməsi" oldu. Bu qanlı qırğınların şahidi olan Makdonel Erməni Milli Şurasına etirazını bildirmiş və bəyan etmişdi ki, ermənilər müsəlmanlara qarşı bolşeviklərlə birləşməklə (əslində bolşeviklərin də əksəriyyəti ermənilərdən ibarət idi-A.İ.) öz tarixlərinin ən böyük səhvinə yol verirlər. Bunun üçün bütün məsuliyyət "Daşnaksütyun" təşkilatının üzərinə düşür.[201]

Britaniyanın Hindistandakı hərbi qüvvələrinin baş komandanı 1918-ci il iyulun 20-də Londona məxvi surətdə bildirmişdi ki, ermənilər bizim tatarlar (türklər) içərisindəki işimizə böyük ziyan vurdular. Bu belə bir ağır fikrin yaranmasına səbəb oldu ki, güya britaniyalılar düşünülmüş surətdə antimüsəlman siyasət yeridirlər. Çünki ermənilər çoxlu sayda tatarı (türkü) qırdılar.[202]

[200] Böyük Britaniyanın arxiv sənədləri., səh.20.
[201] Yenə orada.
[202] Böyük Britaniyanın arxiv sənədləri., səh.20-21.

Erməni hərbi birləşmələrinin türk-müsəlman əhalisinə qarşı həyata keçirdikləri soyqırımların coğrafiyası çox geniş idi. Böyük Britaniyanın İrandakı ali komissarı P.Koksun Tehrandan Londona göndərdiyi 22 dekabr 1918-ci il tarixli məxvi teleqramında göstərilirdi ki, Təbrizdə fəaliyyət göstərən Qafqazın Müsəlman Respublikaları Şurası İspaniya konsulundan xahiş etmişdi ki, Böyük Britaniya və Amerika Birləşmiş Ştatları hökumətinə məlumat versin ki, ermənilər Qafqazın müsəlman əhalisini qırırlar.[203]

Türk-müsəlman əhalisinə qarşı həyata keçirilən soyqırımın bilavasitə canıl şahidi olan Böyük Britaniya xarici işlər nazirliyinin əməkdaşının 11 iyun 1918-ci il tarixli "Bakıda vəziyyət haqqında memorandum"unda bildirirdi ki, ermənilər tatarlara (türklərə) qarşı öz qüvvələrini nisbətən yaxşı silahlanmış bolşeviklərdən istifadə etmək üçün onların qüvvələri ilə birləşdirmişlər. Bakıda ağır döyüşlər baş verdi. Kanoner qayıqlarının matrosları bolşeviklərə qoşuldular və Bakının türk məhəllələrini top atəşinə tutdular. Bolşeviklər və ermənilər qalib gəldilər[204]. Böyük Britaniyanın səfiri O.Vordrop 1919-cu ilin sentyabr-oktyabrında Azərbaycana səfəri barədə İngiltərəyə yazırdı ki, azərbaycanılılar bildirirlər ki, yerli ermənilər bolşeviklərin köməyi ilə xeyli miqdarda müsəlman əhalini qırmışlar. Şaumyan yalançı bolşevik imiş.[205]

Səlanikdəki Böyük Britaniya qoşunlarının baş komandanı general C.F.Miln 1919-cu il fevralın 6-da Londona – Baş Qərargah rəisinə yazırdı: "Bizim Bakını işğal etməyimizdən əvvəl (ingilislər Bakıya 1918-ci il noyabrın 17-də daxil oldular– A.İ.) Şuşanı iki türk alayı Andronikin ordusunun hücumlarından qoruyurdu. İndii isə ermənilər şəhərə dolmuşlar və türkləri qırırlar. Hökumət qayda-qanunu qorumaq üçün mümkün olan hər şeyi edir. Oraya qayda-qanun yaratmaq üçün Britaniya

[203] Yenə orada, səh.21.
[204] Yenə orada.
[205] Yenə orada, səh. 24.



əsgərlərindən ibarət bir batalyon göndərmək lazımdır. Bakı erməniləri xüsusilə xoşagəlməz vəziyyət yaradırlar. Onların yoxsul təbəqələri bolşeviklərə və gizli "Daşnaksütyun" cəmiyyətinə qoşulmuşlar. Onların tatarlardan (türklərdən) intiqam almaqdan başqa heç bir məqsədi yoxdur"[206].

İranın xarici işlər nazirliyi də 1918-ci il oktyabrın 21-də ermənilərin türk-müsəlman əhalisinə qarşı həyata keçirdikləri qırğınlar barədə Böyük Britaniyanın diplomatik missiyasına müraciət etmişdi. Müraciətdə deyilirdi: "Ermənilər bir qədər əvvəl İrəvan, Naxçıvan, Qars və başqa yerlərdə müsəlmanlara qarşı qəddarcasına qırğınlar və talanlar törətmişlər. Ermənilər niyyətlərindən asılı olmayaraq müsəlmanlara qarşı hər cür zorakılıq aktları həyata keçirmişlər. Müsəlman ailələri pərən-pərən salınmış, günahsız kişi və uşaqlara qarşı qırğınlar törədmlmiş, qadınlar təhqir olunmuş, qırğına məruz qalanların əmlakı talan olunmuş, kəndlər yerlə-yeksan edilmişdir".[207] Məlumatla yanaşı İran xarici işlər nazirliyi Britaniya hökumətindən xahiş edirdi ki, erməniləri cilovlamaq, onların bu cür bəd əməllər həyata keçirməsinin qarşısını almaq, dinc insanların həyatını qorumaq üçün təlimati göstəriş versin. Böyük dövlətlərin nümayəndələri ermənilərin törətdikləri vəhşiliklərin qarşısını almaq və cinayətkarların cəzalandırılması üçün lazimi tədbir görəcəklər.[208]

Ermənilərin törətdikləri vəhşilikləri Britaniyanın Qafqazdakı Ali Komissarı O.Vordrop da təsdiq edirdi. Onun Londona göndərdiyi 2 oktyabr 1919-cu il tarixli raportunda deyilirdi: "Lap bu yaxınlarda ermənilər Yeni Bəyazit, Alesandropol və İrəvan bölgəsində 60 müsəlman kəndini yerlə yeksan etmişlər".[209]

Məlumdur ki, türk-müsəlman əhalisnə qarşı törədilən qırğınların əsas təşkilatçısı erməni kilsəsi idi. 1918-ci il noyabrın 17-də Bakıya gələn general Tomson Mərkəzə verdiyi

[206] Böyük Britaniyanın arxiv sənədləri., səh. 21-22.
[207] Yenə orada, səh. 22.
[208] Yenə orada, səh. 23.
[209] Yenə orada, səh. 23.

məlumatında deyirdi ki, bu günlərdə erməni yepiskopu bir nəfər erməni lideri ilə onun qəbulunda olmuş və ona öz məsləhətlərini vermişdi.Erməni keşişi deyirdi: "Hər hansı bir xeyirli işi həyata keçirərkən ruslara və tatarlara (türklərə) qarşı qətiyyətli olmaq lazımdır. Təhsil görmüş ruslar ağıllarını itirmişlər və o qədər də böyük nüfuza malik deyillər. Hamı erməniləri müdafiə etdikləri bütün işlərə görə, istər bolşevizmlə bağlı olsun, istərsə də britaniyalılarla, xəyanətkar olduqları üçün rüsvay edirlər".[210]

[210] Böyük Britaniyanın arxiv sənədləri., səh. 23.



## ŞAMAXI QIRĞINLARI

Qədim Azərbaycan şəhəri Şamaxı 1918-ci ilin martında erməni-daşnak qüvvələrinin dəhşətli talan və vəhşiliklərinə məruz qalmışdır. Fövqəladə Təhqiqat Komissiyanın üzvləri tərəfindən Şamaxı şəhəri və Şamaxı qəzası üzrə ermənilərin törətdikləri vəhşiliklər haqqında 7 cild, 925 vərəqdən ibarət təhqiqat materialları toplanmışdı.

Fövqəladə Təhqiqat Komissiyanın sədri Ə.Xasməmmədovun Ədliyyə nazirinə təqdim etdiyi məruzədə deyilirdi ki, Şamaxı şəhəri iki hissədən, yuxarı və ya erməni hissəsi, aşağı və ya müsəlman hissəsindən ibarətdir. Birincidə əsasən ermənilər və molokanlar, müəyyən qədər də müsəlmanlar, ikincidə isə ancaq müsəlmanlar yaşayırdılar. Şamaxı qəzasında əhalinin əksəriyyəti müsəlmanlardan ibarət idi. Erməni və molokanlar qəzanın 6 kənddində yaşayırdılar. Keçmiş müsəlmanlar erməni və molokanlarla sülh şəraitində yaşamış, onlara heç bir ziyan vurmamış, daim mehriban qonşuluq əlaqələri saxlamağa çalışmışlar. Hətta 1905-ci ildə Cənubi Qafqazın bir çox şəhər və kəndlərində erməni-müsəlman qırğındarı baş verən dövrdə Şamaxı şəhəri və Şamaxı qəzasında müsəlmanlar ermənilər üzərində zorakılıq etməmiş, onlara qarşı düşmənçilik hərəkətləri törətməmişdilər.

1918-ci il martın 18-də (köhnə stillə–A.İ.) şəhərin müsəlman hissəsinə soxulan ermənilər qışqırırdılar: "Biz bu günü on iki ildir ki, gözləmişik. Bu Nikolayın sizə kömək etdiyi 1905-ci il deyil. İndii sizə heç kim kömək etməyəcək. Köməyə siz özünüzün müqəddəs Həzrət Abbasınızı çağırın.[211] Şamaxılı həkim Sazanov 1918-ci il martın 19-u gecəsi Şamaxıda erməniləri müsəlmanlar üzərində rəhmsiz zorakılıqlar işlətməkdə günahlandırdıqda o, ermənilərdən belə bir cavab almışdır:

[211] ARDA, f. 1061, siy. 1, iş 108, vər.8-10.

"Müsəlmanlara heç bir rəhm etmək yoxdur, onların hamısı məhv edilməlidir".[212]

Şamaxıda azərbaycanlılara qarşı ermənilərin düşmənçilik hərəkətləri hələ birinci dünya müharibəsi başlandığı vaxtlardan özünü büruzə verməyə başlamışdır. Azərbaycanlılara qarşı onlar özlərini çox təkkəbbürlü aparır, onların milli və dini heysiyyətlərini çıqca təhqir edirdilər.

1917-ci ilin fevralında Rusiyada baş verən burjua inqilabından sonra ermənilər daha cəsarətlə hərəkət etməyə başladılar. Şamaxıda çar hakimiyyət orqanlarının ləğvindən sonra ermənilər gizli surətdə silah anbarını ələ keçirib bu haqda qəza komissiarına və yerli müsəlman Milli Şurasına məlumat vermədilər. Onlar ermənilərdən və molokanlardan ibarət hərbi qarnizon təşkil edərək oraya müsəlmanları buraxmırdılar. Azərbaycanlılar qarnizona girməyə nail olduqda isə erməni əsgərləri onlara qarşı düşmənçilik edir, onları təhqir edir və incidirdilər. Ermənilər öz kəndlərinə müxtəlif yollarla silah və sürsat gətirib, sürətlə silahlanırdılar. Silahı əsasən cəbhədən qayıdan əsgərlər gətirirdilər. Onların hərəsi özü ilə bəzən üç tüfəng gətirirdi. Ermənilərin bu hərəkətləri azərbaycanlıları bərk vahiməyə saldı. Həm Şamaxı şəhərində, həm də qəzanın kəndlərində azərbaycanlılar görürdülər ki, ermənilər onlara qarşı sürətlə silahlanırlar. Müsəlmanlar bütün qüvvəllərini sərf edirdilər ki, ermənilərlə dil tapsınlar və yaxınlaşmaqda olan qırğının qarşısını alsınlar. Ermənilər üzdə özlərini elə göstərirdilər ki, güya müsəlmanlara qarşı heç bir düşmənçilik hissləri bəsləmirlər.

Şamaxı şəhərindən 6 verst aralı Mədrəsə kəndində Cənubi Qafqazın digər qəzalarından gələn erməni əsgərləri toplaşmağa başladılar. Martın birinci yarısında məlumat alındı ki, Bakıdan Şamaxıya böyük miqdarda hərbi sursat, top və pulemyotlarla silahlanmış üç minədək erməni qoşun dəstəsi gəlir. Şamaxıdan dəstənin qabağına müsəlman və ermənilərdən ibarət nümayəndə heyəti göndərildi. Nümayəndə heyətinin dəstə ilə görüşü molokan kəndi Qozlu-Çayda (Xilimli) baş verdi. Dəstəyə silahları Şamaxı qarnizonuna təhvil vermək təklif olundu. Onlar bundan qəti imtina edərək bildirdilər ki, məqsədləri Şamaxı qəzasını quldur dəstələrindən təmizləmək, qəzada anarxiyaya son qoyub normal həyatı bərpa etməkdən ibarətdir. Dəstənin rəhbərləri Şamaxı şəhərindən yan keçərək Mədrəsə kəndinə gedəcəklərinə söz verdilər. Martın 15-də dəstə Şamaxı şəhərinin yanından keçərkən öz evlərini qoruyan müsəlmanlar dəstəsinə atəş açdılar. Tezliklə bütün şəhəri atışma bürüdü. Bu atışma nəticəsində hər iki tərəfdən ölən və yaralananlar oldu. Lakin axşama yaxın şəhərdə tam sakitlik yarandı. Elə həmin gün erməni yepiskopunun təşəbbüsü ilə Şamaxının bütün kəndlərinin ruhani nümayəndələri bir yerə yığışaraq and içdilər ki, sülh şəratində yaşayacaq və qayda-qanunu pozmayacaqlar. Kürdəmir kəndinin sakinləri erməni rəhbərlərinə müsəlmanlarla sülh şəraitində yaşamağı təklif etdikdə və erməni yepiskopunun verdiyi andı xatırlatdıqda ermənilərdən bu cür cavab alırlar: "Müsəlman ruhaniləri erməni ruhaniləri ilə barışa bilər, lakin erməni xalqı müsəlmanlarla müharibə istəyir və bu işdə İngiltərə onları müdafiə edəcəkdir".[213]

1918-ci il mart ayının 18-də sübh çağı Şamaxı şəhərinin azərbaycanlı sakinləri top atəşlərinin səsinə oyandılar və şəhərin cənubdan ermənilər, şimal-şərqdən isə molokanlar tərəfindən mühasirəyə alındığını gördülər. Şəhərin azərbaycanlılardan ibarət aşağı hissəsi top və pulemyot atəşlərinə tutulur, şəhərin yuxarı hissəsində yaşayan ermənilər isə azərbaycanlılar yaşayan məhəllələri tüfənglərdən atəşə tutdular. Bu hücum müsəlmanlar üçün tam gözlənilməz oldu. Çünki bir gün əvvəl erməni yepiskopu Baqrat və molokanların nümayəndəsi Karabanov Xaç və İncil qarşısında azərbaycanlılarla sülh və qardaşlıq şəraitində yaşayacaqlarına və heç vaxt onlara

[212] ARDA, f. 1061, siy. 1, iş 108, vər.13.

[213] ARDA, f. 1061, siy. 1, iş 110, vər.10.

qarşı silahlı çıxış etməyəcəklərinə and içmişdilər. Əvvəlcədən döyüşə hazırlıq görməyən azərbaycanlılar müdafiə olunmağa təşəbbüs göstərsələr də, top və pulemyot atəşləri altında dayana bilməyib geri çəkilməyə məcbur oldular. Ermənilər və molokanlar bir neçə saatdan sonra şəhərin azərbaycanlılar yaşayan və erməni hissəsi ilə sərhəd olan "Piran-Şirvan" məhəlləsinə soxula bildilər. Onların hər bir hərəkəti azərbaycanlıların evlərinin talan edilməsi, yandırılması və mülki əhalinin qəddarlıqla qətlə yetirilməsi ilə müşayiət olunurdu. Şəhərin ən abad, varlı və tanınmış müsəlmanlarına məxsus evlərinə od vurulurdu. Ermənilərin qarət etdiyi və yandırdığı evlər arasında Şıxəliyevlərin, Həsənovların, Cəbrayılovların, qəza müftisinin, Hüseynbəyovun, Əlimirzəyevin, Əfəndiyevin, Babayevlərin, Məhərrəmovların, Veysovların, Böyük bəy Hüseynovun, Hacı Vahab Ələkbərovun və başqalarının mülkləri var idi[214]. Ermənilər və molokanlar yandırılmış evlərdən çıxıb qaçan kişi, qadın və uşaqları güllələyirdilər. Ermənilər evlərə soxulur, onların sakinlərini qətl və qarət edir, sonra isə yandırırdılar. Axşama yaxın müsəlmanlar ermənilərin yanına nümayəndələr göndərib sülh xahiş etdilər. Lakin ermənilər atəşi dayandırmadılar. Yanğınlar bütün məhəllələrə yayıldı və səhərisi şəhərin ən zəngin evlərinin yalnız xarabalıqları qaldı. Yandırılmış evlərdən canını qurtarmaq isətəyən sakinlərə–kişi, qadın və uşaqlara heç bir fərq qoymayan ermənilər onları ən amansız üsullarla qətlə yetirirdilər. Şəhərin küçələrində meyitlərdən qalaqlar yarandı. Ermənilər azərbaycanlı əhalinin qətlini eşidilməmiş və ağılasığmaz qəddarlıq və işgəncə ilə həyata keçirirdilər. Küçələrdə əzab verilərək öldürülmüş qadınların meyitləri atılıb qalmışdı. Onların döşləri kəsilmiş, qarınları yırtılmış və ən çirkin üsullarla işgəncələrə məruz qalmışdı. Küçələrdə diri-diri pazlara mıxlanmış uşaq meyitləri də atılıb qalmışdı. Azərbaycanlıların evlərindən qarət və talan edilmiş əmlakları araba və furqonlarla erməni və molokan

[214] ARDA, f. 1061, siy. 1, iş 90, vər.9.



kəndlərinə daşınırdı. Ermənilərin Şamaxı şəhərindəki bu vəhşilikləri bir neçə gün davam etdi[215]. Yalnız Gəncədən azərbaycanlı silahlı dəstələrinin Şamaxı şəhərinə köməyə gəlməsini eşidən ermənilər və molokanlar Şamaxı qəzasının Qozlu-çay molokan kəndinə çəkildilər. Azərbaycanlı silahlı dəstələri ermənilərin və molokanların qüvvəlləri ilə müqayisədə azlıq təşkil edirdilər. Ona görə də dörd gündən sonra azərbaycanlı silahlı dəstələri Şamaxını tərk etməyə məcbur oldular. Şamaxının şəhər əhalisi azərbaycanlı silahlı dəstələrinin köməyi ilə şəhəri tərk etdi. Ancaq çox tələsik olduğu üçün onlar hətta vacib əşyalarını belə götürə bilmədilər. Çoxlu şəhər sakini xüsusilə, yoxsullar, xəstələr, qocalar, qarılar və uşaqlar şəhərdə qaldılar. Gəncədən gələn silahlı dəstələr Şamaxını tərk etdikdən iki gün sonra erməni və molokan quldur dəstələri ikinci dəfə Şamaxıya daxil oldular. Bu dəfə şəhərin talan edilməsi və əhaliyə divan tutulması daha qəddarlıqla həyata keçirilirdi. Şəhərin bütün azərbaycanlı hissəsinə od vurulmuşdu. Şəhərdəki bütün məscidləri (on iki məhəllə məscidin və 800 illik tarixi olan böyük memarlıq abidəsi "Cümə məscidi"), onların nəzdindəki müqəddəs yerlər yandırıldı. Bir sözlə, şəhərin azərbaycanlılar yaşayan bütün məhəllələri tamamilə xarabazarlığa çevrilmiş, bir dənə də olsun azərbaycanlı evi salamat qalmamışdır.[216]

Ermənilərin Şamaxı şəhərinə birinci və ikinci hücumları zamanı qətlə yetirilmiş azərbaycanlılar arasında təkcə Şamaxıda deyil, bütün Azərbaycanda tanınmış nüfuzlu şəxslər və ictimai xadimlər də var idi. Ermiənilər axund Hacı Cəfərqulunu xüsusi qəddarlıqla öldürmüşdülər. Ermənilər əvvəlcə onun saqqalını yolmuş, dişlərini sındırmış, gözlərini çıxarmış, qulaqlarını və burnunu kəsmişdilər. Ermənilərin qəddarlıqla qətlə yetirdiyi nüfuzlu azərbaycanlılar arasında şəhər hakimi Teymur bəy Xudaverdov, Rusiyanın birinci

[215] ARDA, f. 1061, siy. 1, iş 40, vər.8.
[216] ARDA, f. 1061, siy. 1, iş 49, vər.9.

dövlət Dumasına Şamaxıdan deputat seçilmiş Məhəmməd Əliyev, Hacıbaba Abbasov, Əşrəf Hacıyev, Hacı Əbdül Xəlil Əhmədov, Hacı Əbdül Hüseyn Zeynalov üç qardaşı ilə, Hacı İsrafil Məmmədov, Mir İbrahim Seidov, Hacı İbrahim Salamov, Ağa Əhməd Əhmədov, Hacı Əbdül-Qasım Qasımov, Əyyubağa Veysov, Zeynəb xanım Veysova, Əliabbas bəy İbrahimbəyov, Ələkbər Qədirbəyov, Əbdürəhim ağa Ağalarov, Məhiyyədin Əfəndizadə, Zəkəriyyə Əfəndi Mehdi Xəlil oğlu, Ziyəddin Abdullayev, Hacı Molla Həsən Zeynalov və onun arvadı, Mahmud Hacıağa oğlu, onun arvadı və oğlu və bir çox başqaları da var idi.[217]

Ermənilər Hacı axund Cəfərqulunun evinə və həyətinə pənah gətirmiş çoxlu qadın və uşaqları da öldürmüş və ya diri-diri yandırmışdılar. Fövqəladə Təhqiqat Komissiyasının üzvləri Hacı Axundun tamamilə yandırılmış evinin həyətində çoxlu xırda insan sümükləri aşkar etdilər. Türk ordusu 1918-ci ilin yayında erməniləri Şamaxıdan qovarkən meyitlərin çürüməmiş iri sümüklərini yığıb bastırmışdılar. 1918-ci ilin oktyabr-noyabrında komissiya üzvlərinin hazırladığı məruzədə qeyd olunurdu ki, Şamaxıda Cümə məscidinin həyətində hələ də çürümüş meyitlərin qalıqları qalmaqdadır. Habelə yandırılmış digər evlərin və məscidlərin həyətlərində çoxlu yanmış insan sümükləri də aşkar edilmişdir.[218]

Komissiyanın sənədində qeyd olunur ki, bir neçə məscidin, evin və mağazanın xarabazarlıqlarını, habelə insan cəsədlərini təsvir edən 45 ədəd foto şəkil çəkilmişdir. Erməni hərəkatının rəhbərlərindən biri Bakıda öz tanışları qarşısında lovğalanaraq demişdir ki, Şamaxı hadisələri zamanı bu şəhərdə 10 nəfər müsəlman qızını əvvəlcə zorlamış, sonra isə onları öz şəxsi tapançası ilə güllələmişdir. [219] Məruzədən aydın olur ki, Şamaxı şəhərinin azərbaycanlı əhalisinə

[217] ARDA, f. 1061, siy. 1, iş 110, vər.13.
[218] ARDSPİHA, f. 277, siy. 2, iş 16, vər.18.
[219] ARDSPİHA, f. 277, siy. 2, iş 16, vər.18.



vurluşmuş ziyan orta hesabla bir milyard manatdan çox olmuşdur. Şamaxı şəhərinə hücum, onun dağıdılması, dinc azərbaycanlı əhaliyə – qadına, qocaya, uşağa qəddarcasına divan tutulması yalnız ermənilərin azərbaycanlılara qarşı milli intiqam və milli düşmənçilik hissindən irəli gəlirdi.

Şamaxı üzərinə hər iki hücum Daşnaksütyun partiyası tərəfindən əvvəlcədən hazırlanmış plan üzrə həyata keçirilmişdi. Bu əməliyyatlara Stepan Lalayev, Qavril Karaoğlanov, Arşak Gülbəndiyan, Mixail Arzumanov, Karapet Karamanov, Sedrak Vlasov, Samvel Doliev, Petrosyants, ata və oğul İvanovlar, dəllək Avanesov, şuşalı Aqamalov və b. rəhbərlik edirdilər. Yüzlərlə şahid və zərərçəkən ifadə verərkən bu qatillərin adlarını çəkmiş, onların qətl və qarətdə bilavasitə iştirak etdiklərini təsdiq etmişlər. Şahidlər yerli ermənilərdən keçmiş qəza rəisinin müavini Qavril Karaoğlanovun, Şamaxı erməni kilsəsinin hami-ktikoru Mixail Arzumanovun, məşhur tacir E.İvanyantsın, dəllək Samvel Doliyevin və başqaları ilə bu hadisələrin iştirakçısı və icraçısı olduqlarına şəhadət vermişlər.

Toplanmış çoxlu əşyayi dəlillər, zərərçəkənlərin və şahidlərin ifadələri əsasında Fövqəladə Təhqiqat Komissiyasının üzvü A.Novatski komissiyanın sədrinə təqdim etdiyi məruzədə dinc azərbaycanlı əhaliyə qarşı cinayətlər törətmiş həmin şəxslərə qarşı cinayət işinin qaldırılmasını təklif edirdi.[220]

1919-cu il iyulun 12-də Azərbaycan hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının növbəti iclasında Şamaxı şəhərinin dağıdılması və bu şəhərin azərbaycanlı əhalisi üzərində zorakılıq halları barədəki təhqiqat işi haqqında komissiyanın üzvü A.Novatskinin məruzəsini dinlədi. Məruzədə şahidlərin və zərərçəkənlərin ifadələri, törədilmiş cinayətlərin təhqiqi, yandırılıb dağıdılmış yerlərə baxış və s. əsasında Şamaxı şəhərində törədilən cinayətlərdə əslən Şamaxıdan olub Bakı şəhərində yaşayan Stepan Lalayevin,

[220] ARDA, f. 1061, siy. 1, iş 108, vər.10.

Şamaxı şəhərinin sakinləri Qavril Karaoğlanovun, Arşak Gülbəndiyanın, Mixail Arzumanovun, Karapet Karamanovun, Armenak Martirosyantsın, Aleksandr Xaçaturovun, Mixail Xaçaturovun və başqalarının, cəmi 31 nəfərin Şamaxı qırğınlarının başlıca caniləri olduqları göstərilirdi. Komissiyanın bu məsələ ilə bağlı qəbul etdiyi qararda deyilirdi ki, bu cəlladlar Azərbaycan xalqına qarşı ədavət əsasında milli və dini zəmində əvvəlcədən öz aralarında razılaşaraq, bir neçə min nəfər erməni qüvvələrini öz ətraflarında birləşdirərək top, pulemyot, tüfəng, tapança və xəncərlə silahlanaraq Şamaxı şəhərində olan azərbaycanlı əhalini qırmaq, əmlaklarını qarət və məhv etmək məqsədi qoymuşdular. Bu qətllər xüsusi qəddarlıqla həyata keçirilmişdir. Belə ki, qətlə yetirilənlərin qolları, qıçları, burunları, qulaqları kəsilmiş, gözləri çıxarılmış, qarınları yırtılmış, yandırılmış, və böyük işgəncələrlə öldürülmüşlər. Ermənilər təkcə Şamaxı şəhərində azərbaycanlılara məxsus 1 milyard manatlıqdan yuxarı dəyəri olan əmlakı qarət etmiş, şəhərin azərbaycanlılara məxsus bütün evlərini yandıraraq məhv etmişlər. Şəhərdə 13 məscid, o cümlədən böyük tarixi abidə olan "Cümə məscidi yandırılmışdır. Fövqəladə Təhqiqat Komissiyası bu qırğınların başlıca təşkilatçıları haqqında cinayət işi qaldırmaq, onları məsuliyyətə cəlb etmək və istintaq işinə başlamaq haqqında qərar qəbul etdi.[221] Şamaxı şəhəri kimi Şamaxı qəzasının da 86 azərbaycanlılar yaşayan kəndi ermənilər tərəfindən yandıralaraq məhv edilmişdi.

Erməni silahlı birləşmələri martın 18-də sübh çağı Şamaxı şəhəri ilə yanaşı, onun 3-4 verstliyində yerləşən Əngəxaran kəndində də qəfil hücum etdilər. Müdafiəsiz kəndə soxulan ermənilərin törətdikləri vəhşiliklərlə əlaqədar təhqiqat materiallarında həmkəndlilərinin və şahidlərin ifadələrinə görə tərtib edilmiş siyahılarda bu ermənilərin işgəncələrlə qətlə yetirdiyi 237 nəfərin adı vardır[222]. Əngəxarana soxulan er-

[221] ARDA, f. 1061, siy. 1, iş 108. vər.5.
[222] ARDA, f. 1061, siy. 3, iş 40. vər.3-4.



mənilər və molokanlar kəndi mühasirəyə alaraq oradakı əhalini qırır, kəndi qarət edir, yandırır və sağ qalan əhalini isə əsir alırdı. Ermənilər əsir alınmış Əngəxaran sakinlərinin uşaqlarını azərbaycanlı kəndi olan Məlhəmə aparıb orada saxlayırdılar. Ermənilər 88 kişini isə molokan kəndi Çuxuryurda apardılar. Ermənilər kəndə çatmamış əsirləri bağda saxlayaraq bir neçə nəfərini güllələdilər. Qalan 76 nəfəri isə əsir kimi Mədrəsə kəndində yerləşən erməni qərargahının sərəncamına göndərdilər. Yolda iki nəfəri güllələyərək Mədrəsə kəndinə cəmi 74 nəfəri əsir kimi apardılar. Gəncədən gələn silahlı dəstələr Şamaxıya girdikdə Əngəxaran kəndindən olan nümayəndələr qohumlarının taleyindən xəbər tutmaq üçün Mədrəsə kəndinə gəlirlər. Onlar kəndin kənarında əngəxaranlı əsirlərin hamısının öldürüldüyünü və meyitlərinin eybəcər hala salındığının şahidi oldular. Meyitlərin qulaqları, burunları, əlləri və ayaqları kəsilmiş, bir çox ölülərin döşlərində yanıq izləri aşkar edilmişdir. Bu da sübut edirdi ki, hələ onlar sağ ikən ermənilər onların sinələri üzərində od qalamışdılar. Bundan başqa dağıdılmış kənddən qaçıb canını qurtara bilmiş Əngəxaran sakinlərinin çoxu aclıqdan, soyuqdan və xəstəlikdən tələf olmuşdular. Komissiyanın məruzəsində göstərilir ki, qısa bir vaxtda Əngəxaran əhalisi yarıbayarı azalmışdır.[223]

1919-cu il aprelin 3-də Şamaxı qəza rəisi Fövqəladə Təhqiqat Komissiyasına həmin qəzanın 3 polis sahəsi (Qəbristan, Mədrəsə və Kaşun) üzrə ermənilər tərəfindən dağıdılmış kəndlərin siyahısını göndərmişdi. Həmin siyahıya Qəbristan polis sahəsi üzrə 19, Mədrəsə polis sahəsi üzrə 41 və Kaşun polis sahəsi üzrə 26 kəndin (cəmi 86 kəndin–A.İ.) adı daxil edilmişdi.[224] Fövqəladə Təhqiqat Komissiyasına göndərilən siyahıda Şamaxı qəzasının ayrı-ayrı kəndləri üzrə şahid ifadələri, zərərçəkənlərin dindirmə protokolları, rəsmi idarələrin əhalinin sayı və əmlaklarının dəyəri haqqında məlumatları,

[223] ARDA, f. 1061, siy. 1, iş 90. vər.9.
[224] ARDA, f. 1061, siy. 1, iş 85, vər.1-3.

ölən və yaralanların siyahısı və s. əsasında 53 kənd üzrə tərtib edilmiş yekun aktlarında ayrı-ayrı kəndlər üzrə ölənlərin (o cümlədən kişi, qadın, uşaq) sayı və hər bir kəndə dəymiş ümumi zərərin miqdarı göstərilmişdi. Bu kəndlərdən bir neçəsində ölənlərin sayı və dəymiş zərərin ümumi məbləği aşağıdakı kimidir.

| Kəndlər | | Azərbaycanlılar arasında tələf olanların sayı | | | | Maddi ziyan, milyon manatla |
|---|---|---|---|---|---|---|
| | | Cəmi | Kişi | Qadın | Uşaq | |
| 1 | Nəvahi | 925 | 555 | 260 | 140 | 60 |
| 2 | Yəhyalı | 922 | 360 | 412 | 150 | 22 |
| 3 | Qubalı Baloğlan | 533 | 250 | 150 | 135 | 90 |
| 4 | Kalva | 500 | 250 | 150 | 100 | 24 |
| 5 | Ağsu | 500 | 200 | 300 | - | 36.5 |
| 6 | Tircan | 360 | 300 | 40 | 20 | - |
| 7 | Bağırlı | 370 | 80 | 150 | 140 | 12.5 |

Cədvəl 1. Şamaxı qəzasının bəzi kəndlərində ermənilər tərəfindən törədilmiş qırğınlar nəticəsində öldürülənlərin və dəyən maddi ziyanın həcmi. [225]

Qırğına məruz qalmış digər kəndlər üçün tərtib edilmiş aktlarda da rəqəmlər yuxarıda göstərilən qayda üzrə aparılmışdır. Bütün aktlar Fövqəladə Təhqiqat Komissiyasının üzvləri tərəfindən imzalanmış və möhürlə təsdiq edilmişlər. Bu aktlarda olan rəqəmlər üzrə Şamaxı qəzasının 53 kəndində ermənilər 8027 nəfər azərbaycanlını qətlə yetirmişlər ki, onlardan da 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaqlar olmuşdur. Hesablamalarımıza görə bu kəndlərə dəyən ümumi maddi zərər o dövrün qiymətləri ilə 339,5 milyon manat olmuşdur.[226] Ermənilərin azərbaycanlı əhaliyə, onların

[225] АРДА, ф. 1061, сий. 4, иш 41, вяр.10.
[226] АРДА, ф. 1061, сий. 2, иш 85, вяр.14.



evlərinə, mal-qara, əkin sahələrinə münasibətdə törətdikləri vəhşiliklər sözün əsl mənasında soyqırımı nümunəsi idi. Ona görə də Şamaxı şəhərinin və Şamaxı qəzasında ermənilərin məhv etdikləri azərbaycanlı kəndlərinin sağ qalmış əhalisi sözün əsl mənasında dilənçiyə çevrilmiş, ermənilərin təcavüzünə məruz qalmamış Azərbaycan bölgələrinə pənah aparmışdılar. Təəssüflər olsun ki, sovet hakimiyyəti illərində xalqımıza qarşı həyata keçirilmiş soyqırımı unudulmuş, Stepan Lalayevə bəraət verilmiş, bu işin əsas təşkilatçısı olan S.Şaumyan isə Azərbaycan xalqının sevimlisi kimi təbliğ olunmuşdu.

## QUBA QIRĞINLARI

Əvvəlcədən qurulmuş plana görə daşnak-bolşevik qoşunu Şamaxını işğal etdikdən sonra Quba qəzasına daxil olmalı idi. Xaçmazda yaşayan ermənilərə bu barədə xəbərdar edilmiş, onlara əlavə silah və sursat göndərilmişdi. 1918-ci ilin ilk aylarından Quba qəzasında müsəlman əhalisinə qarşı başlanan qırğınları faciə adlandırmaq vəhşiliklərin mahiyyətini tam açmır. Minlərlə insanın, dinc əhalinin, qadınların, uşaqların və qocaların əzab və işgəncə ilə qətlə yetirilməsi dəhşətli və ağlasığmaz qırğın idi. Quba faciəsi sırf siyasi məqsəd daşıyırdı. Qırğınlarda erməni daşnak qüvvələri ilə yanaşı bolşevik əsgərləri də iştirak edirdi. Bu qırğınlarda əsas məqsəd Quba qəzasında da müsəlman əhalisini məhv edərək erməni idarəçiliyinə nail olmaqdan ibarət idi. Çünki Sovet rejiminə rəhbərlik edən Şaumyan Cənubi Qafqazda böyük Ermənistan dövləti yaratmaq üçün bütün imkanlardan istifadə edirdi. Təki Azərbaycan deyilən dövlət qurumu yaranmasın.*

Faciəni səciyyələndirən başlıca cəhət odur ki, Quba qəzasında qırğınlar əvvəlcədən düşünülmüş və buna geniş hazırlıq işləri görülmüşdü. Çünki qırğına başlamaq üçün bəhanə milli münaqişə ola bilərdi. Erməni daşnak qüvvələri dünyanın hər yerinə ermənilərin guya müsəlmanlar tərəfindən sıxışdırıldığı barədə teleqramlar göndərirdilər. Qubada yaşayan M.Kasparov, H.Hayrapetov, A.Mukanyans və A.Boqdanov tərəfindən göndərilmiş teleqramlarda iddia olunurdu ki, Qubada müsəlmanlar milli ədavət, milli qırğın törədir, erməni və rus kəndlərini dağıdır, kilsələrə od vurub yandırırlar.

Ermənilər bolşeviklərin köməyi ilə Quba qəzasında üç dəfə qırğın törətmişdilər. Qubaya hücum edənlər içərisində özünü bolşevik kimi qələmə verən və 2 min əsgərə başçılıq

* Quba qırğınları bölümündə görkəmli jurnalist-tədqiqatçı Müzəffər Məlikməmmədovun "Qanlı dərə" kitabından istifadə olunmuşdur.



edən David Gelovanidən başqa, bolşevik Sturua da olmuşdur. Onun dətəsində min əsgər var idi. Onlardan əvvəl isə Muradyanın rəhbərlik etdiyi 2 min erməni əsgəri Quba qəzasında qırğın törətmişdi. Həmin dəstə birinci dünya müharibəsində özünü rus çarizminin ən yaxın müttəfiqi kimi qələmə vermiş "Daşnaksütyun" partiyasının əsgərlərindən ibarət idi. Qəzaya gəlmiş işğalçılara 300-dən çox yaraqlısı olan Avakov və Vartanın yerli ermənilərdən ibarət quldur dəstələri də köməklik edirdi. Qubada 100-ə yaxın əsgərin olmasına baxmayaraq, Gelovaniyə Xaçmazdan əlavə kömək göndərilmişdi. D.Gelovani bu barədə yazırdı: "Xaçmazdan köməyimizə poruçik Ağacanyanın başçılığı ilə ancaq ermənilərdən ibarət 150 nəfərlik dəstə və iki top gəldi"[227]. D.Gelovaninin Qubaya gəlməsi, xüsusi dəstə tələb etməsi və köməyinə məhz ermənilərdən ibarət xüsusi dəstənin göndərilməsi bir daha göstərir ki, Azərbaycanın şimal bölgəsində müsəlmanlara qarşı etnik düşmənçilik – soyqırımı əvvəlcədən planlaşdırılmışdı. Belə ki, 1918-ci il martın əvvəllərində əmlaklarını sataraq Qubadan tələsik çıxıb gedən varlı ermənilərdən bunun səbəbini soruşduqda demişdilər ki, "Sizinlə bizim aramızda nə isə gözlənilir, ona görə də komitə bizi geri çağırır".[228]

D.Gelovani Qubaya gələndə buradakı həbsxanada saxlanılan 200-dək hərbi erməni əsirini azadlığa buraxmışdı. Fövqəladə Təhqiqat Komissiyasının sənədlərindən və şahidlərin ifadələrindən aydın olur ki, həbsxanadakılar ilin əvvəlində bölgədə vəhşiliklər törətmiş erməni əsgərlərinin bir hissəsi idi. O vaxt Qusarın Kuzun kəndinin sakini, Türkiyədə təhsil almış nüfuzlu din xadimi Möhübəli əfəndi, həmçinin Cağar kəndinin sakini Hətəm Sərkarov yerli əhalini erməni daşnaklarına qarşı mübarizəyə qaldırmış, Cənubi Dağıstan ləzgilərindən də kömək alaraq işğalçıları darmadağın etmişlər. Muradyan 100 nəfər əsgərlə qaçıb canını qurtarmış, əsir

[227] ARDA, f. 879, siy. 10, iş 54, vər.30.
[228] ARDA, f. 879, siy. 13, iş 40, vər.21.

düşmüş 200-dək daşnak Möhübəli əfəndinin tapşırığı ilə Quba həbsxanasına salınmışdı.[229]

D.Gelovani Qubadan qovulanda əhalini hədələmiş, tezliklə bura ermənilərin xüsusi təlim görmüş cəza dəstələrinin gələcəyini bildirmişdi. D.Gelovaninin hədə-qorxusundan 10 gün sonra Bakıdan top və pulemyotlarla silahlanmış Amazasp öz quldur dəstəsi ilə Qubaya daxil oldu.

Amazaspın dəstəsi Qubanın girəcəyindən tutmuş yuxarı hissəsinədək şəhəri odlamağa başladı. Daşnaklar küçədə qarşılarına çıxan bütün adamları ucdantutma gülləyə tutur, yerə yıxılmış yaralıların bədənlərini tüfənglərin süngüləri ilə deşik-deşik edir, gözlərini ovurdular. Yaxınlıqdakı meşəyə qaça bilməyənlər evlərinə girib qapıları bağlayırdılar. Onları evlərindən zorla çıxarır, yerindəcə güllələyir və yaxud qabaqlarına qatıb meydana aparırdılar. Bir neçə saatın ərzində yüzlərlə insan qətlə yetirildi.

Dövrün sənədləri və şahid ifadələrindən məlum olur ki, erməni daşnak qüvvələri bolşevik əsgərlərindən çox məharətlə istifadə edirdilər. Şahidlərin biri yazır: "Daşnakların son dərəcə azğınlaşdığını görəndə onlarla qeyri-bərabər döyüşə girməli olduq. Bir gün davam edən atışmada 200-dən çox döyüşçünü itirib, 40 nəfərlə Digah kəndinə tərəf geri çəkildik. Amazasp bundan həm hirsləndi, həm də bir qədər ehtiyat etdi. Quba camaatını meydana yığıb bildirdi ki, mən minlərlə türkün başını kəsən Ərzurum ermənisiyəm. 200-dən çox türk kəndini yandırıb xaraba qoymuşam. Uzun müddət türklərlə vuruşmuşam, erməni xalqının mənafeyini müdafiə etmişəm. Buraya da ona görə gəlmişəm. Əgər müqavimət göstərsəniz, hamınızı bir nəfər kimi qıracağam".[230] Daşnak-bolşevik birləşmələrinin Quba qəzasında törətdikləri qırğınlar daha amansız və qəddarlıqla həyata keçirilmişdi. Şahidlərdən biri yazır: "Amazasp daşnak dəstəsinə bələdçilik edən qubalı

[229] ARDA, f. 970, siy. 8, iş 43, vər.13-14.
[230] ARDA, f. 879, siy. 10 iş 34, vər.14-15.



erməni Harun Hayrapetovu yanına çağırdı və ona nəsə dedi. Harun cibindən bir siyahı çıxarıb oxumağa başladı. Həmin siyahıda Qubanın varlılarından 26 nəfərin adı var idi. Amazasp həmin adamların dalınca silahlı əsgərlərindən bir neçə nəfərini göndərdi. Silahlı əsgərlər həmin ailələrdən altı nəfərlə geri qayıdanda daşnak komandiri daha da qızışdı. Gətirilənlərin 4-ü qadın, 2-si yeniyetmə idi. Amazaspın tapşırığı ilə yeniyetmələrin başlarını kəsdilər. Qadınları uşaqlarının qanını içməyə məcbur etdilər. Onlar şivən qoparıb daşnakların üstünə atılanda qarınlarını süngülərlə deşdilər. Sonra qılıncla bədənlərini tən ortadan ikiyə böldülər. Meydanda ah-nalə yüksələndə Amazasp əsgərləri cərgə ilə düzdürüb əliyalın, günahsız əhaliyə atəş açmağı onlara əmr etdi. Yüzlərlə adam qırıldı. İnanmaq olmurdu ki, insan-insana qarşı bu qədər vəhşilik törətsin". "Mən sizin qanınızı içəcəyəm" - deyən Amazasp siyahıda adları çəkilən adamların mülklərini odlayıb külə döndərmək üçün əmr verdi. Bütün bu hərəkətləri ilə o, son dərəcə qəddar və qaniçən olduğunu sübuta yetirirdi.[231]

Amazasp Bakıdan mənfur Şaumyan rejimindən belə bir tapşırıq almışdı ki, Quba qəzasında bütün müsəlmanları qırıb məhv etməli, onların yaşayış məntəqələrini dağıtmalı, sonra isə bu qırğını sünni və şiə məzhəbləri arasında toqquşma kimi qələmə verməlik.

Təhqiqat materiallarından məlum olur ki, 1918-ci il mayın 1-də Qubaya girən daşnak-bolşevik birləşmələrinin sayı 5 mindən artıq olmuşdur. Ona görə də onlar silahsız dinc əhaliyə azğınlıqla divan tuta bilmişdilər. Həmin azğınlığın miqyasını təsəvvür etmək üçün iki gün ərzində yalnız Quba şəhərində 4 minədək müsəlmanın öldürüldüyünü xatırlamaq kifayətdir. Bu rəqəm Quba şəhər əhalisinin beşdə biri demək idi[232].

[231] ARDA, f. 970, siy. 8, iş 113, vər.6-7.
[232] ARDA, f. 970, siy. 59, iş 20, vər.14-55.

Qırğının canlı şahidlərindən olan Şahbalı oğlu xatırlayır: "Ermənilər o qədər adam qırmışdılar ki, Qubanın küçələri al-qana boyanmışdı. Əllərinə keçən 2 mindən çox adamı meydana yığıb ucdantutma güllələmək istəyəndə bir nəfər onların başçısına yaxınlaşdı. Deyilənə görə komissar idi. Bir qədər söhbət etdikdən sonra əsgərlərə təzədən əmr verildi ki, silahları aşağı salsınlar. Qadınlar və uşaqlar ağlayırdılar. Yekəpər bir erməni beş nəfərlə camaata yaxınlaşıb, cavan, gözəgəlimli qadınları seçməyə başladı. Əllidən çox qadını hara isə apardılar. Onlardan birinin qardaşı etirazını bildirəndə yerindəcə güllələdilər. Onun meyidini yerə sərib bıçaqla gözlərini çıxardılar. Əli qana batmış erməni ovcunda tutduğu gözləri camaatın üstünə tulladı. Kütlədən uğultu qopdu. Daşnaklar ermənicə söyə-söyə qabaqdakıları qundaqla döyməyə başladılar. Sonra irəli çıxmış bir yaşlı kişinin qarnını süngü ilə deşdilər. Bu, göz ilə baxılası müsibət deyildi".[233] Başqa bir şahid yazır: "Ermənilər dindarları Qubanın mərkəzinə gətirdilər. Bu, döyülən insanlar qəzanın ən hörmətli ağsaqqalları sayılırdılar. Amazasp hamının tanıdığı Quba ermənisi Harunu çağırdı. Harun azərbaycanca dedi ki, sünnilər və şiələr hərəsi bir tərəfə çəkilib üz-üzə dursunlar. Elə o cür də durdular. Aralarında 20-30 metr olardı. Sonra iki tüfəng gətirib dedilər ki, onsuz da sizin hamınızı qıracağıq. Kim sağ qalmaq istəyirsə, dediyimizə əməl etsin. Sünnilər və şiələr növbə ilə bir-birilərinə güllə atsın. Sağ qalanlarla işimiz olmayacaq. Birinci iki nəfəri irəli çıxarıb tüfəngləri onlara verdilər. Biri ləzgi Məhəmməd, o birisi isə şiələrin ağsaqqalı Məşədi Mirsadıq idi. Onların heç biri erməni silahını əlinə almaq istəmirdi. Qundaqla başlarını yarıb onları tüfəng götürməyə məcbur etdilər. İkisi də tüfənglərini qaldırıb bir-birlərini nişan aldı. Hamı məəttəl qalmışdı. Nisbətən cavan olan Məhəmməd heç kimin gözləmədiyi halda geri döndü və bir daşnakı yerə sərdi. Qarışıqlıqdan istifadə edən Məşədi

[233] ARDA, f. 970, siy. 10, iş 114, vər. 4-5.



Mirsadıq da bir ermənini öldürdü. Qaçmaq istəyən yüzlərlə adamı pulemyotlarla qırdılar. Ölənlərin çoxu qadınlar və uşaqlar idi. Əvvəlcə Məhəmmədin qollarını kəsdilər, sonra ayaqlarını. Başını kəsib süngüyə keçirdilər və hamı görsün deyə yuxarı qaldırdılar. Məşədi Mirsadığın gözlərini çıxarıb, qollarını sındırdılar və boynunu qırdılar. Həmin gün daşnaklar məscidi dağıdıb, həm sünnilərdən, həm də şiələrdən 20-dən çox din xadimini qətlə yetirdilər"[234]. A.Novatski məsələni dəqiqləşdirmək üçün qeyd edir ki, müsəlmanların dini heysiyyətinə toxunaraq, məscidlərə od vurub yandıran daşnaklar təkcə Quba, Qusar və Xaçmaz ərazisində 26 məscidi yandırmışdılar.[235]

Müsəlmanların müqəddəs dini ocaqlarını yerlə yeksan edən daşnaklar dinə, Şərq tarixinə və ədəbiyyatına aid minlərlə qiymətli kitabları də məhv etmişdilər. Qubanın mərkəzində Əbdürrəhim əfəndinin mədrəsəsini yandıran ermənilər buradakı 1300-ə yaxın kitabı tonqala atmışdılar. Hadisələrin canlı şahidlərindən olan nüfuzlu din xadimi İbrahim Aydəmirov xatırlayır ki, "Digah məscidində təxminən 600-700 il əvvələ aid alban və ərəb əlifbası ilə yazılmış kitablar var idi. Ermənilər həmin kitabları məhv etməklə yanaşı, kənd məscidinin təxminən bir kilometrliyində yerləşən müqəddəs pirin daşını da partlatmışdılar. Bu, üstündə alban yazıları olan nəhəng bir daş idi".[236]

Gelovani Fövqəladə Təhqiqat Komissiyasına verdiyi izahatında yazır: "Mən geniş səlahiyyətlər alaraq Qubaya gəldim. Amazaspa öz dəstələri ilə şəhəri tərk etməyi təklif etdim. Əvvəlcə o, tərəddüd etdi və sonra bildirdi ki, çıxıb getməyə hazırdır. Həqiqətən də Qubada olduğunun onuncu günü bütün dəstəsi ilə çıxıb getdi"[237]. Lakin Gelovaninin

[234] ARDA, f. 879, siy. 10, iş 96, vər. 35-36.
[235] ARDA, f. 970, siy. 10, iş 114, vər. 10-11.
[236] ARDA, f. 970, siy. 10, iş 114, vər. 10-11.
[237] ARDA, f. 879, siy. 10, iş 86, vər. 41-42.

izahatında deyilənlər həqiqətə uyğun deyil. Çünki Amazasp belə asanlıqla qırğından əl çəkəcəkdisə, niyə yerli əhaliyə meydan oxuyaraq deyirdi: "Mən erməni xalqının və onun mənafelərinin müdafiəçisiyəm. Mən cəza dəstəsi ilə göndərilmişəm ki, iki həftə əvvəl burada öldürülmüş ermənilərə görə sizdən qisas alım. Mən bura qayda-qanun yaratmaq, sovet hakimiyyətini qurmaq üçün deyil, öldürülmüş ermənilərin qisasını almağa göndərilmişəm. Mənə əmr edilmişdir ki, Xəzər dənizindən Şahdağına kimi bu ərazidə yaşayan bütün müsəlmanları məhv edim…". "Hazırda mənim Digah və Alpan kəndlərində döyüşlərim gedir. Sonra Üçkün və Kilid kəndlərinə keçərək, Şahdağa çatacağam".[238] Doğrudur, müsəlman qanına susayan Amazaspın arzusu ürəyində qaldı. Üç gün davam edən döyüşlər müsəlmanların qələbəsi ilə başa çatdı. Hər iki tərəf böyük itki verdi. Döyüş yeri tarixə "Qanlı dərə" kimi daxil oldu.

Amazaspın vəhşilikləri nəticəsində 1918-ci ilin ilk beş ayı ərzində Quba qəzasında üst-üstə 16 mindən çox insan məhv edilmişdir. Ayrı-ayrı mənbələrə və şahidlərin dediklərinə əsasən, qırğın zamanı 12 minədək ləzgi, 4 mindən çox azəri türkü və müsəlman tat əhalisi öldürülmüşdü. 1918-ci ilin qırğınları zamanı daşnak-bolşevik birləşmələri tərəfindən Quba qəzasında 162 kənd dağıdılmış, bu kəndlərdən 35-i hazırda mövcud deyildir.[239]

Amazaspın rəhbərlik etdiyi erməni hərbi birləşmələri Qubada türk-müsəlman əhalisi ilə yanaşı yəhudilərə qarşı da qırğınlar törətmişlər. Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, 1918-1919-cu illərdə Qubada ermənilər tərəfindən 3 minə qədər yəhudinin həyatın son qoyulmuşdur. Son

[238] ARDA, f. 879, siy .10, iş 44, vər. 13-14.
[239] ARDA, f. 879, siy. 10, iş 45, vər. 10-11.



araşdırmalar nəticəsində öldürülən yəhudilərin 104 nəfərinin adı dəqiqləşdirilmişdir.[240]

Fövqəladə Təhqiqat Komissiyasının sənədlərindən məlum olur ki, Qubada qətlə yetirilən yəhudilərin əksəriyyəti uşaqlar, qocalar və qadınlar olmuşdur. Yəhudilərin kütləvi şəkildə qətlə yetirilməsinə Amazasp rəhbərlik etmişdir. Qətlə yetirilən yəhudilər Şimi dərəsinə atılmışdır.[241] Amazaspın quldur dəstələrindən canını qurtarmaq istəyən yəhudilər əvvəlcə Xaçmaza, oradan isə Dərbəndə qaçmağa müvəffəq olmuşlar. Ancaq bu bütün yəhudilərə nəsib olmamışdır. Qırğınlardan sonra belə bir fikir dolaşırdı ki, yerli sinaqoqda Amazasp tərəfindən öldürülən yəhudilərin siyahısı qorunur.[242]

2007-ci ildə Quba şəhərində kütləvi məzarlıqların aşkar edilməsi və onların tədqiqi göstərdi ki, bu insanlar hər cür zorakılıqlara məruz qalaraq qətlə yetirilmişlər. Bu kütləvi məzarlıqlar 1918-ci ildə Qubada Amazasp tərəfindən türk-müsəlman əhalisinə qarşı həyata keçirilən soyqırıma əyani sübutdur.

Göyçay qəzasının Kürdəmir kəndində daşnaklar 56 ev və dükanı, 127 malikanəni, iki məscidi yandırmış, yerli imamın mənzilini talan etmişdilər. Mənzildəki Quranın təfsirinə dair zəngin kitabxanadan tonqal düzəldilmiş, Quranın özü isə təhqir olunmuşdur. Göyçay qəzasında Cəngi (Caylı), Qaravəlli, Qarabucaq, Mustafanı, Xəlil-Qasımbəy, Ərəb-Mehdibəyli və Sadalı kəndləri xarabazarlığa çevrilmişdi.[243]

Komissiyanın sədri Xasməmmədov Xarici İşlər Nazirinə yazırdı ki, Avropa sülh konfransına gedən nümayəndə heyətinə təqdim etmək üçün Bakı, Şamaxı, Quba şəhərlərində, Şamaxı, Göyçay, Cavad və Quba qəzalarında türk-müsəlman

[240] Мустафаев Р. Марши Смерти. Преступления армянства против еврейского народа. Баку, 2008, səh.26
[241] Yenə orada, səh.27-28.
[242] Yenə orada, səh.32.
[243] ARDA, f. 970, siy. 10, iş 52, vər. 18-19.

əhalisinə qarşı daşnak-bolşevik birləşmələri tərəfindən törədilmiş vəhşilikləri əyani şəkildə sübut edən məlumatlar kifayət qədərdir. Lənkəran qəzası polkovnik Avetisovun silahlı quldur dəstələri tərəfindən, Cavad qəzasının bir hissəsi isə polkovnik İllarinoviç başda olmaqla başqa bir dəstə tərəfindən, İrəvan quberniyasında, Gəncə quberniyasının dörd qəzasında - Cəbrayıl, Cavanşir, Şuşa, Zəngəzurda böyük dağıntı törədilərək, azərbaycanlı əhali ucdantutma məhv edilmişdir[244].

[244] ARDA, f.100, siy. 2, iş 791, vər. 2.



## LƏNKƏRAN QIRĞINLARI

Lənkəranda milli ordunun təşkili ilə məşğul olan olan "Dikaya diviziya"nı tərksilah etmək üçün bolşeviklər dəniz vasitəsilə ora silahlı dəstələr göndərmişdilər. Bunların hamısı Erməni Milli Şurasının göstərişi ilə həyata keçirilirdi. Bolşevik əsgərləri yolda qabaqlarına çıxan müsəlman kəndlərini dağıdıb talayırdılar. Astara şəhəri bolşevik əsgərləri tərəfindən topa tutularaq darmadağın edildi, əhalinin əksəriyyəti yaşayış yerlərini tərk etməyə məcbur oldu. Xəzər dənizi sahilində Qızılağac ilə Lənkəran arasındakı müsəlman kəndləri "Aleksandr Candar" paroxodu tərəfindən top atəşinə tutuldu. Yanvarda başlanan bu qırğınlar martda daha da şiddətləndi ".[245]

Osmanlı qoşunlarının Bakını azad etməsindən bir az əvvəl Lənkərana iki min nəfərlik erməni dəstəsi gələrək yerli əhaliyə divan tutmağa başladı. Onlar  müsəlman yeməkxanalarına girib oradakıları təhqir edir, pul verməkdən imtina edir, onları Osmanlı türklərindən qorumaq üçün səngər qazmağa məcbur edirdilər. İş o yerə çatmışdı ki, erməni əsgərləri məhərrəmlik mərasimi verilən məscidlərə girib müsəlmanlara öz təziyələrini keçirtməyə mane olurdular. Müsəlman əhalisi dini ayinlərini icra etmək üçün məscidlərə yığışdıqları zaman ermənilər ora soxularaq müsəlmanları qarət edir, məscidi isə yandırmaq istəyirdilər. Ermənilər bu bölgədə yüzlərlə ev dağıtdılar və minlərlə günahsız insanın həyatına son qoydular. 1918-ci ilin yanvarından 1919-cu ilin avqustunda "Molokan qiyamı" yatırılana qədər bu bölgədə erməni və rus birləşmələri tərəfindən 2 min insanın həyatına son qoyulmuşdu.[246]

[245] ARDA, f.100, siy. 2, iş 791, vər. 1.
[246] ARDA, f.100, siy. 2, iş 85, vər. 6-7.

## ZƏNGƏZUR QIRĞINLARI

1918-1920-ci illərdə erməni vəhşiliklərindən ən çox ziyan çəkən Azərbaycan bölgələrindən biri də Zəngəzur qəzası olmuşdur. Daşnak qüvvələrinin təcavüzü nəticəsində bu qəzanın Şuşa ilə əlaqələri tamamilə, Cəbrayıl qəzası ilə qismən kəsilmişdi. Qəzanın müsəlman əhalisinin vəziyyəti bir də ona görə ağırlaşmışdı ki, erməni kəndlərindəki silahlı quldur dəstələri ilə yanaşı bu qəzada general Andranikin erməni əsgərlərindən ibarət yaxşı təşkil olunmuş nizami qoşunları da var idi. Andranik Erməni hökumətinin tapşırığı ilə Azərbaycan ərazisinə soxularaq müsəlman əhalisindən tələb edirdi ki, ya Ermənistan hökumətinə tabe olmalı, ya da qəzanı tərk etməlidirlər. Guya bu ərazi Ermənistan Respublikasına daxildir. Qəzanın çox zəif silahlanmış müsəlman əhalisi Andranikin bu tələblərini rədd etdiyinə görə ermənilər azərbaycanlı əhaliyə qarşı görünməmiş vəhşiliklərə başladılar.

Fövqəladə Təhqiqat Komissiyasının sənədlərindən məlum olur ki, 1918-1919-ci illərdə Sisyan mahalının birinci polis sahəsində olan bütün müsəlman kəndləri, ikinci polis sahəsində olan kəndlərin əksəriyyəti, üçüncü, dördüncü və beşinci polis sahəsindəki müsəlman kəndlərinin isə çox hissəsi məhv edilmişdi. Bəzi kəndlər ümumiyyətlə yer üzərindən silinmiş, həmin kəndlərin torpaqları ermənilər tərəfindən əkin yeri üçün şumlanmışdır. 50 mindən yuxarı müsəlman qaçqını qismən dördüncü polis sahəsində, qismən də Cəbrayıl qəzasında özlərinə sığınacaq tapmışdılar.

Fövqəladə Təhqiqat Komissiyasının məruzəsində Zəngəzur qəzasında 115 müsəlman kəndinin ermənilər tərəfindən dağıdılaraq yer üzərindən silindiyi qeyd olunurdu. Dağıdılmış bütün kəndlərin adları bu sənədlərdə sadalanırdı.

Fövqəladə Təhqiqat Komissiyasının sənədlərinə görə ermənilər tərəfindən 115 kənd üzrə 3257 kişi, 2276 qadın və



2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadın və 485 uşaq şikəst edilmişdir. Nəticədə təkcə Zəngəzur qəzasında komissiyanın məruzəsi hazırlanana qədər 10068 nəfər azərbaycanlı öldürülüb və ya şikəst edilmişdir. Məruzədə deyilirdi ki, bu dəhşətli rəqəmlər hələ erməni vəhşiliklər haqqında tam məlumat vermir. Belə ki, daha çox müsəlman erməni vəhşiliklərini qurbanı olmuşdur. Ancaq o zamankı dəhşətli qarışıqlıq şəraitində onları tam şəkildə müəyyənləşdirmək mümkün olmamışdır.[247]

Zəngəzur qəzasının Vaqudu kəndində 400-dən yuxarı azərbaycanlı məsciddə sığınacaq taparaq güman edirlər ki, ermənilər müqəddəs yer sayılan məscidə toxunmayacaqlar. Ancaq məscidi mühasirə edən erməni vandalları əvvəlcə məscidə əl bombaları atır, sonra isə ona od vuraraq adamlarla birlikdə yandırırlar. Şəki kəndinin küçələrində iki yerə şaqqalanmış uşaq meyitləri atılıb qalmışdı. Ermənilər İrmişli kəndini talan edərkən südəmər uşaqları süngülərə taxaraq göyə qaldırır, öldürülən meyitləri tikə-tikə doğrayırdılar. Aqudi kəndində ermənilər müsəlmanlardan xristianlığı qəbul etməyi tələb edir, bundan imtina edən qadınlara qarşı ən amansız cəza tədbirlərini həyata keçirirdilər.

Çullu kəndində ermənilər yorğan–döşəkdə xəstə yatan 9 nəfər müsəlmanı qılıncla doğramışdılar. Bağıbəyli kəndində ermənilər 7 nəfər azərbaycanlını bir evə yığıb evlə birlikdə diri-diri yandırmışdılar. Müsəlman meyitlərin əli, ayağı, başı kəsilmiş və o qədər eybəcər hala salınmışdılar ki, həmin əzaların hansı meyitə məxsus olduğunu ayrıd etmək olmurdu.[248] 1918-ci il yayın axırları və payızında Zəngəzur qəzasında baş verən bu hadisələr bilavasitə cəllad Andranikin rəhbərliyi altında həyata keçirilmişdi.

Zəngəzur qəzasının 100-dən çox müsəlman kəndi dağıdılmış, on minlərlə iribuynuzlu və yüz minlərlə xırda buy-

[247] ARDA, f.894, siy. 4, iş 65, vər. 3.
[248] ARDA, f.894, siy. 8, iş 44, vər. 3.

nuzlu mal–qara ermənilər tərəfindən sürülüb aparılmış, bağlar, taxıl zəmiləri və otlaq sahələri yandırılmış, dağıdılmış, bir sözlə qəzanın müsəlman əhalisinin iqtisadi vəziyyəti fəlakətli hala salınmışdı. Ermənilər tərəfindən qəzanın Azərbaycanın müxtəlif kəndələrinə qaçıb dağılmış əhalisinə 1 milyard manata yaxın maddi ziyan vurulmuşdu.

Ermənilərin Zəngəzurun müsəlman əhalisinə qarşı hücumları 1919-cu ilin dekabrından yenidən şiddətləndi. Noyabr ayında ermənilər müsəlmanlar yaşayan Oxçu, Atqız, Şabadan, Pirdavdan kəndlərinə qarşı geniş hərbi əməliyyata başladılar.[249]

Erməni millətçilərinin azərbaycanlılara qarşı Zəngəzurdakı vəhşilikləri 1920-ci ilin əvvələrində daha amansız bir şəkil aldı. 1920-ci ilin yanvarından Zəngəzurda baş verən bütün hadisələrin biləvasitə təşkilaçısı məhz Ararat Respublikasının özü idi. Əsas məqsəd Zəngəzur qəzasını tamamilə müsəlmanlardan təmizləyərək Paris sülh konfransı dövlətlərinin əli ilə buranı Ermənistanın tərkibinə daxil etmək idi. Bu təmizləmə əməliyyatlarında erməni quldur dəstələri ilə yanaşı Ararat Respublikasının on mindən yuxarı nizami qoşun birləşmələri də iştirak edirdi.

1920-ci ilin yanvarından ermənilərin irimiqyaslı hücumları ilə əlaqədar Zəngəzurdan Azərbaycan Respublikasının Parlamentinə, hökumətinə, müxtəlif partiya fraksiyalarının rəhbərlərinə həyəcanlı xəbərlər daxil olurdu.

1920-ci il yanvarın 21-də Zəngəzurda Azərbaycan Respublikasının parlamentinin üzvü Cəlil Sultanov tərəfindən Azərbaycan parlamentinə göndərilimiş teleqramda deyilirdi: "Dörd gündür ki, erməni quldur dəstələrinin nizami ordu ilə birlikdə top və pulemyotların atəşi altında Zəngəzura hücumları davam edir… İtkilər olduqca çoxdur. Əhali vahimə içərisində qaçır və kömək umur… Qəzanın bədbəxt əhalisi adından yalvarıram, kağız üzərindəki etirazlardan fəal hərəkətə keçin. Azərbaycanın ən gözəl guşələrindən birini tamamilə məhv olmaqdan xilas edin. Zəngəzurun ardınca növbə Qarabağındır. Bütün bunların itirilməsi üçün siz Azərbaycan xalqı və Azərbaycan qarşısında cavab verəcəksiniz".[250]

[249] ARDA, f.894, siy. 4, iş 65, vər.8.



Yanvarın 22-də isə Cəbrayılda məktəb nəzarətçisi H.Axundzadə Azərbaycan parlamentinə göndərdiyi teleqramda yazırdı: "Yanvarın 19-dan səhərdən erməni silahlı qüvvələri Zəngəzurda Xocahandan Qaladərəsinə kimi ərazidə bütün cəbhə boyu toplardan və pulemyotlardan müsəlman kəndlərini atəşə tuturlar. Altı kənd tamam dağılmış, doqquz kənd isə od içərisində yanır. Ermənilər qadınlara və uşaqlara belə rəhm etmədən qəddarlıqla müsəlmanları qırır, kəndləri dağıdırlar. Müqavimət göstərməyə heç bir qüvvələri olmayan müsəlmanlar bütün əmlaklarını ermənilərə qoyaraq yalnız qaçmaqla canlarını qurtarırlar".[251]

Erməni millətçilərinin Zəngəzurda törətdikləri dəhşətli cinayətlər və onlara layiqli cavab verilməməsi azərbaycanlı əhali arasında ümidsizlik doğururdu. 1920-ci il yanvarın 23-də Cəbrayıldan müəllim Hüseyn Axundzadənin vurduğu təkrar teleqramda deyilirdi: "Zəngəzur müsəlmanları tərəfindən başınız sağ olsun. Zəngəzurlular nə qədər ağladılarsa, nalələri Zəngəzur dağları, dərələri və obalarından kənara çıxmadı. Qarı arvadların namusu təhqir olunmuş, məsum balaların başsız bədənləri qırmızı qanlarına boyanmış çöllərdə qaldılar. Qızlar və gəlinlər ermənilərin əlinə keçmiş, onların namuslarına təcavüz edilmişdir. Zəngəzurda düşmənə müqavimət göstərən çox az kişi qalıb. Lakin onlar da tam ümidsiz vəziyyətdədirlər. Üzümüzü Azərbaycan dindarlarına tutur, onları Zəngəzurdakı qardaş-bacılarımızın, məsum balalarımızın

[250] ARDA, f.895, siy. 1, iş 299, vər.20.
[251] ARDA, f.895, siy. 1, iş 299, vər. 31-33.

məlumanə şəkildə şəhid olmalarına, kömək, kömək deyə yalvarışlarına cavab verməyə çağırırıq".[252]

Cəlil Sultanov yanvarın 23-də hərbi əməliyyat yerindən Parlamentə göndərdiyi üçüncü teleqramında yazırdı: "Zəngəzur qəzası İrəvandan on top və pulemyotlarla gəlmiş nizami ordu tərəfindən tamamilə məhv edilmişdir. Vuruşmada iştirak edən nizami erməni ordusunun sayı on minə satır. Hökumətin köməyinə ümidini itirən əhali bütün Azərbaycan türk xalqına müraciət edir. Aldığımız məlumata görə sabah Zəngəzur tərəfdən Cəbrayıl qəzasına hücum başlanır. Ermənilərin məqsədi Qarabağ erməniləri ilə birləşməkdir. Nəticədə Naxçıvanla əlaqəni tamam kəsmək, beləliklə də həm Qarabağ və həm də Naxçıvan məsələsini birdəfəlik həll etməkdir. Artıq kağız üzərindəki etirazlara son qoymaq, iki yüz mindən yuxarı Zəngəzur müsəlman əhalisinin məhvinə gətirib çıxarmış xain ermənilərin iç üzünü açıb dünyaya bəyan etmək vaxtı gəlib çatmışdır. Xahiş edirəm, təcili tədbir görün ki, heç olmasa Şuşa və Cəbrayıl qəzaları xilas edilsin. Hər dəqiqə qiymətlidir. Yubanmaq xalq və vətən qarşısında cinəyət və satqınlığa bərabərdir".[253]

1918-ci ilin avqustunda İgdir və Eçmiədzin qəzalarında Dronun rəhbərliyi altında azərbaycanlıların qırğını həyata keçirdi. Onun göstərişi ilə bu regionda azərbaycanlıların 60-dan çox kəndi dağıdılmış, yandırılmış, müsəlman əhalisinə qarşı ən sərt tədbirlər görüldü.

Çəmbərəkənd (Krasnoselo) rayonunun Ağbulaq, Ardanış, Bəriyabad, Qaraqaya, Əmirxeyir, Yanıqtəpə, Gölkənd (Qaraqoyunlu), Toğluca, Çaykənd, Cıvıxlı, Cil, Şorca və başqa kəndlərə hücum etmiş Andranikin quldur dəstəsi əhalini qırmış, kəndləri dağıtmış, xalqın var-dövlətin talan edib aparmış, əhalinin bir qisminə ağır işgəncələr vermiş, qaça bilməyənləri, qocaları, qadın və uşaqları vəhşicəsinə qılıncdan

[252] ARDA, f. 895, siy. 1, iş 299, vər. 8-12.
[253] ARDA, f. 895, siy. 1, iş 299, vər. 18, 22, 26.



keçirmişdir. 1918-ci ildə Eçmiədzin rayonunda azərbaycanlılar sayca üstunluk təşkil etsələr də, rayonun əksər kəndləri ermənilərin vəhşiliyinə, işgəncələrinə məruz qalmışdılar. Rayonun Ayarlı kəndi 1918-ci ildə bütünlüklə soyqırıma məruz qalmışdır. Bu kənddə hamin vaxt 700-dən çox azərbaycanlı yaşayırdı. Onların əksəriyyəti işgəncələrlə qırılmış, salamat qalanlar isə didərgin düşmüş, dağlarda-daşlarda tələf olmuşlar.[254]

İri azərbaycanlı kəndi olan Qarğabazarın 800 nəfərdən çox əhalisi erməni hərbi dəstələri tərəfindən işgəncələrlə öldürülmüşdür. Bu kənd talan edilmiş, dağıdılmış, binaları yandırılmışdır. Qəmərli kəndinin də başına eyni müsibətlər gətirilmişdir. Bu kənddə yaşayan 500 nəfərə yaxın azərbaycanlı əhali erməni silahlı dəstələri tərəfindən qətlə yetirilmiş, bir qismi isə doğma yurd-yuvasını tərk etməyə məcbur olmuşdur. Eçmiədzin rayonunun Yuxarı Qarxun, Yuxarı Türkmənli, Kiçik Zeyvə, Kürəkənli, Məmmədabad, Molla Dursun, Hacı Qara, Hacılar, Haramlı və başqa kəndlərində yaşayan azərbaycanlı əhalinin böyük əksəriyyəti 1918-ci il qırğınlarında doğma yurdlarını tərk etməyə məcbur olmuşlar[255].

Zəngəzurda həyata keçirilən qırğınlarla bağlı 2004-cü ildə Ermənistan Respublika Partiyasının Yerevanda çap etdirdiyi «Гарагин Нижде и его учение» kitabçasında qeyd olunan məqam erməni vəhşiliyinin etirafından başqa bir şey deyildir: «İki il ərzində baş verən aramsız müharibələr nəticəsində Syunik hökuməti (söhbət daşnak quldur dəstələrindən gedir - A.İ.) yalnız onlarla döyüşçü itirdiyi halda, düşmən tərəfdən 15 min nəfər öldürüldü. Türklərin və tatarların (azərbaycanlıların – A.İ.) məskunlaşdıqları 200-ə qədər kənd erməni kəndlilərinə qaytarıldı»[256].

[254] ARDA, f.895, siy. 1, iş 299, vər.20.
[255] ARDA, f.895, siy. 1, iş 299, vər.31-33.
[256] Гарегин Нжде и его учение. Ереван, 2004, сящ.8.

## İRƏVAN QIRĞINLARI

1918-ci ilin martına qədər İrəvan qəzasının 199 azərbaycanlı kəndi, 1919-cu ilin sentyabr ayına qədər isə Eçmiədzin qəzasına məxsus 62 azərbaycanlı kəndi bütünlüklə yerlə –yeksan edilmişdir. 1919-cu ilin axırında isə Zəngibasarın biri neçə kəndi istisna olunmaqla, İrəvan qəzasının, o cümlədən Vedibasarın bütün kəndləri məhv edilmiş, əhalisi vəhşicəsinə öldürülmüş, sağ qalanlar canlarını xilas edərək başqa yerlərə qaçmışlar. Əhali İran, Türkiyə və Azərbaycana pənah gətirmişlər.[257]

Quqark rayonunun Vartanlı kəndində isə faciə belə başlandı: Erməni hərbi dəstələri aprel ayının ortalarında iclas keçirmək adı altında azərbaycanlıları bir komaya yığırlar. Təxminən 120-150 adam bu komaya toplaşır. Keşiş Vahan iclası açır, bir neçə kəlmə ilə iki xalqın bir kənddə mehriban yaşaması haqqında fikir söyləyir. Bir qədər sonra silahlı ermənilər içəri daxıl olub keşişi bayıra çıxarır, komanın qapısına bağlayaraq damından içəriyə saman qarışıq neft töküb camaatı yandırmağa başlayırlar. Uşaq, qoca, qadın qışqırtısı ərşə dayanır, tüstüdən boğulanlar, özlərini itirənlər qapıya hücum çəkirlər. Əliyalın xalqın müqaviməti nəticəsiz qalır.[258]

1918-ci ildə Yerevan şəhərinin şimal – şərqində yerləşən Kotayk rayonu ərazisində də erməni hərbi dəstələri azərbaycanlılara qarşı geniş soyqırımı həyata keçirtdilər. 1918-ci ilin məlum hadisələrinə qədər bu rayonda yaşayan əhali arasında azərbaycanlılar üstunluk təşkil edirdi. Lakin həmin dövrdə rayonun Avdallar, Artiz, Aşağı Qaxt, Başkənd, Bozkosa, Qayaxaraba, Qaraçala, Qaraçörək, Qızqala, Qurbağalı, Damagirməz, Dəlləkli, Əkərək, Zər, Yelqovan,

[257] ARDA, f.895, siy.1, iş 299, vər.8-12.
[258] ARDA, f.894, siy.1, iş 201, vər.18.



Yellicə, Kamal, Kənxan, Kərpicli, Küzəcik, Göykilsə, Güllücə, Nurnus, Oxçu qalası, Təzəxarab, Çobangörükməz və s. kəndlərindən azərbaycanlı əhali böyük işgəncələrlə qovulmuşdur. Onların əksəriyyəti Andranikin və daşnak hökumətinin silahlı erməni dəstələri tərəfindən qətlə yetirilmişdir.[259]1920-ci ilin aprelində "Azərbaycan" qəzeti yazırdı: "Artıq Göyçə mahalında müsəlman qalmayıb. Hazırda Yeni Bəyazid qəzasında 84 müsəlman kəndi dağıdılmışdır, onlardan 22 kənd apreldə dağıdılmışdır. Daşkənd, Qoşabulaq, Sarıyaqub, Baş Şorca, Aşağı Şorca, Soğanqulu-ağalı, Ağkilsə, Zod, Qulu, Ağalı, B. Qaraqoyunlu, K.Qaraqoyunlu, Zərzibil, Ədli, İnəkdağ, Qaraiman, Kəsəmən, Başkənd, Bala Məzrə, Şişqaya, Baş Hacı, Qəribqaya kəndlərinin 15 mindən artıq evi olan əhalisi bütün malı, dövləti başlı – başına buraxıb qaçmışdır. Bütün bu var-dövlət hazırda ermənilərə qalıb, qarət edilmiş əmlak bir neçə milyon və hətta milyardlara bərabərdir"[260].

1918-1920-ci illərdə Andranikin quldur qoşununun və daşnakların azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımı nəticəsində indiki Ermənistan ərazisində, yəni Qərbi Azərbaycan torpaqlarında yaşayan əhalinin çox böyük hissəsi, təxminən 565 min nəfəri vəhşicəsinə qırılmış, yaxud öz dədə–baba torpaqlarından qovulmuş, didərgin salınmışdır.[261] Erməni tarixçisi Z. Kordokyan "Sovet Ermənistanının əhalisi 1831-1931-ci illər" kitabında göstərir ki, 1920-ci ildə Ermənistanda Sovet hökuməti qurularkən bu ərazidə 10 min nəfərdən bir qədər çox türk (azərbaycanlı) qalmışdı.[262] 1918-ci ildə "İrəvan quberniyasında 211, Qars vilayətində 92 Azərbaycan kəndi dağıdılmış, yandırılmış və talan edilmişdi. İrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərindən birində göstərilir ki,

[259] ARDA, f.894, siy.1, iş 201, vər.30, 31, 32.
[260] ARDA, f.894, siy.1, iş 201, vər.33.
[261] ARDA, f.894, siy.1, iş 201, vər.34.
[262] Кордокян З. Население советского Армении в 1831-1931гг. М., 1931, səh.186.

qısa müddət ərzində bu tarixi Azərbaycan şəhərində (İrəvan) və onun çevrəsində 88 kənd dağılmış, 1920 ev yandırılmış, 132 min azərbyacanlı məhv edilmişdir. Erməni cəza dəstəlrinin törətdikləri vəhşiliklər, daşnak hakimiyyəti dövründə yürüdülən "türksüz Ermənistan" siyasəti nəticəsində İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayı 1916-cı ildə 375 min nəfərdən 1922-ci ildə 70 min nəfərə enmişdir[263]. 1920-ci il aprelin 27-də XI rus ordusunun Bakını, sonra isə Azərbaycanın bütün bölgələrini işğal etməsi Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün Azərbaycan Xalq Cümhuriyyətinin gördüyü tədbirləri başa çatdırmağa imkan vermədi. Ermənistan sovetləşən kimi Zəngəzur qəzası daxil olmaqla Azərbaycan əraziləri Sovet Ermənistanına bağışlandı. Beləliklə, 1918-1920-ci illərdə türk-müsəlman əhalisinə qarşı həyata keçirilən qətllər və kütləvi insan qırğını təsadüfi hadisə deyil, "Daşnaksütyun" partiyasının "Böyük Ermənistan" yaratmaq planını reallaşdırmaq yolunda atılan addım və soyqırımı siyasəti olmuşdur.

[263]ARDA, f.894, siy.1, iş 201, vər.31.



## URMIYA, MAKU VƏ XOY QIRĞINLARI

1918-ci ildə rus ordusunun Cənubi Azərbaycanı işğal etməsindən istifadə edən daşnak birləşmələri aysorlarla birləşib Maku, Xoy və Urmiyada kütləvi qırğınlar törətdilər. "Urmi bəlası" kimi yad olunan bu qanlı faciələrdə öldürülüb məhv edilən müsəlmanların sayı daha çox olmuş, əsir edilənlər içərisində, əsasən, gənc müsəlman qızları üstünlük təşkil etmişdir.[264] Urmiyada olan ermənilər rusların Cənubi Azərbaycandakı hərbi qüvvələrinin köməyilə "Azad Ermənistan" yaratmağı planlaşdırmışdılar. Bu məqsədlə rus ordusu Cənubi Azərbaycanı tərk edərkən özlərində olan silahların böyük bir hissəsini ermənilərə əvəzsiz vermişdilər. Dil və dinlərinin ayrı olmasına baxmayaraq, min illər boyu bu ölkədə rahat yaşayan ermənilər müsəlmanlardan yaxşılıq görmüşdülər. Ancaq yerli əhaliyə məlum olmayan səbəbdən heç bir günahı olmayan minlərlə Urmiya sakini qılıncdan keçirildi və qətlə yetirildi.[265]

1918-ci ilin martında Rusiya birinci dünya müharibəsində iştirakını dayandırdı və başıpozuq rus qoşunlarının Qafqazı tərk etməsi prosesi başlandı. Rusların köməyi sayəsində Cənubi Azərbaycanda qırğın törədən ermənilər də Urmiyanı tərk etməyə başladılar. 10 minə yaxın kişi və qadın özlərinə məxsus olan əşyaları da götürüb tələsik şəhəri tərk etdilər. Bu, onların əməllərinin nəticəsi idi.[266]

Şimali Azərbaycan ərazisində erməni-bolşevik dəstələri yerli müsəlman əhalisinə qarşı qırğınlar törədərkən molokanların onlara yardımçı olması məlumdur. Cənubi Azərbaycanda

[264]Məmmədzadə M.B. Ermənilər və İran. İstambul, 1927; Bakı, 1993, səh.9
[265] Məmmədzadə M.B. Göstərilən əsəri, səh.22.
[266]Onullahi S. Erməni millətçiləri və İran. B., 2002, səh.53. (Seyid Əhməd Kəsrəvinin "Tarixi Hicdəh sale-ye Azərbaycan" əsərinə istinadən).

isə bu funksiyanı aysorlar yerinə yetirmişlər. Azəri türkləri ilə həmişə bir yerdə olan, onlardan yaxşılıq və xeyirxahlıq görən aysorlar ermənilərlə birləşib qətllərdə iştirak etdilər. Özlərini iranlılarla irqi və qan qohumu adlandıran ermənilər Cənubi Azərbaycanın Urmiya, Xoy, Təbriz və Səlmas şəhərlərində cinayətlər törətdilər. Ermənilərə Ağa Petros, aysorlara isə Marsimon rəhbərlik edirdilər".[267] Osmanlı ordusunun azərbaycanlı əhalisinə göstərdiyi köməyi xüsusi qeyd etmək lazımdır. Çünki İran tarixçilərinin əksəriyyəti iddia edirlər ki, Osmanlı qüvvələrinin bu əraziyə yürüşləri birinci dünya müharibəsindən doğan işğalçılıq yürüşü olmuşdur. Ancaq bununla yanaşı, tarixi faktlar təsdiq edir ki, Osmanlı qüvvələrinin Cənubi Azərbaycanda mövcudluğu minlərlə insanın qırılmasının qarşısını aldı. Ermənilər, təkcə bir gecənin içində 1500 nəfər azərbaycanlını öldürdülər.[268] Bu fikri əsaslandırmaq üçün Seyid Əhməd Kəsrəvi, Seyid Cəfər Pişəvəri, doktor Səlamullah Cavidin yazdıqları kifayət edir. Kəsrəvi yazır: "Urmiyada azərbaycanlı əhalinin evləri talan edilmiş və sağ qalanları hökumət binasına toplaşmışdılar. Günlərlə ac və susuz qalan əhali çox acınacaqlı bir vəziyyətdə idilər. Halbuki, onların hamısı çox hörmətli insanlar idi. Bazar yox idi ki, bir şey ala bilsinlər, evləri isə talan edildiyindən istifadə etməyə bir şey qalmamışdı".[269] Dövrün sənədlərindən məlum olur ki, erməni talanları zamanı Təbriz, Urmiya və Səlmasda vəba xəstəliyi yayılmış, əhalinin əksəriyyəti vəbadan tələf olmuşdur.

1918-ci ilin mayında Ermənistan Respublika elan olunduqdan sonra Andronik 5 min nəfərlik silahlı dəstə ilə Xoy şəhərinə hücuma başladı. Xoyda evlər, məscidlər, küçələr adamlarla dolu idi. Şəhərdə belə bir şayiə yayılmışdı ki, ermənilər Ərzincan və Trabzonda müsəlmanların ətindən qovurma və qiymə bişirib özlərinə yedirmiş, qadınların namusuna

[267] Onullahi S. Göstərilən əsəri, səh.54
[268] Yenə orada, səh.58.
[269] Yenə orada, səh.59.



təcavüz etmişdilər.[270] 1918-ci il iyunun 24-də Andronikin başçılığı ilə daşnak silahlı qüvvələri Xoy şəhərini mühasirəyə aldılar. Şəhərin kişi sakinləri silah əldə edərək müdafiəyə qalxdılar. Qadın və uşaqlar şəhərin müdafiəçilərinə ərzaq aparırdı. Daşnakların toplardan atdığı atəş nəticəsində bir neçə ev dağıldı və şəhərdə yanğınlar başladı. Daşnakların müsəlman əhalisinə qarşı qətlləri başlayan zaman Osmanlı qüvvələri Xoy əhalisinin köməyinə çatdılar. Andronik öz ordusunu geri çəkməyə məcbur oldu.[271]

Nizami rus qoşunlarına arxalanan daşnaklar ermənilərin başçısı Petrosun rəhbərliyi altında Urmiyadan Səlmasa gəldi. Bir neçə gün şiddətli döyüşlər getdi. Ermənilər və onlara kömək edən assurlar (aysorlar–A.İ.) Səlmasda qələbə çaldılar və qalib kimi Urmiyaya qayıtdılar. Urmiyada müsəlman öldürmək adi bir hal almışdı. Andronik yenidən Xoy şəhərinə hücum etdi. Andronikin məqsədi Xoy şəhərini ələ keçirib, İranda "Kiçik Ermənistan" dövləti yaradaraq gələcəkdə "Böyük Ermənistan" planı reallaşanda ona birləşdirmək idi.[272] Osmanlıların Xoy şəhərindəki qoşunlarının sərkərdəsi şəhərdəki tüfəngçilərin onlarla birləşməsini tələb etdi. Evoğlu yaxınlığında başlayan döyüşdə qüvvələr nisbəti bərabər olmadığından, ermənilər şəhərə daxil ola bildilər. Bir çox varlı Xoylu şəhəri tərk edib Təbrizə üz tutdu. Lakin şəhərin qeyrətli igidləri axıradək müqavimət göstərməyə and içdilər. Müdafiəçilər gecə vaxtı məscidlərin birinə toplaşıb hərbi komissiya yaratdılar. Şəhərin müdafiəsi hərbi komissiyaya tapşırıldı. Səhəri gün daşnaklar şəhərin 300 metrliyinə yaxınlaşa bildilər. Ermənilər özləri ilə birinci hücum zamanı olduğu kimi xeyli top və hərbi sursat gətirmişdilər. Şəhər tüfəngçilərinin çoxunun müharibə görmədiyinə baxmayaraq, çox namus və qeyrətlə vuruşurdular. Ermənilər günün axırında şəhərin bir

[270] Yenə orada.
[271] Onullahi S. Göstərilən əsəri, səh. 59.
[272] Yenə orada, səh. 61-62.

hissəsini tuta bildilər.[273] Bu vaxt Səlmas tərəfdən Osmanlı ordusu görünməyə başladı. Osmanlı ordusunun köməyə gəlməsini eşidən Xoy şəhərinin əhalisi xeyli ürəklənib qəhrəmanlıq və şücaət nümunələri göstərmyə başladı. Başda Andronik olmaqla ermənilər məğlub halda geri qayıtdılar. Xoy əhalisi öz qəhrəmanlıqları ilə azərbaycanlı və osmanlı türklərinin qəddar düşməni olan Andronikin planlarını heçə endirdilər. Xoyluların bu qələbəsi ermənilərin Urmiya ilə bağlı planına sarsıdıcı zərbə vurdu[274]. Daşnaklar və aysorlar Urmiyada daha bir plan qurmuşdular. Ruslar "Çernozoyev" adlı bir buxar gəmisində Urmiya sahilinə qoşun çıxarmağa hazırlaşırdılar. Aysorlar və daşnaklar yelkənli gəmilərlə ruslara yardımçı olmalı idilər. 180 nəfərlik yaxşı hərbi təlim görmüş bu dəstə qəflətən sahilə çıxıb şəhəri işğal etməli idi. Sahilə çıxan bu qüvvələr türk və azərbaycanlıların müqavimətinə rast gəldilər. Düşmən qüvvələri məhv edildi[275]. Beləliklə, ermənilərin Urmiya planı puça çıxdı.

---

[273] Yenə orada, səh.62.
[274] Yenə orada.
[275] Onullahi S. Göstərilən əsəri, səh. 62.



# IV FЯSИL

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ELAN OLUNMASI VƏ FƏALİYYƏTİ

### Azərbaycan Xalq Cümhuriyyətinin Tiflis dövrü

1918-ci il mayın 28-də Tiflisdə keçmiş Qafqaz Canişin sarayında Həsən bəy Ağayevin sədrliyi və Mahmudovun katibliyi ilə Müsəlman Milli Şurasının ilk iclası keçirildi. İşgüzar və ətraflı müzakirələrdən sonra Müvəqqəti Milli Şura Şərqi və Cənubi-Şərqi Zaqafqaziyada Azərbaycanın Müstəqil Xalq Cümhuriyyəti kimi elanı barədə "İstiqlal bəyannaməsi"ni qəbul etdi.[276] Milli Şuranın 24 səslə (iki nəfər–Sultan Məcid Qənizadə və Cəfər bəy Axundov bitərəf qaldı) qəbul etdiyi qərar və altı bənddən ibarət "İstiqlal bəyannaməsi", yaxud "Misaği-milli" (əqdnamə) Azərbaycan millətinin varlığını bütün dünyaya bəyan etdi. Beləliklə, Azərbaycan dövlətçiliyi tarixində ilk Konstitusiya aktı–"İstiqlal bəyannaməsi"nin qəbulu ilə Azərbaycan dövlətçiliyi Xalq Cümhuriyyəti formasında elan olundu. Bu hüquqi və siyasi sənəddə müstəqil Azərbaycan dövlətinin yarandığı bəyan edilmiş, onun hakimiyyətinin şamil olunduğu ərazinin hüdudları müəyyənləşdirilmiş, həmçinin dövlətin əsas fəaliyyət prinsipləri öz əksini tapmışdır. "İstiqlal bəyannaməsi"ndə demokratik dövlətə məxsus atributların – hakimiyyətin xalqa mənsub olması, vətəndaşların mülki və siyasi hüquqlarının təmsil edilməsi, bütün xalqların və hər bir kəsin milli, dini, sinfi, silki və cinsi mənsubiyyətindən asılı olmayaraq azad inkişafı üçün şərait yara-

---

[276] ARDA, f. 970, siy. 1, iş 1, vər.49-50.

dılması, ən nəhayət, hakimiyyətin bölünməsi kimi prinsiplərin dövlət fəaliyyətinin əsası kimi bəyan edilməsi Azərbaycan xalqının suveren, demokratik, hüquqi dövlət yaratmaq əzmində olduğunu bütün bəşəriyyətə nümayiş etdirdi. "İstiqlal bəyannaməsi" Azərbaycan millətinin millət-mədəniyyət statusundan tamamilə başqa siyasi-hüquqi və mənəvi-psixoloji statusa–millət-dövlət statusuna qədəm qoyduğunu göstərdi. Mayın 30-da Azərbaycanın öz müstəqilliyini elan etməsi barədə dünyanın əsas siyasi mərkəzlərinə radio-teleqrafla məlumat verildi.

"İstiqlal bəyannaməsi"ni qəbul edən Milli Şura Azərbaycan hökumətini təşkil etməyi bitərəf Fətəli xan Xoyskiyə tapşırdı. Bir saatlıq fasilədən sonra Fətəli xan Xoyski "Müsavat", Müsəlman sosialist bloku, "Hümmət", "İttihad" və bitəraflərdən təşkil edilən 9 nazirdən ibarət ilk hökumətin tərkibini elan etdi.[277]

Milli Şura ilk Azərbaycan müvəqqəti hökumətini aşağıdakı tərkibdə təsdiq etdi: Nazirlər Şurasının sədri və daxili işlər naziri – Fətəli xan Xoyski, hərbi nazir – Xosrovpaşa bəy Sultanov, xalq maarifi və maliyyə naziri – Nəsib bəy Yusifbəyli, xarici işlər naziri – Məhəmməd Həsən Hacınski, poçt-teleqraf və yollar naziri – Xudadat bəy Məlik-Aslanov, əkinçilik və əmək naziri – Əkbər ağa Şeyxülislamov, ədliyyə naziri – Məmməd Yusif Cəfərov, dövlət nəzarəti naziri – Camo bəy Hacınski.

Bununla da Azərbaycan Milli Şurası Azərbaycan xalqı qarşısında çox böyük tarixi bir missiyanı yerinə yetirdi. Azərbaycan Xalq Cümhuriyyəti dünyəvi təməl üzərində qurulan ilk türk dövləti oldu. M.Ə. Rəsulzadənin sözləri ilə desək: "Azərbaycan kəlməsi sadə coğrafi, etnoqrafik və linqvistik bir kəlmə olmaqdan çıxaraq siyasi bir aləm olmuşdur".[278]

[277] ARDA, f. 970, siy. 1, iş 1, vər.49-50
[278] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. B., 1991, səh.95.



Mayın 29-da Tiflisdə Həsən bəy Ağayevin sədrliyi ilə Müsəlman Milli Şurasının ikinci iclası keçirildi. Hökumətin sədri F.X.Xoyski Ermənistanla Azərbaycan arasında sərhəd məsələləri ilə bağlı Azərbaycan və Ermənistan Milli Şuralarının üzvləri arasında aparılmış danışıqlar haqqında məlumat verdi. Xoyski erməni federasiysının yaradılması üçün onlara siyasi mərkəz lazım olduğunu, Aleksandropolun (Gümrü) türk ordusu tərəfindən tutulmasından sonra İrəvanın Ermənistana güzəştə gedilməsinin qaçılmaz olduğunu bəyan etdi. Xəlil bəy Xasməmmədov, Məmməd Yusif Cəfərov, Əkbər ağa Şeyxülislamov və Məhəmməd Məhərrəmov bu məsələ ilə bağlı çıxış edərək İrəvanın ermənilərə güzəştə gedilməsini tarixi zərurət, lakin qaçılmaz bədbəxtlik olduğunu qeyd etdilər. İclasda iştirak edən 28 nəfər Şura üzvündən 16-sı bu təklifin lehinə, 1 nəfər əleyhinə, 3 nəfər isə bitərəf qaldılar. İclasda ermənilərlə konfederasiya yaratmaq məsələsi də müzakirə olundu. Qısa fikir mübadiləsindən sonra gələcəkdə Azərbaycan və erməni Şuralarının konfederasiya şəklində birləşməsi məqbul sayılaraq yekdil səslə qəbul olundu.[279]

Hökumətin başçısı Fətəli xan Xoyski mayın 29-da Batumda Osmanlı tərəfi ilə danışıqlarda iştirak edən xarici işlər naziri Məmməd Həsən Hacınskiyə yazırdı: "Biz ermənilərlə bütün mübahisələrə son qoyduq, onlar ultumatumu qəbul edəcək və müharibəni qurtaracaqlar. Biz İrəvanı onlara güzəştə getdik".

Milli Şuranın iyunun 1-də keçirilən üçüncü iclasında İrəvanın Ermənistan respublikasına güzəştə gedilməsinə Milli Şuranın İrəvandan olan üzvləri Mir Hidayət Seyidov, Bağır Rzayev və Nəriman bəy Nərimanbəyov öz qəti etirazlarını bildirdilər. Lakin Milli Şura bu etirazı müzakirə etmədən iclas protokoluna əlavə etməyi qərara aldı.[280]

[279] ARDA, f. 970, siy. 1, iş 1, vər.51-52.
[280] ARDA, f. 970, siy. 1, iş 1, vər.53-54.

Tiflisdə fəaliyyət göstərən Milli Şura və F.Xoyskinin başçılıq etdiyi milli hökumət birmənalı olaraq başa düşürdü ki, Cənubi Qafqazda cərəyan edən hadisələrin başında Osmanlı dövləti durur. Bölgə ilə bağlı hər hansı qərar Osmanlı dövlətinin razılığı əsasında qəbul oluna bilərdi. Buna görə də Milli Şura və hökumət Batum danışıqlarına böyük ümidlə baxırdı. Batumda olan Azərbaycan və Ermənistan nümayəndələri arasında danışıqlarda razılıq əldə edildi ki, Azərbaycan Aleksandropol (Gümrü) quberniyası hüdudlarında erməni dövlətinin yaradılmasına razıdır, bu şərtlə ermənilərə güzəştə gedilir ki, ermənilər Yelizavetpol (Gəncə) quberniyasının bir hissəsinə (söhbət Qarabağdan gedir–A.İ.) olan iddalarından imtina edirlər".[281]

Cənubi Qafqazın öz müstəqilliyini elan etmiş üç dövləti–Azərbaycan, Gürcüstan və Ermənistanın nümayəndələri Osmanlı dövləti ilə danışıqlar apararaq iyunun 4-də Batumda ayrı-ayrılıqda müqavilə imzaladılar. Müqaviləni Azərbaycan tərəfindən Milli Şuranın sədri M.Ə.Rəsulzadə və xarici işlər naziri M.H.Hacınski imzaladılar. Müqavilənin şərtləri Ermənistan və Gürcüstan üçün çox ağır idi, Azərbaycanla Osmanlı dövləti arasında bağlanan müqavilə isə iki dövlət arasında "daimi sülh və dostluq münasibətləri"ni bərqərar edirdi. Batum müqaviləsi Azərbaycan Xalq Cümhuriyyətinin xarici dövlətlə imzaladığı ilk müqavilə idi. On bir maddədən ibarət müqavilənin dördüncü maddəsi Azərbayan üçün daha önəmli idi. Osmanlı dövləti sülh və əmin-amanlığı, ölkənin təhlükəsizliyini təmin etmək üçün, ehtiyac yaranarsa, Azərbaycan Respublikasına hərbi yardım göstərməyi öz üzərinə götürürdü. Batum müqaviləsi bağlandığı zaman Milli Şura və Milli hökumət hələ Tiflisdə fəaliyyət göstərirdi. Şaumyanın başçılıq etdiyi Bakı Xalq Komissarları Sovetinin daşnak-bolşevik ordusu Gəncə üzərinə hücuma başlamışdı. Hərbi vəziyyətin son dərəcə ağır olduğunu görən Batumdakı

[281] ARSPİHA, f.276, siy.9.iş1, vər.47.



Azərbaycan nümayəndələri M.Ə.Rəsulzadə və M.H.Hacınski Osmanlı dövləti ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında bağlanmış müqavilənin dördüncü bəndinə əsasən Azərbaycana hərbi yardım göstərilməsi barədə Osmanlı dövlətinə müraciət etdilər. Müraciət qəbul olundu və Azərbaycanın ən çətin günlərində Qafqaz İslam Ordusu onun köməyinə gəldi. Osmanlı hökumətinin hərbi naziri Ənvər paşa ilk yardım kimi Azərbaycana 2 milyon türk lirəsi həcmində kreditin ayrılmasına, Azərbaycanda olan türk ordusunun ehtiyaclarına hər ay 50 min lirə xərclənməsi üçün göstəriş verdi. Bununla yanaşı, Ənvər paşa İstanbulda M.Ə.Rəsulzadə ilə görüşündə Azərbaycan milli ordusunun təşkil edilməsinin vacibliyini irəli sürdü.

1918-ci il iyunun 13-də Azərbaycan Milli Şurasının Tiflisdə sonuncu–6-cı iclası keçirildi. Milli Şuranın əsas məsələsi ermənilərin azərbaycanlı əhaliyə qarşı törətdiyi qırğınlar barədə İrəvandan gələn həyəcanlı xəbərlərə həsr olundu. İrəvandan qayıdan Şura üzvü İbrahim ağa Vəkilov müsəlman qaçqınların acınacaqlı vəziyyəti haqqında məlumat verərək onlara 150 min manat həcmində yardım göstərilməsini təklif etdi. İ.Vəkilovun məlumatına görə İrəvan quberniyası ərazisində müsəlman qaçqınların sayı 150 min nəfərə çatmışdır. Daşnak dəstələri tərəfindən müsəlmanlar yaşayan 206 kənd dağıdılmış, onların sakinləri isə hər cür işgəncələrə məruz qalmışdır. Şura Türk ordusu komandanlığından İrəvan qaçqınlarına ərzaqla kömək etməyi və müsəlmanların öz doğma kəndlərinə qaytarılmasına kömək göstərmələrini xahiş etdi.[282]

Qafqaz İslam ordusunun Gəncə istiqamətində hərəkəti sovet Rusiyasının və bütün Azərbaycan torpaqlarını işğal etmək iddiasında olan Bakı Xalq Komissarları Sovetinin ciddi narahatçılığına səbəb oldu. İyunun 6-da Bakı Xalq Komissarları Sovetinin sədri S.Şaumyan gürcü tərəfinə müraciət edərək

[282] ARDA, f. 970, siy. 1, iş 6, vər.1.

Osmanlı hücumlarından müdafiə olunmaq üçün onlara yardım göstərməyi təklif etdi. Müraciətdə göstərilirdi ki, Gürcüstan hökuməti Osmanlı qoşunlarını öz ərazisindən Azərbaycana buraxmasa, sovet Rusiyası Cənubi Qafqazda öz hakimiyyətini bərqərar etdikdən sonra Gürcüstana muxtariyyət verə bilər. Osmanlı qoşunlarının Azərbaycana buraxılmamasında Almaniya dövləti də maraqlı idi. Bu məslə ilə bağlı almanlar da gürcülərə təzyiq göstərirdilər. Hətta Gürcüstan ərazisində Osmanlı qüvvələri ilə alman-gürcü dəstələri arasında toqquşmalar baş verdi. Alman-gürcü dəstələri Osmanlı ordusunun Gəncəyə, son nəticədə isə Bakıya olan yürüşünün qarşısını ala bilmədi. Osmanlı qoşunlarının bu inadkarlığı və Tiflisdə fəaliyyət göstərən Azərbaycan hökumətinin Osmanlı dövlətinə səmimi münasibəti Milli hökumətin Tiflisdə qalmasını mümkünsüz etdi.



## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN GƏNCƏ DÖVRÜ

Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası və hökuməti bütün hazırlıq işlərini başa çatdırdıqdan sonra 1918-ci il iyunun 16-da Tiflisdən Gəncəyə köçdı. Milli Şuradan kənarda qalan burjua-mülkədar dairələrinin bir hissəsi Nuru paşanın vasitəsilə Milli Şuranı hakimiyyətdən uzaqlaşdırmağa cəhd etdilər. Azərbaycanın Türkiyəyə ilhaq edilməsinin tərəfdarı olan bu dairələr Milli Şuraya qarşı fəal kampaniya aparırdı. Gəncədə yerləşən Qafqaz-İslam ordusu komandanlağı ilə milli qüvvələr arasında münasibətlər gərgin bir şəkil aldı. Nuru paşanın müstəqilliyini elan etmiş dövlətin daxili işlərinə qarışaraq F.X.Xoyskinin başçılıq etdiyi hökumətə etimadsızlıq göstərməsi siyasi böhrana gətirib çıxardı.

İyunun 17-də Milli Şura gərginliyi aradan qaldırmaq və baş verən hadisələrə aydınlıq gətirmək üçün gün ərzində üç iclas keçirdi. Birinci qapalı iclas Gəncə şəhər dumasının binasında keçirildi. 26 nəfər Milli Şura üzvünün iştirak etdiyi iclasda hökumətin sədri F.Xoyski aşağıdakıları bildirdi: "Şuranın sədri M.Ə. Rəsulzadə, xarici işlər naziri M.H.Hacınski və mən Türk-Qafqaz İslam Ordusunun komandanı Nuru paşa ilə görüşərək onu təbrik etdik və hakimiyyətin təşkili barədə ona məlumat verdik. Nuru paşa da öz növbəsində bildirdi ki, o, bir əsgər kimi, mülki işlərlə kifayət qədər tanış deyil, ona görə də bu barədə onun mülki işlər üzrə müşaviri Əhməd bəy Ağaoğluna müraciət etməyi məsləhət bilir. Biz də Əhməd bəy ilə görüşdük. Danışıqlar zamanı Əhməd bəy bildirdi ki, Türkiyə hökuməti və onun Gəncədəki nümayəndəliyinin Azərbaycanın daxili işlərinə qarışmaq fikri yoxdur. Siz özünüz istədiyiniz hökuməti təşkil edə bilərsiniz"[283].

[283] ARDA, f. 970, siy. 1, iş 1, vər.46.

Milli Şura uzun müzakirələrdən sonra ölkədə hökm sürən anarxiyanı, habelə daxili və xarici maneələri nəzərə alaraq yeni hökumət təşkil edərək ona hərtərəfli fəaliyyət üçün geniş səlahiyyətlər verməyi və özünü buraxmağı qərara aldı.[284]

İyunun 17-də gündüz saat 14-də 28 Şura üzvünün iştirakı ilə M.Ə. Rəsulzadənin sədrliyi ilə Milli Şuranın ikinci iclası keçirildi. M.Ə.Rəsulzadə giriş nitqində Şura üzvlərinə müraciətində bildirdi ki, belə bir fövqəladə ağır vəziyyətdə biz bu məsələləri soyuqqanlılıqla müzakirə etməliyik. Hökumətin sədri F.Xoyski Tiflisdə təşkil etdiyi birinci müvəqqəti hökumətin fəaliyyəti barədə məlumatdan sonra hökumətin istefasını qəbul etməyi xahiş etdi. Gərgin keçən iclasda Milli Şura üzvlərindən A.Səfikürdski, M.Hacınski, M. Cəfərov, N.Yusifbəyli Milli Şuranın buraxılmasına etiraz edir və bunu Nuru paşanın və Türkiyə hökumətinin Azərbaycanın daxili işlərinə qarışması kimi qiymətləndirdilər. Şura üzvü M.Cəfərov öz çıxışında deyirdi: "Aydın olur ki, bizi Tiflisdən bura köhnə bürokratik metodlarla dəvət ediblər. Bizim azadlığımızı əlimizdən almaq istəyirlər. Biz də əldə etdiyimiz azadlığı asanlıqla vermək istəyirik. Əfsuslar olsun ki, bizim türk qardaşlarımız bizim ürəyimizi yaralayır, hisslərimizi isə zəhərləyirlər. Halbuki, biz onlardan kömək gözləyirdik".[285]

İyunun 17-də axşam Milli Şuranın üçüncü iclası öz işinə başladı. İclas gecə saat 2-də başa çatdı. İclas Azərbaycan Milli Şurasının buraxılmasını və F.Xoyskinin başçılığı ilə yeni hökumətin təşkil olunmasını təsdiq etdi. Yeni hökumətin təşkilindən sonra söz alan Xoyski dedi: "Cənablar, bu tarixi dəqiqədə mənim üzərimə qoyulan məsuliyyətin bütün ağırlığını dərk edərək Şura sədrinin təklifini qəbul edəndə ürəyim əsirdi. Təklif etdiyim hökumətin deklarasiyasını indi sizə verə bilməyəcəyim üçün üzr istəyirəm. Ancaq qısaca onu deyə bilərəm ki, bizim proqramımız Azərbaycanın şərəfini,

---

[284] ARDA, f. 970, siy. 1, iş 1,vər.48.
[285]ARDA, f. 970, siy. 1, iş 1, vər.57-61.



azadlığını və istiqlaliyyətini qorumaqdır. Ümid edirəm ki, daha əlverişli şəraitdə birgə işləmək üçün tezliklə görüşəcəyik".[286]

İclasda yekun nitqi söyləyən M.Ə.Rəsulzadə bildirdi: "Hazırki qərarla siz tarixi məsuliyyətin bütün ağırlığını cənab Fətəli xan Xoyskinin yaratdığı hökumətin çiyninə qoydunuz. Azərbaycanın taleyini əllərinə almış şəxslərin qismətinə ən çətin, həm də ən mühüm borc düşür –yeni doğulmuş Azərbaycanı məhv olmağa qoymamaq borcu. Doğrudur, xalqın təmsilçisi olan bir orqanın Azərbaycanın müvəqqəti paytaxtı Gəncə şəhərində səhnədən çəkilməsi, şübhəsiz ki, demokratiyanın geri çəkilməsi və mürtəce qüvvələrin uğuru sayılmalıdır. İndi gəlin, bu gərgin günlərdə üzərinə ağır vəzifə yüklədiyimiz bu hökumətlə vidalaşaq və ayrılaq. Gəlin, qardaş kimi ayrılaq. Əfəndilər, ayrılarkən ümid edək ki, Allahın köməyi ilə tezliklə Azərbaycanın paytaxtı Bakıda təsis yığıncağında görüşəcəyik. Yaşasın Azərbaycan! Yaşasın türk xalqı"![287]

F.Xoyskinin Gəncədə təşkil etdiyi ikinci hökumət çox çətin və mürəkkəb bir dövrdə fəaliyyətə başladı. Hökumət Gəncədə siyasi qüvvələrin birləşməsi, anarxiyanın aradan qaldırılması, dəmir yollarının bərpası, ölkənin ayrı-ayrı bölgələri arasında poçt-teleqraf əlaqələrinin yaradılmasında və başqa sahələrdə bir sıra mühüm tədbirlər həyata keçirdi. Hökumətin başlıca vəzifəsi 1918-ci ilin mart soyqırımından sonra Şaumyanın rəhbərliyi altında Bakıda təşkil olunmuş Bakı Xalq Komissarları Sovetini devirib Bakını Milli hökumətin paytaxtına çevirmək idi. Bu istiqamətdə Gəncədə öz qərargahını quran Qafqaz İslam Ordusunun başçısı Nuru Paşa ilə intensiv danışıqlar aparılırdı.

---

[286] ARDA, f. 970, siy. 1, iş 3, vər.12.
[287] ARDA, f. 970, siy. 1, iş 3, vər.14-17.

## QAFQAZ İSLAM ORDUSUNUN TƏŞKİLİ VƏ AZƏRBAYCANA XİLASKARLIQ YÜRÜŞÜ

1914-cü ildə dünyanı bölüşdürmək üstündə böyük dövlətlər arasında dünya müharibəsi başlandı. Qərb dövlətlərinin bu müharibədə maraqlarının əsas hissəsini yeni torpaqlar və yeni bazarların ələ keçirilməsi təşkil edirdi. İmperialist müharibəsinin iştirakçısı olan Osmanlı dövlətinin müharibə planında iki taktiki gediş diqqət mərkəzində idi: Camal paşanın tərtib etdiyi plana görə Osmanlı dövləti öz keçmiş qüdrətini qaytarmaq üçün itirilmiş xilafət torpaqlarını yenidən özünə birləşdirməyə nail olmalı idi. İkinci planın ideya rəhbəri olan hərbi nazir Ənvər paşa isə Rusiyanı məğlub etmək, Qafqaz, Orta Asiya ərazilərini Osmanlıya birləşdirməklə Böyük Turançılıq hərəkatını başa çatdırmağa ümid bəsləyirdi. Ənvər paşa Qafqaz cəbhəsindəki rus ordusunu geri oturtmaq üçün 1914-cü ilin dekabrın axırlarında hücuma keçdi. Tarixdə Sarıqamış əməliyyatı adlanan bu yürüş Osmanlı ordusunu fəlakətə sürüklədi. Çətin hava şəraiti, qış geyimi əvəzinə əsgərlərə verilən nazik və keyfiyyətsiz yay geyimi, dağlıq bölgələrdə ordunun soyuqdan, aclıqdan və tifdən qırılması Osmanlı ordusu üçün fəlakətlə nəticələndi. Ardıcıl əlavə qüvvə ilə təmin edilən rus ordusu osmanlının 90 min əsgər və zabitini əsir götürərək Sarıqamış əməliyyatını uğurla başa çatdırdı. Əsir götürülən türk əsgər və zabitlərinin bir hissəsi yerindəcə məhv edildi. Bu işdə sərt qış rus komandanlığının köməyinə gəldi. Əsirlərin bir hissəsi Qafqaz dəmir yolu vasitəsi ilə Bakıya gətirilərək Nargin və Bulla adalarında yerləşdirildi. Əsirlərin üçüncü bir hissəsi isə Sibirə sürgün edildi. Beləliklə, Camal paşanın Sina cəbhəsindəki panislamizm hərəkatı kimi Ənvər paşanın Qafqaz çəbhəsində



panturanizm hərəkatının ilk mərhələsi də uğursuzluqla nəticələndi.[288]

1917-ci ildə Rusiyada baş verən fevral inqilabı və oktyabr çevrilişi birinci dünya müharibəsinin mühüm hadisələrindən biri oldu. Çünki, 1918-ci ilin martında Sovet Rusiyası ilə Almaniya başda olmaqla müttəfiq dövlətlər arasında Brest-Litovskda sülh müqaviləsi imzalandı. Müqavilənin şərtlərinə görə rus ordusu qısa müddət ərzində Şərqi Anadolunu tərk etməli, Ərdəhan, Batum, Qars şəhərləri ruslar tərəfindən boşaldılmalı idi. Beləliklə, Brest-Litovsk müqaviləsi Ənvər paşanın Qafqaz planının reallaşması üçün münbit bir şərait yaratdı. Digər tərəfdən, I dünya müharibəsi illərində rus ordusunun köməyindən yararlanan erməni silahlı dəstələri Anadoluda 100 minlərlə türkün həyatına son qoyaraq "Böyük Ermənistan" planını reallaşdırmaq üçün soyqırıma başladılar. Lakin erməni hərbi birləşmələri öz mənfur planlarını həyata keçirə bilməyib, geriyə-Cənubi Qafqaza çəkilməyə məcbur oldular. Erməni hərbi birləşmələri Azərbaycanın cənubunda, qərbində və şimalında türk-müsəlman əhalisinə qarşı qırğınları daha amansızlıqla həyata keçirməyə başladılar. Bütün bunlar, müəyyən qədər özünə gələn Osmanlı dövlətini məcbur edirdi ki, din, dil və qan qardaşı olan Qafqaz xalqlarını, o cümlədən azərbaycanlıları daşnak-bolşevik qırğınlarından qurtarmaq üçün əməliyyata başlasın. Ona görə də, 1918-ci ilin əvvəllərindən başlayaraq Osmanlı dövləti yaranmış tarixi fürsətdən maksimum istifadə etmək üçün Qafqaz yürüşünü gündəlik planına daxil etdi. Doğrudur, Cənubi Qafqazda mövcud dövlət qurumu olan Zaqafqaziya seymi Osmanlı dövlətinə isti münasıibətdə deyildi. Həm Trabzon, həm də Batum konfranslarında məlum oldu ki, erməni və gürcü nümayəndə heyəti Brest-Litovsk müqaviləsinin şərtlərini yerinə yetirmək fikirində deyil. Erməni və gürcü nümayəndə heyəti müqavilənin şərtlərindən

[288] Kurat A.N. Türkiye və Rusiya. Ankara, 1990, səh.266.

doğan nəticələr ilə barışmaq istəmir və Osmanlı dövlətinə düşmən münasibətdə olduqlarını açıq şəkildə bəyan etdilər. Yalnız Azərbaycan nümayəndə heyəti Osmanlı dövlətinin ona göstərə biləcəyi yardımın nə qədər böyük əhəmiyyət kəsb etdiyini açıq-aydın hiss edir və Osmanlı dövlətinə olan hüsn-rəğbətini gizlətmirdi.

Məlum olduğu kimi, 1918-ci il mayın 26-da Gürcüstan, mayın 28-də isə Azərbaycan və Ermənistan Tiflisdə öz müstəqilliyini elan etdilər. Yeni elan olunan üç dövlətdən Gürcüstanın paytaxtı Tiflis, Ermənistanın paytaxtı İrəvan oldu. Azərbaycanın paytaxtı Bakı Şaumyanın rəhbərlik etdiyi Bakı Xalq Komissarları Soveti tərəfindən işğal edildiyindən Gəncə müvəqqəti paytaxt oldu. Elan olunmuş Azərbaycan Xalq Cümhuriyyətini yaşatmaq və onu real dövlət qurumuna çevirmək milli-demokratik qüvvələrin ən çətin vəzifələrindən biri idi. Elan olunmuş dövlətin çətinlikləri aşağıdakılardan ibarət idi:

Əvvəla, Azərbaycan dövləti özgə bir ərazidə elan olunmuşdu; Azərbaycan Xalq Cümhuriyyətinin öz torpaqlarını qoruya biləcək ordusu yox idi; Azərbaycan xalqına düşmən olan, Azərbaycan torpaqlarını işğal edən və Bakını özünə paytaxt seçən Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin 20 mindən artıq nizamlı silahlı qüvvəsi var idi; Azərbaycandakı mövcud siyasi, iqtisadi və hərbi durum çox mürəkkəb idi; Sovet Rusiyası Bakı neftindən yararlanmaq üçün, nəyin bahasına olursa-olsun, Azərbaycanı əlində saxlamağa cəhd göstərirdi; I dünya müharibəsində bir-birinə qarşı vuruşan İngiltərə və Almaniya Azərbaycanla bağlı müxtəlif planlara malik idilər; Çar Rusiyasından Azərbaycana qalan miras hərbi xidmətdən və silah daşımaqdan məhrum edilən əhalidən və primitiv qaydada mövcud olan dağınıq təsərrüfatdan ibarət idi. Bütün bunları nəzərə alan Azərbaycan Xalq Cümhuriyyəti rəhbərliyi 1918-ci il iyunun 4-də Batumda Osmanlı dövləti ilə sülh müqaviləsi imzaladı. Gürcüstan və Ermənistanla imzalanan müqavilədən fərqli olaraq Azərbaycanla bağlanan müqavilə daha səmimi və Azərbaycan xalqının xeyrinə idi.



Hələ 1917-ci ilin fevralında çarizmin devrilməsindən sonra Rusiyada Müvəqqəti hökumətin dövründə ermənilər və gürcülər öz milli qüvvələrini təşkil edərkən heç bir çətinliklə qarşılaşmadılar. Çünki, çar Rusiyası dövründə rus ordusunun tərkibində kifayət qədər erməni və gürcü əsilli əsgər və zabit var idi. Bunu azərbaycanlılarla bağlı demək mümkün deyildi. Çarizmin milli ayrı seçkilik siyasətinin nəticəsi olaraq azərbaycanlılar hərbi xidmətə cəlb olunmurdular.

1918-ci il aprelin əvvəlində Osmanlı dövlətinin hərbi naziri Ənvər paşa Batumda Azərbaycan nümayəndələri ilə görüşdü. Azərbaycan nümayəndə heyətinin Osmanlı dövlətindən yardım istəməsi ilə Ənvər paşanın Qafqaz siyasəti üst-üstə düşürdü. Ənvər paşanın Qafqazda islam dövləti qurmaq və Osmanlı ilə Sovet Rusiyası arasında bir bufer dövlət yaratmaq arzusu Qafqaz türklərinin, o cümlədən azərbaycanlıların müdafiə olunmasını zəruri edirdi. Azərbaycan Xalq Cümhuriyyətinin elan olunmasından bir az əvvəl 1918-ci il mayın 11-də Şimali Qafqaz Cümhuriyyəti elan edildi. Ənvər paşa Qafqaz maraqlarını təmin etmək məqsədilə Şimali Qafqaz Cümhuriyyətini tanıdı və bu dövlətə hərbi yardım göstərilməsi ilə bağlı göstəriş verdi. Şimali Qafqazın və az sonra Azərbaycan Xalq Cümhuriyyətinin Osmanlı dövləti tərəfindən tanınması Sovet Rusiyasını təsirli dərəcədə qıcıqlandırdı. Sovet Rusiyası yaxşı başa düşürdü ki, Osmanlı nüfuzunun Azərbaycanda və Şimali Qafqazda yayılması bu torpaqların Rusiyanın nəzarətindən çıxması demək idi. Xüsusilə, Sovet Rusiyasının Bakı neftindən məhrum olunması Rusiya iqtisadiyyatına ağır zərbə vurmuş olardı. Ona görə də, Sovet Rusiyasının xarici işlər komissarı G.Çiçerin 1918-ci il mayın 30-da Osmanlı dövlətinə nota göndərərək Qafqaz dövlətlərinin tanınma qərarına öz

etirazını bildirdi.[289] Lakin Osmanlı dövləti qərarından dönmək və Qafqaz yürüşünü təxirə salmaq fikrində deyildi.

Rusiyanın I dünya müharibəsindən yarımçıq çıxması, rus ordusunun bir neçə cəbhədə başıpozuq vəziyyətdə fəaliyyət göstərməsi, ermənilərin Şərqi Anadoluda törətdikləri soyqırımı Azərbaycanda da həyata keçirmələri, azərbaycanlı əhalini Osmanlı dövlətindən yardım istəməyə sövq etdi. Bu məqsədlə 1917-ci ilin oktyabrında Qafqaz türklərindən təşkil olunan nümayəndə heyəti Mosul şəhərində 6-cı ordunun rəhbərliyi ilə görüşdü. Altıncı ordunun rəhbərliyi Qafqazdakı vəziyyəti yerində öyrənmək məqsədilə 3 zabitini həmin nümayəndə heyəti ilə Qafqaza göndərdi. Qafqazdan qayıdan zabitlər Osmanlı qüvvələrinin bu əraziyə əlverişli yürüşü üçün münbüt şəraitin yarandığını təsdiq etdilər.[290] Beləliklə, bolşevik çevrilişinin Rusiyada yaratdığı sarsıntı, Qafqazda rus hakimiyyətinin iflasa uğraması, Azərbaycanın demokratik qüvvələrinin Osmanlıdan yardım istəməsi, burada hərbi hərəkata başlamaq üçün əlverişli şəraitin yaranması Ənvər paşaya müharibənin əvvəlindən bəri gözlədiyi tarixi fürsəti həyata keçirməyə imkan verdi.

1918-ci il fevralın 16-da Ənvər paşa Qafqaz, Dağıstan, Türküstan və Rusiyaya tabe olan müsəlman ölkələrinə ehtiyac hiss etdikləri yardım və köməyi göstərmək məqsədilə qərargahı Tehranda yerləşən bir təşkilatın yaradılması haqqında əmr imzaladı.[291] Əmrdə qeyd olunurdu ki, adı çəkilən bölgələrə dəyanətli və vətənpərvər zabitlərin göndərilməsi məqsədəuyğundur. Əmrə görə podpolkovnik Nuru bəy (Ənvər paşanın ögey qardaşı) Tehran Mərkəzi Heyətinin rəhbəri, podpolkovnik Şövkət bəy Dağıstana, minbaşı Nazim Cavad bəy Əfqanıstana və Xəlil paşanın məsləhət gördüyü digər zabitlər isə Qafqazın digər bölgələrinə və Türküstana göndərilməli idi. Qafqazda türk və islam əhalisinin yaşadığı bölgələrdə təşkilatların yaradılması və bu xalqların nümayəndələrindən ibarət İslam ordusu təşkil etmək üçün podpolkovnik Nuru bəyin təşkil etdiyi nümayəndə heyətinin Azərbaycana göndərilməsi Ənvər paşa tərəfindən məsləhət görüldü. Belə bir orduya Nuru bəyin podpolkovnik rütbəsi ilə rəhbərlik edə biləcəyinə olan şübhələri yox etmək üçün ona fəxri general rütbəsi verildi. Eyni zamanda, Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusunun tərkibinə daxil edilən və Azərbaycana göndərilən zabitlərə də bir üst rütbə verildi.[292]

1918-ci il aprelin 5-də Ənvər paşa Qafqaz İslam Ordusunun təşkili və vəzifələrinə aid təlimatnaməni təsdiq etdi. Bu təlimatnamə Qafqaz İslam Ordusunun qarşısında duran vəzifələri və fəaliyyət istiqamətlərini müəyyənləşdirirdi. Təlimatnaməyə görə, "Qafqaz ordusunun təşkilində məqsəd qafqazlıların təşkil edəcəyi ordunun əsasını vücuda gətirmək və bu əsası tədricən genişləndirmək və qafqazlı əsgərlərə təlim vermək və Qafqazda yüksək islam mənfəətlərini və hüquqi-müqəddəsi-xilafəti və dövləti-Osmaniyyə ilə rəvabiti-siyasiyyə və əsgəriyyəni təsis etmək idi"[293].

Ənvər paşa Qafqaz əməliyyatını Osmanlının müttəfiqi alman dövlətindən və onun qərargahından gizli saxlamağa çalışırdı. Çünki, Almaniyanın Bakı nefti ilə bağlı siyasi planları Osmanlı qüvvələrinin Azərbaycanla bağlı Qafqaz yürüşünün həyata keçirilməsi üçün ciddi əngəllər yaradırdı. Buna görə də, Ənvər paşa Qafqaz yürüşünü Osmanlı ordusunun hərbi əməliyyatı kimi yox, qurulacaq ordunun azərbaycanlılardan təşkil edilməsi kimi təbliğ edirdi. Qurulan orduya Qafqaz

[289] Большевики в борбе за победу социалистической революции в Азербайджане. Документы и материалы. 1917-1918 гг. Баку, 1957, səh.98.

[290] Yuccer N. Birinci dünya savaşında Osmanlı ordusunun Azərbaycan və Dağıstan harekatı. Ankara, 1996, səh.55.

[291] Alen W.E.D. ve Muratof R. 1828-1921. Türk-Kafkaz sınırındakı harpleri tarihi. Ankara, 1966, səh.401.

[292] Yuccer N. Göstərilən əsəri, səh.57.

[293] Türkiyə Silahlı Kuvvetleri Askeri Tarih ve Strateji Etut Başkanlığı arşivi (ATASE). Klassir (k) 1, dosye (D) 1, Fehrest (F) 19.

İslam Ordusu adının verilməsi Almaniyanı şübhələndirməmək üçün seçilmiş bir fənd idi.

Nuru paşa Qafqaz İslam Ordusunun təşkili üçün Mosulda yerləşən 6-cı ordudan 149 zabit və məmur, 488 gizir və əsgər seçdi. Nuru paşa bu heyəti 20-30 nəfərlik qruplara bölərək 1918-ci il aprelin əvvəllərində Azərbaycana yola saldı[294].

Nuru paşa 20 nəfərlik zabit heyəti ilə çətin yol şəraitini dəf edərək mayın 9-da Təbrizə çatdı (Cənubi Azərbaycanın böyük bir hissəsi, o cümlədən Təbriz şəhəri osmanlı qüvvələrinin nəzarəti altında idi-A.İ.). Urmiyə gölü ətrafında erməni silahlı dəstələrindən canını qurtaran yerli əhali türk qoşunlarından kömək istədilər. Osmanlı qoşunları yerli əhaliyə əllərindən gələn köməkliyi etdilər. Hələ Təbrizdə ikən Nuru paşa Bakıya can atan ingilis qoşun hissələri barədə məlumat toplamaq üçün zabit heyətinə xüsusi tapşırıq verdi. Nuru paşadan bu tapşırığı alan İbrahim Kamal bəy Urmiyə gölü ətrafından geri çəkilən ingilislərin vəziyyəti haqqında mümkün məlumatı topladıqdan sonra Gilan məntəqəsinin hakimi Kiçik xanla görüşərək, İslam Ordusu hissələri ilə Kiçik xanın silahlı dəstələrinin birgə fəaliyyətinin nizamlanması imkanlarını müzakirə etdilər[295]. Nuru paşanın zabit heyəti mayın 12-də Savucbulaq-Təbriz- Alacücə yolu ilə hərəkət edərək mayın 20-də Araz çayına çatdı. Nuru paşanın dəstəsi Azərbaycanın Zəngəzur bölgəsinə daxil oldu və ilk gündən yerli əhalinin böyük sevinci və rəğbəti ilə qarşılaşdı. Dəstə Zəngəzura çatdığı vaxt erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı qırğınları amansız bir şəkil almışdı. Bu qırğınların qarşısını almaq və yerli əhalidən müqavimət dəstələri yaratmaq üçün Nuru paşa bir neçə türk zabitini

---

[294] ATASE, K. 1, D.1, F.29-30.
[295] Kurat A.N. Göstərilən əsəri, səh.385.



həmin bölgədə saxladı. Bir neçə türk zabiti isə Naxçıvan və Ordubad bölgələrinə göndərildi[296].

Nuru paşa Cəbrayıl-Ağdam-Tərtər marşurutu ilə Yevlaxa gəldi. Mayın 24-də Yevlaxda Nuru paşanın təntənəli qarşılanma mərasimi oldu. Nuru paşa Qafqaz İslam Ordusunun qərargahının Nuxada yaradılmasını qərara almışdı. Lakin Nuxa ətrafında erməni dəstələrinin fəallığı və oranın əsas nəqliyyat xətlərindən kənarda qalması Nuru paşanı qərargahını Gəncədə təşkil etməyə məcbur etdi. Nuru paşa mayın 25-də Gəncəyə gəldikdən sonra Azərbaycanın müxtəlif bölgələri ilə əlaqə yaratdı və həmin bölgələrdə müqavimət dəstələrinin təşkilinə başladı. Az vaxt ərzində Gəncə, Qazax, Zaqatala, Nuxa, Ağdam, Ağdaş, Cəbrayıl, Qarabağ və Zəngəzurun şərq hissəsini əhatə edən ərazilərdə asayişin təmini üzrə idarə və komandalar təsis edildi. Nuru paşa Azərbaycana gəlməmişdən bir az əvvəl Azərbaycanın müxtəlif bölgələrində ermənilərə qarşı mübarizə aparmaq üçün könüllü silahlı dəstələr təşkil edilmişdir. Bu dəstələrin başında I dünya müharibəsi illərində əsir düşmüş və Azərbaycana gətirilən türk zabitləri dayanırdı. Nuru paşanın Azərbaycana yürüşü ərəfəsində azərbaycanlılardan təşkil olunmuş korpusda şəxsi heyətin sayı həddən ziyada az idi. Korpusda cəmi 1000 nəfərə qədər əsgər və zabit var idi və onların da yarısı keçmiş türk əsirləri idi[297]. Beləliklə, Nuru paşa Azərbaycandakı mövcud vəziyyəti diqqətlə öyrəndikdən sonra Osmanlıdan əlavə qüvvə gəlmədən Bakı üzərinə yürüşün heç bir nəticə verməyəcəyinə əmin oldu. Bununla bağlı Nuru paşa Ənvər paşaya müraciət edərək Azərbaycanda mövcud olan qüvvələrlə Qafqaz İslam Ordusunun komandanlığı qarşısında qoyulan vəzifələrin həllinin qeyri-mümkün olduğunu onun nəzərinə çatdırdı.

Nuru paşa Azərbaycanda siyasi vəziyyətin nə qədər ağır olduğunu Gəncəyə gəldikdən sonra daha müfəssəl anlamışdı.

---

[296] Yuccer N. Göstərilən əsəri, səh.57.
[297] Rüştü E. Büyük harpda Bakü yollarında. Ankara, 1934, səh.89.

Azərbaycan xalqı bolşevik, rus və erməni təcavüzünə qarşı müdafiəsiz bir vəziyyətdə idi. Azərbaycan milli korpusunun adı nə qədər böyük səslənsə də, əslində, nizami ordu deyilən qoşun dəstəsi hələ yaradılmamışdı. Digər tərəfdən, osmanlıdan köməyə gələn türk zabitlərinin köməyi ilə yerli xalqdan təşkil ediləcək qüvvələrlə Azərbaycanın daşnak-bolşevik zülmündən xilas edilməsi mümkün deyildi. Bütün bunları diqqətlə öyrənən Ənvər paşa Şərq orduları qrupunda yerləşən Beşinci Qafqaz diviziyasının Qafqaz İslam Ordusunun tərkibinə daxil edilməsi əmrini verdi. Beşinci Qafqaz diviziyasının tərkibində 257 zabit, 5575 süvari var idi[298]. Artıq Nuru paşanın tabeliyində iş görə biləcək nizamlı bir qüvvə mövcud idi. Ancaq Nuru paşa onu da dərk edirdi ki, Azərbaycanda mövcud olan daşnak-bolşevik qüvvələri ilə müqayisədə Azərbaycana göndərilən Osmanlı qüvvələri kifayət etmir. Buna görə də, 1918-ci ilin iyunun 20-də Ənvər paşaya göndərdiyi növbəti məktubunda əlavə olaraq 20 min tüfəng, hərbi sursat, bundan başqa nizamlı qüvvə və süvari qoşun təşkil etmək üçün zabit kadrlarına ehtiyacı olduğunu bildirdi[299]. Bütün bunları nəzərə alan Ənvər paşa Qafqaz hərəkatının tam uğurlu alınmasını təmin etmək məqsədilə 15-ci piyada diviziyasını da Qafqaz İslam Ordusunun sərəncamına göndərdi. On beşinci piyada diviziyasında 157 zabit və 7636 sıravi var idi. On beşinci piyada diviziyasına podpolkovnik Süleyman İzzət bəy komandanlıq edirdi[300]. Həm 5-ci Qafqaz diviziyası, həm də 15-ci piyada diviziyası I dünya müharibəsi illərində özünü doğrultmuş və Osmanlı ordusunun ən şərəfli və döyüşkən ordusu adına layiq görülmüşdür. Düşmən qüvvələrinin say çoxluğunu bir daha önə çəkən Nuru paşa Ənvər paşanı inandırdıqdan sonra 36-cı diviziyanın 106 və 107-ci alayları da Bakı cəbhəsinə göndərildi. Müqayisə üçün onu qeyd etmək lazımdır ki, 1918-

[298] Rüştü E. Göstərilən əsəri. səh.92.
[299]Sünbül T. Azərbaycan dosyası. Ankara, 1980, səh.141.
[300] Yenə orada, səh.146.



ci ilin iyunun axırlarında Şaumyanın rəhbərlik etdiyi Bakı Soveti qüvvələrinin sayı 20 min nəfərdən çox idi.[301]

Türk qoşun hissələri Azərbaycana gəldiyi gündən qaynar döyüş şəraitinə düşdülər. Bolşevik-daşnak qüvvələri həm Şamaxı yolu ilə, həm də dəmir yolu xətti ilə Qərbə doğru irəliləməkdə idi. Bakı Soveti qurumunun rəhbəri Şaumyan Gəncədə fəaliyyətə başlayan Azərbaycan Xalq Cümhuriyyəti hökumətini məhv etmək üçün bütün gücü ilə hücuma keçmişdi. Ona görə də, Qafqaz İslam Ordusu komandanlığı Bakı Soveti qüvvələrinə qarşı mübarizənin başlanmasına qərar verdi. Nuru paşa başa düşürdü ki, onun birinci vəzifəsi Gəncə ətrafında mövcud olan təhlükəni aradan qaldırmaq, buradakı erməniləri tərksilah etmək və azərbaycanlı əhalinin təhlükəsizliyini təmin etməkdən ibarətdir. Həmin vaxt Gəncədə 20 mindən artıq erməni yaşayırdı. Şübhəsiz şəhərin şərq hissəsində yerləşən ermənilər türk qoşunlarının Azərbaycana gəlməsi və Gəncədə qərargah yaratmaqları ilə razılaşa bilmirdilər. Onlar Bakı Soveti qüvvələrinin Gəncəyə doğru sürətlə hərəkətinin intizarında idilər. Gəncənin şərq hissəsində yaşayan ermənilər 600 nəfərlik bir silahlı dəstəyə malik idilər. Həmin silahlı dəstənin ixtiyarında hər cür atıcı silahlar, o cümlədən pulemyotlar və müxtəlif növ hərbi sursatlar var idi. Nuru paşanın əmrilə iyunun 10-da Gəncə ermənilərinin tərksilah edilməsinə başlandı. İyunun 11-də Nuru paşa tərəfindən yaradılan Gəncə dəstəsi erməni məhəlləsini mühasirəyə aldı. Türk süvari alayının əsgər və zabitləri döyüşqabağı mövqe tutaraq 4 erməni müşahidəçisini və keşikçisini əsir götürdülər. İki türk zabiti erməni məhəlləsinə gedərək onlara tərksilah olunmağın zəruriliyini anlatdı. Ermənilər heç bir təklifi qəbul etmədilər və zabitləri atəşə tutdular. Sonra da bütün gücü ilə hücuma keçərək türk qüvvələrini mühasirəyə almağa cəhd göstərdilər. Baş verən ağır döyüşün gedişində Gəncə

[301]Кадишев А.Б. Интервенция и гражданская война в Закавказье. М.,1960, səh.189.

dəstəsindən 13 nəfər öldürüldü, 7 nəfər isə yaralandı. Gəncə dəstəsinin bölmələri bir qədər geri çəkilsə də, etibarlı mövqe tutaraq erməni hücumunun qarşısını aldı. Türk ordusu rəhbərliyi Yelenendorfdan olan bir alman vasitəsilə ermənilərə xəbər göndərdi ki, əgər atəşi dayandırıb təslim olmasalar, erməni məhəlləsi toplardan bombardman ediləcəkdir. Bu xəbərdarlıqdan sonra saat 11 radələrində bir keşiş, bir erməni zabiti və bir komissar əllərində ağ bayraq Gəncə dəstəsinin qərərgahına gəldilər. Danışıqlardan sonra ermənilər tərksilah olmağa razılıq verdilər. Lakin ermənilər bu vədlərinə də əməl etmədilər. Axşam düşdüyü üçün əməliyyatın iyunun 12-də davam etdirilməsi qərara alındı. İyunun 12-də türklər tərəfindən atılan top atəşləri erməniləri təslim olmağa məcbur etdi. Türk qoşun hissələri 3 gün ərzində erməni məhəlləsini mühasirədə saxlayaraq tərksilahı başa çatdırdılar.[302] Beləliklə, Gəncə şəhərində Qafqaz İslam Ordusu üçün mövcud olan təhlükə aradan qaldırıldı.

Azərbaycan Xalq Cümhuriyyətinin dəvəti ilə türk qoşun hissələrinin Gəncəyə gəlməsi, Nuru paşanın komandanlığı altında Qafqaz İslam Ordusunun təşkil edilməsi, Azərbaycanın milli qoşun hissələrinin yenidən qurulmasına başlanması Şaumyan başda olmaqla Bakı Xalq Komissarları Sovetinin rəhbərliyini ciddi təşvişə salmışdı. Gəncədə fəaliyyətə başlayan və Qafqaz İslam Ordusu tərəfindən müdafiə olunan Milli Azərbaycan hökumətinin fəaliyyətinə birdəfəlik son qoymaq üçün 1918-ci il iyunun 6-da Bakı Soveti qüvvələri hərbi və dəniz işləri üzrə komissar Q.Korqanovun 8 saylı əmri ilə Gəncə istiqamətində hücuma başladı. Qırmızı ordunun tərkibindəki əsgərlərin 70 faizini, zabitlərin isə hamısını ermənilər təşkil edirdi. Gəncə istiqamətində hücuma keçən ordunun dörd komissarından üçü erməni idi.[303] Gəncəyə doğru

[302] Keykurun N. Azərbaycan İstiklal mücadelesi hatiraları. İstanbul, 1964, səh.59.
[303] Kazımzadə F. Göstərilən əsəri, səh.131.



hərəkətə başlamazdan əvvəl iyunun 6-da Korqanov əsgər və zabitlərə müraciətində deyirdi: "Siz Zaqafqaziyada fəhlə-kəndli inqilabının taleyini həll etməlisiniz. Əgər türk generalları qoşunları ilə Bakıya daxil olsa, sovet hakimiyyətini məhv edəcəklər. Ona görə də, siz neft sənayesi mərkəzi Bakını sovet respublikası üçün qorumalısınız. Sizə Şimali Qafqazdan və Rusiyadan mümkün olan lazımi kömək gəlir və gələcəkdir"[304]. Bakı Soveti qüvvələri heç bir çətinlik çəkmədən Gəncə istiqamətində yürüşlərini davam etdirirdilər. Bakı Soveti qüvvələri hərbi əməliyyatların aparıldığı ərazilərdə müsəlman əhalisinə qarşı həyata keçirilən qırğınları yenidən alovlandırmağa başladılar. Həmin əməliyyatlarda iştirak etmiş Suren Şaumyan sonralar müsəlman əhalisinə qarşı həyata keçirilən qırğınları etiraf edirdi.

İyunun 16-da düşmən qüvvələri Qaraməryəm ətrafında islam ordusu qüvvələri ilə üz-üzə gəldi. Səhər saat 9-da başlanan döyüşdə düşmən qüvvələri azərbaycanlı, gürcü və dağıstanlılardan ibarət dəstənin üzərinə hücuma keçdi. Yeddi saat davam edən döyüşdə milli qüvvələr düşmənin Qaraməryəmə can atan hissələrinin qarşısını almağa səy göstərsələr də, buna nail ola bilmədilər. Böyük strateji əhəmiyyətə malik olan Qaraməryəm kəndi bolşevik-daşnak qüvvələri tərəfindən işğal edildi. İyunun 18-də Q.Korqanov Bakı Xalq Komissarları Sovetinə məlumatında cəbhədə vəziyyətin bolşeviklərin xeyrinə olduğunu, türklərin böyük itki verdiyini yazırdı: "Bizim itkimiz 5 nəfər ölən, 49 nəfər yaralıdan ibarətdir. Türklər 400 nəfərə qədər itki verdi". Əlbəttə, Q.Korqanovun türklərin itkiləri ilə bağlı məlumatı təbliğat xarakteri daşıyırdı.

Bakı Soveti qüvvələri Azərbaycan kəndlərinə daxil olaraq əhalidən bütün silahları toplayır, ərzaqlarını müsadirə edir, qoşqu heyvanlarını isə əllərindən alırdılar. Müqavimət göstərən əliyalın əhali yerindəcə güllələnirdi. Eyni zamanda,

[304] Шаумян Сур. Бакинская Коммуна. Б., 1927, səh.54.

işğal altına alınan kəndlərin əhalisini türk qoşunları əleyhinə qaldırmaq üçün onların arasında xüsusi təbliğat dəstəsi fəaliyyət göstərirdi. Bolşeviklər Qırmızı ordunun canlı qüvvələrinin sayını artırmaq üçün 1893-1897-ci illərdə anadan olan qeyri-müsəlmanların çağırışını elan etdilər.

Qaraməryəm ətrafındakı döyüşün nəticələri Qafqaz İslam Ordusu komandanlığında ciddi təhlil olundu. Vəziyyətlə daha yaxından tanış olmaq, qüvvələri yenidən qruplaşdırmaq, mövcud imkanları bütünlüklə səfərbər etmək üçün Qafqaz İslam Ordusu komandanı Nuru paşa, Müsəlman korpusu komandanı Əliağa Şıxlinski, 5-ci Qafqaz diviziyasının qərargah rəisi Rüşdü bəy cəbhə xəttinə yola düşdülər. Göyçaya gələn Nuru paşa, təkcə hərbçilərlə deyil, yerli əhalinin nümayəndələri ilə də görüşdü, onları türk-Azərbaycan qoşun hissələrinə hərtərəfli yardım göstərməyə çağırdı.

Cəbhədəki vəziyyətlə hərtərəfli tanışlıqdan sonra Nuru paşa şübhə etmirdi ki, ilk uğursuzluğa baxmayaraq türk-Azərbaycan qoşunları mövcud imkanları tam səfərbərliyə almaqla hərbi təşəbbüsü ələ keçirə bilərlər. Ona görə də, Nuru paşa Göyçaya əlavə köməyin göndərilməsinin zəruriliyini istisna etmədən həlledici döyüşə hazırlaşmaq üçün əmr verdi. İyunun 27-nə qədər cəbhə xəttində hazırlıq işləri aparıldı. Qafqaz İslam Ordusu hissələrinin döyüşə hazırlıq üçün həyata keçirdiyi tədbirlər iyunun 26-da bolşevik-daşnak qüvvələrinin kəşfiyyatçılarına məlum oldu. Qırmızı ordu komandanlığında bu məlumat alınan kimi dərhal hücuma keçmək, türk-Azərbaycan qoşun hissələrinin hücumunu qabaqlamaq və bununla da hərbi təşəbbüsü ələ almaq qərara alındı. Bakı Soveti qoşunları iyunun 27-də hücuma başladı. Bakı Soveti qüvvələri ilk dəfə olaraq başladıqları hücumu uğurla başa çatdıra bilmədilər. Düşmən yerində saymağa başladı. İyunun 27-də qəfildən başlanmış bu döyüşün Qafqaz İslam Ordusu üçün böyük hərbi-psixoloji əhəmiyyəti var idi. Döyüşün nəticələri göstərdi ki, bolşevik-daşnak qüvvələri heç də məğlubedilməz bir qüvvə deyil və düzgün qurulmuş döyüşlə



onların bütün niyyətlərini alt-üst etmək olar. İyunun 29-da isə səhər tezdən Qafqaz İslam Ordusu hissələrinin böyük uğurla nəticələnən hücumu başlandı. Qafqaz İslam Ordusu komandanlığının göstərdiyi operativlik və çeviklik, Göyçayın müdaifəsi üçün zəruri olan qüvvələrin vaxtında bura gətirilməsi, türk-Azərbaycan qoşunlarının mübarizliyi daşnak A.Əmirovun rəhbərliyi altında olan bolşevik qüvvələrinin bütün cəhdlərini nəticəsiz qoydu. Göyçay ətrafında məğlub olan Bakı Soveti qüvvələri geri çəkilərək şəhərdən 5-6 kilometrlik bir məsafədə qərar tutdular. İyulun 1-də düşmən əks hücumun heç bir nəticə verməyəcəini yəqin etdikdən sonra müdafiəyə çəkilməyə başladı.[305]

Beləliklə, Göycay və Qaraməryəm ətrafında iyunun ortalarından başlamış və iyulun əvvəlinə qədər davam edən döyüşlər Qafqaz İslam Ordusunun qələbəsi ilə başa çatdı. Daşnak-bolşevik qüvvələri Ağsuya tərəf sıxışdırıldı. Bolşevik qüvvələri bu döyüşlərdən sonra bir daha hərbi təşəbbüsü ələ ala bilmədilər. Döyüşlərə uğursuzluqla başlayan Qafqaz İslam Ordusu hissələri və əməliyyatlara qoşulan Azərbaycan könüllüləri Göycay ətrafındakı döyüşdən sonra müdafiəni hücumla əvəz etdilər.

Göyçay ətrafında döyüşlər davam etdiyi vaxt Kür çayı boyunca, Salyan yaxınlığında da bolşevik-daşnak qüvvələri ilə türk-Azərbaycan qoşunları arasında həyacanlı anlar yaşanırdı. Hər iki tərəf bu bölgəni öz nəzarəti altında saxlamağa böyük əhəmiyyət verirdi. Bu istək Muğanın bol taxıl ehtiyatlarından bəhrələnməkdən irəli gəlirdi. Bakı bolşevikləri, habelə bolşevik-daşnak qoşunlarının rəhbərləri Gəncəyə doğru başladıqları hücumda Yevlaxa çatıb Kür çayı üzərində körpünü ələ keçirə bilmədiklərinə görə başqa vasitələrə əl atdılar. Onlar ixtiyarında olan gəmiləri Xəzər dənizindən Kür çayına çıxararaq bu yolla Yevlaxa xüsusi dəstələr çıxarmaq və onların vasitəsi ilə

[305] Erdaş Nilgün. Milli mücadile döneminde Kafkas Cümhuriyyetleri ilə ilişkiler (1917-1921). Ankara, 1994, səh.39.

Yevlax körpüsünü partlatmaq istəyirdilər. Salyan ətrafında Bakı Soveti qüvvələri ilə türk-Azərərbaycan qüvvələri arasında döyüşlər iyunun 16-dan–iyulun 2-nə qədər davam etdi. Salyan istiqamətindəki döyüşlərdə sovet qoşunlarının tərkibində 2 mindən çox piyada, 12 pulemyot, 6 ədəd top, Kür çayında üzən 2 hərbi gəmi və bir nəqliyyat gəmisi var idi. İyulun 2-də daşnak-bolşevik birləşmələrinin əsgər və silah baxımından üstünlüklərinə baxmayaraq, türk-Azərbaycan qoşun birləşmələri onları geri çəkilməyə məcbur etdilər.[306]

Qafqaz İslam Ordusunun əldə etdiyi uğurlar və onun Bakıya doğru irəliləməsi, təkcə Şaumyanın rəhbərlik etdiyi Bakı Komissarlarını deyil, bölgədə marağı olan Sovet Rusiyasını, İngiltərəni, Almaniyanı da ciddi narahat edirdi. Sovet Rusiyası Bakı Sovetinə hərtərəfli maliyyə və hərbi yardım göstərməklə Bakıda Sovet hakimiyyətini və Bakı neftini qoruyub saxlamağa çalışırdı. İngiltərə də İranda olan qoşun hissələri vasitəsilə Bakıya müdaxilə etmək və çıxarılan neftə ortaq olmaq istəyirdi. Almanlar da bu mübarizədə heç kimdən geri qalmaq istəmirdilər. Onların birbaşa Azərbaycana müdaxilə etmək niyyəti Osmanlı dövlətinin müqaviməti ilə rastlaşırdı. Almaniya həm Osmanlıya, həm də Sovet Rusiyasına təzyiq göstərməklə Bakı neftindən pay almaq istəyirdi. Almanlar hər vasitə ilə Qafqaz İslam Ordusunun Bakıya doğru hərəkətini dayandırmağa cəhd göstərirdi. Əks təqdirdə onlar türk ordusunda çalışan alman zabitlərini geri cağıracaqları ilə hədələyirdilər. Almaniya Osmanlı dövlətinə diplomatik təzyiqini gücləndirdi. Bu təzyiq almanların Qafqaz İslam Ordusunun tərkibinə bir alman hissəsinin daxil edilməsi təklifinə rədd cavabı verildikdən sonra daha da artdı. Osmanlıya qarşı onun müttəfiqi Almaniya tərəfindən təzyiqlər elə bir xarakter aldı ki, Ənvər paşa Qafqaz İslam Ordusunun Bakıya doğru hərəkətini açıq şəkildə müdafiə edə bilmirdi. Ənvər paşa türk ordusunda yüksək vəzifə tutan alman zabitlərinin diqqətini Bakının

[306] Yüccer N.Göstərilən əsəri, səh.95.



azad edilməsi əməliyyatından yayındırmaq üçün 1918-ci il avqustun 4-də 3-cü ordunun komandanına göndərdiyi məktubunda yazırdı: "Nuru paşaya çatdırmaq lazımdır ki, bizim tərəfimizdən Bakıya heç bir hücum olmayacaqdır"[307]. Əslində isə, Qafqaz yürüşünün ideoloqu və təşkilatçısı olan Ənvər paşa belə bir mövqedən uzaq idi və Qafqaz İslam Ordusunun Bakı yürüşü ilə bağlı zəruri göstərişlərini gizli yolla Nuru paşaya çatdıraraq tələb edirdi ki, rəsmi məktublara fikir verməsin və Bakının azad olunmasını tezliklə başa çatdırsın. Almaniyanın bu təzyiqləri nə qədər güclü olsa da, Qafqaz İslam Ordusunun Bakıya doğru hərəkətini saxlamaq iqtidarında deyildi.[308]

İyulun 5-də türk-Azərbaycan qoşun birləşmələri Ağsu istiqamətində yürüşə başladılar. Günortadan sonra başlayan hücum axşam qaranlıq düşənə qədər davam etdi. Havanın həddən çox isti olması, içməli su ilə bağlı problemlər, malyariya, dizenteriya və vəba kimi dəhşətli xəstəliklər qələbənin tezləşməsinə mane olurdu. Nəhayət, iyulun 6-da yenidən hücuma keçən türk-Azərbaycan birləşmələri daşnak-bolşevik qüvvələrini məğlub edərək Ağsunu azad etdilər. Ağsudan geri çəkilən Bakı Soveti qüvvələrinin bir hissəsi Kürdəmirdə sığınacaq tapdı.[309]

1918-ci il iyulun 7-si və 8-də turk-Azərbaycan qoşun birləşmələri Kürdəmir istiqamətində çətin döyüşlərə başladılar. Bolşeviklərin zirehli qatar və zirehli avtomobillərə malik olması, silah-sursat baxımından üstünlükləri Milli qüvvələri qorxutmadı. Nəhayət, iyulun 10-da axşama doğru Kürdəmir daşnak qüvvələrindən azad edildi və Şərq istiqamətində geri çəkilən bolşevik qüvvələrinin təqibinə başlanıldı.

Şamaxının azad edilməsi Qafqaz İslam Ordusunun əldə etdiyi ən əhəmiyyətli uğurlarından biri idi. Mürəkkəb bir coğrafi şəraitdə yerləşən Şamaxının azad edilməsi həm qoşunlar-

[307] Halil Paşa. Bitmeyen savaş. İstanbul, 1972, səh.198.
[308] Yenə orada, səh.201.
[309] Yüccer N. Göstərilən əsəri, səh.96.

dan böyük şücaət tələb edir, həm də yerli əhalidən erməni xofunu birdəfəlik silib atmalı idi. Şamaxı, eyni zamanda, Bakıya doğru hücum üçün başlıca strateji baza hesab olunurdu. Ona görə də Qafqaz İslam Ordusu komandanlığı Şamaxı üzərinə kifayət qədər hazırlıq görülməsini və bu hücumun qısa bir vaxt ərzində başa çatdırılmasını lazım bilirdi. 1918-ci ilin iyulun 19-da Mürsəl paşa Şərq Cəbhəsi komandanı kimi Şamaxı üzərinə hücum əmrini imzaladı. Döyüş əmrini alan türk-Azərbaycan qüvvələrini şiddətli yağış müşaiyət edirdi. Güclü yağışlar və palçıqlı yollar döyüş texnikasının dağ şəraitində irəliləməsini xeyli çətinləşdirdi. Bütün bunlara baxmayaraq, Şamaxı üzərində hücumu həyata keçirən 10-cu və 13-cü alayların şəxsi heyəti böyük fiziki dözüm və fədakarlıq nümayiş etdirərək düşmənə ağır zərbələr endirdilər. Artıq günün ikinci yarısında bolşevik-daşnak qüvvələri kütləvi şəkildə Şamaxıya tərəf geri çəkilməyə başladılar[310]. İyulun 20-si döyüşlər davam etdirildi. Gün ərzində gedən döyüşlərdə Şamaxı düşmən qüvvələrindən azad edilərək türk-Azərbaycan birləşmələrinin əlinə keçdi. Bakı bolşeviklərinin liderlərindən olan və Şamaxı istiqamətindəki 3-cü briqadanın komissarı A.Mikoyan Şamaxının lazımi şəkildə müdafiə olunmamasında 3-cü ordunun komandiri Hamazaspı günahlandırırdı. Bakı Soveti rəhbərliyinin Leninə və Stalinə göndərmiş olduğu təcili teleqramlar və onlara köməyə göndərilən qüvvələr də erməni-daşnak qüvvələrindən azad edilən Şamaxının taleyində heç bir dəyişiklik yarada bilmədi.[311]

Qırmızı ordu hissələrindəki böhran Şaumyanın rəhbərlik etdiyi Bakı Soveti qurumunu dağılma həddinə çatdırdı. Yaxınlaşan süqutdan xilas olmaq üçün əsas ümid isə Sovet Rusiyasından gələn köməyə bağlanırdı. V.Leninin göstərişi ilə Petrovun komandanlığı altında 780 nəfərlik yaxşı silahlanmış Sovet qoşun dəstəsi Ukrayna cəbhəsindən Bakıya göndərildi.

[310] Rüştü E. Göstərilən əsəri, səh.149.
[311] Шаумян Сур. Göstərilən əsəri. səh.69.



İyulun 19-da öz dəstəsi ilə Bakıya gələn Petrov Bakı rayonunun hərbi komissarı təyin edildi. Şaumyan yaxşı başa düşürdü ki, təkcə Petrovun dəstəsi ilə Qafqaz İslam Ordusunun Bakı üzərinə başlanan yürüşünün qarşısını almaq mümkün deyildir. Bu məqsədlə Bakı Soveti qurumu Bakı əhalisinə müraciətlər edir, qeyri-azərbaycanlı əhalidə millətçi-şovinist hissləri qıcıqlandırmaqla bolşevik-daşnak cəbhəsinə əlavə qüvvələrin cəlb olunmasına cəhdlər göstərirdi.[312]

Qafqaz İslam Ordusu hissələri Bakıya yaxınlaşdıqca Bakı komissarlarının ətrafına toplaşmış siyasi qüvvələr arasında parçalanma güclənirdi. Azərbaycan xalqı ilə heç bir əlaqəsi olmayan bu qurum Bakının azad ediləcəyi təqdirdə törətdikləri faciələrə, qanunsuzluqlara görə cavab verməli olacaqlarını dərk edərək vəziyyətdən çıxış yolu axtarır və bunu ingilis qoşunlarının Bakıya gətirilməsində görürdülər. Bakı Sovetinin təmsilçiləri olan eserlər və daşnaklar güman edirdilər ki, ingilislər Bakıya gəlməklə həm Qafqaz İslam Ordusunun qarşısını alacaq, həm də onların Bakıda mövqelərini möhkəmlədəcəkdir. İyulun 25-də Bakı Sovetinin fövqəladə iclasında bolşeviklər ağır məğlubiyyətə məruz qaldılar. İclasda bolşeviklərin bütün səylərinə baxmayaraq, sağ eserlər, daşnaklar və menşeviklər ingilis qoşunlarının Bakıya dəvət olunması lehinə səs verdilər.[313]

Qafqaz İslam Ordusu qüvvələrinin Bakı ətrafında ciddi müqavimətə rast gəlməməsi və milli qüvvələrin Bakıya sürətlə yaxınlaşması şəhərin tezliklə süqut edəcəyinə bir inam yaratmışdı. Döyüşlərdə yersiz itkilərə yol verməmək üçün iyulun 31-də Qafqaz İslam Ordusu adından Bakıya nümayəndə heyəti göndərildi. Nümayəndə heyəti şəhər təslim ediləcəyi təqdirdə ermənilərin istədikləri yerə çıxıb getmələri üçün şərait yaradacaqlarına təminat verirdi. Ənvər paşa

[312]Токаржевский Е.А. Из истории иностранной интервенций и гражданской войны в Азербайджане. Б., 1957, səh.190-191.
[313] Yenə orada, səh.198.

ermənilərlə danışıqlara göndərilən nümayəndə heyətinin tərkibi və məktuba verilən cavab ilə şəxsən maraqlanırdı. Ənvər paşadan alınan teleqramda deyilirdi ki, ermənilər dincliklə Bakını təhvil versələr, onların Ermənistana köçməsi üçün hər cür şərait yaradılacaqdır. Ancaq Bakıdakı ermənilər və onların ətrafında toplaşanlar bütün ümidlərini ingilis qoşunlarının Bakıya gəlişinə bağlayır və vəziyyətin onların xeyrinə tamamilə dəyişəcəyinə əmin idilər.[314]

İyulun 30-dan 31-nə keçən gecə bolşeviklər öz hakimiyyətini qoruyub saxlamaq üçün sonuncu dəfə cəhd göstərdilər. Bakı Soveti rəhbərliyi və Daşnaksutyun partiyasının liderləri belə razılığa gəldilər ki, bütün silahlı dəstələrini cəbhəyə yola salsınlar. Lakin nəzərdə tutulan 1300 silahlının əvəzinə, 320 nəfər əsgər və zabit cəbhəyə yola salındı. Qafqaz İslam Ordusu hissələrinin güclü hücumlarına davam gətirə bilməyən və məğlubiyyətlə barışmalı olan S.Şaumyan hakimiyyətdən əl çəkdiyini elan etdi. Avqustun 1-də yeni hökumət–"Sentrokaspi" diktaturasının yaradıldığı elan edildi. Bu hökumətin eser, menşevik və ermənilər tərəfindən təşkil edildiyi bildirilsə də, əsas hakimiyyət "Daşnaksütyun" partiyasının əlində idi.[315]

Avqustun ilk günlərində Qafqaz İslam Ordusu qüvvələrinin Bakı üzərinə yürüşü davam etdirildi. Avqustun 3-də Xırdalanla Biləcəri arasında Qafqaz İslam Ordusu qüvvələri ilə "Sentrokaspi" qoşunları arasında döyüşlər yenidən başladı. Bu döyüşlər milli qüvvələrin qələbəsi ilə başa çatdı. Avqustun 3-də Şərq Cəbhəsi komandanı Mürsəl paşa yenidən şəhərdəki qüvvələrə məktub göndərdi. Məktub rus və türk dillərində yazılaraq Bakıdakı Erməni Milli Şurasının sədrinə və "Sentrokaspi" ordusunun komandanına ünvanlanmışdı. Məktubda deyilirdi: "Cənab Erməni Milli Şurasının sədri, sizə aydındır ki, Bakı ətrafında türk qoşunu dayanır. Əgər siz şəhəri

[314]Денстервиль Л. Британский империализм в Баку и Персии в 1917-1918 г. Тифлис, 1925, səh.89.
[315] Yenə orada, səh.114.



döyüşsüz təslim etməyə razı olsanız, milliyyətindən və dinindən asılı olmayaraq hamının hüquqlarının qorunmasına zəmanət verirəm. Əgər şəhər təslim edilməsə, şəhər alınandan sonra axıdılan qan və dəyən ziyanın məsuliyyəti sizin üzərinizdə qalacaqdır".[316] Lakin Erməni Milli Şurasının və Daşnaksütyun partiyasının liderləri məktuba cavab verməyərək Qafqaz İslam Ordusu qoşunlarına qarşı müqaviməti davam etdirməyə qərar verdilər.

Avqustun 4-də polkovnik Stoksun rəhbərliyi altında Ənzəlidəki ingilis qoşunlarının kiçik bir dəstəsi Bakıya gəldi. Alınan hərbi yardım "Sentrokaspi" diktaturasının liderlərində ümidverici bir əhval ruhiyyə yaratdı. Heç şübhəsiz ki, ingilislərin "Sentrokaspi" qüvvələrinə köməyə gəlməsi daşnak ordusunun fəaliyyətində bir canlanma yaratdı. "Sentrokaspi" rəhbərliyi Bakıda təbliğat apararaq hamını inandırmağa çalışırdı ki, guya qısa bir vaxtda ingilislər türk ordusuna qarşı 30 minlik ordu göndərəcəklər. Bu təbliğat qismən də olsa öz nəticəsini verdi.

Bakı üzərinə qətiyyətli hücum avqustun 5-nə təyin edildi. Səhər saatlarında başlayan döyüşlərdə Qafqaz İslam Ordusu hissələri hərbi təşəbbüsü ələ aldılar. Onların üstünlüyü bütün cəbhə boyu hiss edilməkdə idi. İlk zərbədən sonra "Sentrokaspi" qoşunları geri çəkilməyə başladı. Bayıl ətrafındakı yüksəkliklər, Qurd qapısı təpələkləri boyunca uzanan müdafiə xətti Qafqaz İslam Ordusu qüvvələrinin əlinə keçdi. Lakin düşmənin müdafiə xəttinin ləğv edilməsinə və ikinci müdafiə xəttinə yaxınlaşmasına baxmayaraq, kifayət qədər top mərmisinin tədarük edilməməsi artilleriya hücumlarının dayandırılmasına səbəb oldu. Artilleriya hücumundan məhrum olan piyadalar müdafiəyə keçməyə məcbur oldular. Düşmən Qafqaz İslam Ordusu hissələrini 4 kilometr geri çəkilməyə məcbur etdi. Avqustun 5-nə qədər davam edən qanlı vuruşmalarda düşmən tərəf 2 min itki vermiş, Qafqaz İslam

[316] Halil Paşa. Göstərilən əsəri, səh.213.

Ordusundan isə 139 əsgər, 9 zabit şəhid olmuş, 463 nəfər isə yaralanmışdı.[317]

Qafqaz İslam Ordusunun Bakı üzərinə hazırladığı hücumun boşa çıxması düşmən cəbhəsində ruh yüksəkliyi yaratdı. Erməni və rus birləşmələri ingilis generalı Denstervillin qüvvələri ilə möhkəmlənəndən sonra avqustun 6-da Bakıda əli silah tutan 16-65 yaş arasında olan kişilər məcburi surətdə orduya çağırıldı. Bu tədbirə qarşı çıxan müsəlmanlardan 600 nəfər edam olundu.[318]

Bakı üzərinə hücumun uğurla başa çatdırılması üçün bura, təkcə yeni qüvvələr gətirmək deyil, həm də mövcud qüvvələrin mənəvi–psixoloji durumunu bərpa etmək, onlara qələbə inamını qaytarmaq lazım idi. Beş avqust uğursuzluğundan bir neçə gün sonra Qafqaz İslam Ordusu döyüşçüləri arasında yayılmış bir müraciətnamənin məzmunu da bu məqsədə xidmət edirdi. Türk əsgərinə ünvanlanmış həmin müraciətnamədə deyilirdi: "Türk ordusuna! Əgər siz bu sərvət və altun şəhərini zəbt etməsəniz, sevgili vətənimizə ən qimətli bir hədiyyə etmək fürsətini qaçırmış olacaqsınız. Əgər siz yaşıl dənizin bu məşhur şəhərini zəbt etməsəniz, Qafqaz türkləri və Türküstan müsəlmanlarının qəlbinə saplanmış olacaq zəhri-xəncərin üzərinə: "Eyvah ki, türk bizə imdada gəlmədi" cümləsi yazılmış olacaqdır. Qafqaz fəryad edəcək, Türküstan ağlayacaqdır… Ey türk əsgəri! Əgər sən bu şəhəri almasan, Bakıda sənin üçün hazırlanan süfrələr müsafirsiz qalacaq, sənin üçün tikilən əlbəsəni düşmən geyəcəkdir. Sənin ayağına kəsiləcək qurbanlar düşmənə qalacaqdır. Əgər sən bu şəhəri almasan, İslam gəlinlərinin duvaqlarını kafirlər yırtacaq, mübarək islam qanı qırmızı şərab kimi axacaqdır. Sənin zəfərin üçün duaya qalxan əlləri zalımlar kəsəcəkdir. Əgər sən bu sarı işıqlı altun şəhəri almasan, qadınlar saçlarını yolacaq,

[317] Yuceer N. Göstərilən əsəri, səh.120.
[318] Saray M. Azerbaycan türkleri tarihi. İstanbul, 1993, səh.122-123.



ağıllarını itirəcəklər. İndiyə qədər axan qanlar boş yerə axmış olacaq.

Fəqət sən, ey türk əsgəri, ingilislərin gücünü kəndi zorunla Çanaqqalada qırdın. Ən böyük hərb gəmilərinin böyük güllələrinə aylarca doğuş gərdin, Kutulamaredə 14 minini əsir aldın. Türk adını böyüdən Çanaqqala  Kutulamare, Qalisiya, Rumıniyadan sonra Qafqaz gələcək və Bakı şəhəri də igidlik tacının bir almazı olacaqdır. Al Bakını! Vətəninə bir altun ərmağan apar!".[319]

Azərbaycan xalqı Bakının azad edilməsini və bu şəhərin müstəqil Azərbaycan dövlətinin paytaxtına çevrilməsini səbirsizliklə gözləyirdi. Bakının azad edilməsi Azərbaycan xalqının ölüm–dirim məsələsi idi. İstanbulda olan M.Ə.Rəsulzadə xarici işlər naziri M.Hacınskiyə göndərdiyi məktubunda yazırdı: "Hansı yolla, nəyin bahasına olursa-olsun, Bakı tezliklə tutulmalıdır. Əks təqdirdə, baş vermiş fakt qarşısında çətin vəziyyətdə qalarıq. Əgər Bakı alınmasa, hər şey bitdi. Əlvida, Azərbaycan!".[320]

Beş avqust döyüşündən sonra Bakı ətrafında bir müddət nisbi sakitlik yarandı. "Sentrokaspi" və ingilis qoşunları həmin gün qazandıqları hərbi uğuru genişləndirməyə cəhd göstərsələr də, Qafqaz İslam Ordusu hissələri onlara lazımi cavabı verdi. "Sentrokaspi" rəhbərliyi şəhər əhalisi arasında həm səfərbərlik aparır, həm də təbliğat işlərini genişləndirirdi. "Sentrokaspi" rəhbərliyi keçmiş Bakı Soveti qüvvələrinin əlində olan silahları və hərbi qüvvələri də Qafqaz İslam Ordusuna qarşı mübarizəyə cəlb etməyə çalışırdı. Lakin bütün bunlar Bakının azad edilməsilə bağlı Qafqaz İslam Ordusunun ikinci hücumuna mane ola bilmədi. Üç tərəfdən mühasirəyə alınan Bakı artıq qurudan yardım almırdı. Yalnız ordunun ehtiyacını ödəmək üçün Ənzəli və Lənkərandan dəniz yolu ilə "Sentrokaspi" diktaturasına yardım gəlirdi. Bir neçə gün davam edən uğurlu

[319] ATASE, k. 5309, d. 51, f. 72.
[320] ARDA, f.894, siy.10, iş 154. vər.16.

döyüşlərdən sonra Novxanı, Goradil, Pirşağı, Kürdəxanı və Fatmayı kəndləri Qafqaz İslam Ordusunun nəzarəti altına keçdi. Maştağa və Höküməli kəndlərində mövqelərini möhkəmlədən Qafqaz İslam Ordusu yerli əhalini də Bakının azad edilməsi işinə cəlb etdi. Avqustun 25-dən sentyabrın 13-nə qədər davam edən döyüşlərdə Qafqaz İslam Ordusu böyük uğurlar qazanaraq Bakının həndəvərinə yaxınlaşdı.[321] Sentyabrın 14-də axşam saat $20^{30}$-da Qafqaz İslam Ordusunun komandanı Nuru paşa Bakı şəhərinə hücumu başa çatdırmaq üçün 100 saylı əmri imzaladı. Bakı üzərinə hücumu uğurla başa çatdırmaq üçün Qafqaz İslam Ordusunun əsgər və zabitlərinin sayı 14 minə çatırdı. Bunların 8 mini osmanlı, 6 mini isə azərbaycanlı əsgər və zabit idi.[322]

Sentyabrın 15-də döyüşlər səhər saat $5^{30}$-da başladı. Bütün qüvvələrin əsas vəzifəsi kimi Bakının ələ keçirilməsi müəyyənləşdirildi. Hücum planına görə Ermənikəndin cənubundan keçmək şərtilə şəhərin qərb hissəsinin ələ keçirilməsi 5-ci diviziyaya həvalə olunmuşdu. 15-ci diviziya isə sağ cinahı Ermənikənddən keçmək şərtilə şəhərin şimal və şərqindən irəliləməli, Qaraşəhər ərazisini nəzarət altına almalı idi. Azərbaycan könüllü hissələri isə Sabunçudan şəhərə gələn dəmiryolu xətti boyunca hücuma keçib Keşləyə girməli və orada möhkəmlənməli idi. Milli qüvvələrin digər bir hissəsinə Əhmədli istiqamətindən şəhərə doğru hücuma keçmək həvalə olunmuşdu. Əhmədlidən irəliləməkdə olan və əsasən milli qüvvələrdən təşkil edilən süvari dəstəsinə Qarayazı süvari alayı, Ləzgi süvari alayı və digər milli süvari bölüyü daxil idi. Səhər saatlarında bütün istiqamətlərdə başlanan hücum öz uğurlu nəticəsini verdi. Qaraşəhər, Ermənikənd və Əhmədli istiqamətində düşmənin hücumu qətiyyətlə dəf edildi. Qafqaz İslam Ordusunun qarşısının alınmasının qeyri-mümkünlüyünü görən "Sentrokaspi" rəhbərliyi danışıqlara başlamağı qərara

[321] Yüceer N. Göstərilən əsəri, səh.137.
[322] Alen W. E.D. ve Muratof P. Göstərilən əsəri, səh. 458.



aldı. Saat $10^{30}$-da "Sentrokaspi" ordusunun qərb cəbhəsinin komandanı üzərində ağ bayraq asılan avtomobillə 5-ci diviziyanın qərargahına yaxınlaşdı.[323] Beşinci diviziyanın qərargahına danışıqlara gələn "Sentrokaspi" rəhbərliyinə aşağıdakı şərtlər diqtə edildi:

1. Şəhərin qeyd-şərtsiz təslim edilməsi; 2. Şəhərdəki düşmən qüvvələrin təslim edilməsi; 3. Top və silahların, binaların və digər obyektlərin təslim edilməsi; 4. Nargin adasında olan türk, alman və Avstriya əsirlərinin azad edilməsi; 5. Silah anbarlarının, ərzağın, avtomobillərin, yük maşınlarının, zirehli avtomobillərin, təyyarələrin və digər hərbi mülkiyyətin təslim edilməsi.[324]

Bakı şəhəri azad edilərkən 17 erməni, 9 rus, 10 gürcü zabiti, 1151 erməni, 383 rus, 4 ingilis və 113 nəfər müxtəlif millətdən olan əsgər əsir götürüldü. Təkcə avqust ayının əvvəllərindən sentyabrın 15-nə qədər Bakı uğrunda gedən döyüşlərdə 5-ci Qafqaz diviziyası 1130-a qədər şəhid vermişdi. Ümumiyyətlə, Qafqaz İslam Ordusu iyunun ortalarından sentyabrın 15-nə kimi Azərbaycanın azadlığı uğrunda döyüşlərdə 4 mindən çox əsgər və zabit şəhid vermişdir.[325] Bu döyüşlərdə Azərbaycan könüllü dəstələrinin də itkiləri kifayət qədər idi.

Beləliklə, sentyabrın 15-i saat 15-dən sonra Bakı şəhəri bütünlüklə Qafqaz İslam Ordusunun nəzarəti altına keçdi. Nuru paşa Bakının ələ keçirilməsilə bağlı hərbi nazir Ənvər paşaya, Gəncədəki Azərbaycan hökumətinə təbrik teleqramı göndərdi. Nuru paşa Azərbaycan hökumətindən xahiş edirdi ki, Bakıda asayişin təmin edilməsi üçün Gəncədən polis qüvvələrinin göndərilməsini tezləşdirsin. Bakı şəhərinin azad edilməsi həm Azərbaycan ictimaiyyətinin, həm də Osmanlı dövlət rəhbərlərinin, xüsusilə Ənvər paşanın çox böyük sevincinə səbəb

[323] Rüştü E. Göstərilən əsəri, səh.212.
[324] Süleyman İzzet. 15 piyade tümeninin Azerbaycan və Şimali Kafkasiyadakı harekati və müharibələri. Ankara, 1936, səh.49.
[325] Yenə orada, səh.49.

oldu. O, Şərq Ordular qrupu komandanı Xəlil paşaya göndərdiyi teleqramda deyirdi: "Bakı başarısından dolayı gözlərindən öpərək təbrik edirəm".[326] Ənvər paşa Nuru paşaya göndərdiyi teleqramda yazırdı: "Böyük Turan imperatorluğunun Xəzər kənarındakı zəngin bir qonaq yeri olan Bakı şəhərinin azad edilməsi xəbərini böyük bir sevinc və mutluluqla qarşıladım. Türk və islam tarixi sizin bu xidmətinizi unutmayacaqdır. Qazilərimizin gözündən öpür, şəhidlərimizə fatihələr ithaf edirəm"[327]. Bu tarixi günü və hadisəni M.Ə.Rəsulzadə belə dəyərləndirirdi: "15 sentyabr Azərbaycan xalqının tarixində 28 mayıs qədər böyük dəyərə malikdir. Əgər 28 mayda Cümhuriyyətin istiqlalı bütün dünyaya elan edilmişdisə, 15 sentyabrda bu istiqlal real bir təməl üzərində qurulmuş oldu. 15 sentyabrda Qafqaz İslam Ordusu tərəfindən Bakının azad edilməsi ilə başla bədən birləşmiş oldu. Bakı baş, bədən isə Azərbaycandır".[328]

Azərbaycan hökumətinin başçısı Fətəli xan Xoyski Bakının azad edilməsi münasibətilə Nuru paşaya yazırdı: "Cəsur türk əsgərlərinin Azərbaycanın baş kəndi olan Bakının düşməndən təmizlənməsi münasibətilə millətimin adından dünyanın ən cəsur və soylu əsgəri olan türkün oğullarına minnətdar olduğumuzu ərz etməklə iftixar edirəm. Millət sizə minnətdardır".[329]

Bakıya daxil olan türk ordusunun komandanları Nuru paşa, Xəlil paşa, Mürsəl paşa və başqaları Azərbaycanda böyük nüfuz sahibi olan və "el atası" adlandırılan Hacı Zeynalabdin Tağıyevin dəvətini qəbul edərək onun evində qaldı. Qoşunların Bakıya gəlib bu şəhəri azad edəcəyi təqdirdə iki mərtəbəli böyük malikanəsini (indiki Azərbaycan Tarix muzeyi) türk qoşunları komandanlığına bəxşiş edəcəyini vəd

[326] ATASE, k.3820, d.12, f.3.
[327] ATASE, k.3820, d.12, f.12.
[328] "Azerbaycan" dergisi, 1993, eylül-ekim. səh.80.
[329] "Azerbaycan" dergisi, 1962, № 7. səh.29.



edən Tağıyev sözünə sahib çıxdı. O öz mülkünü türk qoşunlarının komandanlığının istifadəsinə verdi.[330]

Bakının azad edilməsindən bir neçə gün sonra Qafqaz İslam Ordusu Qarabağ bölgəsində erməni-daşnak qüvvələrinin Azərbaycan xalqına qarşı həyata keçirtdiyi qırğınların qarşısını almaq üçün ora köməyə yollandı. Qafqaz İslam Ordusunun bir hissəsi isə Dağıstan istiqamətində xilaskarlıq yürüşünü davam etdirməyə başladı…

[330] Onk Nizamettin. Yeni Azəerbaycan kurularken. "Türk dünyası" tarihi dergisi, nisan, 1992, səh.34.

## BAKI XALQ KOMİSSARLARI SOVETİNİN ANTİAZƏRBAYCAN SİYASƏTİ

S.Şaumyanın başçılığı ilə erməni-daşnak quldur dəstələrinin türk-müsəlman əhaliyə qarşı törətdiyi 1918-ci il mart soyqırımından sonra Bakıda siyasi vəziyyət bolşeviklərin xeyrinə dəyişdi. Soyqırımdan sonra şəhərdə demək olar ki, azərbaycanlı qalmamışdı. Şəhərin türk-müsəlman əhalisinin bir hissəsi bolşevik-daşnak dəstələrinin qırğın və talanlarından canlarını qurtarmaq üçün Mərkəzi Asiya və İrana qaçmış, qalan hissəsi isə Bakının ətraf kəndlərinə çəkilmişdilər. "Daşnaksütyun" rəhbərləri yüksək vəzifəli erməni "bolşeviklərinin" himayəsi ilə özlərini Bakının əsl sahibi kimi aparırdılar. Bakıda erməni-bolşevik siyasi partiyalarının mətbuat orqanlarından başqa bütün qəzet və jurnallar bağlanmışdı. Yeni yaradılan əmək komissarlığı, ərzaq direktoriyası, bütün nəqliyyat bolşeviklərin sərəncamına keçmişdi. Bütün milli şuraların fəaliyyəti qadağan edilsə də erməni milli şurası fəaliyyətini davam etdirirdi.

Aprelin 25-də hakimiyyət orqanı kimi Bakı Xalq Komissarları Soveti yaradıldı. Bakı Xalq Komissarları Sovetinin sədri vəzifəsinə S.Şaumyan seçildi. Şaumyan qarşısına "fəhlə-kəndli hakimiyyəti" pərdəsi altında Azərbaycanı azərbaycanlılardan təmizləmək, onun sərvətlərini çapıb-talamaq, torpaqlarını qəsb edib "böyk ermənistan" dövləti yaratmaq xülyasını reallaşdırmaq vəzifəsi qoymuşdu. Şaumyanın göstərişi ilə aprelin 26-da Azərbaycan milli burjuaziyasının nümayəndələrindən 50 milyon manat pul hədə-qorxu və silah gücünə alındı. Azərbaycan milyonçularından zor gücünə alınan bu pul sonralar Şaumyan Bakıdan qaçarkən gəmidə axtarış zamanı onun kayutasından tapıldı.

Şaumyan Moskvanın göstərişi ilə neft sənayesini milliləşdirdi və Bakı nefti Rusiyaya nəql olunmağa başladı. Leninin



göstərişi ilə Bakı Soveti qurumuna neftin hasilatı və daşınmasını sürətləndirmək üçün yüz milyon rubl pul ayrılmışdı. 1917-ci ilin noyabrından 1918-ci ilin martınadək Rusiyaya 4 milyon 313 min pud neft daşındığı halda, 1918-ci il aprelin əvvəllərindən iyulun axırlarınadək 80 milyon 25 min pud neft aparılmışdı. Bakıdan və Azərbaycanın qəzalarından Rusiyaya qardaşlıq yardımı adı altında 700 min pud pambıq, 100 min pud quru balıq, xeyli miqdarda düyü, duz və sair göndərilmişdi.[331]

Bakı Soveti Fətəli xan Xoyskinin başçılıq etdiyi Bakı şəhər dumasını buraxaraq, Zaqafqaziya Seymini əksinqilabi qurum elan etdi. Moskva bütün vasitələrlə Bakı Soveti qurumunu hərbi-siyasi cəhətdən qüvvətləndirməyə çalışırdı. V.Lenin hərbi komissarlığa və İnqilabi Müdafiə Şurasına Bakıdakı daşnaq-bolşevik qoşunlarını təcili surətdə bütün zəruri hərbi sursatla təmin etmək göstərişi vermişdi. Qısa müddətdə Rusiyadan 5 min tüfəng, 2 milyon patron, 35 pulemyot, 4 zirehli avtomobil, 13 təyyarə göndərildi.[332] Bakı Soveti qüvvələrinə başçılıq edən Q.Korqanov Moskvaya göndərdiyi məktubunda yazırdı: "Kommuna ordusunun sayı 18 mindir, əsgərlərin böyük əksəriyyəti, yəni 13 minə qədəri, zabitlərin isə demək olar ki, hamısı ermənilərdir.[333] Bakı Soveti qurumunun ordusuna komandanlıq edən Z.Avetisyan, N.Qazaryan, Hamazasp və b. azərbaycanlılara qarşı ifrat vəhşiliyi ilə ad çıxarmış qaniçənlər idilər. Bakı Sovetinə rəhbərlik edən Şaumyanın əli Naxçıvana çatmasa da türk-müsəlman əhalisinə düşmən kəsilən Andronikin quldur dəstəsinə hər cür tapşırıq verə bilirdi. Andronik 1918-ci ilin iyulunda Şaumyana teleqramla bildirirdi: "Culfa əlimdədir, sərəncamınıza verə bilərəm. Hazırki vaxtda öz dəstəmlə

---

[331] Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi. Sənədlər və materiallar.1917-1918., B., 1960, səh.89.

[332] Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi. Sənədlər və materiallar. səh.191.

[333] Шаумян Сур. Бакинская Коммуна. Б., 1927, səh.25.

birlikdə olduğum Naxçıvan qəzasını Sovet Rusiyasının ayrılmaz hissəsi elan edirəm. Mən öz dəstəmlə bu gündən etibarən Mərkəzi Rusiya hökumətinin sərəncamındayam. Türk ordusunun Naxçıvan qəzasının hüdudlarına daxil olmasına mane olmağa çalışacağıq. Cavabınızı və sərəncamınızı gözləyirəm".[334] Bu teleqram barədə Leninə məlumat göndərən S.Şaumyan Andronikə yazırdı: "Culfa, xalq rəhbəri Andronikə. Sizin 577 saylı teleqramanızı aldım. Tam mətnini Moskvaya-Mərkəzi hökumətə çatdıracağam. Əgər cənab Kaçaznuni (Ermənistan Respublikasının birinci baş naziri – A.İ.) və digərləri sizə oxşasaydılar, erməni kəndliləri indiki faciələri yaşamazdılar. Sizin bayrağınız altında döyüşən bütün qəhrəman döyüşçülərə, türk süngüsündən və satqın rəhbərlərdən ikiqat əziyyət çəkən zəhmetkeş əhaliyə bizim salamımızı yetirin. Hər hansı çətinliyə baxmayaraq, sizi inqilab bayrağını endirməməyə çağırıram. Öz tərəfimdən Sizin şəxsinizdə əsl xalq qəhrəmanını salamlayıram" [335]. Teleqramda ermənilərin işğalçılıq planlarına siyasi don geydirmək və Bakı ilə əlaqə yolları aramaq xahiş olunurdu.

Bakı Soveti qurumunun qarşısına qoyduğu ən mühüm vəzifələrdən biri də Azərbaycanın bölgələrində türk-müsəlman əhalisinə qarşı soyqırım siyasətini həyata keçirərək, burada daşnak-bolşevik idarəçiliyinə nail olmaq idi. Azərbaycanın muxtariyyəti ideyasına düşmən olan bu qurum Bakını Azərbaycan Xalq Cümhuriyyətinə verməmək üçün hətta onu yandırıb məhv etməyə hazır idi. Xalqa yabancı, antiazərbaycan siyasəti yeridən bu rejimi devirmək zamanın tələbi, Azərbaycan milli hökumətinin müqəddəs vəzifəsi idi.

[334] Агаян Ч. Роль России в исторических судьбах армянского народа. М., 1978, səh.267.
[335] Yenə orada, səh.260.



## İNGİLİS QÜVVƏLƏRİNİN BAKIYA DAXİL OLMASI

Azərbaycanda siyasi hadisələrin inkişafı daxili proseslərdən daha çox dünyanı lərzəyə gətirən birinci dünya müharibəsinin gedişindən və nəticələrindən asılı idi. İki hərbi qruplaşma arasında gedən imperialist müharibəsində Azərbaycan öz mənafeyi baxımından Osmanlı dövlətinin qalib gəlməsini arzulayırdı. Lakin hadisələr başqa cür cərəyan edirdi. 1918-ci il oktyabrın 30-da Türkiyə ilə Antanta dövlətləri arasında Mudros barışığı imzalandı. Mudros barışığına görə məğlub sayılan Osmanlı dövlətinin qüvvələri Bakını tərk etməli, Antanta qüvvələri tərəfindən Bakının tutulmasına mane olmamalı, Cənubi Qafqaz dəmir yolu üzərindəki nəzarət hüququnu Antantaya güzəştə getməli idi. İranın Ənzəli limanında yerləşən ingilis hərbi hissələri müttəfiqlər adından Bakını tutmalı idi. Mudros barışığının 11-ci maddəsinə əsasən Azərbaycan İngiltərənin nüfuz dairəsi elan edilir, 15-ci maddəyə əsasən isə Azərbaycanın yolları və neft mədənləri ingilis komandanlığının nəzarəti altına keçir, Türkiyədən Bakının işğalına etiraz etməməsi tələb olunurdu. Azərbaycan hökuməti və onun Osmanlı dövlətində olan diplomatik nümayəndəsi Mudros barışığının Azərbaycana aid ağır şərtlərinə biganə qalmadı. Azərbaycanın İstanbuldakı fövqəladə və səlahiyyətli nümayəndəsi Əlimərdan bəy Topçubaşov Türkiyə tərəfinə Azərbaycan nümayəndəsinin iştirakı olmadan Bakı və Azərbaycan dəmir yolu haqqında Mudros barışığına bəndlərin daxil edilməsinə öz etirazını bildirdi. Etiraz notasında deyilirdi ki, Osmanlı hökumətinin Azərbaycan Xalq Cümhuriyyətini tanımasına baxmayaraq, Cümhuriyyətin paytaxtı Bakı şəhəri haqqında maddənin Mudros barışığına daxil edilməsi beynəlxalq hüquq və normalara zidd olub, Azərbaycanın ingilislər

tərəfindən işğal olunmasının asanlaşdırılmasına xidmət edir.[336] Bununla yanaşı, Azərbaycan hökuməti başa düşürdü ki, müqavilənin şərtlərinə təsir göstərmək onun imkanı xaricindədir. Buna görə də Bakıya daxil olan ingilis qüvvələri ilə münasibətləri tənzimləmək üçün Ənzəliyə nümayəndə heyəti göndərildi. Ənzəliyə danışıqlar aparmaq üçün gələn Azərbaycan nümayəndə heyəti ingilis hərbi hissələrinin komandanı general V.Tomsona Azərbaycan ərazisinə daxil olmazdan əvvəl Azərbaycan Xalq Cümhuriyyətini tanımaq haqqında bəyanat verilməsini təklif etdi. Lakin general Tomson bu təklifi rədd etdi və bildirdi ki, "bizim bildiyimizə görə Azərbaycan xalqının ümumi seçkilər nəticəsində yaranmış bir cümhuriyyəti yoxdur, yalnız türk komandanlığının intriqası ilə təşəkkül tapmış bir hökumət vardır. Bir halda ki, siz bunun əksini iddia edirsiniz, o zaman hər şeyi yerində yoxlayıb, buna münasib də qərar verərik. Müttəfiqlər dağıtmaq üçün yox, qurmaq üçün gəliblər"[337]. V.Tomson bəyanat verərək elan etdi ki, noyabrın 17-si səhər saat 10-a qədər Bakı şəhəri Azərbaycan və türk ordularından təmizlənməlidir: Bakı və onun neft mədənləri ingilislərin nəzarəti altına keçəcəkdir, ölkənin qalan hissəsi isə Azərbaycan hökumətinin və ordusunun nəzarəti altında olacaqdır. Azərbaycan rəsmi şəkildə tanınmır, lakin İngiltərə, Fransa və ABŞ nümayəndələri onun hökuməti ilə de-fakto əlaqə yaradacaqlar, bütün idarə və təşkilatlar bəzi dəyişikliklərlə fəaliyyət göstərəcəklər. General V.Tomson Bakının general-qubernatoru olacaq, ingilislər şəhər polisinə rəhbərlik edəcək, şəhər duması yenidən azad fəaliyyətə başlayacaq, Azərbaycan Paris sülh konfransında milli müqəddaratını təyinetmə prinsipi əsasında iştirak edəcək, L.Biçeraxov və onun dəstələri Britaniya ordusu ilə birlikdə Bakıya daxil olacaq və nəhayət, silahlı erməni dəstələri şəhərə buraxılmayacaqlar.[338]

[336] ARDA, f. 970, siy. 1. iş 68, vər.2.
[337] Məmmədzadə Mirzə Bala. Milli Azərbaycan hərəkatı. Berlin, 1938; B., 1992, səh.107.



Azərbaycan nümayəndə heyətinin Ənzəlidə general V.Tomsonla apardığı danışıqlar müəyyən qədər uğurlu oldu. Ən əsası ona görə ki, Azərbaycanın Paris sülh konfransında iştirak edəcəyi, Bakıya erməni hissələrinin daxil olmayacağı barədə general Tomson öz üzərinə öhdəliklər götürdü.

Noyabrın 17-də Tomsonun hərbi dəstələrinin Bakıya gəlişini şəhər əhalisi eyni cür qarşılamadı. Rus və erməni milli şuralarının tərəfdarları sevinc içərisində idilər. Biçeraxov təyyarələrdən "Rusiya vətəndaşlarına" adlı intibahnamələr səpir, xristian əhalisini Bakının "Ana vətənə qovuşması" münasibəti ilə təbrik edirdi. General Tomsonun da iki gün sonra yaydığı bəyannamə eyni ruhda idi. General Biçeraxov daha irəli gedərək qurama "Qafqaz-Xəzər" hökuməti yaratdı, Bakıda çevriliş təşkil etmək üçün geniş fəaliyyətə başladı. Bakıdakı erməni və rus milli şuraları A.Biçeraxovun gəlişi ilə bağlı belə bir şayiə yayırdılar ki, guya Azərbaycan deyilən dövlət yoxdur, yalnız Rusiya vardır. Azərbaycan hakimiyyəti devrilməli və o, Biçeraxovun başçılıq etdiyi Xəzəryanı hökumətlə əvəz edilməlidir.

[338] Ziyadxanlı A. Azərbaycan. B., 1919; B., 1993, səh. 46.

## AZƏRBAYCAN PARLAMENTİNİN TƏŞKİLİ

1918-ci iyunun 17-də Gəncədə məcburiyyət üzündən fəaliyyətini dayandırmış Azərbaycan Milli Şurası noyabrın 16-da Bakıda öz işini yenidən bərpa etdi. Giriş nitqində M.Ə.Rəsulzadə bildirdi ki, Milli Şuramız Məclisi-Müəssisan əsası ilə tamam xalq tərəfindən çeçilmiş bir Şura deyildir. Bugünkü Milli Şuramız parlaman surəti almaq üçün genişlənəcək və oraya əhalinin hər qismindən müqəddəratını Azərbaycanın müqəddəratı ilə bağlamış, Azərbaycanın şadlığı ilə şadlanan və qəmi ilə qəmlənən bütün millətlərin nümayəndələri cəlb ediləcəkdir. O zaman biz tam bir parlamana malik olacağız.[339] İclasda çıxış edən hökumətin sədri F.Xoyski Milli Şura üzvlərinə müraciət edərək bildirdi ki, hazırki şəraitdə hökumətin Müəssislər Məclisi çağırmaq üçün hazırlıq işlərinə vaxtı çatmadığından, Milli Şuranın bu işi öhdəsinə götürməyini xahiş edir. Milli Şura Fətəli xan Xoyskinin təklifini qəbul etdi.

1918-ci il noyabrın 19-da M.Ə. Rəsulzadənin sədrliyi ilə Milli Şuranın Bakıda keçirilən ikinci iclasında "Müvəqqəti Azərbaycan parlamanının təşkili haqqında" Qanun layihəsi geniş müzakirə olundu. Məlumdur ki, 1917-ci ilin axırlarında Cənubi Qafqazın müsəlman partiyaları Rusiya Müəssislər Məclisinə keçirilən seçkilərdə iştirak etmiş və 14 yer qazanmışdılar. Rusiya Müəssislər Məclisində iştirak etmək mümkün olmadığı üçün Tiflisdə Azərbaycan, erməni və gürcülərdən ibarət Zaqafqaziya Komissarlığının təşkil olunması qərara alındı. Ümumi səsvermə yolu ilə seçilmiş 14 nəfər müsəlman nümayəndələrinin siyahısı qazandıqları səslər müqabilində genişləndirilərək 44 nəfərə çatdırılmışdı. O zaman Azərbaycanda Məclisi-Müəssisan toplamağın mümkün olmadığını görən Cənubi Qafqaz Mərkəzi Müsəlman Komitəsi bu məsələnin hələlik Zaqafqaziya Seymində Azərbaycanı təmsil etməkdə görürdü.[340] Rusiya Müəssislər Məclisinə seçilmiş bu nümayəndələr Cənubi Qafqazın müsəlman əhalisinin müxtəlif siyasi cərəyanlarını təmsil edir və bir milyondan çox müsəlman əhalisinin səsini qazanmışdılar. Ona görə də 1918-ci il mayın 26-da Zaqafqaziya Seymi öz işinə xitam verdikdə, Seymdəki 44 müsəlman nümayəndəsi özlərini Azərbaycan Milli Şurası elan etmiş və Azərbaycanın idarəçiliyini öz üzərinə götürmüşdülər.

Milli Şuranın noyabrın 19-da keçirilən iclasında qeyd olundu ki,Azərbaycanda azərbaycanlı əhali ilə yanaşı, digər millətlərin də nümayəndələri yaşayır. Ona görə də Milli Şurası Azərbaycan ərazisində yaşayan bütün millətləri təmsil etməlidir. Hazırda Milli Şuranın 44 nəfər nümayəndəsi arasında onları təmsil edən yoxdur. Digər tərəfdən, siyasi partiya nümayəndələri ilə yanaşı, Azərbaycan xalqının müxtəlif təbəqələrinin də belə bir təşkilatda təmsil olunmasına böyük ehtiyac vardır. Azərbaycan parlamentinin təsis edilməsi haqqında qərarda deyilirdi ki, Azərbaycan ərazisinə Bakı və Gəncə quberniyaları, Zaqatala dairəsi, İrəvan və Tiflis quberniyalarının bir hissəsi daxildir. Qafqaz təqviminə görə bu ərazidə 2.750 min nəfər əhali yaşayır. Onlardan 1.900 min nəfəri müsəlman, 500 min nəfəri erməni, 230 min nəfəri isə ruslardır. Hər 24 min nəfərdən bir nümayəndə hesabı ilə müsəlmanlara 80, ermənilərə 21, ruslara 10, azlıqda qalan alman, yəhudi, gürcü və polyaklara bir yer ayrılması qərara alındı. Qanunda göstərilirdi ki, Milli Şuranın 44 üzvü ümumi səsvermə yolu ilə seçildiyi üçün mexaniki olaraq parlamentə üzv keçirilirlər. Qalan 36 nəfər isə şəhər və qəzalar arasında bölündü.[341] Qanunda respublika ərazisində yaşayan bütün xalqların və hər iki cinsin seçki hüququ təsbit edilirdi. Bununla da Azər-

[339] ARDA, f. 895, siy. 1, iş 11, vər. 15.

[340] ARDA, f. 894, siy. 10, iş 187, vər. 1-2.

[341] ARDA, f. 895, siy. 3, iş 187, vər. 1-2.

baycan Cümhuriyyəti bütün Şərqdə qadınlara seçki hüququ verən ilk dövlət oldu.

Erməni əhalisinin 21 nəfər nümayəndəsindən 8-i Gəncə, 8-i Şuşa və 5-i Bakı erməni Milli şurasından, rus əhalisinin 10 nəfər nümayəndəsi isə rus Milli Şurasından təklif edilməli idi.[342]

1918-ci il noyabrın 17-də Bakıya daxil olan general Tomson Rusiyanın müttəfiqi olan İngiltərənin sovet Rusiyasına qarşı mübarizənin təşkilində iştirak etməklə yanaşı, Denikin, Kolçak və Yudeniçin hərəkətlərini hərtərəfli dəstəkləyirdi. V.Tomson Azərbaycan hökumətindən tələb edirdi ki, Bakıdakı rus Milli Şurası ilə səmimi münasibətlərin yaradılmasına təşəbbüs göstərsin. Rus Milli Şurası isə Azərbaycan hökuməti qarşısında tələblər qoyurdu ki, Rusiyanın birliyi və bütövlüyünü, Rusiya Müəssislər Məclisini və Ufadakı A.Kolçak hökumətini tanımalıdır. Bu məsələləri müzakirə etmək üçün noyabrın 24-də axşam Milli Şuranın qapalı iclası keçirildi. Bu məsələlər barəsində məlumat verən F.Xoyski bildirdi ki, Ümumrusiya Müəssislər Məclisini qəbul etmək mümkün olsa da, Azərbaycanın birinci dünya müharibəsinin nəticələrinə həsr olunacaq Paris Sülh Konfransına nümayəndə heyəti göndərməsi ən böyük arzumuzdur. Kolçakın rəhbərlik etdiyi Ufa hökumətini isə hələlik qəbul etmək mümkün deyil. Cünki, onun kimlərdən və necə təşkil olunması bizə məlum olmadığına görə, onu qəbul etmək qeyri-mümkündür.[343]

Gərgin müzakirələrdən sonra Milli Şura aşağıdakı qərarları qəbul etməyə müvəffəq oldu. 1. Azərbaycanın siyasi vəziyyəti və dövlət quruluşu məsələsi qəti olaraq Paris sülh konfransında həll olunsun; 2. Hazırda Azərbaycanda mövcud olan faktiki idarə sistemi öz qüvvəsində qalır; 3. Əgər Ümumrusiya Müəssislər Məclisi öz müqəddəratını təyin etmiş bütün xalqların nümayəndələri ilə Paris sülh konfransında

[342] ARDA, f. 895, siy. 3, iş 25, vər. 3-5.
[343] ARDA, f. 895, siy. 1, iş 11, vər. 10-11.



iştirak edərsə, Azərbaycan da orada iştirak edəcək və öz müqəddəratının təyini məsələsində öz prinsipləri üzərində təkid edəcəkdir.[344]

1918-ci il noyabrın 26-da M.Ə. Rəsulzadənin sədrliyi ilə Milli Şuranın növbəti gizli iclası keçirildi. Milli Şuranın üzvü M.H.Hacınski Xəzər-Qafqaz hökuməti təşkil etmək istəyən sağ eserlərlə apardığı danışıqlar barədə məlumat verdi. Məlum oldu ki, sağ eserlərin təşkil etmək istədikləri hökumətə Azərbaycan aşağıdakı şərtlər daxilində daxil ola bilər: 1. Azərbaycan Ufa hökumətini tanımalıdır; 2.Azərbaycan Rusiyanın bölünməzliyini və Rusiya Müəssislər Məclisinin vahidliyini tanımalıdır. Əslində bu şərtlər Milli Şuranın noyabrın 24-də qəbul etdiyi prinsiplərə tamamilə zidd idi. Rus və Erməni Milli Şuraları ilə aparılan danışıqlar haqqında F.Xoyski məlumat verərək bildirdi ki, Rus Milli Şurası ilə aparılan danışıqlar nəticəsiz başa çatdı. Erməni Milli Şurasının üzvləri Ter-Azarov və Manandyanla aparılan danışıqların nəticəsi olaraq, onlar 24 noyabr iclasının qərarı əsasında yaradılacaq parlament və hökumətə daxil olmağa hazır olduqlarını bəyan etdilər. İclasın sonunda Azərbaycanın müstəqilliyi barədə məlumat verən və bu ideyanın müdafiəsi məqsədi ilə Avropa və Amerika ölkələrinə göndəriləcək Parlament nümayəndə heyətinin əsasnaməsi də müzakirə olunaraq qəbul olundu.

Parlamentin çağırılması ilə bağlı Milli Şura adından, onun sədri M.Ə.Rəsulzadənin imzası ilə noyabrın 29-da Azərbaycan və rus dillərində "Bütün Azərbaycan əhalisinə" müraciətnaməsi dərc olundu. Müraciətnamədə deyilirdi: "Bu ayın19-da qəbul etdiyimiz qanunnaməyə görə Şurai-Milli dekabrın 3-nə qədər 120 əzalıq bir Məclisi-Məbusan halına gələcəkdir. Bu məclisə azlıqda qalan millətlərdən nümayəndələr cəlb olunduğu kimi, məmləkətin vilayətlərindən də vəkillər çağırılmışdır. Bu surətdə yığılacaq məbusan irəlidə ümumi intibax üsulu ilə Azərbaycan Məclisi-Müəssisanı yığışıncaya

[344] ARDA, f. 895, siy. 1, iş 11, vər. 11-12.

qədər yurdumuzun sahibi olacaq, onun müqəddəratını həll, hökumətini təşkil və mənafeyini müdafiə edəcəkdir".[345]

1918-ci il dekabrın 1-də M.Ə.Rəsulzadənin sədrliyi ilə Milli Şuranın növbəti gizli iclası keçirildi. Hökumətin sədri F.Xoyski əyalətlərdə parlamentə keçirilən seçkilər haqqında məlumat verərək bildirdi ki, bütün bölgələrdən seçilmiş nümayəndələr dekabrın 3-də Bakıda ola bilərlər. Lakin dekabrın üçü peyğəmbər Məhəmməd Əleyhissəlamın vəfatı gününə düşdüyü üçün parlamentin ilk iclasını dekabrın 7-nə keçirmək daha münasib olardı. Təklif yekdil səslə qəbul olundu. Əslində parlamentin açılışının təxirə salınmasının başqa səbəbləri də var idi. Belə ki, dekabrın 3-də Britaniya baş qərargahının rəisi polkovnik S.Stoks mayor Rolansona göndərdiyi təcili məktubunda müttəfiqlərin komandanlığı tərəfindən koalisiyalı hökumətin tanınmasına qədər parlament iclasının açılmasının qadağan edilməsini tələb edirdi. Məktubda deyilirdi: "Xahiş edirəm, Nazirlər Şurasının sədri cənab Xan Xoyskiyə çatdırın. Müttəfiq qoşunları komandanlığının əmrinə əsasən Bakıda parlamentin iclası müttəfiqlər tərəfindən bəyənilən koalisiyalı hökumətin yaradılmasından tez açılmamalıdır".[346]

F.Xoyski general Tomsonla görüşün nəticələri barədə Milli Şuraya məlumat verərək bildirdi ki, general Tomson Azərbaycan hökumətinə xeyirxah münasibətdə olduğunu və bizim təşəbbüslərimizi bəyənərək daxili işlərimizə qarışmayacağını vəd etdi.

Milli Şuranın sonuncu iclası 1918-ci il dekabrın 3-də axşam saat 8-də M.Ə.Rəsulzadənin sədrliyi ilə keçirilidi. Hökumətin sədri F.Xoyski həmin gün saat 2-də general Tomsondan aldığı məktubun məzmununu Şura üzvlərin elan etdi. V.Tomson məktubunda tələb edirdi ki, koalisiyalı hökumətin

[345] ARDA, f. 895, siy. 1, iş 25, vər. 3-4.
[346] ARDA, f. 895, siy. 1, iş 25, vər. 2.



tərkibi elan olunmayınca Bakıda parlamentin iclası keçirilə bilməz.[347]

F.Xoyski bu məktubla bağlı hökumətin atdığı addımlar, general Tomsonla aparılan danışıqlar barədə Şura üzvlərinə geniş məlumat verdi. Fətəli xanın məlumatına görə Azərbaycan parlamentinin təsis edilməsini istəməyən təkcə ruslar və ermənilər deyil, hətta bir qrup müsəlman Azərbaycan Milli Şurasını V.Tomsonun gözündən salmağa və onun rolunu heçə endirməyə çalışır. V.Tomsonla apardığı danışıqlar barədə məlumat verən F.Xoyski bildirdi ki, o, hökumətin təşkilinin parlament yolu ilə formalaşdırılması prinsipi üzərində israr etmiş və təşkil edilmiş hökumətin xalqın əsas hissəsi tərəfindən seçilmiş orqana arxalanmalı və onun qarşısında hesabat verməlidir fikrini müdafiə etmişdir. Uzun müzakirələrdən sonra V.Tomson F.Xoyskinin fikrini qəbul etmişdir. F.Xoyskiyə görə V.Tomsonla müzakirə olunan ikinci məsələ koalisiyalı hökumətin tərkibi ilə bağlı olmuşdur. V.Tomsona görə koalisiyalı hökumət beş nəfər azərbaycanlı, beş nəfər isə azlıqda qalan xristian millətinin (üç rus və iki erməni) nümayəndələrindən təşkil olunmalıdır. Bu cür bölgünün ədalətsiz olduğunu V.Tomsonun diqqətinə çatdıran F.Xoyski ölkədə müsəlmanların mütləq çoxluq təşkil etdiyini nəzərə alaraq hökumətin yeddi azərbaycanlı, üç erməni və iki rus və ya səkkiz azərbaycanlı, üç erməni və üç rusdan ibarət olmasını təklif etmişdir. Son nəticədə V.Tomson bu bölgü ilə razılaşmalı oldu. F.Xoyski son olaraq bildirdi ki, V.Tomson parlamentin işini müdafiə edəcəyinə və onun açılacağı gün baş verəcək hər hansı bir xoşagəlməz hadisənin qarşısının alınacağına söz verdi.

Halbuki, noyabrın 17-də Bakıya daxil olan V.Tomson özünün ilk bəyanat və çıxışlarında "Azərbaycan" ifadəsini belə işlətməyi lazım bilmirdi. F.Xoyskinin Tomsonla ilk görüşü çox mübahisəli və sərt keçdi. General Tomson Azərbaycan

[347] ARDA, f. 895, siy. 1, iş 11, vər. 1-3.

Xalq Cümhuriyyətini tanımadığını və müttəfiqi olan rusların torpağına gəldiyini bildirdi. F.Xoyski Azərbaycan Cümhuriyyətinin elan edilməsinin Azərbaycan xalqının qərarı və istəyi ilə həyata keçirildiyini və bunu bütün dünya dövlətlərinə bəyan etdiklərini bildirdi. F.Xoyski sözlərinə davam edərək: "Siz böyük bir millət və böyük bir imperatorluqsunuz, eyni zamanda, mədəni bir millətsiniz. Bizim istiqlalımızı qəbul etməlisiniz". General Tomson: "Bu söylədikləriniz siyasi məsələlərdir. İki dövlət arasında cərəyan edir. Mən bir əsgərəm"-cavabını verir. F.Xoyski də cavabında: "Madam ki, siz əsgərsiniz, mən də istiqlalını elan etmiş Azərbaycan Cümhuriyyətinin baş naziriyəm. Biz sizi bura dəvət etmədik. Sizdən vətənimizi tərk etməyinizi tələb edirəm". Bu cavab qarşısında general Tomson tərcüməçiyə dönərək: "Baş nazir həzrətlərinə söyləyin ki, hər hansı bir hərbi qüvvəni çıxarmaq üçün əsgəri qüvvəyə sahib olmaq lazımdır. Aldığım məlumata görə qurduğunuz Cümhuriyyətin ordusu yaranmamışdır". Cavabında Fətəli xan da tərcüməçiyə: "General həzrətlərinə söyləyin ki, o yalnız hərbi savada malikdir. Ya xalq qüvvəsinin nə olduğunu bilmir, ya da bizi hind xalqı zənn edir. Biz Azərbaycan türkləri istiqlalımızı elan etməzdən əvvəl 100 mindən artıq rus əsgərini xalq qüvvəsinin köməyi ilə sərhədlərimizdən qovub çıxarmışıq. Əgər inad edirsinizsə, bir ovuc ingilis əsgərini dənizə tökmək xalqımızın qüvvəsiylə bir neçə saatlıq işdir. Ancaq biz nə sizdən pislik görmək, nə də sizlərə pislik etmək istəyirik" cavabını verir.[348]

1918-ci ilin noyabrında general Tomson Londona göndərdiyi məktubunda hökumətin başçısı Fətəli xan Xoyski ilə görüşü barədə yazırdı: "O, ağıllı adamdır, hüquqşünasdır və öz bacarığı ilə Qafqazda bizə məlum olan bütün əvvəlki dövlət quranlardan daha qabil olan dövlət qurumu yaratmışdır. Mənimlə görüş zamanı ermənilərin xəyanətlərindən yana-yana danışdı".[349]

[348]Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri. B.,1997, səh.85.



1918-ci il dekabrın 7-də saat 13-də H.Z.Tağıyevin qızlar məktəbinin binasında Azərbaycan Parlamentinin təntənəli açılışı oldu. Bu, bütün müsəlman Şərqində o dövrün ən demokratik prinsipləri əsasında formalaşdırılmış ilk parlament idi. Parlamentdə ölkə ərazisində yaşayan bütün xalqlar təmsil olundular. Parlamentin açılışında Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadə geniş təbrik nitqi söylədi. Müsavat partiyasının təklifi ilə İstanbulda səfərdə olan Əlimərdan bəy Topçubaşov qiyabi olaraq parlamentin sədri, Həsən bəy Ağayev isə onun birinci müavini seçildi. Rəhim bəy Vəkilov Parlamentin katibi təsdiq olundu. Topçubaşov Azərbaycanda olmadığı üçün parlamentin fəaliyyətinə Həsən bəy Ağayev rəhbərlik edirdi. Parlamentin ilk iclasında Fətəli xan Xoyskinin istefası qəbul olundu və hökumətin təşkil olunması yenidən F.Xoyskiyə tapşırıldı.[350]

[349]İranın Şimalındakı ingilis qoşunlarının komandanı general-mayor V.M. Tomsonun mərkəzə məlumatı. Bakıdakı ilk günlərinin təsviri. 17-24 noyabr 1918. Bax: Azərbaycan Xalq Cümhuriyyəti Böyük Britaniyanın arxiv sənədləri. B., 2008, səh.18.

[350] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament. I cild. Bakı,1998, səh.13.

# MİLLİ HÖKUMƏTİN DAXİLİ VƏ XARİCİ SİYASƏTİ

1918-ci il dekabrın 26-da F.Xoyski yeni hökumətin təsdiq olunmasını parlamentin müzakirəsinə verdi. Parlament hökumətin proqramını qəbul etdi və F.Xoyskinin təşkil etdiyi hökumətə etimad göstərilməsi barədə qərar çıxardı. F.Xoyskinin təşkil etdiyi koalisiyalı hökumətdə ruslara üç, ermənilərə iki nazir yeri təklif olundu. Azərbaycan hökumətinin xalq tərəfindən müdafiə olunduğunu görən general Tomson dekabrın 28-də Xoyski hökumətini Azərbaycanın yeganə, qanuni yerli hakimiyyət orqanı kimi tanıdığını bəyan etdi.

Biçeraxovun dəstəsinin dövlət çevrilişi cəhdinin üstü açıldıqdan sonra Azərbaycan hökumətinin tələbi ilə general V.Tomson "Qafqaz-Xəzər" hökumətini qanundan kənar elan edib, 48 saat müddətində Bakıdan uzaqlaşdırdı, daha sonra isə erməni hərbi hissələri tərksilah edilib buraxıldı.

Beləliklə, 1918-ci ilin dekabrından etibarən ingilis komandanlığı Bakıda qoyulan məhdudiyyətləri tədricən azaltmağa başladı: Azərbaycan polisi, su nəqliyyatı və neft sənayesi, maliyyə idarələri, mətbuat üzərində nəzarət ləğv olundu. 1919-cu ilin aprelində Bakıda ingilis general-qubernatorluğunun ləğvi ilə əlaqədar Gəncədə təşkil olunmuş ilk Azərbaycan alayı paytaxta daxil oldu və xalq onu təntənə ilə qarşıladı.

1919-cu ilin aprelindən başlayaraq ingilislər Paris sülh konfransının şərtlərinə uyğun olaraq Qafqazı tərk etməyə başladılar və bu proses avqustun ortalarında başa çatdı. Azərbaycan hökuməti ingilis müdaxiləsi qarşısında nəinki öz varlığını qoruya bildi, hətta ingilis komandanlığını şəhərin idarəçiliyindən tədricən uzaqlaşdırmağa nail oldu. Lakin ingilislərin Bakını tərk etməsi, bir tərəfdən, Azərbaycanın müstəqilliyini möhkəmləndirirdisə, digər tərəfdən, Sovet Rusiyasının keçmiş imperiyanı əvvəlki sərhədlər çərçivəsində bərpa etmək istəyini



sürətləndirdi. 1919-cu il avqustun 23-də ingilis generalı Şatelvort müttəfiq qoşunların komandanlığı adından Bakı əhalisinə şəhəri tərk etmək munasibəti ilə müraciət etdi. Müraciətdə deyilirdi: "Fürsətdən istifadə edib, indi Bakını tərk edən Britaniya qoşunları adından Azərbaycan, xüsusən Bakı şəhəri əhalisindən üzr istəyirik. Səmimiyyətlə təəssüflənirik ki, çoxsaylı dostlarımızla və tanışlarımızla vidalaşırıq, onlara ürəkdən sülh və xoşbəxtlik arzulayırıq. Britaniya ordusunun bütün qulluqçuları Azərbaycanda keçirdikləri günlərin ən yaxşı xatirələrini özləri ilə aparırlar"[351].

Qafqazda yaranmış müstəqil dövlətlər arasında mövcud olan ziddiyyətlər, ilk növbədə ərazi-sərhəd mübahisələri xarici təhlükəni reallaşdırırdı. 1919-cu il aprelin 25-də Tiflisdə Azərbaycan, Dağıstan, Gürcüstan və Ermənistan nümayəndələrinin iştirakı ilə Qafqaz konfransı işə başladı. Konfransda siyasi, iqtisadi və maliyyə məsələləri, eləcə də sərhəd problemləri müzakirə olundu. Konfransın gedişində bu ölkələr arasında ərazi-sərhəd məsələləri ilə bağlı kəskin ziddiyyətlərin mövcud olması məlum oldu. Keçmiş çar generalı Denikinin könüllü ordusunun Dağıstana hücumu ilə bağlı konfrans öz işini dayandırmağa məcbur oldu.

"Vahid və bölünməz Rusiya" sərhədlərini bərpa etmək iddiasında olan Denikin 1919-cu ilin yazında Dağıstan Dağlılar Respublikasına soxularaq Dərbəndi işğal etdi. Çar generalının Azərbaycana təcavüzkar niyyətdə olduğu aşkara çıxdı. Parlamentin fövqəladə iclasında qəbul olunmuş qərara əsasən sərhədlərin təhlükəsizliyini təmin etmək məqsədilə 1919-cu il iyunun 11-də Dövlət Müdafiə Komitəsi yaradıldı və bütün hakimiyyət onun ixtiyarına keçdi.

Denikin təhlükəsi Gürcüstanı da ciddi narahat etdiyindən iyunun 16-da Gürcüstanla Azərbaycan arasında hərbi müdafiə paktı imzalandı. Bu pakta görə Azərbaycan və Gürcüstanın istiqlaliyyətinə və ərazi bütövlüyünə hər hansı dövlət tərə-

[351] ARDA, f.970, siy.1, iş 144, vər.9.

findən təcavüz olunduğu təqdirdə onlar bir-birinə hərbi yardım göstərməli idilər. Üç il müddətinə bağlanan hərbi pakta Ermənistan iki həftə ərzində qoşula bilərdi. Lakin Ermənistan Denikinlə gizli müqavilə imzalamağı daha üstün tutdu. Hərbi pakta görə Azərbaycan Gürcüstandan 12 kiçik top, 12 dağ topu, 24 pulemyot, 3 min beşaçılan tüfəng, 211 qılınc, 795 nizə və s. hərbi ləvazimat aldı.[352]

Azərbaycan Xalq Cümhuriyyətinin de-fakto tanınmasına qədər dövlət quruculuğu sahəsində heç bir təcrübəsi olmayan xalq qısa bir müddət ərzində normal fəaliyyət göstərən dövlət aparatı yaratmağa, 20-dən çox dövlətlə, o cümlədən, Türkiyə, Gürcüstan, Ermənistan, İran, Belçika, Hollandiya, Yunanıstan, Danimarka, İtaliya, Fransa, İsveçrə, İngiltərə, ABŞ, Ukrayna, Litva, Polşa, Finlandiya və başqaları ilə baş konsulluq, konsul agentlikləri səviyysində əlaqələr qurmağa nail oldu.[353] Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruluşu parlamentli respublika idi. Yeni yaranmış dövlət öz fəaliyyəti dövründə "türkləşmək, islamlaşmaq və müasirləşmək" ideyası uğrunda mübarizə aparırdı. Hökumət Gəncədəki fəaliyyəti dövründə – 1918-ci il iyunun 27-də Azərbaycan dilinin dövlət dili elan edilməsi haqqında fərman imzaladı. Azərbaycan dilli savadlı kadrların çatışmazlığı nəzərə alınaraq, dövlət idarələrində müvəqqəti olaraq rus dilindən də istifadə olunmasına icazə verildi. İyunun 21-də üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri olan qırmızı bayraq dövlət bayrağı kimi qəbul edildi, noyabrın 9-da isə həmin bayraq üçrəngli – mavi, qırmızı və yaşıl zolaqlardan ibarət bayraqla əvəz olundu. Avqustun 11-də ümumi hərbi səfərbərlik elan edildi və 1894-1899-cu il təvəllüdlü bütün Azərbaycan vətəndaşları hərbi xidmətə çağırıldılar. Noyabırn 1-də Hərbiyyə nazirliyinin yaradılması haqqında qərar qəbul olundu. Dekabrın 25-də

[352] Азербайджанская Демократическая Республика (1918-1920). Армия (документы и материалы). Б., 1998, səh.108-109.
[353] Азербайджанская Демократическая Республика. Внешняя политика. (документы и материалы). Б., 1998, səh.196



general Səmədağa Mehmandarov hərbi nazir, general Əliağa Şıxlinski hərbi nazirin müavini, general Süleyman Sülkeviç Baş qərargah rəisi təyin edildilər. 1919-cu ildə 25 min nəfərlik Milli ordu yaratmaq məqsədilə 400 milyon manat vəsait ayrılmışdı. Ordunun yaradılması prosesi 1920-ci ilin yanvarında əsasən başa çatdırıldı. 40 min nəfərlik nizami ordunun 30 mini piyada, 10 mini isə süvari qoşun hissələrindən ibarət idi.[354]

1919-cu il iyulun 21-də parlament "Azərbaycan Respublikasının Müəssislər Məclisinə seçkilər haqqında" Əsasnaməni təsdiq etdi.[355] Həmin il avqustun 11-də parlament tərəfindən qəbul olunmuş "Azərbaycan vətəndaşlığı haqqında" qanuna görə özü və ya valideynləri Azərbaycan ərazisində anadan olmuş keçmiş Rusiya imperiyasının bütün təbəələri milli və dini mənsubiyyətindən asılı olmayaraq Azərbaycan vətəndaşı hesab olunurdu.

Xalq maarifi sahəsində ciddi nailiyyətlər qazanıldı. Orta məktəblərin təxminən yarısı milliləşdirildi, məktəblərdə rus tarixi əvəzinə ümumtürk tarixi tədris olunmağa başladı, bütün məktəblərdə Azərbaycan dilinin tədrisi məcburi hesab olundu. 1919-cu il sentyabrın 1-də Bakı Universitetinin təsis olunması haqqında qərar qəbul olundu. Dərslər noyabrın 15-də başlandı. Kənd Təsərrüfatı İnstitutunun yaradılması haqqında qanun qəbul olundu. 1919-cu ilin oktyabrında mətbuat sahəsində senzura ləğv olundu. Azərbaycanın müxtəlif regionlarında kişi və qadın seminariyaları açıldı, dövlətin hesabına yüzə yaxın gənc azərbaycanlı ali təhsil almaq məqsədilə Avropanın universitetlərinə göndərildi. Ticarəti və daxili bazarı dirçəltmək məqsədilə 1918-ci il avqustun 27-də azad ticarət haqqında fərman verildi, oktyabrın 30-da ticarət donanmasının fəaliyyəti

[354] Азербайджанская Демократическая Республика (1918-1920). Армия (документы и материалы). Б., 1998, səh.104
[355] Azərbaycan Xalq Cümhuriyyəti. (1918-1920). Parlament. I cild. B., 1998, səh. 876.

bərpa olundu. 1919-cu ilin yayında Xəzər dənizində hərbi donanma yaradıldı.

Azərbaycan Xalq Cümhuriyyətinin mübahisəsiz ərazisi 97,3 min kvadrat kilometr idi. Gürcüstanla 8,7 min kvadrat kilometr, Ermənistanla isə 7,9 min kvadrat kilometr həmsərhəd ərazi Azərbaycan hökuməti tərəfindən mübahisəli torpaq sayılırdı. Azərbaycanın əhalisi 2 milyon 862 min nəfər idi ki, onun 70 faizini müsəlmanlar təşkil edirdi. [356]

[356] Адресь – Календарь…. səh. 93.



## AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ PARİS SÜLH KONFRANSINDA

Birinci dünya müharibəsi 1918-ci ilin noyabrında başa çatsa da, onun nəticələrini reallaşdırmaq uzun bir vaxt tələb edirdi. Qalib dövlətlər müharibədən sonrakı dünyanın vacib məsələlərini həll etmək üçün Parisdə beynəlxalq sülh konfransının çağırılmasına qərar verdilər.

Azərbaycan parlamenti Paris sülh konfransında iştirak etmək üçün tam səlahiyyətli və geniş hüquqlara malik nümayəndə heyəti göndərmək haqqında qərar qəbul etdi. Nümayəndə heyətinə rəhbərlik parlamentin sədri Ə.M.Topçubaşova tapşırıldı. Azərbaycan nümayəndə heyətinin Paris sülh konfransında iştirak etməkdə əsas məqsədi dünya dövlətləri tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin tanınmasına nail olmaq idi. Qonşu dövlətlərin Azərbaycanın istiqlalını tanıması müstəqilliyin kövrəkliyini aradan qaldırmaq üçün kifayət etmirdi. Dünyanın ən böyük dövlətləri tərəfindən Azərbaycanın müstəqilliyinin tanınması sovet Rusiyasının və Denikin hökumətinin təcavüzü qarşısında mühüm rol oynaya bilərdi. Azərbaycan istiqlalının tanınması və qorunub saxlanılmasında Qərb dövlətlərin himayəsinə nail olmaq işinə ölkənin ən nüfuzlu şəxslər cəlb olunmuşdu. Nümayəndə heyətinə müxtəlif partiyaları təmsil edən M.H.Hacınski (Müsavat), Ə.Ağaoğlu (bitərəf demokrat), Ə.Şeyxülislamzadə (Hümmət), müşavirlər M.Məhərrəmov (sosialist), M.Y.Mehdiyev (İttihad), C.Hacıbəyli (İttihad), əməkdaşları Ə.Hüseynzadə (bitərəf), V.Marçevski (bitərəf) daxil idi. Nümayəndə heyətinə katiblər S.Məlikov, Ə.Topçubaşov, tərcüməçilər A.Qafarov, Q.Qafarova, H.Məmmədova və heyət sədrinin şəxsi katibi R.Topçubaşov daxil idi. Hələ yolda ikən İstanbulda Əhməd bəy Ağaoğlu ingilis komandanlığı tərəfindən "İttihad və tərəqqi" partiyası-

nın rəhbərlərindən biri kimi ittiham edilərək Malta adasına sürgünə göndərildi.[357]

Mudros barışığından sonra Osmanlı hökumətinin Azərbaycana köməyi minumuma enmişdi. Sultan Türkiyəsinin özü Müttəfiqlərdən asılı vəziyyətə düşdü. Müttəfiqlər Osmanlı dövlətinin Azərbaycana diplomatik nümayəndə təyin etməsinə qadağa qoymuş, Ermənistana və Gürcüstana rəsmi nümayəndələr göndərilməsinə təbii hal kimi baxırdılar. Azərbaycan Xalq Cümhuriyyətinin tanınmasında Osmanlı dövlətinin gücsüzlüyünü görən Azərbaycan rəhbərliyi qərb oriyentasiyasına üstünlük verməyə başladı. Paris sülh konfransına hazırlaşan Ə.Topçubaşov İstanbulda Osmanlı hökumətinin üzvlərindən başqa, Ukrayna, İran, Rusiya, ABŞ, İtaliya, İsveç, Hollandiya və Ermənistanın rəsmi nümayəndələr ilə görüşmüş, beynəlxalq vəziyyət və sülh konfransı haqqında onlarla fikir mübadiləsi aparmış, Qərb ölkələrinin nümayəndələrinə Azərbaycanla bağlı məlumatlar vermişdi. Bu görüşlər arasında Azərbaycanın istiqlalı mövzusunda İran və Rusiya nümayəndələri ilə söhbətlər əhəmiyyətli olmuşdur.

Ermənilərin Avropa və Amerikada Azərbaycana qarşı apardığı təbliğat kompaniyasının gedişində "Azərbaycan" adlı dövlətin güya mövcud olmadığı əsaslandırılır, Azərbaycan Antantaya qarşı vuruşmuş məğlub Türkiyənin ayağına yazılır və bütün vasitələrlə müttəfiqlərin rəhbər xadimlərinə Azərbaycan haqqında qərəzli məlumatlar verilirdi. Ermənilərin və "ağ rus" hökumətinin təbliğatının təsiri altına düşən Fransa hökuməti Azərbaycan nümayəndələrini Parisə buraxmamaq üçün müxtəlif bəhanələrə əl atırdı və buna görə Azərbaycan nümayəndələri üç ay İstanbulda gözləməli oldular.

1919-cu ilin yanvarında fəaliyyətə başlayan Paris sülh konfransı keçmiş Rusiyanın cənubunda mövcud sosial-siyasi və iqtisadi vəziyyəti öyrənmək üçün buraya nümayəndə heyəti göndərdi. Nümayəndə heyətinə 30 nəfər daxil idi, onların

[357] ARDA, f. 894, siy. 10, iş.141, vər.17.



əksəriyyəti amerikalılar idi. Qafqaz üzrə müəyyən edilmiş komissiyanın başçısı Benjamin Moorqe Ə.Topçubaşov və M.Hacınski qarşısında aşağıdakı sualları qoydu: 1.Azərbaycan iqtisadi və siyasi baxımdan müstəqil yaşaya bilərmi; 2.Bunun üçün sizin maddi və mənəvi gücünüz kifayət edəcəkmi; 3.Qafqazda və ya Zaqafqaziyada federasiya  və ya konfederasiya yarana bilərmi; 4.Rusiya Fedarativ Respublikası yaransa, Azərbaycan onun tərkibinə daxil olmaq istəyərmi; 5. Hər hansı başqa dövlətin sizi öz təsiri altına almasının mümkünlüyü barəsində düşünürsünüzmü.[358] Azərbaycan nümayəndə heyəti birinci və ikinci suala müsbət cavab vermiş, federasiyanın yaranması məsələsinə şübhə ilə yanaşdığını bildirmişdir. Ə.Topçubaşov yazırdı: "Müttəfiqlər ermənilərin ifrat tələblərinə güzəştə getmək istəyirlər. Türkiyə və Azərbaycan hesabına Böyük Ermənistan yaratmağa cəhd edən ermənilər bizimlə federasiyaya daxil olmaq istəmədilər".[359] Beşinci sualın cavabında Topçubaşov ölkəmizə heç bir iqtisadi marağı olmayan, əxlaqi və ümumbəşəri xarakterli Vilson prinsiplərinə əsaslanan Amerikanın Azərbaycana dəstək olmaq istədiyini bildirdi.

Konfransda iştirak etmək üçün 1919-cu ilin yanvarından icazə gözləyən Azərbaycan nümayəndə heyəti üç aylıq gərgin diplomatik-siyasi mübarizədən sonra ingilislərin köməyi ilə mayın əvvəllərində Parisə gedib çıxa bildi. Mayın 28-də ABŞ prezidenti V.Vilson Azərbaycan nümayəndə heyətini qəbul etdi. Vilsona təqdim edilmiş memorandumda Azərbaycan respublikasının yaranma tarixi, onun azadlıq yolunda verdiyi qurbanlardan bəhs olunurdu. Memorandumda göstərilirdi ki, bu mübarizədə Azərbaycanın iki şəhəri və 500 kəndi dağıdılmış, 150 min nəfərə qədər sakini qurban getmişdir. Təkcə İrəvan quberniyasında qısa bir müddət ərzində 200 müsəlman kəndi yandırılmış və 200 min nəfər müsəlman evsiz-eşiksiz

[358] Topçubaşov Ə. Paris məktubları.
[359] Topçubaşov Ə. Göstərilən əsəri, səh. 24-25.

qalmışdır.[360] ABŞ prezidentindən Azərbaycan istiqlaliyyətinin tanınması, Vilson prinsiplərinin (1. Hər bir millət xarakterindəki intellektual və mənəvi-dini xüsusiyyətlərinə görə seçilməlidir; 2. Hər bir millət öz taleyini müəyyən etməyə qadir olduğunu göstərməlidir; 3. O, öz xərclərini ödəmək üçün iqtisadi, təbii və maliyyə vasitələrinə malik olmalıdır; 4. O, özünü xarici təcavüzdən qoruya bilməlidir; 5. O, tabe olduğu ölkənin hökumətinin zülmündən əziyyət çəkmiş olmalıdır) Azərbaycana aid edilməsi, Azərbaycanın Millətlər Cəmiyyətinə qəbul edilməsi, ABŞ-ın Azərbaycana hərbi sahədə yardım göstərməsi, ABŞ-la Azərbaycan arasında diplomatik və iqtisadi əlaqələrin bərqərar edilməsi məsələlərində Azərbaycan nümayəndə heyətinə kömək göstərilməsi xahiş olunurdu.[361] Lakin V.Vilson Azərbaycan nümayəndə heyətini soyuq qarşıladı, nümayəndə heyətinə konfederasiya ideyasını müdafiə etməyi, Millətlər Cəmiyyətinin mandatı ilə böyük dövlətlərdən birinin bu konfederasiya üzərində qəyyumluğunu qəbul etməyi məsləhət gördü. Konfederasiya məsələsinə Azərbaycan və qismən də gürcü nümayəndə heyəti müsbət yanaşırdı. Bu işin reallaşmasına əngəl olan isə erməni nümayəndə heyətinin pozuculuq fəaliyyəti idi. Ermənilər Paris sülh konfransı rəhbərliyindən tələb edirdilər ki, birinci dünya müharibəsinin Antantanın xeyrinə qələbə ilə başa çatmasında onların böyük xidmətlərini nəzərə alaraq, qalib dövlətlər "Böyük Ermənistan"ın yaradılmasında ermənilərə yardımçı olmalıdırlar. Ermənilər Türkiyənin 7 şərq vilayəti, İrəvan quberniyası, Tiflis və Yelizavetpol (Gəncə) quberniyalarının cənubunu və Qars torpaqlarından ibarət böyük bir ərazini tələb edirdilər. Bundan əlavə ermənilər 19 milyard frank həcmində müharibə təzminatı almaq istədiklərini də gizlətmirdilər.[362] Yeri gəlmişkən, ermənilərin

[360] ARDA, f.894, siy.10, iş. 94, vər. 66-67.
[361] Раевский А. Мусаватское правительство на Версальской конференции. Донесения председателя азербайджанской мусаватской делегации. Б., 1931, səh.39-40.
[362] "Азербайджан" qəzeti. 18 may 1919.



bu əsassız iddialarını Paris, London, xüsusilə də Vaşinqton qızğın müdafiə edirdi.

Paris sülh konfransında iştirak edən İran nümayəndə heyəti isə təqdim etdiyi memorandumda Bakı, Dərbənd, Şəki, Şamaxı, Gəncə, Qarabağ, Naxçıvan və İrəvanın ona verilməsini tələb edirdi. Müharibədə heç bir rolu olmayan İranın bu qəribə iddialarına konfrans heç bir reaksiya vermədi, üstəlik 1919-cu il 9 avqust tarixli ingilis-İran müqaviləsindən sonra onun nümayəndələri konfransdan uzaqlaşdırıldı. 1920-ci il martın 21-də İran Azərbaycan dövlətini müstəqil dövlət kimi tanıyaraq onunla dostluq haqqında müqavilə imzaladı.[363]

Nəhayət, 1920-ci il yanvarın 11-də Parisdə Müttəfiq Dövlətlərin Ali Şurası Azərbaycanın istiqlaliyyətinin de-fakto tanınması haqqında yekdilliklə qərar qəbul etdi. Yanvarın 14-də bu xəbər Azərbaycana çatdırıldı və parlament onu təntənəli şəkildə qeyd etdi. Millət vəkilləri və parlamentin iclasında iştirak edən xarici ölkələrin diplomatik nümayəndələri istiqlal yolunda qurban getmiş Vətən oğullarının və Osmanlı əsgərlərinin xatirəsini yad etdilər. Bu hadisə münasibətilə ümumi amnistiya elan edildi.[364]

Yanvarın 19-da Azərbaycanın və Gürcüstanın rəsmi nümayəndələri Paris sülh konfransı Ali Şurasının iclasına dəvət edildilər. Antanta Cənubi Qafqazın yeni dövlətlərini tanımaqla onları xarici təcavüzdən qorumaq üçün öz üzərinə öhdəliklər götürdü. Azərbaycan tərəfi ABŞ və Avropa dövlətlərindən alınması nəzərdə tutulan 100 parovoz, 2 min ədəd çən, 500 bağlı vaqon müqabilində 200 milyon pud ağ neft, eləcə də pambıq, yun, ipək, gön-dəri məhsulları göndərməyi öhdəsinə götürdü.[365]

[363] ARDA, f.970, siy.1, iş 101. vər. 2-3.
[364] Mir Yakub. Beynəlmilel siyasetde petrol. İstanbul, 1928, səh.121.
[365] Yenə orada, səh.129.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN SOVET RUSİYASI TƏRƏFİNDƏN İŞĞALI

Azərbaycanın beynəlxalq aləmdə müstəqil dövlət kimi tanınmasına baxmayaraq, ölkənin şimal sərhədlərindəki vəziyyət gərgin olaraq qalırdı. Sovet Rusiyasının xarici işlər komissarı G.Çiçerin 1920-ci il yanvarın əvvəllərində Azərbaycan hökumətinə göndərdiyi notada Denikin əleyhinə hərbi ittifaq bağlamağı təklif edirdi. Azərbaycan rəhbərliyi başa düşürdü ki, Sovet hökumətinin əsas məqsədi bu gənc respublikanı Denikinlə qeyri-bərabər hərbi münaqişəyə cəlb edib zəiflətmək, sonra isə onun istiqlaliyyətinə son qoymaqdan ibarətdir. AXC-nin xarici işlər naziri F.Xoyski cavab notasında yazırdı ki, Denikinlə Sovet hökuməti arasındakı mübarizə rus xalqının daxili işidir və Azərbaycan hökuməti Rusiyanın daxili işinə qarışmaq niyyətində deyil. Çiçerin yanvarın 23-də ikinci notasında Azərbaycanın müstəqilliyinə münasibətini bildirməkdən yan keçir və Azərbaycan hökumətini Denikinə qarşı mübarizə aparmaqdan imtina etməkdə günahlandırırdı. F.X.Xoyski isə notasında Azərbaycanın istiqlaliyyətinin Sovet Rusiyası tərəfindən qeyd-şərtsiz tanınmasını təkid edirdi. Çiçerinin martın 7-də göndərdiyi növbəti nota baş aldatmaqdan və vaxt uzatmaqdan başqa bir şey deyildi. Getdikcə aydın olurdu ki, Rusiyanın bu hərəkətləri Azərbaycana qarşı hazırlanan hərbi müdaxiləni pərdələmək və Azərbaycan hökumətinin sayıqlığını azaltmaq məqsədi güdür. Sovet Rusiyasının Azərbaycana əsl münasibətini V.Leninin 1920-ci il martın 17-də Qafqaz cəbhəsinin hərbi-inqilab Şurasının üzvləri Smilqa və Orconikidzeyə göndərdiyi teleqram dolğun əks etdirir: "Bakını zəbt etmək bizə olduqca və olduqca zəruridir, bütün səylərinizi buna yönəldin".[366]

[366] Интернациональная помощь XÛ Армии в борьбе за победу советской власти в Азербайджане. Документы и материалы. 1920-1921 гг. Б., 1989, səh.17.



Hələ 1918-ci ilin dekabrında bolşeviklər Bakıda ümumi siyasi tətil keçirməyə nail oldular. Tətildə 25-dən çox müəssisənin 12 minə qədər fəhləsi iştirak edirdi. 1919-cu ilin mayında bolşeviklər Bakıda ikinci dəfə tətil keçirməyə cəhd göstərdilər. Azərbaycan bolşeviklərinin sosial bazasını əsasən qeyri-müsəlman əhalisi təşkil edirdi. 1919-cu il aprelin 25-də Azərbaycanın cənub bölgəsində bolşeviklər tərəfindən qızışdırılan rus əhalisinin milli hökumətə qarşı qiyamı başlandı. Qiyamçılar bölgəni "Muğan Sovet Respublikası" elan etdilər. Avqustun əvvəlində qiyam hökumət qüvvələri tərəfindən yatırıldı.

Hökumətin torpaq islahatını yubatmasından bolşeviklər məharətlə istifadə etdilər. 1919-cu ilin əvvəllərində bir sıra qəzalarda bolşeviklərin rəhbərliyi ilə kəndli çıxışları başlandı. Bunlardan ən güclüsü Gəncədə baş verdi. Bu çıxış 1919-cu ilin sentyabrında yatırıldı.[367]

Böhranı kəskinləşdirən amillərdən biri də Azərbaycanda, xüsusən, Bakıda olan Türkiyə kommunistləri və ittihadçılarının xalq arasında geniş nüfuzlarından istifadə edərək, rus ordusunun gələcək yürüşü xeyrinə təbliğat aparmaları idi. Türklər iddia edirdilər ki, güya qırmızı ordunun Türkiyədə Kamal hərəkatına köməyə tələsməsinə baxmayaraq, Azərbaycan hökuməti rus ordusunu öz ərazisindən buraxmaq istəmir. Buna görə də türk kommunistləri yerli və xarici bolşeviklərlə birlikdə milli hökumətə qarşı mübarizə aparmağa məcburdurlar[368].

1920-ci il fevralın 11-12-də Bakıda Azərbaycan Kommunist (bolşeviklər) Partiyası təsis edildi. Bolşeviklər partiyasının faktiki rəhbəri Azərbaycan xalqının qatı düşməni A.Mi-

[367] Токаржевский Е.А. Из истории иностранной интервенций и гражданской войны в Азербайджане. Б., 1957, səh.249

[368] Məmmədzadə M.B. Milli Azərbaycan hərakatı. Berlin, 1938; Bakı, 1992, səh.137.

koyan idi. Partiya milli hökuməti yıxmaq, Sovet Azərbaycanı qurmaq üçün silahlı üsyan xəttini irəli sürdü.[369]

Sovet Rusiyası Ermənistanın Azərbaycana qarşı düşmənçiliyindən məharətlə istifadə etdi. 1920-ci ilin əvvəllərində erməni nümayəndələri Priumov və Zaxaryan Moskvada ərazi güzəştləri müqabilində Azərbaycan hökumətini devirmək planlarını Sovet Rusiyasına təklif etdilər. Qarabağda və Gəncəbasarda erməni əhalisinin qiyamı və Azərbaycana qarşı Ermənistanın müharibəsi bu planın tərkib hissəsi idi. 1920-ci ilin Novruz bayramı günlərində Azərbaycan ordusunun, demək olar ki, hamısı Qarabağ istiqamətində erməni qiyamçılarına qarşı vuruşduğu üçün ölkənin şimal sərhədləri müdafiəsiz qaldı. Yetmiş iki minlik XI rus ordusu Samur çayı sahilindən Azərbaycan sərhədlərinə yaxınlaşdı. Azərbaycan hökumətinin Qərbdən gözlədiyi yardım reallaşmadı.

Sovet Rusiyasına münasibət məsələsində də Azərbaycan hökumətində yekdillik yox idi: xarici işlər naziri Fətəli xan Xoyski Rusiyaya münasibətdə sərt xəttin, daxili işlər naziri Məmməd Həsən Hacınski isə Azərbaycan bolşevikləri ilə danışığa girib onlara güzəştə getməyin tərəfdarı idi. M.Hacınskiyə görə Sovet Rusiyasına geniş güzəştlər verməklə Azərbaycanın istiqlalını qorumaq mümkün idi.

1920-ci ilin martında hökumətin keçirdiyi konfransda M. Hacınskinin tərəfdarları qalib gəldilər, N.Yusifbəyli baş nazir vəzifəsindən istefa verdi. Yeni hökumətin təşkili M.H. Hacınskiyə tapşırıldı. Lakin M.H.Hacınski bu hökumətin təşkilinə tələsmirdi, az sonra bolşeviklər partiyasına daxil oldu. Yeni hökumətin təşkilinin yubadılması onsuz da gərgin olan vəziyyəti bir qədər də mürəkkəbləşdirdi. Parlamentdə müxtəlif partiyalar arasında gedən mübarizə son həddə çatdı. Mövcud hakimiyyətə qarşı daim müxalifətdə olan və hökuməti devirməyə çalışan ittihadçılar Rusiya ilə hərbi ittifaqa girməyi tələb edirdilər. Azərbaycan bolşevikləri isə guya ölkədə qay-

[369] Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri. B., 1986, səh.199.



da-qanun yaratmaq naminə hərbi yardım üçün Rusiyaya müraciət etməyə və XI rus ordusunu Azərbaycana dəvət etməyə çağırırdılar.

1920-ci ilin aprelində Denikinin qoşunlarını məğlub edən XI rus ordusu Azərbaycan sərhədlərinə yaxınlaşdı. Aprelin 15-də F.Xoyski Çiçerinə göndərdiyi notada rus ordusunun Azərbaycan sərhəddində toplanmasının səbəbləri və məqsədi barədə məlumat verilməsini tələb etdi. Lakin Çiçerin bu notaya əhəmiyyət vermədi. Həmin günlərdə AK(b) P-nin nümayəndələrindən ibarət bir heyət Petrovsk şəhərinə gedərək XI rus ordusunun Azərbaycan sərhədlərini keçməsi məsələsini müzakirə etdilər. A.Mikoyan başda olmaqla Bakı bolşevikləri Azərbaycan xalqı adından XI rus ordusunu Azərbaycana dəvət etdilər. Qabaqcadan razılaşdırılmış plana görə rus ordusu Bakıda bolşevik qiyamının başlanmasından 1-2 gün sonra Azərbaycana soxulmalı idi. Bununla da dünya ictimaiyyətində belə bir rəy yaradılacaqdı ki, Azərbaycan hökuməti xarici hərbi müdaxilənin deyil, daxili qiyamın qurbanı olmuşdur. Lakin Bakıda qiyam başlanmamış – aprelin 26-dan 27-nə keçən gecə XI ordu hissələri Azərbaycan ərazisinə daxil olub Bakıya doğru irəliləməyə başladılar. Sərhəd qüvvələrindən ibarət azsaylı Azərbaycan ordu hissələri düşmənə müqavimət göstərə bilmədi. Hərbi nazirin müavini Ə.Şıxlinski dəmiryol körpülərinin partladılması əmrini ləğv etdi. Bakıdakı parlament və digər mühüm dövlət orqanlarını qoruyan "Yardım Alayı" türkiyəli komandirlərin təhriki ilə bolşeviklərin tərəfinə keçdi. Hərbi gəmilərin topları dənizdən parlament binasına tuşlandı.

XI ordunun Azərbaycana hücumu ilə eyni vaxtda, aprelin 27-də gündüz saat 12-də AK(b)P MK və RK(b)P Qafqaz Diyar Komitəsinin Bakı bürosu Azərbaycan parlamentinə hakimiyyəti təhvil vermək haqqında ultimatum verdi. Azərbaycan parlamentinin hakimiyyətin təhvil verilməsinə həsr olunmuş sonuncu iclası gecə saat $20^{45}$-də başa çatdı. Parlament

aşağıdakı şərtlərlə hakimiyyətin Azərbaycan kommunistlərinə verilməsi barədə qərar qəbul etdi:

1. Rus ordusu Bakıya daxil olmadan dəmir yolu ilə birbaşa Anadolunun köməyinə gedəcək;

2. Azərbaycan istiqlalı və ərazi bütövlüyü hər cür təcavüz və ilhaqdan qorunacaq;

3. Azərbaycan ordusu olduğu kimi saxlanacaq;

4. Azərbaycanın siyasi partiyaları üçün fəaliyyət azadlığı təmin olunacaq;

5. Keçmiş dövlət xadimləri, hökumət üzvləri və millət vəkilləri təqib olunmayacaq, dövlət idarələri qulluqçularının iş yerləri saxlanacaq, yalnız rəhbər vəzifəli şəxslər dəyişdiriləcək;

6. Azad şəraitdə toplaşacaq Azərbaycan Şuraları hakimiyyətin idarəçilik formalarını təyin edəcək.

Aprelin 29-da Azərbaycan İnqilab Komitəsi hərbi yardım göstərmək xahişi ilə Sovet Rusiyasına müraciət etdi. Halbuki, XI rus ordusu aprelin 27-də Azərbaycanın hüdudları daxilində idi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq fəaliyyətdən sonra süqut etdi.

1920-ci il aprelin 28-də Azərbaycan Sovet Sosialist Respublikası elan olundu. Hakimiyyəti təhvil alan bolşeviklər heç bir vədinə əməl etmədilər. Bakıda talan həftəsi başladı, qırmızı ordu Azərbaycanın şəhər və kəndlərini bir-birinin ardınca işğal etməyə başladı.

Azərbaycan xalqı 1991-ci ilin oktyabrına kimi bu işğalın acı həyatını yaşamağa məcbur edildi.

**23 ay fəaliyyət göstərən Azərbaycan Xalq Cümhuriyyəti zaman məhdudluğuna baxmayaraq, nələri edə bildi:**

- 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası Tiflisdə Həsən bəy Ağayevin sədrliyi ilə ilk iclasını keçirdi və 6 maddədən ibarət "İstiqlal bəyannaməsi"ni qəbul etdi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti yarandı.





- Azərbaycan Xalq Cümhuriyyəti coğrafi məfhum olan Azərbaycan sözünü siyasi məfhuma çevirdi. Bu vaxta qədər müxtəlif adlar altında təsbit olunan bu ərazi Azərbaycan, dövlət isə Azərbaycan Xalq Cümhuriyyəti adlanmağa başladı.
- 1918-ci il iyunun 4-də Osmanlı dövləti ilə Batum müqaviləsi imzalandı.
- 1918-ci il iyunun 21-də Azərbaycan hökuməti Azərbaycanın ilk dövlət rəmzlərini təsis edərək qəbul etdi.

  - İyunun 21-də qırmızı parça üzərində ağ aypara və ağ səkkizguşəli ulduz təsvir olunan bayraq (Osmanlı bayrağına oxşar) qəbul edildi;

- Noyabrın 9-da hazırki üçrəngli bayrağımız qəbul edildi;

- 1918-ci il iyunun 24-də Milli hökumət Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsinin Qazax şəhərinə köçürülməsi haqqında qərar qəbul etdi.
- 1918-ci il iyunun 26-da Azərbaycan hökumətinin qərarı ilə Azərbaycan Milli Ordusu yaradıldı.
- 1918-ci il iyunun 27-də Azərbaycan hökumətinin qərarı ilə Azərbaycan (türk) dili dövlət dili elan olundu.
- 1918-ci il iyunun 27-dən – iyulun 1-dək Qaraməryəm yaxınlığında Qafqaz İslam Ordusu Korqanovun rəhbərlik etdiyi Bakı Soveti qüvvəllərini darmadağın etdi.
- 1918-ci il iyulun 15-də Azərbaycan hökumətinin qərarı ilə erməni-daşnak qüvvələri tərəfindən türk-müsəlman əhalisinə qarşı həyata keçirilən soyqırımları təhqiq etmək və tarixi həqiqətləri dünyaya çatdırmaq üçün Fövqəladə Təhqiqat Komissiyası yaradıldı.

- 1918-ci il iyulun 20-də Qafqaz İslam Ordusu Şamaxını Bakı soveti qüvvəllərindən azad etdi.
- 1918-ci il iyulun 30-da Milli hökumətin qərarı ilə Yelizavetpol şəhəri-Gəncə, Qaryagin isə Cəbrayıl adlandırıldı.
- 1918-ci il iyulun 31-də Şaumyan başda olmaqla Bakı Soveti qüvvələri istefa verdi.
- 1918-ci il sentyabrın 15-də Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu Bakı şəhərini Sentrokaspi (daşnak-bolşevik) qüvvələrindən azad etdi.
- 1918-ci il sentyabrın 17-də Fətəli xan Xoyskinin rəhbərlik etdiyi Milli hökumət Bakı şəhərinə daxil oldu. Bakı Azərbaycanın paytaxtına çevrildi.
- 1918-ci il oktyabrın 21-də Azərbaycan Xəzinə Palatası təşkil edildi.
- 1918-ci il noyabrın 1-də Hərbi Nazirlik yaradıldı.
- 1918-ci ilin noyabrında Azərbaycan Məhkəmə Palatası təşkil edildi.
- 1918-ci il noyabrın 17-də general Tomson başda olmaqla ingilis qüvvələri Bakıya daxil oldu. Bakıda ingilis-general qubernatorluğu yaradıldı.
- 1918-ci il dekabrın 7-də Azərbaycan Parlamenti təsis edildi.
- Azərbaycan Parlamentində türk-müsəlman əhalisinə – 80, ermənilərə 21, ruslara 10, almanlara 1, yəhudilərə 1, gürcülərə 1, polyaklara 1 yer ayrıldı. Parlamentin demokratik tərkibi hətta bugünkü Avropa Şurasını da təəccübləndirə bilir.
- Azərbaycan parlamentinin 17 ay ərzində 145 iclası keçirilmişdir. Parlamentin müzakirəsinə 270-dən çox qanun lahiyəsi çıxarılmış, onlardan 230-u qəbul olunmuşdur.



- Parlamentdə 11 fraksiya fəaliyyət göstərirdi.
- Parlamentdə 11 komissiya təşkkil olunmuşdu.

- Azərbaycanda hakimiyyət bölgüsü aparıldı. 1.Qanunverici, 2.İcraedici, 3.Məhkəmə hakimiyyəti.
- 1918-ci ilin dekabrında Azərbaycan parlamenti Bakı şəhərinin azad edilməsində şəhid olmuş türk və Azərbaycan əsgərlərinin şərəfinə Bakının ən hündür yerində abidənin ucaldılması haqqında qərar qəbul etdi.
- 1918-ci ilin dekabrında milli valyuta olan Bakı bonu tədavülə buraxıldı.
- 1918-ci il dekabrın 28-də parlamentdə Ə.Topçubaşovun başçılığı ilə Paris sülh konfransına xüsusi nümayəndə heyətinin göndərilməsi haqqında qərar qəbul edildi.
- 1918-ci il dekabrın 28-də general Tomson Fətəli xan Xoyskinin başçılıq etdiyi hökuməti tanıdığını bəyan etdi.
- 1919-cu ilin yanvarında Qarabağda erməni separatçılarının qanunsuz hərəkətlərinə son qoymaq üçün Qarabağ general-qubernatorluğu yaradıldı. Fevralda Xosrov bəy Sultanov qubernator təyin olundu.
- 1919-cu ilin fevralında ermənilər təfəfindən Naxçıvana edilən hücumların qarşısını almaq üçün Naxçıvan general-qubernatorluğu yaradıldı.
- 1919-cu il martın 3-də Azərbaycan Teleqraf Agentliyi yaradıldı.
- 1919-cu il martın 21-də Əlifba islahat komissiyası yaradıldı. Məqsəd latın əlifbasına keçməkdən ibarət idi.
- 1919-cu ilin martından Novruz bayramı dövlət səviyyəsində qeyd olundu.
- 1919 və 1920-ci illərdə 31 mart dövlət səviyyəsində milli qırğın günü kimi qeyd olundu.

- 1919-cu ilin martında "Əksinqilabla mübarizə təşkilatı" adı altında Milli təhlükəsizlik xidməti yaradıldı.
- 1919-cu il iyunun 11-də Dövlət Müdafiə Komitəsi yaradıldı.
- 1919-cu il iyunun 15-də Denikin təhlükəsinə qarşı Gürcüstanla hərbi pakt imzalandı.
- 1919-cu il iyunun 28-də Böyük Britaniya hökuməti ingilis ordusunun Qafqazdan çıxarılacağı haqqında Paris sülh konfransına rəsmi məlumat verdi.
- 1919-cu il iyulun 21-də parlament Azərbaycan Respublikasının Müəssislər Məclisinə seçkilər haqqında əsasnaməni təsdiq etdi. Əsasnaməyə görə seçkilərdə qadın və kişi bərabərliyi təsbit olundu.
- 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Yəni, rəngindən, irqindən, cinsindən asılı olmayaraq Azərbaycan ərazisində yaşayan bütün millətlərin nümayəndələri qanun qarşısında bərabər elan olundu.
- 1919-cu il avqustun 24-də Naxçıvanda ABŞ general-qubernatorluğunun yaradılması barədə polkovnik V.Haskelin bəyanatı elan edildi və amerikalı polkovnik Edmund Delli bu zonaya qubernator təyin olundu. Lakin Azərbaycan hökumətinin ciddi müqaviməti və Naxçıvan əhalisinin kəskin etirazı nəticəsində amerikalılar öz niyyətlərini reallaşdıra bilmədilər.
- 1919-cu il avqustun 20-dən sentyabrın 2-nə kimi Azərbaycan müəllimlərinin birinci qurultayı keçirildi.
- 1919-cu il avqustun 22-də Dağlıq Qarabağ erməniləri Azərbaycan hökuməti qarşısında 26 bənddən ibarət öhdəlik götürdülər.
- 1919-cu il avqustun 23-də Qaçqın və köçkünlərlə bağlı komissiya yaradıldı.



- Hökumət qaçqın düşən əhali ilə bağlı parlament və hökumət səviyyəsində 10 qərar və qanun qəbul etdi.
- 1919-cu il avqustun 25-də ingilis qüvvələri Bakını tərk etdilər.
- 1919-cu ilin avqustunda Xəzər hərbi dəniz donanması yaradıldı.
- 1919-cu il sentyabrın 1-də Azərbaycan parlamenti 100 nəfər azərbaycanlı tələbənin xaricə göndərilməsi haqqında qanun qəbul etdi.
- 1919-cu il sentyabrın 1-də Azərbaycan Parlamenti Bakı Dövlət Universitetinin təsis edilməsi haqqında qanun qəbul etdi. Dərslər noyabrın 1-də başladı.
- 1919-cu ilin yayında Azərbaycan hökuməti özünün maliyyə çətinliklərinə baxmayaraq, Dağıstan Dağlılar Respublikasına 50 milyon manat həcmində yardım göstərdi.
- 1919-cu ilin avqustunda Lənkəranda qiyamçı qüvvələr darmadağın edilərək bölgədə Cümhuriyyətin hakimiyyəti bərpa olundu.
- 1919-cu il sentyabrın 3-də Lənkəran bölgəsindəki rus hərbi qüvvələri tərksilah edildi.
- 1919-cu il sentyabrın 30-da Dövlət Bankı təşkil olundu.
- 1919-cu ilin oktyabrında mətbuatda senzura ləğv olundu.
- 1919-cu il noyabrın 23-də Tiflisdə Azərbaycan-Ermənistan sazişi imzalandı.
- 1919-cu ilin dekabrında "İstiqlal" muzeyi açıldı.
- 1919-cu ildə Bakı neftini dünya bazarına çıxarmq üçün Bakı-Batum neft kəməri bərpa edilərək istifadəyə verildi.

- 1919-cu ilin sonunda İstehkamçılar məktəbi, Hərbi dəmiryolçular məktəbi, Hərbi feldşer məktəbi və Hərbiyyə məktəbi açıldı.
- Milli hökumət Gəncədə Nizami Gəncəvinin məqbərəsinin tikintisinə 500 min manat vəsait ayırdı. Amma məqbərəni tikmək üçün vaxt çatmadı.
- 1920-ci il yanvarın 11-də Versalda Azərbaycan Paris Sülh Konfransının Ali Şurası tərəfindən de-fakto tanındı.
- 1920-ci il yanvarın 14-də Azərbaycanın Paris Sülh konfransının Ali Şurası tərəfindən de-fakto tanınması şərəfinə Təzəpir məscidində dualar oxundu. Parlamentin təntənəli iclası keçirildi, Hürriyyət meydanında Milli ordunun rəsmi keçidi oldu.
- 1920-ci il martın 20-də sovet Rusiyası ilə ticarət müqaviləsi imzalandı. Lakin Rusiya bu müqaviləyə riayət etmədi.
- 1920-ci il martın 20-də Azərbaycan Xalq Cümhuriyyəti İran tərəfindən de-fakto və de-yure tanındı.
- 1920-ci il martın 20-də İranla bağlanmış müqaviləyə əsasən Tehranda səfirlik, Təbrizdə baş konsulluq, Rəştdə konsulluq, Ərdəbildə, Məşhəddə vitse-konsulluq, Xoy və Əhərdə konsul agentlikləri yaradıldı.
- 1920-ci ilin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyəti ordusunun sayı 40 minə çatırdı. Bunun 30 mini piyada, 10 mini isə suvari idi.
- Bakı-Culfa dəmir yolu inşa edilərək istifadəyə verildi.
- Kür çayı üzərində körpü salındı.
- 1920-ci il aprelin 27-də Azərbaycan parlamentinin sonuncu – 145-ci iclası axşam saat $20^{45}$-də başladı və $23^{25}$-dək davam etdi.
- 1920-ci il aprelin 27-də Parlament səs çoxluğu ilə 7 şərtlə hakimiyyətin kommunistlərə verilməsi haqqında qərar qəbul etdi.



## Azərbaycan Xalq Cümhuriyyəti aşağıdakıları həyata keçirə bilmədi

- Bakı neftini dünya bazarına tam gücü ilə çıxara bilmədi–2005-ci ildə Bakı-Ceyhan Beynəlxalq neft kəməri bunu reallaşdırdı.
- Azərbaycanda ali hərbi məktəb aça bilmədi – Müstəqilliyimizin yenidən bərpasından sonra çoxlu sayda ali hərbi məktəblər açıldı.
- Azərbaycan Konstitusiyasını qəbul edə bilmədi – 1995-ci ilin noyabrında Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi.
- Parlament seçkilərini keçirə bilmədi – 1995-ci ilin noyabrında parlament seçkiləri keçirildi.
- Ərəb əlifbasından Latın qrafikalı əlifbaya keçidi təmin edə bilmədi – 1991-ci ildə latın qrafikalı əlifbaya keçildi.
- Aqrar məsələni, yəni torpaq məsələsini həll edə bilmədi – 1996-cı ildə aqrar məsələ həll olundu.
- Qafqaz İslam Ordusunun şərəfinə abidə qoya bilmədi – 2000-ci ildə Şəhidlər xiyabanında bu əzəmətli abidənin açılışı oldu.
- Ermənistan və sovet Rusiyasının günahı üzündən onlarla qonşuluq münasibətlərini qura bilmədi. –Bu gün də Ermənistanla qonşuluq münasibətləri qurmaq mümkün olmamışdır.

# NƏTİCƏ

Cənubi Qafqazda bu gün də sakitlik yoxdur. Bu sakitliyi pozan qüvvələrin kimliyi və onlara havadarlıq edənlər də məlumdur. Cənubi Qafqazda silah gücünə özgə torpaqlarını işğal edən və bir milyon insanı qaçqınlıq həyatı yaşatmağa məcbur edən qüvvələr də məlumdur. Məlum olmayan və narahatçılıq doğuran odur ki, işğalçı siyasət həyata keçirən bu qüvvələr böyük dövlətlər tərəfindən müdafiə olunurlar.

Dünya bu gün terrora qarşı mübarizə aparır və bu mübarizədə hər bir sülhsevər xalqın iştirakına böyük ehtiyac var. Mərhum Avstriya tarixçisi Erix Fayql yazırdı ki, görəsən, mənim türkiyəli dostum erməni terrorçusunun gülləsinə tuş gəlməsəydi, mən bu həqiqətləri qələmə almağa cəhd edərdimmi? Bəli, Erix Fayql milli və dini fərqləri nəzərə almadan türklər və ermənilər arasında mövcud olan münasibətlərə aydınlıq gətirdi. Yazdığı əsərində obyektiv mövqe nümayiş etdirdiyinə görə yəqin ki, ruhu həmişə şad olacaq.

Heç bir zaman Cənubi Qafqazda olmayan, amma Cənubi Qafqazla bağlı maraqlı tədqiqatlar aparan F.Kazımzadə yazırdı ki, sovet quruluşu Azərbaycan əhalisini hər şeyindən, o cümlədən, öz tarixi keçmişindən məhrum etdi. Ancaq dünyanın hər yerinə səpələnmiş ermənilər özlərinə sərf edən təbliğatı aparmağa vaxt tapdılar. Güya onlar vaxtaşırı təqiblərə məruz qalmış və öz tarixi torpaqlarından qovulmuşlar. Ermənilər heç kimdən çəkinmədən "bizim düşmənimiz türklərdir" şüarını hər bir erməninin beyninə yeritməkdə davam edirlər.

Amerkalı tədqiqatçı T.Svyatoxovski yazır ki, XIX əsrin sonlarında erməni millətçiləri "Hnçaq" və "Daşnaksütyun" kimi terrorçu təşkilatlar yaradanda, bu təşkilatların kimə qarşı cəbhə açacağı və kimdən yardım alacağı da aydın idi. Həm də bu təşkilatlar məqsədlərinə çatmaq üçün hansı vasitələrdən istifadə edəcəklərini də gizlətmirdilər. Ancaq müsəlmanlar



(azərbaycanlılar–A.İ.) XX əsrin əvvəllərində "Hümmət" təşkilatını yaratmaqla kifayətləndilər. Təşkilatın məqsədi daha çox arzuya oxşayırdı: dünya müsəlmanlarının həmrəyliyinə nail olmaq. Bu həmrəyliyə nail olmaqdan ötrü başqa xalqlar hədələnmir və onların torpaqları gözaltına alınmırdı.

Yəqin ki, XIX əsrin ortalarında Türkiyədə səfərdə olan alman səyyahı Alfred Kyorte "Anadolu eskizlərində" öz fikirlərini kiminsə təzyiqi altında yazmamışdı. Ən əsası ona görə ki, bu əsər Almaniyada çap edilmişdi. Alfred Kyorte yazırdı ki, erməni ziyalıları çoxdan başa düşürlər ki, onların tayfaları hər yerdə pis ad qazanıblar. Ermənilər öz müsəlman qonşularının hesabına varlanmağı naqis iş hesab etmirlər, həm də xristian adı onlara xeyir gətirir.

Tanınmış rus tarixçisi V.Veliçko yazırdı ki, ermənilərin yazılı tarixi dürüst olmasa da, heç bir tarixçiyə tanış olmayan "böyük adlarla" onu doldurur və bəzən də mənşəyi şübhə doğuran adamlar şişirdilmiş halda təsvir olunur. Sərhədləri daim dəyişkən bir ölkə olan Ermənistanın şübhə doğuran hökmdarları həmişə qonşu padşahlardan asılı olub və onları satmaqla məşğul olublar.

XIX əsrin görkəmli gürcü publisisti İ.Çavçavadze yazırdı ki, qoy qadir allah onlara (ermənilərə-A.İ.) qüvvət, hamısına birləşmək bacarığı versin. Lakin heç kimə kələk gəlməsinlər, bizim adımızı alçatmaqla özlərini tərifləyib göyə qaldırmağa və şöhrətləndirməyə cəhd göstərməsinlər. Biz sizə sığınacaq verdik, sizi saxladıq və sizinlə qardaşlaşdıq. Bizimlə öz evimizdə düşmən kimi rəftar etməyin. Evində yaşayan düşmənin olunca, yolda uzanan şirin olsa daha yaxşıdır.

Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Ə.Topçubaşov Paris sülh konfransından yazırdı ki, Qafqazın gələcək taleyi ilə bağlı gürcülər bizimlə bütün məsələlərdə həmrəydirlər. Ancaq ermənilər bizdən və gürcülərdən qaçmaqla, az qala Qafqazda bir yerdə yaşamağımızı şübhə altına

almaq istəyirlər. Ermənilər unudurlar ki, biz Parisə sülhə nail olmaq üçün gəlmişik.

XX əsr dünyanın müxtəlif ölkələrində baş verən çoxsaylı faciələrlə yadda qaldı. 1992-ci ilin fevralında erməni hərbi birləşmələrinin Xocalıda dinc azərbaycanlı əhaliyə qarşı həyata keçirdiyi soyqırım əsrin ən böyük faciələrindən birinə çevrildi. Erməni hərbi birləşmələri 366-cı rus alayının köməyindən istifadə edərək fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərini işğal etdilər. Xocalı faciəsi zamanı 613 nəfər, o cümlədən 106 qadın və 23 körpə qətlə yetirildi, 487 nəfər əlil oldu, 1275 nəfər əsir alındı, 150 nəfər isə itkin düşdü.

1992-ci il mayın 8-9-da Şuşa şəhəri erməni hərbi biləşmələrinin artilleriya və raket atəşi nəticəsində işğal edildi.

1992-ci il mayın 16-18-də erməni hərbi birləşmələri ağır artilleriyanın köməyi ilə Qarabağın dağlıq hissəsindən kənarda yerləşən Laçın rayonunu işğal etdilər. İşğal nəticəsində Laçının 71 min nəfər əhalisi doğma yerlərini tərk etməyə məcbur oldular.

1993-cü il aprelin 1-3-də erməni hərbi birləşmələri Qarabağın dağlıq hissəsinin hüdudlarından kənarda yerləşən Kəlbəcər rayonunu işğal etdilər. Nəticədə 74 min nəfər azərbaycanlı öz doğma yurdlarından qovuldu. Kəlbəcərin işğalı nəticəsində 511 nəfər həlak olmuş, 321 nəfər itkin düşmüş və ya əsir düşmüş, mülki əhalidən 50 nəfər yaralanmışdır. İlkin hesablamalara görə Kəlbəcər rayonuna 761 milyon ABŞ dolları məbləğində maddi ziyan dəymişdir.

1993-cü ilin aprelində Birləşmiş Millətlər Təşkilatının (BMT) Təhlükəsizlik Şurası 3205-ci iclasında Azərbaycan Respublikasının Kəlbəcər rayonunun erməni hərbi birləşmələri tərəfindən işğal edilməsi ilə bağlı 822 saylı qətnamə qəbul etdi. Qətnamənin 1-ci bəndində işğalçı qüvvələrin həm Kəlbəcər rayonundan, həm də Azərbaycanın işğal olunmuş digər rayonlarından dərhal çıxarılması tələbi öz əksini tapmışdır.



1993-cü il iyunun 26-28-də erməni hərbi biləşmələri Azərbaycanın Ağdərə rayon mərkəzini və onun kəndlərini işğal etdilər.

1993-cü il iyulun 23-24-də Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən Ağdam şəhəri erməni hərbi birləşmələri tərəfindən işğal edildi. Ağdamın 165 min əhalisi öz dədə-baba torpaqlarını tərk etməyə məcubur edildi. Erməni hərbi birləşmələrinə qarşı müharibədə ağdamlılar 6 min şəhid verdilər.

1993-cü il iyulun 29-da BMT-nin Təhlükəsizlik Şurası 3259-cu iclasında Azərbaycan Respublikasının Ağdam rayonunun erməni hərbi birləşmələri tərəfindən işğal olunması ilə əlaqədar 853 saylı qətnamə qəbul etdi. Qətnamənin 3-cü bəndində Ağdam rayonunun və Azərbaycan Respublikasının bu yaxınlarda işğal olunmuş digər ərazilərinin də qeyd-şərtsiz azad edilməsi tələbi öz əksini tapdı.

1993-cü il avqustun 23-də Qarabağın dağlıq hissəsindən kənarda yerələşn Füzuli şəhərini və onun kəndlərini erməni hərbi birləşmələri işğal etdilər. Nəticədə 146 min nəfər azərbaycanlı öz yaşayış yerini tərk etməyə məcbur oldu.

1993-cü il avqustun 24-də Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən Cəbrayıl şəhəri və onun kəndləri erməni hərbi birləşmələri tərəfindən işğal edildi. Nəticədə 66 min nəfər azərbaycanlı öz yaşayış yerlərini tərk etməli oldular.

1993-cü il avqustun 31-də Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən Qubadlı rayon mərkəzi və onun kəndləri erməni hərbi birləşmələri tərəfindən işğal edildi. Nəticədə 37 min 900 nəfər azərbaycanlı öz yaşayış yerlərini tərk etməli oldular.

1993-cü il oktyabrın 14-də BMT-nin Təhlükəsizlik Şurasının 3292-ci iclasında qəbul etdiyi 874 saylı qətnamədə erməni qüvvələrinin işğal olunmuş Azərbaycan rayonlarından çıxarılmasının zəruriliyi yenidən qeyd olunmuşdur.

1993-cu il oktyabrın 30-da Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən Zəngilan rayon mərkəzi və onun kəndləri erməni hərbi birləşmələri tərəfindən işğal edildi. Nəticədə 39 min 500 nəfər azərbaycanlı öz yaşayış yerlərini tərk etməyə məcbur edildi.

1993-cü il noyabrın 12-də BMT-nin Təhlükəsizlik Şurası Zəngilan rayonunun və Horadiz şəhərinin erməni hərbi biləşmələri tərəfindən işğal edilməsi ilə əlaqədar 884 saylı qətnamə qəbul etdi. Qətnamənin 2-ci bəndi erməni hərbi birləşmələrinin Azərbaycan Respubilikasının Zəngilan rayonunu və işğal olunmuş digər rayonlarını azad etməyə çağırdı.

1988-1993-cü illərdə Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində Ermənistan Respublikasında yaşayan 250 min azərbaycanlı və Azərbaycanın işğal olunmuş ərazilərindən 760 min azərbaycanlı öz dədə-baba torpaqlarından qovuldu. Azərbaycanlı qaçqınların sayı 1 milyon 10 min nəfərə çatdı.

1988-1994-ci illərdə Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində 900 yaşayış məntəqəsi, 150 min fərdi yaşayış evi, 7 min ictimai bina, 693 məktəb, 855 uşaq baxçası, 695 tibbi müəssisə, 927 kitabxana, 9 məscid, 44 kilsə, 9 tarixi saray, 464 tarixi abidə və muzey, 40 min muzey eksponatı, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 800 km. avtomobil yolu, 160 körpü, 2300 km. su kommunikasiyaları, 2 min km. qaz kommunikasiyaları, 15 min km. elektrik xətləri, 280 min ha. meşələr, 1 milyon ha. kənd təsərrüfatı üçün yararlı torpaqlar, 1200 km. irriqasiya sistemi sıradan çıxarılmışdır. Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Azərbaycan tərəfinə dəyən maddi ziyanın həcmi 60 milyarddan çox ABŞ dolları həcmində qiymətləndirilir.

1988-1994-cü illərdə Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində 20 min insan həlak olmuş, 50 mindən artıq insan isə yaralanmış və ya şikəst olmuşdur.



1991-2009-ci illərdə Ermənilər tərəfindən əsir, itkin düşmüş və girov götürülmüş şəxslərin sayı 4166 nəfər təşkil edir. Onlardan 3364 nəfər hərbçi, 795 nəfər mülki şəxslərdir (7 nəfərin hərbçi və ya mülki vətəndaş olduğu məlum deyil). Mülki şəxslərdən 47 nəfəri itkin düşərkən yetkinlik yaşına çatmamış uşaq (16 nəfər azyaşlı qız), 255 nəfər qadın, 354 nəfər (152 nəfər qadın) yaşlı şəxsdir. Əsir, itkin düşmüş 4166 nəfərdən 783 nəfərin əsir və girov götürülməsi barədə məlumatlar daxil olmuş, şahid ifadələri alınmışdır. Əsir və girovluqdan 1396 nəfər azad edilmiş, onlardan 343 nəfər qadın, 1053 nəfər kişi, 169 nəfər uşaq (65 nəfər az yaşlı qız), 289 nəfər (112 nəfər yaşlı qadın) yaşlı şəxsdir. İndiyə qədər ermənilər tərəfindən 552 nəfərin əsir və girovluqda qətlə yetirildiyi və ya müxtəlif səbəblərdən vəfat etdiyi müəyyən edilmişdir. Onlardan 104 nəfər qadın, 447 nəfər kişidir. Bunlardan 137 nəfərin yalnız adı məlumdur, 74 nəfər isə naməlum şəxslərdir.

1994-cü il mayın 12-də Azərbaycanla Ermənistan arasında atəşkəsin elan olunmasından sonra 5500-dən artıq hərbçi və dinc sakin erməni silahlıları tərəfindən qətlə yetirilmişdir.

20 ilə yaxındır ki, Azərbaycan hakimiyyəti erməni hərbi birləşmələri tərəfindən işğal olunmuş torpaqlarımızın geri qaytarılması üçün danışıqlar aparır. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının ermənilərin işğal olunmuş Azərbaycan torpaqlarından çıxarılması ilə bağlı dörd qətnaməsi mövcuddur, amma nəticə isə yoxdur…

## TƏDQİQATLA BAĞLI MƏNBƏ VƏ ƏDƏBİYYAT

**Azərbaycan dilində**


1. Azərbaycan Respublikası Dövlət Arxivi, f.100; f.879; f.894; f.895; f.970; f.1061.
2.Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivi, f.277.
3. Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyası 2 cilddə. I c., Bakı, 2004; II c., B., 2005.
4. Azərbaycan Xalq Cümhuriyyəti. Böyük Britaniyanın arxiv sənədləri. B., 2008.
5. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament. I cild. Bakı,1998.
6. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament. II cild. Bakı,1998.
7. Azərbaycan ərazisində erməni quldur və terrorçu birləşmələrinin törətdikləri cinayətlərə dair faktlar (Azərbaycan, ingilis və rus dillərində Yaddaş kitabçası). Bakı, 2011.
8. Azərbaycan tarixi üzrə qaynaqlar. B., 2007.
9. Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. B., 1990.
10. Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri. B., 1986.
11. Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi. Sənədlər və materiallar. 1917-1918., B., 1960.
12. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. İstanbul, 1975; Bakı, 1992.
13. Behbud xan Cavanşirin məhkəmə prosesi. B., 2008.
14. Bərabər yürüdük biz bu yollarda... B.,2007.
15. Emin Arif. Erməni iddialarının siyasi mahiyyəti. B., 2006.





16. Əhməd Zəki Vəlidi. Azərbaycanın tarixi coğrafiyası. B., 2009.
17. Çavçavadze İ.Q. Erməni alimləri və fəryad edən daşlar. Bakı, 1995.
18. Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX-XX əsrlər) Bakı, 2003.
19. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində 1918-1920. B., 1993.
20. İsgəndərov A.C. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı (1918-1920). B., 2006.
21. "Kaspi" qəzeti, 16 aprel 1917, № 84.
22. Koçaş M. Sədi. Tarixdə ermənilər və türk-erməni münasibətləri. B., 1998.
23. Qaimməqam Rüştü Türkər. Qafqaz Türk İslam ordusu Bakı yollarında. B., 2008.
24. Qlinka S.N. Azərbaycan ermənilərinin Rusiya hüdudlarına köçürülməsinin təsviri. B., 1995.
25. Mahmudov Y., Kərimov Ş. Qarabağ, real tarix, faktlar, sənədlər. B., 2009.
26. Məmmədzadə M.B. Ermənilər və İran. İstambul, 1927; Bakı, 1993.
27. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Berlin, 1938; B., 1992.
28. Muradzadə M. Mart hadiseyi-əliməsi. B., 1919; 1996.
29. Musayev İsmayıl. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). B., 1996.
30. Məmmədli Atamoğlan. Ermənilərin gerçək tarixi. B., 2005.
31. Məmmədov İ. Tariximiz, torpağımız, taleyimiz. B., 2003.
32. Məhəmməd Əsəd bəy. Şərqdə neft və qan. Bakı, 2005.
33. Ordubadi M.S. Qanlı illər. B., 1991.

34. Onullahi S. Erməni millətçiləri və İran. B., 2002.
35. Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı, 2001.
36. Pişəvəri S.C. Seçilmiş əsərləri. B., 1965.
37. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1991.
38. Səmyuel A. Uimz. Ermənistan-terrorçu "xristian" ölkənin gizlinləri. B., 2004.
39. Sərdariniya Səməd. Arazın hər iki tayında müsəlmanların soyqırımı. Bakı, 2006.
40. Süleymanov Mehman. Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən. B., 2008.
41. Süleymanov Mehman. Nuru Paşa. B.,1999.
42. Şıxlinski Ə. Xatirələrim. B., 1984.
43. Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri. B.,1997.
44. Topçubaşov Ə. Paris məktubları. Bakı, 1998.
45. Zaqafqaziya Seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. Bakı, 2006.
46. Ziyadxanlı A. Azərbaycan. B., 1919; B., 1993.

**Türk dilində**

47. "Azerbaycan" dergisi, 1993, eylül-ekim.
48. "Azerbaycan" dergisi, 1962, № 7.
49. Azerbaycan belgelerinde ermeni sorunu (1918-1920). Ankara, 2001.
50. Erdaş Nilgün. Milli mücadile döneminde Kafkas Cümhuriyyetleri ilə ilişkiler (1917-1921). Ankara, 1994.
51. Qarabekir Kazım. Ərzincan və Ərzurum qurtuluşu. Ankara, 1990.
52. İngilizlerin Mavi Kitapına sovyetlerin yanıtı. Kızıl kitab Güneybatı Kafkasta taşnak mezalimi. İstanbul, 2006.



53. Karibi. Ermeni iddialarına yanıt gürcü devletinin kırmızı kitapı. İstanbul, 2007.
54. Keykurun N. Azerbaycan istiklalı mücadelesi hatiraları. İstanbul. 1964.
55. Kurat A.N. Türkiye və Rusiya. Ankara, 1990.
56. Mehlika Aktok Kaşğarlı. Kilikiya tabi ermeni baronluğu tarihi. Ankara, 1990.
57. Mir Yakub. Beynəlmilel siyasetde petrol. İstanbul. 1928.
58. Onk Nizamettin. Yeni Azerbaycan kurularken. "Türk dünyası" tarihi dergisi, nisan, 1992.
59. Saray M. Azerbaycan türkleri tarihi. İstanbul, 1993.
60. Süleyman İzzet. 15 piyade tümeninin Azerbaycan və Şimali Kafkasiyadakı harekati və müharibələri. Ankara, 1936.
61. Süleyman Kocabaş. Erməni məsələsi nədir və nə deyildir. İstanbul, 1958.
62. Sünbül T. Azərbaycan dosyası. Ankara, 1980.
63. Hilal Paşa. Bitmeyen savaş. İstanbul, 1972.
64. Türkiyə Silahlı Kuvvetleri Askeri Tarih ve Strateji Etut Başkanlığı arşivi (ATASE) (k) 1, (k) 3820, (k) 5309.
65. Şahin Ergün. Trabzon və Batum konfransları və anlaşmaları (1917-1918). Ankara, 2002.
66. Rüştü E. Büyükharpte Bakü yollarında. Ankara, 1934.
67. Yuccer N. Birinci dünya savaşında Osmanlı ordusunun Azərbaycan və Dağıstan harekatı. Ankara. 1996.

Ðóñ äèëèíäÿ

68. Азербайджанская Демократическая Республика (1918-1920). Армия (документы и материалы). Б., 1998.

69. Азербайджанская Демократическая Республика. Внешняя политика. (документы и материалы). Б., 1998.

70. "Азербайджан" ãÿçåòè. 18 ì àé 1919.

71. 1918. Азербайджанские погромы в фотографиях и документах. Б., 2012.

72. Агаян Ч. Роль России в исторических судьбах армянского народа. М., 1978.

73. Адресь-Календарь Азербайджанской Республики на 1920 г.

74. АКАК (Акты, собранные Кавказской Археографической комиссией). т. ÛÛ., Тифлис. 1868.

75. АКАК (Акты, собранные Кавказской Археографической комиссией). т. ÛÛÛ., Тифлис. 1869.

76. АКАК (Акты, собранные Кавказской Археографической комиссией). т.ÂÛÛ., Тифлис. 1878.

77. АКАК (Акты, собранные Кавказской Археографической комиссией). т.Х., Тифлис. 1885.

78. Акопян Т. История Еревана. Ереван, 1975.

79. "Армянский геноцид" миф и реальность. Б., 1992.

80. Байков Б. Воспоминания о революции в Закавказье (1917-1920гг.). Архив русской революции. т.IX , Берлин, 1922.

81. Большевики в борбе за победу социалистической революции в Азербайджане. Документы и материалы. 1917-1918 гг. Баку, 1957.

82. Вагабов Фархад. Нагроный Карабах: События, факты и цифры. Б., 2005.

83. Величко В.Л. Русское дело и междуплеменные вопросы. С.-Петербург, 1904.

84. Вердиева Х.Ю. Переселенческая политика Российской империи в северном Азербайджане. Ваку, 1999.



85. Всероссийское учредительное собрание (1917 год в документах и материалах). Москва-Ленинград, 1930.

86. Гарегин Нжде и его учение. Ереван, 2004.

87. Геродот. История. Ленинград, 1972.

88. Глинка С. Описание переселения армян азербайджанский в переделы России. М., 1831; Б., 1990.

89. Григорьев В. Статистическое описание Нахичеванской провинции. С.-Петербург, 1833.

90. Гражданское управление Закавказьемь оть присоединения Грузии до наместничества Великого Князя Михаила Николаевича. Тифлись, 1901.

91. Дабагян Левон. Вопросы истории. М., 1929.

92. Дубровин Н. Закавказье в 1803-1806 годах. С.-Петербург, 1866.

93. Документы и материалы по внешней политике Закавказья и Грузии, Тифлис, 1969.

94. Денстервиль Л. Британский империализм в Баку и Персии в 1917-1918 г. Тифлис, 1925 .

95. Дьяконов М.М. Предистория армянского народа. Ереван, 1968.

96. Джастин Маккарти, Каролин Маккарти. Тюрки и Армяне. Руководство по армянскому вопросу. Б., 1996.

97. Джастин Маккарти. Армяне в Османской империи и современной Турции (1912-1926), Стамбул, 1984.

98. Ерицов А.Д. Данные об армянском населении в России. Известия Кавказского Отдела Императорского Русского географического общества. т. Û, Тифлис, 1881.

99. Есаи Хасан – Джалалян. Краткая история страны Албанской (1702-1722 гг). Баку, 1989.

100. Записи графа Н.П.Игнатева о Сан-Стефано, СПб., 1896.

101. Ишханян Б. Народности Кавказа. (Статистико-экономическое исследование). Петроград, 1916.
102. Ишханян Б. Великие ужасы в гор. Баку. Анкетное изследование сентябрских событий 1918 г. Тифлись, 1920.
103. История XȖX века. Под редакцией профессоров Лависса и Рамбо. Перевод с французского. Том 8. Москва, 1939.
104. Иманов К. Армянские инородные сказки. Баку, 2008.
105. Интернациональная помощь XȖ Армии в борьбе за победу советской власти в Азербайджане. Документы и материалы. 1920-1921 гг. Б., 1989.
106. Кадишев А.Б. Интервенция и гражданская война в Закавказье. М., 1960.
107. Качазнуни Ов. Дашнакцутюн больше нечего делать! (С предисловием С.Ханояна). Баку, 1990.
108. Кавказский календарь на 1855 г. Тифлис, 1855.
109. Каземзаде Фируз. Борьба за Закавказье (1917-1921). Стокгольм, 2010.
110. Кордокян З. Население советского Армении в 1831-1931 гг. М., 1931.
111. Лазарев Я.Д. Причины бедствий армян в Турции. Тифлис, 1899 .
112. Малевил Ж. Армянская трагедия 1915 года. Б., 1990.
113. Мамедов И. Трилогия панарменизма. Коварная стратегия чередующихся агрессий. Баку, 2006.
114. Материалы по изучению Нахчиванского ССР. Тифлис, 1933.
115. Мустафаев Ровшан. Страсти по виртуали. Баку, 2006.
116. Мустафаев Р. Марши Смерти. Преступления армянства против еврейского народа. Баку, 2008.



117. Нариманов Н. Статьи и письма с кратким биографическим очерком. М., 1925.
118. Пастермасян С.С. Западная Армения в конце XȖX в. М., 1949.
119. Парсамян В.А История армянского народа 1801-1900 гг. кн., 1, Ереван, 1977.
120. Правительственный вестник. СПб. 1878.
121. Полное собрание законов Российской империи. Собр. второе. т.ȖȖȖ. СПб., 1830.
122. Потто В.А. Кавказская война. Персидская война 1826-1828 гг. т.3 С.-Петербург 1911; Ставрополь, 2005.
123. Присоединение Восточной Армении к России. сборник документов. том. Ȗ (1801-1813). Ереван. 1972.
124. Раевский А. Мусаватское правительство на Версальской конференции. Донесения председателя азербайджанской мусаватской делегации. Б., 1931.
125. Рустамова-Тогиди С. Март 1918 г. Баку. Азербайджанские погромы в документах. Б, 2009.
126. Рустамова-Тогиди С. Куба. Апрель-май 1918 г. Мусульманские погромы в документах. Б., 2010.
127. Салех бей. Армянство. Баку, 1994.
128. Сеф С.Е. Как большевики пришли к власти в 1917-1918гг. в Бакинском районе. Б., 1927.
129. Трактат между Карабахским ханом и Российской империей о переходе ханства подь власть России от 14 мая 1805 года.
130. Тацит Корнелий. Сочинения. т. 2, СПб., 1887.
131. Токаржевский Е.А. Из истории иностранной интервенций и гражданской войны в Азербайджане. Б., 1957.

132. Томас де Ваал. Черный сад. Армения и Азербайджан между миром и войной. М., 2005.
133. Шавров Н.Н. Новая угроза русскому дели в Закавказье. Предстоящая распродажа Мугани инородцам. Б., 1990.
134. Шаумян Сур. Бакинская Коммуна. Б., 1927.
135. Шаумян С.Г. Статьи и речи. 1917-1918 гг. Б., 1929.
136. Шаумян С.Г. Избранные произведения в 2-х томах. Т-2х томах. 1917-1918. М., 1958.
137. Шнирельман В.А. Войны памяти. Мифы, идентичность и политика в Закавказье. М., 2003.
138. Шопен И. Исторический памятник состояния Армянской области (Ереванской губернии) в эпоху присоединения к Российской империи. СПб. 1852.
139. Эрих Файгл. Правда о терроре. Армянский терроризм – истоки и причины. Б., 2000.

**İngilis dilində**

140. Altstadt Audrey L. The Azeribaijan Türks: Pover and İdentity under Russian rule. Stanford, Kalifornia, 1992.
141. Alen W.E.D. ve Muratof R. 1828-1921. Türk-Kafkaz sınırındakı harpleri tarihi. Ankara. 1966.
142. Kazım-Zadeh F. The Struggle for Transcaucsia (1917-1921). New-York, 1951.
143. Lalaian A.A. The counter-revalationary Role of the dashnagzoutiun partu (1914-1923). Stanbul, 2007/
144. Pipes R. The Formation of the Soviet Union Communism and Nationalism. 1917-1923. Cambr. 1964.
145. Syuni R. The Baku Commune 1917-1918; Class and Nationality in the Russian Revolution. Princeton. 1972.



146. Swietochowski T. Russian Azerbaijan, 1905-1920. The Shaping of National identity in a Moslim Community. Cambr, 1985; Ankara. 1988.

**Fransız dilində**

147. Henry Barby. Les extravagances bolcheviques et L'epuopec armenienne. Paris, 1921.

«Åëì âÿ Òÿùñèë» **няшриййатынын** äèðåêòîðó:
ïðîôåññîð Íàäèð ÌßÌÌßÄËÈ

*Texniki redaktor:* **Rövşanə Nizamiqızı**

Éûüûë ìàüà âåðèëìèø 25.04.2012.
×àïà èìçàëàíìûø 22.05.2012.
Øÿðòè ÷àï âÿðÿãè 14,2. Ñèôàðèø ¹ 205.
Êàüûç ôîðìàòû 60õ84 1/16. Òèðàæ 500.



Êèòàá «Åëì âÿ Òÿùñèë» íÿøðèééàò-ïîëèãðàôèéà
ìöÿññèñÿñèíäÿ ñÿùèôÿëÿíèá ÷àï îëóíìóøäóð.
E-mail: **elm_ve_tehsil@box.az**
Òåë: 497-16-32; 050-311-41-89
Öíâàí: Áàêû, È÷ÿðèøÿùÿð, 3-úö Ìàãîìàéåâ äþíýÿñè 8/4.